# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ALTMIŞ İKİNCİ KİTAB

## APREL 2014 - MAY 2014

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın ev sahibliyi etdiyi bir sıra beynəlxalq tədbirlərdə nüfuzlu təşkilat rəhbərləri və mədəniyyət xadimlərilə görüş və danışıqlarına, Çex Respublikasına və Gürcüstana rəsmi və işgüzar səfərləri, Fransa Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrə, hərtərəfli əməkdaşlıq, xüsusən də Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dair materiallar toplanmışdır.

Bu cilddə, həmçinin dövlət başçısının bölgələrə səfərləri zamanı ictimaiyyətin nümayəndələri ilə görüşlərindən bəhs edən məlumatlar, tədbir və müşavirələrdə nitq və çıxışları, eyni zamanda, Naxçıvana səfəri və muxtar respublikanın 90 illiyinə həsr olunmuş mərasimdə nitqi, Ağdaşda və paytaxt Bakıda müxtəlif infrastruktur obyektlərinin istifadəyə verilməsi mərasimlərində iştirakı barədə materiallar, Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş və yekun nitqləri də öz əksini tapmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2018}}$

**ББК - 32**

© Azərnəşr, 2018

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*7 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsinin önündən keçdi.*

*Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikası Hökumətinin üzvləri ilə görüşdü.*

## Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.*

## Naxçıvan Beynəlxalq Aeroportunun yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Beynəlxalq Aeroportunun yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Azərbaycanın coğrafi cəhətdən olduqca əlverişli mövqedə yerləşməsi ölkəmizin dünyanın hava nəqliyyatı sistemindəki rolunu və yerini daha da gücləndirir. İndi Azərbaycanda yeni müasir hava limanları inşa edilir, mövcud aerovağzal komplekslər isə dünya standartlarına uyğun, əsaslı şəkildə yenidən qurulur. Bu proses yalnız Bakı ilə məhdudlaşmır. Artıq Azərbaycanın bölgələrində də beynəlxalq aeroportlar fəaliyyət göstərir. Təqdirəlayiq haldır ki, respublika ərazisində mövcud olan aeroportların maddi-texniki bazasının gücləndirilməsi, aerovağzalların fəaliyyətinin müasir səviyyəyə çatdırılması istiqamətində görülən işlər ardıcıl və sistemli xarakter almışdır. Naxçıvan Beynəlxalq Aeroportu üçün yeni inzibati binanın inşası da bu qəbildən olan layihələrdən biridir. Bu tədbirlər sürətli tərəqqi dövrünü yaşayan Azərbaycan mülki aviasiyasının inkişafına mühüm töhfələr verir.*

*Ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərən prezident İlham Əliyevin tapşırıq və göstərişlərinin yüksək səviyyədə icra olunması Azərbaycanın aviasiya sisteminin tamamilə yeni mərhələyə çıxmasına şərait yaradıb. Bu gün Azərbaycanda sərnişindaşımalarının həyata keçirilməsi üçün regionlarda da müasir aeroportların olması ölkəmizin iqtisadi qüdrəti artdıqca sosial proqramların uğurla icra edilməsi üçün görülən məqsədyönlü işləri göstərir. Tam əminliklə söyləmək olar ki, Naxçıvan Beynəlxalq Aeroportunda yeni inzibati binanın istifadəyə verilməsi son illərdə ölkəmizdə mülki aviasiyanın inkişafı, bu sahədə işləyənlərin fəaliyyəti üçün daha yüksək şəraitin yaradılması istiqamətində görülən tədbirlərdəndir.*

Dövlətimizin başçısı əvvəlcə Naxçıvan Beynəlxalq Aeroportunun nəqliyyat infrastrukturunun möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində aeroportun fəaliyyətini daha da müasirləşdirmək və təhlükəsizliyi artırmaq məqsədilə alınan müxtəlif təyinatlı yeni maşın-mexanizmlərə baxdı.

Bildirildi ki, bu texnikanın arasında təyyarə yanacağı daşıyan, yanacaqvuran, sərnişinlərin rahatlığı üçün nəzərdə tutulan avtobuslar, eləcə də sağlamlıq imkanları məhdud sərnişinləri hava gəmilərinə mindirmək və qarşılamaq üçün xüsusi avadanlıqlarla təchiz edilən maşınlar vardır. Yeni alınan avtotrap və avtokonveyerlər, qoşqular və təyyarədartıcısı, yük terminalı üçün avtoqaldırıcılar, təyyarə mühərrikini hava ilə işə salan aqreqat, hava gəmilərini buzlaşmaya qarşı hazırlayan və uçuş-enmə zolağını qardan və buzdan təmizləmək üçün nəzərdə tutulan maşınlar da yüksək texniki göstəricilərə malikdir. Burada yaradılan şərait və ən son texnoloji nailiyyətlərin tətbiqi sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verir.

Sonra prezident İlham Əliyev inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni inzibati bina barədə məlumat verərək bildirdi ki, burada Naxçıvan Beynəlxalq Aeroportunun və Naxçıvan Aeronaviqasiya xidmətinin əməkdaşları üçün hərtərəfli şərait yaradılıb. Yeni binada hava gəmilərinə texniki xidmət sahəsi, daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava hərəkətinin idarə edilməsi, aviasiya-metrologiya və digər aidiyyəti xidmətlər fəaliyyət göstərir. Binada akt və konfrans zalları, həmçinin işçilərin xarici dillərə yiyələnmələri üçün tədris otağı yaradılıb.

Qeyd edildi ki, bu binanın inşası hazırda fəaliyyət göstərən aerovağzal binasının yenidən qurulması və bərpası çərçivəsində həyata keçirilən layihədir. Əvvəllər aeroportun binasında fəaliyyət göstərən İdarə Heyətinin üzvləri buraya köçürüləcəkdir. Bu isə öz növbəsində Naxçıvan Beynəlxalq Aeropor-

*tunun birinci və ikinci mərtəbələrində sərnişinlərin qəbulu və təyyarələrə minik zallarının ayrılmasına şərait yaradacaq. Aerovağzal binasının yenidən qurulması və bərpası çərçivəsində həyata keçirilən bu layihədə lift, eskalator və digər zəruri sistemlərin quraşdırılması nəzərdə tutulub. Burada beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq ediləcək. Növbəti mərhələdə isə əvvəllər İdarə Heyətinin üzvlərinin yerləşdiyi ikinci mərtəbədən teleskopik traplar vasitəsilə hava gəmilərinə miniklər təşkil ediləcəkdir. Bununla da Naxçıvan Beynəlxalq Aeroportunda sərnişindaşımaları ilə bağlı xidmətin səviyyəsini daha da yüksəltmək, eləcə də təyyarə uçuşlarının təhlükəsizliyini və aeroportun fəaliyyətini dünya standartlarına uyğunlaşdırmaq istiqamətində çox mühüm addım atılacaq.*

*Diqqətə çatdırıldı ki, aerovağzal binasının yenidən qurulmasından sonra aeroportun sərnişin qəbulu və yolasalma imkanları saatda 450–500 nəfərə çatacaqdır. Bu isə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası aeroportunun strateji əhəmiyyətini daha da artıracaqdır. Binanın istifadəyə verilməsi Naxçıvan Beynəlxalq Aeroportunun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında özünəməxsus yeri ilə seçilir.*

## Biznes Mərkəzində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Biznes Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.*

*Ölkəmizin sürətli inkişafı, iqtisadi sahənin tərəqqisi Azərbaycandakı biznes mühitinin də yaxşılaşdırılmasına şərait yaradıb. Bu sahəyə göstərilən dövlət qayğısının daha bir nümunəsi isə bölgələrdə müasir biznes mərkəzlərinin yaradılmasıdır. Naxçıvanda yeni inşa edilən Biznes Mərkəzi muxtar respublikanın biznes mühitinin və imkanlarının nümayişi, təbliği baxımından mühüm rola malikdir. Milli memarlıq ənənələrinə uyğun olaraq inşa edilən mərkəz inzibati hissə və geniş*

sərgi salonundan ibarətdir. Sərgi salonunda pavilyonlar, müasir tərcümə avadanlığı, proyektorlar və səsgücləndiricilər quraşdırılıb. Burada yaradılan şərait müxtəlif tədbirlərin, biznes-forumların, işgüzar görüş və konfransların yüksək səviyyədə təşkilinə imkan verir.

Orijinal üslubda inşa edilən Naxçıvan Biznes Mərkəzi həm də şəhərin görkəminə əlavə çalarlar qatır, aparılan abadlıq-quruculuq, tikinti və yenidənqurma işlərinin miqyasını göstərir. Naxçıvan Muxtar Respublikasının «2009–2013-cü illərdə rayonların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası iqtisadiyyatın dinamik inkişafını təmin etməklə yanaşı, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühitini formalaşdırır, yeni istehsal və xidmət sahələrinin yaradılmasına imkan verir, sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə bir sıra mühüm tədbirləri həyata keçirir.

Dövlətimizin başçısına məlumat verildi ki, mərkəzin əsas fəaliyyət sahəsi sahibkarların maarifləndirilməsi, iş adamlarına ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar, beynəlxalq iqtisadi əlaqələr, dünya və ölkə iqtisadiyyatındakı yeniliklər, sahibkarların yeni iş təcrübələri, marketinq fəaliyyəti, reklam işi, dünya maliyyə sistemindəki vəziyyət və dəyişikliklər barədə məlumat verməkdir.

Azərbaycan Prezidenti Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında istehsal edilən məhsulların sərgisi ilə tanış oldu. Burada müxtəlif növ ərzaq və sənaye məhsulları, əl işləri və rəsm əsərləri nümayiş etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına məlumat verdi ki, muxtar respublikada hazırda 346 növ və 988 çeşiddə məhsul istehsal olunur. Yeni yaradılan müəssisələr əhalinin 106 növ ərzaq və 226 növ qeyri-ərzaq məhsullarına olan tələbatını tamamilə yerli istehsal hesabına ödəmək imkanına malikdir. Hazırda muxtar respublikada 438 sənaye müəssisəsi var.

Diqqətə çatdırıldı ki, uzun müddət blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikanın sosial-iqtisadi

*inkişafını əks etdirən makroiqtisadi göstəricilər son 10 ildə xeyli artıb. 2003–2013-cü illərdə ümumi daxili məhsul 8,4 dəfə, sənaye məhsulunun həcmi 49, kənd təsərrüfatı məhsullarının istehsalı 4,7, əsas kapitala yönəldilən investisiyalar 4,1, əhalinin gəlirləri 10,2, xarici ticarət dövriyyəsi isə 13,9 dəfə artıb.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, sərgidə 88 şirkətin 280-dən çox çeşiddə məhsulu nümayiş etdirilir. Onların arasında yüngül və ağır sənaye, kənd təsərrüfatı, qida, tekstil, dağ-mədən, metallurgiya, avtomobil sənayesi, rabitə, balıqçılıq və digər sahələrin məhsulları sərgilənir. Məhsullar yüksək keyfiyyəti ilə seçilir. Bu ilk növbədə, məhsulların hazırlandığı müəssisələrin ən müasir avadanlıqlarla təchiz edilməsi ilə bağlıdır. Təsadüfi deyildir ki, indi muxtar respublikada bir çox sahələrdə istehsal olunan məhsullara nəinki Cənubi Qafqaz və MDB, eləcə də dünya bazarında böyük tələbat vardır. Naxçıvanda istehsal sahələrinin çoxşaxəli olması blokada şəraitində yaşayan muxtar respublikanı qida, sənaye və digər məhsullarla tam təmin edir, idxaldan asılılığı minimuma endirir. Bu isə heç şübhəsiz ki, Azərbaycan prezidenti İlham Əliyevin ölkəmizdə apardığı uğurlu iqtisadi siyasətlə bağlıdır.*

*Bildirildi ki, sərgidə 27 sənətkarlıq subyektinin məhsulu da nümayiş olunur. Dövlət tərəfindən Naxçıvanın sahibkarlıq subyektlərinə 2003–2013-cü illər ərzində 89,8 milyon manat güzəştli kredit, kənd təsərrüfatı məhsulları istehsalçılarına 22,7 milyon manat yardım verilib.*

*Prezident İlham Əliyev Naxçıvan Avtomobil zavodunda istehsal olunan avtomaşınlara da baxdı. Qeyd olundu ki, 2010-cu ilin yanvarında istifadəyə verilən zavod müasir dizaynlı «NAZlifan» markalı avtomobillər istehsal edir. İndiyədək burada 3 min avtomobil istehsal olunub. Birnövbəli iş rejimi ilə zavodun illik istehsal gücü 5 min avtomobil təşkil edir. Hazırda 62 nəfərin işlədiyi müəssisədə 9 müxtəlif modifikasiyada avtomobil istehsal olunur. Modifikasiyalar ilbəil yenilənir. Yaxın gələcəkdə zavodda yeni markalı avtomobillərin istehsalı planlaşdırılır. Həmçinin gələcəkdə komplektləşdirici hissələrin 70 faizi*

*respublikanın digər bölgələri, o cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən müvafiq müəssisələrin istehsalı hesabına ödəniləcəkdir.*

*Diqqətə çatdırıldı ki, son 10 ildə muxtar respublikada 954 istehsal və xidmət müəssisəsi yaradılıb. Görülən mühüm tədbirlər muxtar respublikanın sosial-iqtisadi gücünü artırmaqla yanaşı, həm də yeni iş yerlərinin yaradılmasında, əhalinin məşğulluğunun təmin edilməsində çox mühüm əhəmiyyət daşıyır. Bunun nəticəsidir ki, 2003–2013-cü illərdə 58 min 460 yeni iş yeri açılıb və bununla da işsizliyin səviyyəsi sıfıra enib.*

## «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də yeni yaradılan «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşdur.*

*Azərbaycanda tarixi, mədəni, dini abidələrin qorunması işinə yüksək diqqət göstərilir. Dövlətin bu sahədə həyata keçirdiyi konkret və çoxsaylı layihələr nəticəsində indi belə obyektlərin hamısı qorunaraq bərpa edilir. «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması bu istiqamətdə Azərbaycan dövlətinin atdığı addımların nəticələrinin genişmiqyaslı olduğunu göstərir.*

*Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, tarixin bütün dövrlərinə aid bu ərazidə zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksinin mühüm əhəmiyyəti vardır. Belə abidələrin bərpası və qorunması gələcək nəsillərə Azərbaycanın qədim tarixinin çatdırılması, eyni zamanda, Naxçıvana turistlərin marağının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki möhtəşəmliyini itirmişdi.*

2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıbdır. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə ötən il burada «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması barədə qərar qəbul edilmişdi.

Kompleksin ətrafında və daxilində geniş abadlıq-quruculuq işləri aparılıb, işıqlandırma sistemi quraşdırılıb və yaşıllıq zolaqları salınıb.

Muzey ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, orijinal tərtibatı ilə seçilən muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisində aşkarlanan tarixi əşyalar xronoloji ardıcıllıqla düzülüb. Eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V–III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyim hissələri muzeyin qiymətli eksponatlarındandır. Burada, həmçinin xalça və XIX əsrə aid milli geyimlər də nümayiş olunur. Bu muzeydəki eksponatlar bir daha sübut edir ki, Naxçıvanda tapılan tarixi-memarlıq abidələri dünya miqyasında böyük maraqla qarşılanır. Belə abidələr Azərbaycan xalqının tarixinin, mədəniyyətinin və adət-ənənələrinin qədim köklərə malik olduğunu göstərir.

Muzeyin, ümumilikdə kompleksin yaradılması bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarının əsrlərboyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi olduğunu və bu torpağın antik, orta əsrlər, yeni və müasir dövr maddi mədəniyyət nümunələri və tarixi abidələrlə zənginliyini sübut edir. Naxçıvan Muxtar Respublikasının ərazisindəki abidələrin 600-ə yaxını dünya və ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsidir. Buranın tarixi əhəmiyyətini artıran mühüm amillərdən biri də qala divarları yaxınlığında Nuh peyğəmbərin məzarının olmasıdır. Bizim eradan əvvəl I əsrdə yəhudi tarixçisi İosif Flavi və bizim eranın II əsrində yunan coğrafiyaşünası Klavdiy Ptolemey Naxçıvanı Nuh peyğəmbərin

*məskəni kimi xatırlatmış, rus tədqiqatçısı K.A.Nikitin isə 1882-ci ildə nəşr etdirdiyi məqaləsində Naxçıvan şəhərinin əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğunu qeyd etmişdi.*

*Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində xalqımız tarixin bütün dövrlərində zəngin mədəniyyət və memarlıq nümunələri yaratmışdır. Tarixi araşdırmalar göstərir ki, bu memarlıq abidələri arasında özünəməxsus yeri olan Naxçıvanqala yalnız müdafiə məqsədi daşımamışdır. Bu qala eyni zamanda, burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilib. İlk orta əsrlərə aid mənbələrdə tarixçilər Naxçıvan şəhərini ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edirlər. Naxçıvan şəhərinin 1827-ci ilə aid planında Naxçıvanqalanın sxematik təsviri də verilibdir. Plana əsasən, qala 2 hissədən – Kiçik qala, yəni Narınqala və Böyük qaladan ibarətdir. Xalqımız Narınqalanın qalıqlarını günümüzədək qoruyub saxlaya bilib. Daş qatışığı olan möhrədən tikilən qala divarları yarımdairəvi bürclərlə möhkəmləndirilib. Yaşayış binaları əsasən qala divarları boyunca salınıb, onların damından döyüşçülərin və qala keşikçilərinin hərəkət etməsi üçün istifadə olunub. Ötən əsrin ortalarında Naxçıvanqalada aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar – saxsı qablar və Tunc dövründə duz mədənlərində əmək aləti kimi istifadə olunmuş daş gürzlər aşkar edilib. Bu hadisə sənətkarlığın inkişaf etdiyi və şəhər mədəniyyətinin formalaşdığı tarixi-etnoqrafik ərazilərdən biri kimi, Naxçıvanqalanın əhəmiyyətini daha da artırır.*

*Diqqətə çatdırıldı ki, kompleksdəki mağarada da bərpa işləri aparılıb. Bir neçə istiqamətə, o cümlədən Naxçıvan çayına çıxışı olan mağaradan sakinlər hərbi hücumlar və mühasirələri yarmaq üçün istifadə edib. Qalanın xüsusiyyətlərindən biri də onun altından kəhrizlərin keçməsidir. Bu fakt həm dinc, həm də mühasirə və müharibə dövrlərində qala sakinlərinin su ilə təminatına və ərzaq məhsullarının saxlanılmasına şərait yaratmışdır.*

*Muzey Kompleksi ilə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

**Gənclər Mərkəzinin açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər sistemli xarakter alıb. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən başlayaraq Azərbaycanda uğurlu nəticələrlə yadda qalıb. 2005–2009-cu illəri əhatə edən «Azərbaycan gəncliyi Dövlət Proqramı» bu istiqamətdə mühüm rol oynayıb. Hazırda həyata keçirilən «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihələr və proqramlar həyata keçirilir. Bölgələrdə müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və gənclər mərkəzlərinin, o cümlədən Naxçıvanda Gənclər Mərkəzinin yaradılması da bu məqsədə xidmət edir.*

*Dövlətimizin başçısı Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gənclər Mərkəzində yaradılan şərait barədə prezident İlham Əliyevə məlumat verdi.*

Gənclər Mərkəzində kompüter otağı, elektron kitabxana, intellektual və stolüstü oyun zalları, interaktiv tir və kafe vardır. Mərkəzdə informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilib, kompüterlərin hər birinin internetə çıxışı təmin olunub. Mərkəzdə xarici dillərin tədrisi üçün linqafon sinifləri yaradılıb. Gənclər burada istənilən xarici dil üzrə həm nəzəri biliklərə, həm də praktiki olaraq düzgün tələffüz vərdişlərinə yiyələnə biləcəklər. Mərkəzin elektron kitabxanasının bazasında 1000-ə yaxın ədəbiyyat vardır. Binada gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların intellektual səviyyələrinin artırılması da nəzərə alınıb, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün intellektual zal istifadəyə verilib.

Dövlətimizin başçısı «Xəmsə» intellektual oyununa baxdı.

Tir otağında pnevmatik tüfəng və tapançadan atəş açmaq məşqləri təşkil olunacaqdır. Altızolaqlı tirdə gənclər idmanın atıcılıq növünə daha yaxşı yiyələnmək imkanı əldə edəcəklər. Oyun zallarında yaradılan şərait isə gənclərin stolüstü idman növləri ilə məşğul olmalarına imkan verəcəkdir.

Binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu üçün iş otaqları ayrılıb və fonda xidməti avtomobil verilib.

Diqqətə çatdırıldı ki, dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi bütövlükdə dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardır. Muxtar respublikada gənclər mərkəzləri, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları və digər obyektlər gənclərin istifadəsinə verilib. Naxçıvan Muxtar

*Respublikasında gənclər artıq cəmiyyət həyatında mühüm rol oynayırlar. Bu gün muxtar respublikada gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda böyüməsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği də diqqət mərkəzindədir. «Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında» 2012-ci il tarixli Fərman muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Həmçinin Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının «Qızıl kitabı»nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması regionda gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və sadə tipli idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Yeni inşa olunan Naxçıvan Gənclər Mərkəzi də bu sahədə atılan növbəti uğurlu addımdır. Bu sosial obyekt gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması və asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir.*

## Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinə daxil olan yeni texnika və silahlara baxış

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprelin 7-də «N» saylı hərbi hissədə Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinə daxil olan yeni texnika və silahlara baxmışdır.*

*Güclü Azərbaycan Ordusunun yaranması, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşəkkül tapması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadiminin*

həyata keçirdiyi taleyüklü işlərin nəticəsidir ki, 1993–2003-cü illərdə nizami və qüdrətli Azərbaycan Ordusunun təməli qoyuldu, əsgər və zabitlərimizin hərbin sirlərinə daha da dərindən yiyələnmələri üçün mühüm şərait yaradıldı. 2003–2013-cü illərdə isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoydu. Bu inkişaf Naxçıvan Muxtar Respublikasında da özünü büruzə verir. Blokada şəraitində olan və düşmənlə üz-üzə dayanan Naxçıvandakı Silahlı Qüvvələr istər döyüş qabiliyyəti, istərsə də maddi-texniki təchizatı baxımından ən müasir hərbi standartlara cavab verir.

Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidentinə yeni silahlar və hərbi texnika barədə məlumat verildi. Bildirildi ki, Naxçıvanda peşəkar ordunun yaradılması Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlərin ardıcıl surətdə, həm də dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilməsi ilə bağlıdır. Bu tədbirlər Azərbaycanın hərbi qüdrətinin artmasını başlıca məqsəd kimi qarşıya qoyan dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin ölkənin müdafiəsinə göstərdiyi diqqət və qayğı ilə bağlıdır. Dövlət başçısı kimi fəaliyyətinin ilk dövrlərindən prezident İlham Əliyev Azərbaycanın hərbi büdcəsinin Ermənistanın ümumi dövlət büdcəsini üstələməsini bir vəzifə kimi qarşıya qoymuşdu. Tezliklə bu strateji hədəfə nail olundu. Ötən ilin dövlət büdcəsində hərbi sahəyə ayrılan xərclər 3 milyard 730 milyon dollara çatdırıldı. Həmin il Ermənistanın dövlət büdcəsinin gəlir hissəsi isə cəmi 2,5 milyard dollar təşkil etmişdi. Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsi, hərbçilərimizin peşəkarlığının və döyüş ruhunun artırılması bir daha sübut edir ki, prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu torpaqlarımızı düşmən tapdağından azad etməyə istənilən an hazırdır. Bütün sahələrdə regionun lider dövləti olan Azərbay-

*can hərbi sahədə də liderlik zirvəsindədir. Bu isə o deməkdir ki, Azərbaycan Silahlı Qüvvələri qarşısında duran bütün vəzifələri həll etməyə qadirdir.*

*Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə Naxçıvanda təqdim olunan yeni, ən müasir standartlara uyğun hərbi texnika və silah-sursat bu danılmaz həqiqətin növbəti əyani nümunəsidir.*

## Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Bu gün ölkəmizdə bütün sahələrdə aparılan islahatlar ordu quruculuğu və hüquq-mühafizə orqanları ilə iş sahəsində də mühüm tədbirlərin görülməsinə geniş imkanlar açıb. Cənubi Qafqazın ən güclü ordusuna malik ölkəmizdə Silahlı Qüvvələrlə bağlı qanunvericilik bazasının möhkəmləndirilməsi, bu sahədə mövcud qanunların icra və tətbiq olunmasına nəzarət edilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, ölkədə prokurorluq orqanlarında, o cümlədən hərbi prokurorluq sahəsində çalışanların sosial problemlərinin həlli diqqət mərkəzində saxlanılır, onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görülür. Bundan əlavə, hərbi prokurorluq orqanlarına daxil olan inzibati binalarda əsaslı yenidənqurma işlərinin aparılmasına, yeni binaların inşasına xüsusi diqqət göstərilir. Bu sırada təbii ki, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yeni inzibati binasında yaradılan şərait də mühüm əhəmiyyətə malikdir. Binada yaradılan imkanlar bir daha təsdiqləyir ki, ölkəmizdə ordu quruculuğunun, insan hüquq və azadlıqlarının qorunmasında mühüm rola malik olan hərbi prokurorluq orqanlarının fəaliyyətinin günün tələbləri nəzərə alınmaqla qurulması bu sahədə ciddi keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olub.*

*Dövlətimizin başçısı yeni inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məlumat verdi ki, 6 mərtəbədən ibarət olan və xüsusi memarlıq quruluşuna malik binada hərbi prokurorluq əməkdaşlarının fəaliyyəti üçün hər cür şərait yaradılıb. Prezident İlham Əliyevin qayğısı sayəsində bütün hüquq-mühafizə, ədliyyə, məhkəmə və xüsusi xidmət, o cümlədən hərbi prokurorluq orqanları inkişafının məzmunca və keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan həmin təsisatların işinin müasirləşdirilməsi istiqamətində çox mühüm addımlar atılır.*

*Hazırda dövlətimizin başçısının dəstəyi ilə yeni müstəvidə davam etdirilən müasir məzmunlu islahatların nəticəsində hərbi prokurorluq sahəsində yeni tələblərə uyğun təkmilləşdirilmiş mütərəqqi normativ-hüquqi baza formalaşdırılıb. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunda da hərtərəfli iş aparılıb. Yeni iş prinsipləri və metodları əsasında fəaliyyət göstərən sivil dövlət təsisatının inkişaf etdirilməsinin nəticəsidir ki, kadr tərkibi davamlı olaraq yeniləşdirilib, işin səmərəliliyinin artırılması və mövcud çatışmazlıqların təxirə salınmadan aradan qaldırılması baxımından da mühüm işlər görülüb. Bundan əlavə, digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmaqla, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bütün istiqamətlər üzrə işin səmərəliliyinin və əməkdaşların peşəkarlığının artırılması, yeni nəsil hərbi prokurorluq işçilərinin yetişdirilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki təminatın yaxşılaşdırılması üçün konkret tədbirlər davam etdirilir.*

## Naxçıvan–Şahbuz–Batabat magistral avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan–Şahbuz–Batabat magistral avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf nəticəsində paytaxt Bakı ilə yanaşı, respublikanın bütün regionlarında mühüm yol-nəqliyyat layihələri icra olunur, yeni yollar salınır, mövcud magistrallar ən müasir səviyyədə yenidən qurulur, çoxfunksiyalı yol qovşaqları inşa edilir. Təqdirəlayiq haldır ki, bu layihələr indi hər bir rayonu, kəndi və qəsəbəni əhatə edir. Naxçıvan–Şahbuz–Batabat avtomobil yolunun yenidən qurulması belə layihələrin Naxçıvan Muxtar Respublikasında da geniş vüsət aldığını nümayiş etdirir. Son illər Naxçıvanda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən mühüm layihələr sırasında öz yeri olan Naxçıvan–Şahbuz–Batabat avtomobil yolu ilk növbədə, əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdəndir. Yüksək səviyyədə inşa edilən bu yol nəqliyyatın rahat və maneəsiz hərəkətinə tam zəmin yaradır.*

*Dövlətimizin başçısı əvvəlcə yolun texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov prezident İlham Əliyevə məlumat verdi ki, ümumi uzunluğu 88,8 kilometr olan yolda tikinti işləri keyfiyyətlə aparılıb, 2 il müddətində başa çatdırılıb. Müasir tələblər səviyyəsində qurulan yolda nəqliyyatın təhlükəsiz hərəkəti təmin edilib. Yeni yol təkcə Naxçıvan şəhəri və Şahbuz rayonu üçün deyil, ümumilikdə muxtar respublika üçün mühüm iqtisadi əhəmiyyətə malikdir.*

*Bildirildi ki, tikinti işləri zamanı yol yatağı genişləndirilib, hərəkət hissəsinin eni bəzi yerlərdə 17 metrə çatdırılıb. Muxtar respublikada reallaşdırılan mühüm infrastruktur layihələrindən biri olan Naxçıvan–Şahbuz–Batabat avtomobil yolunun üzərində körpülər, beton-selötürücü və su keçidləri də inşa edilib. Tikinti*

*işləri aparılarkən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün siqnal dirəkləri və yol-hərəkət nişanları quraşdırılıb.*

*Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının nəqliyyat yollarının xəritəsinə də baxdı.Bildirildi ki, bu gün Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat infrastrukturunun inkişafı da diqqət mərkəzində saxlanılır, nəqliyyat kompleksinin yenilənməsinə xüsusi önəm verilir. Eyni zamanda, kənddaxili və kəndlərarası yolların da abadlaşdırılması istiqamətində davamlı işlər görülür. Ümumilikdə, 2013-cü ildə muxtar respublikada 164 kilometr uzunluğunda yol salınıb və ya əsaslı təmir olunaraq istismara verilib, 21 körpü tikilib, 12 körpü isə təmir olunubdur. Prezident İlham Əliyevin 2013-cü il 5 mart tarixli Sərəncamı ilə Babək rayonunun 13 yaşayış məntəqəsini əhatə edən 25,6 kilometr uzunluğunda Hacıvar–Vayxır–Sirab yolunun tikintisinə 6,3 milyon manat vəsait ayrılıb. Həmin vəsait hesabına yolun tikintisi başa çatdırılıb.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi, yeni yolda avtomobili idarə etdi.*

## Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyev tərəfindən imzalanan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası iqtisadiyyatın bütün sahələrinin inkişafına səbəb oldu. Dövlət Proqramına uyğun olaraq, ölkəmizdə su və kanalizasiya sistemləri də yenidən qurulur. Bu işlər Azərbaycan dövlətinin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir.*

*Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Son illər şəhər və rayon*

mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasını buna misal göstərmək olar. Mövcud hidroresurslardan istifadə olunaraq əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Hazırda Naxçıvan şəhərində və rayon mərkəzlərində istehlakçıların tələbatına uyğun içməli su və kanalizasiya sistemləri qurulur, bu sahədə müasir infrastruktur yaradılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına kompleks barədə ətraflı məlumat verdi.

Bildirildi ki, Naxçıvan şəhərinin mövcud içməli su sistemi ötən əsrin 60–70-ci illərində qurulub. O dövrün tələblərinə uyğun qurulan və uzun müddət istismar edilən sistem bu gün Naxçıvan şəhərində əhalinin keyfiyyətli içməli suya olan tələbatını ödəmirdi. Yeni istifadəyə verilən müasir kompleks Naxçıvan şəhərində 90 minə yaxın əhalini və sənaye obyektini perspektiv nəzərə alınmaqla, fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin edəcəkdir. 2009-cu ildən etibarən muxtar respublikanın paytaxtı Naxçıvanda və rayon mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanıldı. Artıq Naxçıvan şəhərində və rayon mərkəzlərində tikinti işlərinin əsas hissəsi başa çatdırılıb. Diqqətə çatdırıldı ki, ümumiyyətlə, son illər muxtar respublika iqtisadiyyatının müasirləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər meliorasiya və su təsərrüfatı sistemini də əhatə edərək, bu sahənin maddi-texniki bazasını gücləndirdi. Bu baxımdan muxtar respublikada son illər içməli su təminatının yaxşılaşdırılması məqsədilə görülən işlər mühüm əhəmiyyətə malikdir. İstifadəyə verilən kompleks də Naxçıvan şəhərinin içməli su sisteminin yenidən qurulması tədbirləri çərçivəsində inşa edilib.

Qeyd edildi ki, kompleksdə ən müasir avadanlıqlar quraşdırılıb. Təmizləmə prosesində xammal kimi ozon və duzdan istifadə

olunması isə suyun insan sağlamlığı üçün yararlılığına tam zəmanət verir. Sutəmizləyici qurğuda bütün iş prosesinin avtomatik olaraq tənzimlənməsi sistemin etibarlılığını və davamlılığını təmin edəcəkdir.

Sonra dövlətimizin başçısı sutəmizləyici qurğunu işə saldı.

Azərbaycan Prezidentinə burada quraşdırılan nanosüzgəcli qurğu barədə məlumat verildi.

Qeyd edildi ki, iqtisadi cəhətdən səmərəli olan yeni nanosüzgəcli qurğu ənənəvi qum süzgəclərindən fərqli olaraq, sudakı bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da su təbii mineral tərkibi saxlanılmaqla təmizlənir. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır. Suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlığına idarəetmə mərkəzində quraşdırılan kompüterlə nəzarət olunur və iş prosesi avtomatik idarə edilir. Kompleksdə ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilib. Su anbarlarının inşası zamanı hündürlük fərqinin nəzərə alınması şəhərin su təchizatının özüaxımlı rejimdə təmin olunmasına imkan verəcəkdir.

Kompleksə tanışlıqdan sonra prezident İlham Əliyev Naxçıvan şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirləri çərçivəsində görülən işlərin gedişi ilə maraqlandı.

Məlumat verildi ki, Naxçıvan şəhərində bu günə qədər 218 kilometr içməli su və 200 kilometr kanalizasiya xətti çəkilib, 19 minə yaxın mənzilə su verilib. Tikinti işləri aparılarkən keyfiyyət amilinə xüsusi diqqət yetirilir. Naxçıvan şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirlərinin 2014-cü ildə tam başa çatdırılması nəzərdə tutulub.

## KƏNGƏRLİ RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞI MƏRASİMİ

*7 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Kəngərli Rayon Mərkəzi Xəstəxanasının yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Son illər prezident İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Səhiyyə müəssisələrinin təmiri və bərpası, ən müasir avadanlıqlarla, həmçinin vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təchiz olunması, müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, uşaqların bütün növ tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində islahatların əsasını təşkil edir. Bu məqsədlə ölkənin hər yerində əhalinin tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə və müalicəni, əməliyyatları həyata keçirməyə imkan verən yeni müəssisələr yaradılıb.*

*Ölkəmizin digər bölgələrində olduğu kimi, Naxçıvanda da səhiyyə sistemi özünün ən uğurlu inkişaf dövrünü yaşayır. Muxtar respublikadakı səhiyyə ocaqları ən son tələblərə cavab verən avadanlıqlarla təchiz edilir. Burada son illərdə müasir tələblər səviyyəsində yaradılan tibb ocaqlarından biri də Kəngərli Rayon Mərkəzi Xəstəxanasıdır. Bu səhiyyə ocağının yenidənqurmadan sonra istifadəyə verilməsi rayon sakinlərinin*

*keyfiyyətli səhiyyə xidmətindən rahat istifadəsinə daha çox kömək edəcəkdir.*

*Dövlətimizin başçısı səhiyyə ocağının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına aparılan yenidənqurma işləri barədə ətraflı məlumat verdi.*

*Bildirildi ki, bu tibb ocağı Qıvraq kənd sahə xəstəxanasının bazasında yaradılıb. Qıvraq qəsəbəsində uyğunlaşdırılan binada yerləşən xəstəxana üçün 2006-cı ildə yeni bina tikilərək, istifadəyə verilib.*

*Bu gün Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi qarşıda duran ən mühüm vəzifələrdəndir. Aparılan genişmiqyaslı islahatlar çərçivəsində yeni səhiyyə ocaqları tikilir, köhnələri əsaslı təmir olunur, yaxud yenidən qurulur və ən müasir tibbi avadanlıqlarla təchiz edilir. 2000–2005-ci illərdə muxtar respublikada Özəl Tibb Mərkəzi, Gigiyena və Epidemiologiya Mərkəzi, Duzdağ Fizioterapiya Mərkəzi, Əlillərin Bərpa Mərkəzi, «İmplant-dent» Stomatoloji Dispanseri, Mərkəzi Uşaq Xəstəxanası, Darıdağ arsenli su müalicəxanası da daxil olmaqla, ümumilikdə 48 səhiyyə obyekti tikilib, 35 tibb ocağında əsaslı təmir-bərpa işləri aparılıb və müasir tibbi avadanlıqlarla təmin edilərək, istifadəyə verilib. 2005–2010-cu illərdə isə Naxçıvan Müalicə-Diaqnostika Mərkəzi, Kəngərli Rayon Mərkəzi Xəstəxanası, Şərur rayonunda ən müasir avadanlıqlarla təchiz olunan xəstəxana şəhərciyi, Naxçıvan Muxtar Respublikası Ağ ciyər Xəstəlikləri Dispanseri, Uşaq Bərpa Mərkəzi, Körpələr evi, Naxçıvan Şəhər Təcili Tibbi Yardım Mərkəzi, Doğum Mərkəzi, Onkoloji Mərkəz, kəndlərdə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.*

*Yeni bina ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, Kəngərli rayonunda 30 mindən çox əhaliyə xidmət edəcək xəstəxananın binasında ən müasir səviyyədə əsaslı yenidənqurma işləri aparılıb. Bu tibb müəssisəsi möh-*

*təşəmliyi ilə yanaşı, xidmətin müxtəlifliyi ilə fərqlənir.* Kompleksə stasionar *və* poliklinika *şöbələri, 3 bölmə daxildir. Burada müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi mümkün* ola*caqdır. Cərrahiyyə,* terapiya, pediatriya, ginekologiya, yoluxucu *xəstəliklər,* anesteziologiya, reanimatologiya, *şüa*-diaqnostika, fizioterapiya, *qəbul şöbələri,* konsultativ poliklinika, *doğuş bölməsi,* laboratoriya, *təcili tibbi yardım* stansiyası tibbin *ən* son nailiyyət*ləri* olan avadanlıq *və* cihazlarla *təmin* edilib.

*Diqqətə çatdırıldı ki, xəstəxananın bütün* infrastrukturu tamamilə *yenilənib. Xəstəxanada* 95 *nəfərdən ibarət* tibb *heyəti çalışacaqdır.* Bu *yeniliklər özlüyündə Kəngərli* Rayon *Mərkəzi Xəstəxanasının nə qədər geniş funksiyanı yerinə yetirəcəyini göstərən* amildir. *Bütün* bunlar *sübut* edir ki, son *illərdə respublikamızın səhiyyə sahəsində yaşanan böyük* inqilabi *dəyişiklik* bu sektorun *dünyanın ən müasir* tibbi texnika *və avadanlıqları ilə təmin olunması ilə bağlıdır. Müasir Azərbaycanı* modern *texnologiyaların tətbiq* olunduğu *məkana çevirmək məqsədini qarşıya* qoyan prezident *İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən* qurulan *səhiyyə müəssisələri* regionda ilk *dəfə açıq ürək əməliyyatı və* qara *ciyərin köçürülməsi kimi mühüm* nailiyyət*lərə* imza *atıb. Ötən illər ərzində* regionlarda *yüzlərlə* tibb *ocağının, müalicə*-diaqnostika *mərkəzlərinin inşası səhiyyə* sisteminin *inkişafından xəbər* verir. *Yeni tikilən* tibb *ocaqları, ölkəmizə gətirilən müasir* tibbi *avadanlıqlar* ilk *növbədə, bir məqsədə – Azərbaycan əhalisinin sağlamlığı* kimi *mühüm missiyanın yerinə yetirilməsinə xidmət* edir.

*Xəstəxanada yaradılmış şəraitlə tanışlıqdan* sonra prezident *İlham Əliyev xidmətin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıq və tövsiyələrini* verdi.

## «Arpaçay-1» və «Arpaçay-2» su-elektrik stansiyalarının işə salınması mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev* aprelin *7-də Naxçıvan* Muxtar Respublikasına *səfəri çərçi-*

*vəsində «Arpaçay-1» və «Arpaçay-2» su-elektrik stansiyalarının işə salınması mərasimində iştirak etmişdir.*

*Son illərdə ölkəmizin elektroenergetika sektoru üzrə enerji təchizatının dayanıqlılığı, səmərəliliyi və təhlükəsizliyi prinsiplərini nəzərə alan mühüm dövlət proqramları qəbul olunub. Proqramlara əsasən, Naxçıvan Muxtar Respublikasında da olduqca əhəmiyyətli işlər görülüb. 20,5 meqavat gücündə «Arpaçay-1» və 1,4 meqavat gücündə «Arpaçay-2» su-elektrik stansiyalarının işə salınması bu qəbildən olan tədbirlərin ardıcıl xarakter aldığını nümayiş etdirir.*

*Naxçıvanda həyata keçirilən bu layihələr muxtar respublikanın elektrik enerjisi ilə təminatında mühüm rol oynayaraq, ümumilikdə, ölkəmizin enerji təhlükəsizliyinə töhfə verir. Belə stansiyaların fəaliyyətə başlaması Naxçıvanın iqtisadi inkişafının təmin edilməsində də müstəsna rol oynayır. Bundan başqa, bu cür layihələr sosial məsələlərin həlli üçün nəzərdə tutulan işlərin uğurla, həm də qısa müddətdə reallaşmasına yardım edir. Bütün bunlar prezident İlham Əliyevin belə vacib və strateji əhəmiyyət kəsb edən layihələrin icrasına daim diqqətlə yanaşdığını bir daha təsdiqləyir. Təsadüfi deyildir ki, dövlətimizin başçısının diqqət və qayğısı sayəsində hələ 2006-cı ildə Naxçıvanın enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən və ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası işə salınıb. Turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının gücü artaraq 60 meqavat olub. Sonradan müxtəlif dövrlərdə bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə Ordubadda Biləv Su-Elektrik Stansiyası fəaliyyətə başlayıb, Şərur rayonunda «Arpaçay» Su-Elektrik Stansiyasının işə salınması istiqamətində mühüm işlər görülüb.*

*Əvvəlcə «Arpaçay-2» Su-Elektrik Stansiyasının fəaliyyəti ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, 1,4 meqavat gücündə olan stansiyanın anbarının ümumi su tutumu 3 milyon kubmetrdir. Əsasən paylayıcı funksiyanı yerinə yetirən stansiyada son vaxtlar görülən işlər əhalinin elektrik enerjisi ilə*

*fasiləsiz təmin olunmasına və daha geniş ərazidə əkin sahələrinin suvarılmasına əlverişli imkanlar yaradır.*

*Dövlətimizin başçısı «Arpaçay-2» Su-Elektrik Stansiyasını işə saldı.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov prezident İlham Əliyevə məlumat verdi ki, aparılan yenidənqurma işləri zamanı müasir texnika və avadanlığın quraşdırılması diqqət mərkəzində saxlanılıb. Bu işlər prezident İlham Əliyevin 2014-cü il martın 14-də «Naxçıvan Muxtar Respublikasında «Arpaçay-2» Su-Elektrik Stansiyasının tikintisinin maliyyələşdirilməsi haqqında» imzaladığı sərəncam əsasında aparılıb. Sərəncama əsasən, «Arpaçay-2» Su- Elektrik Stansiyasının tikintisini başa çatdırmaq məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 4 milyon manat ayrılıb.*

*Sonra prezident İlham Əliyev «Arpaçay-1» Su-Elektrik Stansiyasının işə salınması mərasimində iştirak etdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, gücü 20,5 meqavat olan su-elektrik stansiyası suqəbuledici qurğu, stansiya binası, tunel və transformator yarımstansiyasından ibarətdir. Suqəbuledici saniyədə 37 kubmetr su buraxmaq gücünə malikdir. Tuneldən suyu turbinlərə ötürmək üçün yüksəktəzyiqli boru xətti çəkilib, havaboşaldıcı inşa edilib. Buradakı anbarın su tutumu 150 milyon kubmetrdir. Anbardan götürülən su ilə 17 min 370 hektar əkin sahəsi suvarılacaqdır.*

*Stansiya binasında müasir iş otaqları və idarəetmə mərkəzi yaradılıb. Burada stansiyanı idarəetmə və nəzarət-mühafizə sistemləri quraşdırılıb. Bu da stansiyanın iş rejimini daimi nəzarətdə saxlamağa imkan verir. Stansiya binasında 8 meqavat gücündə 2, 4,5 meqavat gücündə 1 turbin quraşdırılıb. Bu energetika qurğusunda bütün emal prosesi avtomatlaşdırılıb. İstehsal olunmuş elektrik enerjisini şəbəkəyə ötürmək üçün ərazidə transformator yarımstansiyası qurulub, 11 kilometr uzunluğunda 110 kilovoltluq elektrik xətləri çəkilib.*

*Prezident İlham Əliyev «Arpaçay-1» Su-Elektrik Stansiyasını işə saldı.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, iqtisadi səmərəlilik və enerji potensialının gücləndirilməsi baxımından böyük əhəmiyyətə malik olan stansiyanın işə salınması ilə muxtar respublikanın elektrik enerjisinə olan tələbatının böyük hissəsi su-elektrik stansiyaları hesabına ödəniləcəkdir. Bu prosesə hazırda Şərur rayonu ilə yanaşı, Ordubadda 36 meqavat gücündə inşa olunan yeni elektrik stansiyasının tikintisi də əsaslı töhfə verəcəkdir. Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan muxtar respublikada hazırda 7 elektrik stansiyası fəaliyyət göstərir. Nəticədə blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasının elektrik enerjisinə olan tələbatı daxili imkanlar hesabına tam ödənilir. Bundan başqa, muxtar respublikanın elektrik enerjisi ixrac etmək imkanları da ilbəil genişlənir.*

*Sonra dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikası ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün Naxçıvanda əlamətdar bir gündür. Biz «Arpaçay-1» və «Arpaçay-2» su-elektrik stansiyalarının açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu hadisə bir daha onu göstərir ki, bu gün Naxçıvan inamla, uğurla inkişaf edir. Naxçıvanda böyük infrastruktur layihələri icra edilir. Respublika çox dinamik inkişaf dövrünü yaşayır.

Bu gün səhər mən Naxçıvanda müxtəlif obyektlərin açılışında iştirak etmişəm. Bütün bu açılışlar ölkəmizin gücünü göstərir və Naxçıvanda görülən işlər ən yüksək səviyyədədir. Bu münasibətlə bütün Naxçıvan sakinlərini, Naxçıvan Muxtar Respublikasının rəhbərliyini ürəkdən təbrik edirəm.

Naxçıvan şəhəri gözəlləşir, abadlaşır, sosial proqramlar icra edilir, sosial infrastruktur layihələri uğurla həyata keçirilir. Əlbəttə ki, Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin

rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilib. Demək olar ki, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapıb. Son illərdə biz «Vayxır», «Biləv» su-elektrik stansiyalarının açılışlarını qeyd etmişik və bu gün Naxçıvanın enerji ilə təminatı su-elektrik stansiyalarının xətti ilə icra edilir. Bu da Naxçıvanı dünya miqyasında çox nadir bir respublika kimi təqdim edir. Çünki dünyada çox nadir hallarda daxili tələbat bərpa olunan enerji növləri hesabına təmin edilir. Bu gün Naxçıvanın reallıqları belədir ki, su-elektrik stansiyalarının fəaliyyəti sayəsində Naxçıvanın tam enerji təminatı həll edilib. Bu gün Naxçıvanın enerji potensialı 220 meqavata yaxındır və bu da imkan verir ki, eyni zamanda, Naxçıvanın ixrac potensialı da artsın.

Bu gün Azərbaycan reallıqları bundan ibarətdir. Vaxtilə başqa ölkələrdən elektrik enerjisini almaq üçün səylər göstərmiş Azərbaycan bu gün Naxçıvandan Türkiyəyə elektrik enerjisi ixrac edir. Bu ixrac getdikcə artır, daha da artacaqdır. Çünki gələcəkdə Naxçıvanın enerji potensialının artırılması üçün əlavə tədbirlərin görülməsi də nəzərdə tutulur. Buna ehtiyac var, çünki əhali artır. Naxçıvan əhalisi artıq 430 mindən çoxdur. Naxçıvanın sənaye istehsalı artır, yeni müəssisələr işə salınır, sosial məsələlər öz həllini tapır. Beləliklə, biz gələcəkdə Naxçıvanın dinamik inkişafını təmin etmək üçün yeni enerji güclərini yaratmalıyıq.

Bu gün Naxçıvan Muxtar Respublikası, demək olar ki, tam qazlaşdırılıbdır, qazlaşdırılma 100 faizə yaxındır. Elektrik enerjisi ilə təminat yüksək səviyyədə təşkil edilibdir. Yəni muxtar respublikanın enerji təhlükəsizliyi məsələləri tamamilə öz həllini tapıbdır. Bu gün dünyada enerji təhlükəsizliyi məsələləri, ümumiyyətlə, ön plana çıxır. Biz görürük ki, enerji təhlükəsizliyi məsələləri ölkələrin ümumi təhlükəsizlik məsələləri ilə sıx uzlaşır. Yəni özünü enerji təhlükəsizliyi baxımından rahat hiss etməyən ölkələr böyük problemlərlə üzləşirlər. Orada asılılıq yaranır. Azərbaycan öz enerji siyasətini

ulu öndərin siyasəti sayəsində elə qurub ki, bu gün Azərbaycan tam enerji təhlükəsizliyini təmin edib, başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynayır və bu rol getdikcə artacaqdır.

Əlbəttə, Naxçıvanın enerji potensialının yaradılması və inkişafı həmişə gündəlikdə duran məsələ olubdur. Bu məsələ artıq həll edilib və deyə bilərəm ki, bu, tarixi hadisədir. «Arpaçay» su-elektrik stansiyalarının tikintisi də bu gün dövlətimizin gücünü göstərir. Çünki bu layihə texniki cəhətdən çox çətin bir layihədir. Bu layihəni Azərbaycan mütəxəssisləri, fəhlələri icra ediblər. Bu dağlar arasında tunel tikilibdir, qurğular yaradılıbdır. Layihənin icrası dövründə yeni bir təşəbbüs Naxçıvan Muxtar Respublikası rəhbərliyi tərəfindən irəli sürülmüşdür və «Arpaçay-2» stansiyasının tikintisi də artıq reallaşıbdır. Yəni budur bugünkü müasir yanaşma və budur Naxçıvanın inamlı inkişafı.

Qeyd etdiyim kimi, burada sosial, iqtisadi məsələlər uğurla həll edilir, Naxçıvanın hərbi gücü lazımi səviyyədədir. Bu gün Naxçıvana gətirilmiş yeni texnikanın nümunələri ilə tanış olmuşam. Respublikanın inkişafı üçün bütün işlər görülür, işsizlik, demək olar ki, aradan götürülübdür, yeni iş yerləri açılır. Yəni dinamik inkişaf təmin edilir.

Hər bir ölkənin, respublikanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının inamlı inkişafı üçün elektrik enerjisi birinci şərtdir. Siz energetiklər bunu yaxşı bilirsiniz. Enerji hər bir inkişafın təməlində dayanan ən vacib amildir və bu gün Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan bu məsələni tam şəkildə həll edibdir. Bu, böyük hadisədir, tarixi nailiyyətdir. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə yeni uğurlar, cansağlığı arzulayıram.

Sağ olun.

* * *

*Sonda prezident İlham Əliyev tutumu 150 milyon kubmetr olan su anbarına baxdı.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*8 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.*

*Naxçıvan şəhərindəki Heydər Əliyev sarayının salonuna toplaşanlar – muxtar respublikanın hökumət nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələri prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə geniş nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz naxçıvanlılar!

Hörmətli qonaqlar!

Hörmətli səfirlər, əziz dostlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini qeyd edirik. Bu gözəl hadisə münasibətilə Naxçıvan Muxtar Respublikasının bütün sakinlərini və eyni zamanda, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Naxçıvan qədim Azərbaycan torpağıdır. Naxçıvanda tarixi abidələr, dini abidələr, memarlıq abidələri, bütün toponimlər Azərbaycan xalqına məxsusdur. Əsrlərboyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır.

Naxçıvanın eyni zamanda, qədim dövlətçilik tarixi vardır. Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi

deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi. Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi. Ancaq bununla bərabər, o vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdi. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Bu qərarla Azərbaycan coğrafi baxımdan 2 yerə bölünürdü. Eyni zamanda, böyük türk dünyası 2 yerə bölünürdü. Bu ədalətsizlikdir, sağalmayan yaradır. Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq.

Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyəti – ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. Ötən əsrin 70–80-ci illərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 80-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.

Əfsuslar olsun ki, Heydər Əliyevin Azərbaycandan Moskvaya köçməsindən sonra bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da tənəzzül dövrü yaşanmışdı. Əldə edilmiş bütün uğurlar tədricən tənəzzül etmiş və muxtar respublika üçün çox ağır bir dövr başlamışdı. Biz o dövrü yaxşı xatırlayırıq. XX əsrin 80-ci illərinin sonları Naxçıvan üçün əsl sınaq dövrü idi.

Xoşbəxtlikdən yenə də ulu öndərin rəhbərliyi ilə naxçıvanlılar bu ağır sınaqdan şərəflə çıxa bilmişlər.

Məhz keçən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi.

Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdriklik göstərərək, ulu öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir.

Naxçıvanda dövlət çevrilişi cəhdi də olmuşdu. Biz bunu yaxşı xatırlayırıq. Bu, yaxın tarixdir. Ancaq yenə də ulu öndərin qətiyyəti, müdrikliyi, cəsarəti, naxçıvanlıların ona olan inamı bu ağır sınaqdan çıxmaq üçün bizə imkan yaratdı. O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdi. Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlandırılırdı. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə «sovet sosialist» sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı ildə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Məclisi qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi Dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanılması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdi. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini

şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərdi ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür. Naxçıvan bu ağır sınaqlardan çıxaraq inkişaf yoluna qədəm qoymuşdur.

Ulu öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu öndərin həyat və fəaliyyəti, onun siyasəti tarixdə şəxsiyyətlərin rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti ulu öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır.

Bizim müstəqilliyimiz ən böyük sərvətdir və hamımız yaxşı bilirik ki, XX əsrin əvvəllərində də Azərbaycan müstəqillik qazanmışdı. Ancaq biz o müstəqilliyi qoruya bilməmişdik. O müstəqilliyin ömrü müəyyən səbəblər üzündən uzun olmamışdır. Ancaq bu reallıqdır və bundan da əlavə, məhz o illərdə, müstəqillik illərində, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş qərara əsasən, bizim əzəli torpağımız olan İrəvan Ermənistana verildi. Necə ki, ondan bir neçə il sonra bolşevik sovet hakimiyyəti Zəngəzuru ermənilərə vermişdir. Necə ki, ötən əsrin sonlarında Qarabağ işğal altına düşmüşdür. Görün bizim xalqımız nə qədər böyük faciələr yaşamışdır. Ancaq buna baxmayaraq, xalqımızın iradəsi sınmamışdır. Buna baxmayaraq, Azərbaycan bu gün inamlı inkişaf dövrünü yaşayır. Bu gün güclü Azərbaycan bölgə üçün, region üçün sabitləşdirici rol oynayır. Mən tam əminəm ki, güclü Azərbaycan və güclənən Azərbaycan bizə öz ərazi bütövlüyümüzü bərpa etməyə və gələcəkdə bütün tarixi torpaqlarımıza qayıtmağa imkan verəcəkdir.

O illəri xatırlayarkən bir daha hamımız görürük ki, nə qədər ağır illər idi, ancaq eyni zamanda, bizim qələbəmiz nə qədər şərəfli idi. Çünki bu qələbə Azərbaycan dövlətinin, Azərbaycan xalqının qələbəsi idi. Azərbaycan xalqı öz müstəqilliyini qoruya bilmişdir. Məhz ona görə ki, müstəqilliyin bünövrəsi XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda qoyulmuşdur. Məhz ona

görə ki, 1993-cü ildə Azərbaycan xalqının xahişi ilə ulu öndər Naxçıvandan Bakıya getmiş və orada Azərbaycanı böyük bəlalardan, vətəndaş müharibəsindən qurtarmış və Azərbaycana sabitlik gətirmişdir.

1993-cü ildən başlayaraq Azərbaycanda sabitlik, sürətli inkişaf dövrü yaşanır və müstəqilliyimizin banisi Heydər Əliyevin bu uğurlarda rolu əvəzsizdir.

Naxçıvan da sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır.

Dünən son 1 il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm.

Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Bu gün bu belədir. Gələcəkdə Naxçıvanın hərbi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu, artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır. Azərbaycan dövləti zəngin dövlətdir. Bildiyiniz kimi, bizim dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə qədər ki, torpaqlarımız işğal altındadır, bu belə də olmalıdır.

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu sahəsində aparılan islahatlar,

Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Yəni bundan sonrakı illərdə də Naxçıvanın hərbi gücünün artırılması üçün əlavə tədbirlər görüləcəkdir.

Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır. Naxçıvan bu gün elektrik enerjisi ilə təchizat baxımından öz enerji təhlükəsizliyini tam şəkildə təmin edə bilibdir. Hətta ixrac imkanları yaranıb.

Biz o illəri yaxşı xatırlayırıq. XX əsrin 90-cı illərinin əvvəllərində mən də dəfələrlə Naxçıvana gəlirdim. Biz faktiki olaraq qaranlıq içində yaşayırdıq. Evlərdə işıq yox idi, nəinki küçələrdə. İşıq böyük fasilələrlə verilirdi. Ən böyük problem işıq idi. Qazdan, ümumiyyətlə, söhbət belə getmirdi. Ancaq bu gün Naxçıvan nəinki özünü enerji ilə tam şəkildə təmin edir, hətta ixrac da edir. Ən önəmlisi ondan ibarətdir ki, Naxçıvanın daxili təminatı 100 faiz bərpa olunan enerji növləri hesabına ödənilir. Bu da deyə bilərəm ki, dünyada çox nadir hallarda müşahidə edilən bir mənzərədir.

İndi Naxçıvanın elektrik enerjisi potensialı 220 meqavata yaxındır. Bu imkanları son illərdə tikilmiş elektrik stansiyaları yaratdı. Son illər ərzində 5 elektrik stansiyası tikilmişdir. Bu gün elektrik enerjisi ilə heç bir problem yoxdur. Nəinki bu gün, gələcəkdə də olmayacaqdır. Çünki biz, əlbəttə, öz enerji potensialımızı elə təşkil etməliyik ki, uzun illər bundan sonra da sürətli inkişafımızı təmin etsin. Çünki heç bir inkişaf elektrik enerjisiz mümkün deyildir. Naxçıvanın artan iqtisadi potensialı, sənaye inkişafı, artan əhalisi diktə edir ki, elektrik enerjisi ilə təchizat daim yüksək səviyyədə təşkil edilsin. Yəni bir sözlə, bu gün bu məsələ öz həllini tapıbdır.

Dünən Naxçıvanda sərgilənən yerli istehsal nümunələri ilə də tanış oldum. O sərgidə Naxçıvanda son illər ərzində yaradılmış müəssisələrin məhsulları nümayiş etdirilirdi. Bu da çox sevindirici haldır. Çünki yerli istehsal artır. Naxçıvanın

sənaye potensialı artır, ixrac artır və Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranıbdır. Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapıb. Dünən mən maraqlandım, soruşdum ki, vəziyyət necədir? Mənə Vasif Talıbov məlumat verdi ki, Naxçıvanın əsas ərzaq məhsulları ilə təminatı tam şəkildə təşkil edilibdir. Bu da böyük nailiyyətdir, böyük uğurdur.

İnfrastruktur layihələrinin icrası, yolların çəkilməsi, hazırda içməli su və kanalizasiya layihələrinin icrası da çox önəmli hadisədir. Bir sözlə, Naxçıvanın bütün sosial, iqtisadi, infrastruktur, hərbi məsələləri yüksək səviyyədə öz həllini tapır.

Naxçıvan gözəlləşir, abadlaşır, gözəl, müasir şəhərə çevrilir. Nəinki Naxçıvan şəhəri, digər şəhərlər də. Bütün rayon mərkəzlərində artıq müasir tibb məntəqələri vardır. Naxçıvanda ən böyük Mərkəzi Xəstəxana tikilir. Ondan əvvəlki dövrlərdə diaqnostika mərkəzi, doğum mərkəzi tikilmişdir. Yəni görülən bütün işləri sadalamaq üçün çox vaxt lazım olacaqdır, siz naxçıvanlılar bunları yaxşı bilirsiniz. Sadəcə olaraq, mən öz təəssüratlarımı, öz sevincimi ifadə etmək istəyirəm ki, bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir. Sizə, naxçıvanlılara gələcək işlərdə də yeni uğurlar arzulayıram.

Bir daha demək istəyirəm ki, bu uğurların təməlində ulu öndərin siyasəti dayanır. Biz, onun davamçıları bu siyasətə sadiqik. Artıq 11 ilə yaxındır ki, ulu öndər aramızda deyil. Ancaq onun ideyaları, siyasəti, siyasi xətti yaşayır. Azərbaycan inamla, uğurla inkişaf edir. Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlət kimi, öz siyasətini aparır. Azərbaycan xalqı bu gün inkişaf edən Azərbaycanın timsalında müstəqilliyin üstünlüklərini əyani şəkildə görür. Müstəqillik ən böyük sərvətimizdir. Hətta inkişafımız olmasaydı, hətta ağır vəziyyətdə yaşasaydıq belə, yenə də azadlıq, müstəqillik hər şeydən üstündür. Ancaq biz nəinki müstəqil dövlətik, nəinki öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparırıq, biz həm də uğurlu dövlətik. Biz böyük uğurlara imza atmışıq. Son 10 ilin nəticələri göz qabağındadır. Bu statistikadır, bu tarixdir, bu

reallıqdır. Son 10 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Cəmi 10 il ərzində iqtisadiyyat 3 dəfə artmışdır.

Bizi uzun illər incidən işsizlik kimi problem, demək olar ki, aradan qaldırılıb. Yoxsulluq səviyyəsi ən aşağı həddədir. Azərbaycan bu gün bütün iqtisadi parametrlər üzrə ən qabaqcıl ölkələrlə eyni səviyyədədir, bəzi parametrlər üzrə inkişaf etmiş ölkələri də qabaqlayır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 8 faizini təşkil edir. Azərbaycanda böyük həcmdə valyuta ehtiyatları yaradılmışdır və ümumi daxili məhsulumuzun 70 faizini təşkil edir. Büdcə kəsiri çox aşağı səviyyədədir. İnfrastruktur layihələrinə qoyulan vəsait bu gün ölkəmizin hər bir yerində özünü göstərir, yeni imkanlar açır. Biznes imkanları da çox yaxşıdır. Azərbaycanda liberal iqtisadiyyat aparılır. Rəqabətqabliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı dünyada 39-cu yerdədir.

Aparılan islahatlar, düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik bizim uğurlarımızı şərtləndirir. Son 10 ilin inkişafı onu göstərir ki, biz, ulu öndərin davamçıları onun bütün tapşırıqlarını şərəflə yerinə yetirmişik.

Siyasi islahatlar uğurla aparılır. Azərbaycanda azad cəmiyyət formalaşıbdır. Bütün azadlıqlar mövcuddur. Siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, internet azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı – bütün azadlıqlar vardır. Azərbaycan demokratik dövlətdir. Azərbaycan o dövlətdir ki, bu dövlətin inkişafını xalq müəyyən edir. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas istiqamətdir, əsas yolumuzdur.

Yəni bu gün Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Bu təməl tarixə, xalqımızın əsrlərboyu yaratdığı dəyərlərə söykənir. Milli ideologiyamıza söykənir ki, onun müəllifi ulu öndər Heydər Əliyevdir. Bu gün eyni zamanda, bizim dövlətimiz möhkəm iqtisadi baza üzərində qurulubdur. İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir.

Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilibdir. Beynəlxalq nüfuzumuz artır. Dünya ictimaiyyəti bizi dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizə səs verməzdi. BMT Təhlükəsizlik Şurasının üzvü olmuşuq. Dünyanın ən mötəbər təşkilatı olan Təhlükəsizlik Şurasına 2 dəfə sədrlik etmişik. Bu il Avropa Şurasında sədrlik edəcəyik. Dünyada dostlarımızın, bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Yəni budur bizim beynəlxalq nüfuzumuz – beynəlxalq nüfuz, iqtisadi güc, hərbi potensial, sosial məsələlərin həlli, regional inkişaf proqramlarının uğurla icra edilməsi və prinsipial siyasət.

Hər bir məsələ ilə bağlı bizim prinsipial mövqemiz vardır. Azərbaycan hər bir beynəlxalq hadisə ilə bağlı öz prinsipial mövqeyini ifadə edir. Bu mövqe prinsiplər üzərində qurulubdur. Beynəlxalq hüquq və ədalət – bu 2 prinsip hər bir ölkə üçün ən əsas prinsip olmalıdır. Bizim üçün bu belədir. Bu gün Azərbaycanın dünyada artan hörməti eyni zamanda, bizim prinsipial mövqemizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Biz gələcəyə böyük ümidlərlə, nikbinliklə baxırıq. Bizim gələcəyimiz daha da gözəl olacaqdır. Sözün düzü, hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır. Bundan sonra Azərbaycanın, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanın uğurlu, dinamik inkişafı təmin ediləcəkdir. Bu günədək görə bilmədiyimiz işləri görəcəyik. Görüləsi işlər vardır. Ancaq deyə bilərəm ki, xalqımızı narahat edən əsas sosial və iqtisadi məsələlərin böyük əksəriyyəti öz həllini tapmışdır. Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini ulu öndər qoymuşdur. Bir

daha demək istəyirəm ki, biz bu siyasətə sadiqik. Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə bütün naxçıvanlıları və bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm.

Eşq olsun Azərbaycan xalqına, yaşasın Naxçıvan!

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı

Möhtərəm cənab Prezident!

Azərbaycandakı diplomatik nümayəndəliklərin hörmətli rəhbərləri!

Yubiley tədbirinin hörmətli iştirakçıları!

90 il bundan əvvəl – 1924-cü il fevralın 9-da Azərbaycanın dövlətçilik tarixində mühüm tarixi hadisə baş verdi: Naxçıvan Muxtar Respublikası təşkil edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən bu gün Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini qeyd edirik.

Muxtariyyət bayramının yüksək dövlət səviyyəsində qeyd olunması barədə verdiyiniz sərəncama və dövlət xadimi kimi, bu yubileyi bizimlə birlikdə qeyd etdiyinizə görə Sizə Naxçıvan Muxtar Respublikasının bütün əhalisi adından dərin minnətdarlığımızı bildiririk!

Azərbaycan Prezidentinin «Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında» 2014-cü il 14 yanvar tarixli Sərəncamında qeyd olunur ki, «Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu, mürəkkəb və eyni zamanda, şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır».

Sərəncamda vurğulanır ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Ümummilli lider Heydər Əliyev də deyirdi ki: «Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir».

Naxçıvanın muxtariyyəti asanlıqla qazanılmayıb. Beynəlxalq Qars müqaviləsi 1921-ci ildə imzalansa da, Naxçıvana 3 il sonra, 1924-cü ildə muxtariyyət verilib. Naxçıvanın muxtariyyəti çətin sınaqlardan keçərək, gərgin hərbi-siyasi və diplomatik mübarizələr nəticəsində əldə olunub.

Naxçıvanın muxtariyyəti tarixi zərurət idi. 1919-cu ildə Zəngəzur mahalı Ermənistana veriləndən sonra Naxçıvan ölkənin əsas ərazisindən təcrid olunmuşdu. Regionda marağı olan böyük dövlətlər İrəvan və Zəngəzur kimi, Naxçıvanı da ermənilərə güzəştə getmək istəyirdilər. Erməni yaraqlıları əhalini qorxu içərisində saxlayır, soyqırımı törədir, torpaqların boşaldılmasına çalışırdılar. Buna baxmayaraq, nə böyük dövlətlərin siyasi və diplomatik təzyiqi, nə aclıq və səfalət, nə də ermənilərin aramsız hərbi müdaxiləsi naxçıvanlıların iradəsini sındıra, Azərbaycanla bir olmaq istəyinin qarşısını ala bilmədi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin başçısı Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında deyirdi ki, «Hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi. İgid naxçıvanlılar, şərurlular bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar».

Naxçıvanlıların qanuni hüququ öz tarixi ərazisində yaşamaq, daim Azərbaycanla bir olmaq, ana Vətəndən ayrı düşməmək idi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yaranandan sonra naxçıvanlılar dəfələrlə Azərbaycana birləşmək iradəsini ortaya

qoysalar da, mövcud siyasi və beynəlxalq vəziyyət bu istəyin həyata keçməsinə imkan verməmişdi. Naxçıvan Milli Şurasının Xalq Cümhuriyyəti Hökumətinə məktublarında deyilirdi: «Biz ermənilərə tabe olmuruq. Tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Azərbaycana birləşməsini gözləyirik». Başqa bir məktubda isə deyilirdi: «Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz».

Göründüyü kimi, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması bütün dövrlərdə regionda aparıcı siyasi xətt kimi qalmış, əhali tərəfindən dəstəklənmişdir.

Yaranmış şəraitdə ermənilər tərəfindən torpaqların işğalının qarşısının alınması və Azərbaycandan ayrı düşmüş regionda vahid idarəçiliyin həyata keçirilməsi üçün Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsi qabaqcıl ictimai düşüncəni məşğul edən əsas məsələ idi. O vaxt bu istiqamətdə mübarizə 2 cəbhədə gedirdi. Birincisi, ermənilərə qarşı silahlı mübarizə cəbhəsi idi ki, döyüş qabiliyyəti və əlində silahı olan naxçıvanlılar bu cəbhədə birləşmişdilər. Məşhur Naxçıvan xanlarının nəslindən olan Cəfərqulu xan, Kalbalı xan və Rəhim xan yerli silahlı dəstələrə ümumi komandanlığı həyata keçirirdilər. Şərur taborunun komandanı Fətulla Hüseynov, Sədərək taborunun komandanı Həsən Şahverdi oğlu, Nehrəm taborunun komandanı Kəblə Muxtar, Cəhri taborunun komandanı Kəblə Kərim erməniləri geri oturda bilmiş, Vətənə xidmət nümunəsi göstərmişdilər.

Naxçıvan ziyalıları yaxşı başa düşürdülər ki, mübarizə aparmadan muxtariyyət qazanmaq mümkün deyil. Odur ki, əlində qələm tutanlar da siyasi mübarizə cəbhəsində vuruşurdular. Onlardan yazıçı-publisist Əli Səbri Qasımovun və Naxçıvanın ləyaqətli oğlu Behbud ağa Şahtaxtinskinin adını xüsusi qeyd etmək istəyirəm. Behbud ağa Şahtaxtinski Sovet Azərbaycanı Hökumətinin Ədliyyə naziri olmasına baxmayaraq, Naxçıvanın Ermənistana verilməsi barədə bəyanata etiraz əlaməti olaraq Naxçıvana gəlmiş, yerli əhalinin kütləvi etirazını

təşkil edərək, mərkəzi hakimiyyətin Ermənistanın xeyrinə qəbul etdiyi qərarın qarşısını almışdı. Sovetlər birliyinin rəhbəri Vladimir Leninə yazdığı xüsusi məktubda o qeyd edirdi: «Naxçıvan diyarı böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malikdir. Bu diyarın Ermənistana verilməsi xalqın özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur».

Beləliklə, Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən Moskva və beynəlxalq Qars müqavilələri imzalandı. Bu sənədlər əsasında 1924-cü il fevralın 9-da Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası təşkil olundu.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın muxtariyyət tarixinin çətin sınaqlardan keçdiyini nəzərdə tutaraq, eyni zamanda, bu muxtariyyətin qazanılmasında fədakarlıq göstərənlərin əməyini yüksək qiymətləndirərək deyirdi: «Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm. Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalı və tariximizə daxil olmalıdırlar».

Ümummilli liderimiz Naxçıvanın muxtariyyətinin bütün dövrlərdə düşmən həmlələrindən qorunacağını bəyan edərək demişdir: «Naxçıvan muxtar respublikadır. Azərbaycanın tərkibindədir. Bu, beynəlxalq müqavilələr nəticəsində yaranmış statusdur. Onu heç kəs dəyişdirə bilməz».

Bu təntənəli gündə Naxçıvanın və onun muxtariyyətinin böyük hamisi, müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir, ruhu şad olsun – deyirik.

Naxçıvanın muxtariyyət statusu ötən 90 il ərzində burada inkişafın təmin olunmasına, genişmiqyaslı quruculuq tədbirlərinin

aparılmasına şərait yaratmışdır. Bu inkişafı şərti olaraq 5 mərhələyə bölmək olar: 1924–1969-cu, 1969–1987-ci, 1987–1993-cü, 1993–2003-cü illər və 2003-cü ildən sonrakı dövr.

Naxçıvanın muxtariyyət tarixinin 1924–1969-cu illəri əhatə edən dövrü olduqca ağır siyasi, sosial-iqtisadi və mədəni problemlər dövrüdür. Bu dövrün müxtəsər siyasi xarakteristikasını verən ümummilli liderimiz demişdir ki, bizim xalqımız XX əsrdə çox faciələrlə rastlaşıbdır. Bunların içərisində Naxçıvanın başına gələn bəlalar, bəlkə Azərbaycanın başqa bölgələrindən daha dəhşətli, faciəli olubdur. Naxçıvanın hüquqlarını tam məhdudlaşdırmaq istəyiblər.

Naxçıvanın hüquqlarını məhdudlaşdırmaq istəyənlər Azərbaycanın bu qədim torpağında inkişafa mane olmaq məqsədi güdürdülər. 1925-ci ilin martında guya Naxçıvanın hakimiyyət strukturlarındakı «xan-bəy elementləri»nin fəaliyyətini araşdırmaq üçün Naxçıvana xüsusi komissiya göndərilmiş, bir gecədə 50 rəhbər işçi həbs olunmuş, onlardan 48-i repressiyaya məruz qalmışdı. Bunlar o adamlar idilər ki, Naxçıvanın ermənilərdən müdafiəsində xüsusi fəallıq göstərmişdilər.

Naxçıvanın iqtisadiyyatına da ağır zərbələr vurulmuşdu. Keçmiş sovetlər birliyinin Dövlət Plan Komitəsində işləyən ermənilər Naxçıvanın duz yataqlarından hasilatın guya baha başa gəldiyini «əsaslandıra bilmişdilər». Nəticədə duz istehsalı kəskin azalmış, Azərbaycan öz kimya sənayesini inkişaf etdirmək üçün başqa yerlərdən baha qiymətə duz gətirməyə məcbur olmuşdur. Ötən əsrin 50–60-cı illərində isə Arpaçayın axın istiqamətinin ermənilər tərəfindən dəyişdirilməsi Şərurun suvarma əkinçiliyinə ciddi ziyan vurmuş, kəskin su qıtlığı yaratmışdı.

Naxçıvanın muxtariyyət tarixinin 1969–1987-ci illəri əhatə edən ikinci dövrü dirçəliş dövrüdür. Bu dövrdə böyük dövlət xadimi möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə doğma Azərbaycanımız, onunla birlikdə isə Naxçıvan Muxtar Respublikası da özünün əsl inkişafına qovuşdu.

1969–1987-ci illərdə Naxçıvan Muxtar Respublikası qabaqcıl sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət mərkəzinə çevrildi.

Naxçıvanın sənayeləşdirilməsinin əsası qoyuldu, 21 iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Naxçıvan böyük tikinti meydançasına çevrilmiş, 45 min nəfər əhalinin yaşadığı yeni massivlər salınmış, şəhər və rayonların, ucqar dağ kəndlərinin infrastruktur sahələri yenilənmiş, təhsil, səhiyyə və mədəniyyət müəssisələri tikilmiş, köhnə kəndli komalarının yerində müasir üslubda abad evlər ucaldılmışdı. Artıq 1985-ci ildə Azərbaycanda istehsal olunan daş duzun, üzlük travertinin və şüşə qablar istehsalının hamısı, mineral suların və alt trikotaj məmulatlarının əsas hissəsi, konservlərin və ipək xammalının isə 23 faizdən çoxu Naxçıvanın payına düşürdü.

Bu dövrdə süni göllərin və dəryaçaların yaradılması da Naxçıvanın xilasına hesablanmış əhəmiyyətli addımlar idi. Ulu öndərimizin səyi nəticəsində keçən əsrin 70–80-ci illərində 4 böyük su anbarı, 10-a yaxın sututar tikilib istifadəyə verilmişdi. Bu hesaba əkin dövriyyəsinə daxil edilən torpaqlar xeyli artırılmış, kənd təsərrüfatı dinamik inkişaf yoluna çıxarılmışdı. Şuşa–Laçın–Biçənək–Naxçıvan təbii qaz xətti, Yevlax–Şuşa–Naxçıvan radiorele xətləri çəkilmiş, yeni rabitə evləri tikilmiş, hər 3 ailədən biri telefonla təmin olunmuşdu. Energetika və nəqliyyat sahələri də inkişaf etdirilmiş, Araz çayı üzərində 22 meqavat gücə malik su-elektrik stansiyası yaradılmış, bütün rayon mərkəzlərində və Naxçıvan şəhərində avtovağzallar, 1976-cı ildə isə Naxçıvan aeroportu tikilib istifadəyə verilmişdi. Naxçıvanda «Təbriz» mehmanxanasının tikilməsi və Babək rayonunun yaradılması ümummilli liderimizin hələ Sovetlər Birliyinin mövcud olduğu dövrdə daim azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində taleyüklü tədbirlər görməsinin konkret ifadəsi idi.

Naxçıvanın muxtariyyət tarixinin ikinci mərhələsində görülən tədbirlərin nəticəsidir ki, 1980-ci ilin sonuna yaxın ümumi məhsul istehsalı muxtar respublikanın təşkil edildiyi 1924-cü ilə nisbətən 180 dəfə artmışdı. Təkcə 1980-ci ilin 2 günündə 1924-cü il ərzində istehsal olunan qədər məhsul istehsal edilirdi.

1987–1993-cü illərdə ölkəmizi Heydər Əliyev yolundan döndərməyə uğursuz cəhdlər göstərildi. Nəticəsi də o oldu ki, Azərbaycan ağır vəziyyətlə üzləşdi. 20 Yanvar faciəsi baş verdi, Dağlıq Qarabağ və ətraf rayonlar işğal olundu. Ölkə iqtisadiyyatı bərbad vəziyyətə düşdü. Separatçı hərəkatlar baş qaldırdı. Azərbaycan fəlakətin bir addımlığında idi. O, siyasi xəritədən silinə bilərdi.

Eyni aqibət Naxçıvan Muxtar Respublikasını da gözləyirdi. Bu, dövrün Naxçıvanı təklənmiş, taleyin ümidinə buraxılmış adanı xatırladırdı. Ermənistan tərəfindən təkcə iqtisadi blokadaya yox, həm də informasiya blokadasına salınmış Naxçıvan beynəlxalq aləmdən təcrid edilmişdi.

1990-cı ilin iyul ayında xalqımızın böyük oğlunun Moskvadan Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanı siyasi oyunlardan – ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi.

Ümummilli liderimiz 1990–1993-cü illərdə burada baş verən prosesləri xatırlayaraq deyirdi: «1990–1993-cü illərdə Naxçıvanda keçirdiyim dövr mənim həyatımda xüsusi yer tutur. O illər biz Naxçıvanın ağır dövrünü yaşadıq və Naxçıvanı böyük təhlükələrdən, böyük faciələrdən xilas etdik. O dövr böyük sınaq dövrü oldu. İnsanların öz torpağına, Vətəninə sədaqətinin sınaqdan keçməsi dövrü oldu. Biz bu sınaqdan çox böyük şərəflə çıxdıq».

Aydın məsələdir ki, ulu öndərimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə həyata keçirdiyi tədbirlər, hazırladığı siyasi sənədlər təkcə Naxçıvanın yox, eyni zamanda, doğma Azərbaycanımızın da xilasına xidmət edirdi. Üçrəngli Dövlət bayrağının, digər milli dövlətçilik atributlarının qəbul edilməsi, milli ordu quruculuğuna başlanılması, aqrar islahatların həyata keçirilməsi – böyük ömrün Naxçıvanda keçən 3 ili ərzində görülən bütün bu tədbirlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəlmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi.

Həmin dövrdə Heydər Əliyev quruculuq xəttini davam etdirən Naxçıvan Azərbaycanın digər əraziləri üçün bir nümunə gücündə idi. Təsadüfi deyil ki, dövlət müstəqilliyini itirmək təhlükəsi yarandıqda bütün Azərbaycan xalqı «Heydər Əliyev hakimiyyətə gəlməlidir» tələbi ilə ayağa qalxdı.

1993-cü ildə böyük dövlət xadiminin ikinci dəfə ali hakimiyyətə qayıdışı bir tərəfdən, böyük şəxsiyyətlərin tarixdə oynadıqları rolun daha bir ifadəsi idisə, digər tərəfdən, xalqla milli liderin qırılmaz tellərlə bağlılığının nümunəsi idi. XII əsrin görkəmli siyasətçisi Nizamülmülk deyirdi: «Xalqın iradəsi ilə rəhbərin dühası birləşdikdə ölkə möhkəmlənər, gündən-günə inkişaf edər».

Bu fikirlərdə əks olunan lider və xalq bağlılığının klassik ifadəsi bir daha öz təsdiqini 1993-cü ildən sonrakı Azərbaycan siyasi və iqtisadi mühitində tapdı. Tarixə qurucu rəhbər kimi daxil olan ümummilli liderimizin hakimiyyətdə olduğu illərdə Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası da sabitliyə və tərəqqiyə qovuşmuş, davamlı inkişaf və əmin-amanlıq yoluna çıxmışdır. 1993–2003-cü illər ərzində muxtar respublikada sənaye məhsulunun həcmi 3 dəfə, kənd təsərrüfatında ümumi məhsul istehsalı 4 dəfə artmışdı.

Ulu öndərimizin Azərbaycan Prezidenti kimi, siyasi hakimiyyəti dövründə Naxçıvan Muxtar Respublikasında 96 təhsil müəssisəsi, 38 səhiyyə, 94 mədəniyyət obyekti, 73 inzibati bina tikilmiş və ya yenidən qurulmuşdu. Bu dövrdə əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri və təbii fəlakətdən zərər çəkmiş əhali üçün 47 fərdi ev tikilmiş, 66 körpü, 74 nasos stansiyası, 386 digər infrastruktur obyektləri istifadəyə verilmişdi.

Zaman keçdikcə bu nailiyyətlər daha da artır və artacaqdır. Çünki ümummilli liderimizin yolunu layiqli davamçısı, müstəqil Azərbaycanın qüdrətli rəhbəri möhtərəm İlham Əliyev davam etdirir!

Bu gün xalqımız əmindir ki, ümummilli liderimizin siyasi kursu möhkəm əllərdədir. Bu kursu davam etdirən cənab Prezident Azərbaycanı, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar

Respublikasını da yaşadır və inkişaf etdirir, ölkəmizi və xalqımızı inamla daha firavan gələcəyə aparır!

Azərbaycan Prezidentinin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasının inkişafının 2003-cü ildən sonrakı dövrü ümummilli liderimiz Heydər Əliyevin quruculuq xəttinin yaradıcı gücünün daha bir əyani ifadəsidir. Bu xəttin davam etdirilməsi blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında dinamik inkişafı təmin etmişdir.

Azərbaycan Prezidentinin təsdiq etdiyi 2004–2008-ci və 2009–2013-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası paytaxt Naxçıvan şəhəri ilə yanaşı, rayonların və ucqar dağ kəndlərinin də inkişafına səbəb olmuşdur. Ölkə rəhbərinin diqqət və qayğısının nəticəsidir ki, 2013-cü ildə ümumi daxili məhsul istehsalı 2003-cü ildəki göstəricini müqayisəli qiymətlərlə 8 dəfə üstələmişdir. Ötən il hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2003-cü ilə nisbətən 7 dəfə artaraq, 5423 manat olmuşdur.

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2003-cü ilin sonuna muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2013-cü ildə bu göstərici 7 dəfə artaraq, 438-ə çatmışdır.

Görülən tədbirlər nəticəsində muxtar respublikanın enerji təhlükəsizliyi də təmin olunmuşdur. Ölkə rəhbərinin diqqət və qayğısı sayəsində 14 illik fasilədən sonra 2005-ci ildə muxtar respublikaya təbii qazın nəqli bərpa edilmişdir. Bu gün muxtar respublikanın elə bir yaşayış məntəqəsi yoxdur ki, ora təbii qaz verilməsin. Əgər sovetlər birliyi dövründə muxtar respublika üzrə cəmi 33 min abonentə təbii qaz verilirdisə, indi artıq 81 mindən çox abonent təbii qazla təmin olunur. Əgər 2003-cü ilə qədər muxtar respublikada 1 su-elektrik stansiyası vardısa, indi 6 yeni elektrik stansiyası yaradılmışdır.

Əsas kapitala yönəldilən dövlət investisiyalarının həcmi də 2003-cü illə müqayisədə 4 dəfə artmışdır. Son 10 ildə 227 inzibati bina, mənzil təsərrüfatı üzrə 42 obyekt, 29 nasos stansiyası, 150 subartezian quyusu tikilmişdir. Kənd və qəsəbələrin də inkişafı

diqqətdə saxlanılmış, 104 kənd və qəsəbə mərkəzi tikilərək, istifadəyə verilmişdir.

Muxtar respublikada su və kanalizasiya sistemlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində ardıcıl tədbirlər görülmüş, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi yaradılmışdır.

Muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində də kompleks tədbirlər görülür. Son illər muxtar respublikada 725 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış, 16 körpü tikilmişdir.

Əhalinin 70 faizdən çoxunun kənddə yaşaması kənd təsərrüfatını muxtar respublika iqtisadiyyatının əsas sahələrindən birinə çevirmişdir. Məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi, torpaq istifadəçilərinin suvarma suyu, gübrə, müasir texnika və avadanlıqlarla təmin olunması torpağa bağlılığı daha da artırmışdır. Bunun nəticəsidir ki, 2003-cü illə müqayisədə taxıl istehsalında 41 faiz, tərəvəz istehsalında 25 faiz, meyvə və giləmeyvə istehsalında 46 faiz artım əldə olunmuşdur. Tələbata uyğun olaraq quşçuluğun və balıqçılığın inkişafı dəstəklənmiş, ötən 10 il ərzində 60 yeni quşçuluq, 11 balıqçılıq təsərrüfatı istifadəyə verilmişdir.

Hazırda muxtar respublikada 106 növdə ərzaq, 226 növdə qeyri-ərzaq məhsullarına olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sahibkarlığın inkişafı hesabına məhsul istehsalının həcmi daha da artırılmış, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi 87 faiz təşkil etmişdir. Yeni istehsal sahələrinin yaradılması hesabına məşğulluq səviyyəsi yüksəlmiş, ötən 10 il ərzində 59 min yeni iş yeri açılmışdır ki, bunun da 43 minə yaxını daimi iş yeridir.

Naxçıvan Muxtar Respublikasında informasiya cəmiyyətinə keçid və «Elektron hökumət»in formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülür. İnformasiya-kommunikasiya sahələri sürətlə inkişaf etdirilir. Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləş-

dirilmiş, Naxçıvan şəhərində «Evədək optika» layihəsinin icrasına başlanılmışdır. Muxtar respublikanın yaşayış ərazilərinin 92 faizində genişzolaqlı internet, 80 faizində isə simsiz internet xidməti göstərilir. Azərbaycanın ilk peykinin orbitə buraxılması Naxçıvan Muxtar Respublikası ərazisində də keyfiyyətli yayım imkanı yaratmışdır. «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı» icra olunmuş, orta ümumtəhsil məktəblərində hər 14 şagirdə 1 kompüter dəsti olmaqla, 3409 kompüter, 551 elektron lövhə quraşdırılmışdır. Quraşdırılmış kompüterlərin 84 faizinin birbaşa internetə çıxışı təmin olunmuşdur.

Qeyd olunan dövrdə ümumtəhsil məktəblərinin, məktəbəqədər və məktəbdənkənar müəssisələrin tikintisinə də diqqət artırılmış, 56 min 926 şagird yerlik 142 orta məktəb binası, 17 uşaq bağçası, 17 məktəbdənkənar müəssisə, 20 uşaq musiqi məktəbi tikilərək və ya yenidən qurularaq, gənc nəslin istifadəsinə verilmişdir. Məktəb tikintisində ümummilli liderimizin adını daşıyan Fond da yaxından iştirak etmiş, Fondun təşəbbüsü ilə 8 məktəb binası tikilmişdir.

Ali və orta ixtisas məktəbləri, elm ocaqları üçün bina və korpusların tikintisi davam etdirilmiş, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin institutları üçün 3 korpus yenidən qurulmuş, Batabat Astrofizika Rəsədxanası, Bioresurslar İnstitutunun Nəbatat bağı üçün inzibati binalar, Naxçıvan Dövlət Universiteti üçün 6 tədris korpusu və elektron kitabxana tikilmişdir.

Görülən tədbirlər nəticəsində təhsilin səviyyəsi artmışdır. Əgər 2004-cü ildə orta məktəbi bitirən məzunlardan 49 faizi ali məktəblərə sənəd vermişdisə, 2013-cü ildə bu göstərici 77 faiz olmuşdur. 2004-cü ildə abituriyentlərin 30 faizi və ya 891 nəfəri tələbə adını qazanmışdısa, 2013-cü ildə bu göstərici müvafiq olaraq 52 faiz və ya 1676 nəfər təşkil etmişdir. 2004-cü ildə tələbə adını qazananların yalnız 67 nəfəri qəbul imtahanlarında 500-dən yuxarı bal toplamışdısa, 2013-cü ildə 500-dən yuxarı bal toplayanların sayı 5 dəfə artaraq 312 nəfər olmuşdur. 2004–2013-

cü illərdə əldə etdiyi yüksək nailiyyətlərə görə 51 tələbə Prezident təqaüdünə layiq görülmüşdür. Məzunlarımızdan 350 nəfəri Türkiyə, Ukrayna, İngiltərə, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa və Koreya Respublikası universitetlərinə qəbul olunaraq təhsillərini davam etdirirlər.

Ötən dövrlərdə savadlı nəslin yetişdirilməsi ilə yanaşı, əhali sağlamlığının mühafizəsi istiqamətində də tədbirlər davam etdirilmiş, 71 səhiyyə müəssisəsi tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Təhsil və səhiyyə ilə yanaşı, elm də inkişaf etdirilmiş, ötən dövr ərzində 149 fəlsəfə doktoru, 32 elmlər doktoru dissertasiyası müdafiə edilmişdir.

Həyata keçirilən islahatlar sosial-iqtisadi sahədə də dönüş yaratmış, əhalinin həyat şəraitinin və güzəranının yaxşılaşmasına səbəb olmuşdur. Əhali gəlirlərinin həcmi 2003-cü illə müqayisədə 2013-cü ildə 10 dəfə artmış, hər bir nəfərə düşən gəlirlərin həcmi 2003-cü ildəki 458 manata nisbətən 9 dəfə artaraq 4028 manata qalxmışdır.

Bu inkişaf əhali artımına və məskunlaşmaya da öz təsirini göstərmişdir. Son 10 ildə Naxçıvan Muxtar Respublikasının əhalisi 62 min nəfər artmış, əhalinin ümumi sayı isə 436 minə çatmışdır.

Muxtar respublikada ordu quruculuğu və müdafiə ilə bağlı tədbirlər də diqqət mərkəzindədir. Bu gün möhtərəm Prezidentimizin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər nəticəsində yaradılmış ordu birləşmələri etibarlı müdafiəni təmin etməklə yanaşı, işğal olunmuş torpaqların azad edilməsi barədə Ali Baş Komandanımızın bütün tapşırıqlarını yerinə yetirməyə hazırdır!

Göründüyü kimi, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bütün sahələrdə uğurlu yol keçmişdir. Bunun nəticəsini təkcə rəqəmlərdə yox, eyni zamanda, real həyatda, şəhər və rayon mərkəzlərimizin, kəndlərimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların firavanlığının, həyat şəraitinin yaxşılaşmasında görürük.

Möhtərəm cənab Prezident!

Yubiley tədbirinin hörmətli iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 90 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış ulu öndər Heydər Əliyevin yolu ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur. Bu yolu uğurla davam etdirən cənab Prezidentə minnətdarlığımızı, ehtiramımızı bildirir və Sizin dediyiniz kimi: «Ölkəmizi bundan sonra da inkişaf etdirmək və qüvvətli dövlətə çevirmək üçün ən başlıcası Azərbaycanda Heydər Əliyev yolu davam etdirilməlidir».

Diqqətinizə görə sağ olun!

* * *

*Prezident İlham Əliyevin 2014-cü il 5 aprel tarixli sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə görə muxtar respublikanın bir qrup ziyalısı müxtəlif orden və medallara, fəxri adlara layiq görülmüşdür.*

*Dövlətimizin başçısı həmin mükafatları sahiblərinə təqdim etdi.*

*Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə bir daha təbriklərini çatdıran prezident İlham Əliyev dedi:*

– Əziz naxçıvanlılar, bu gözəl bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Yubiley mərasiminin rəsmi hissəsindən sonra Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və təntənəli mərasimdə iştirak edən qonaqlar konsert proqramına maraqla tamaşa etdilər.*

*Konsertdən sonra Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə ziyafət verildi.*

*Əvvəlcə prezident İlham Əliyev yubiley mərasimində iştirak etmək üçün Naxçıvan şəhərinə gələn ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri ilə söhbət etdi.*

*Sonda xatirə şəkli çəkdirdilər.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri aprelin 9-da başa çatmışdır.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yola saldı.*

*Dövlətimizin başçısı Naxçıvandan İran İslam Respublikasına yola düşdü.*

## İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*9 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da İran İslam Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və İranın dövlət bayraqları ilə bəzədilmiş Tehranın «Mehrabad» Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini İranın yüksək vəzifəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Tehran*

*9 aprel 2014-cü il*

*İran İslam Respublikasına rəsmi səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 9-da Tehranda rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və İranın dövlət bayraqlarının dalğalandığı Prezident sarayının qarşısındakı meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İran prezidenti Həsən Ruhani Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və İranın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*İran nümayəndə heyəti Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə İran prezidenti Həsən Ruhaniyə təqdim olundu.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Tehran*

*9 aprel 2014-cü il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan* sonra *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən* Ruhaninin *iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.*

*Görüşdə Azərbaycan* prezidenti *İlham Əliyevin İrana rəsmi səfərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı baxımından əhəmiyyəti* qeyd edildi. *Prezident İlham Əliyevin və* prezident *Həsən* Ruhaninin Davosda *keçirilən görüşündə ölkələrimiz arasında açıq, səmimi münasibətlərin inkişaf etdirilməsi yolları ətrafında aparılan fikir mübadiləsi məm*nunluqla *xatırlandı.*

*Söhbət zamanı ölkələrimiz arasında* dostluq *münasibətlərinin müxtəlif sahələrdə*, o *cümlədən* siyasi, iqtisadi, *sərmayə qoyuluşu,* enerji, *nəqliyyat,* infrastruktur, *mədəniyyət,* turizm *və digər sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yaxşı imkanların olduğu* qeyd edildi. *Bu imkanların reallaşdırılması, əməkdaşlığın* daha da *dərinləşməsinə* mane ola *biləcək əngəllərin* aradan *qaldırılması* istiqa*mətində səylərin gücləndirilməsinin zəruriliyi vurğulandı.*

Sonra *prezident İlham Əliyevin və* prezident *Həsən* Ruha*ninin təkbətək görüşü* oldu.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Tehran*

*9 aprel 2014-cü il*

*Geniş tərkibdə və təkbətək görüşlər başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və İran prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İranın İdman və Gənclər naziri Mahmud Qudərzi «Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İranın Daxili İşlər naziri Əbdülrza Rəhmani Fəzli «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə İran İslam Respublikasının Daxili İşlər Nazirliyi arasında fövqəladə halların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və İranın Yol və Şəhərin İnkişafı naziri Abbas Axundi «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərin İnkişafı Nazirliyi arasında meteorologiya və əlaqədar məsələlərə dair Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycanın İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev və İranın Energetika naziri Həmid Çitçian «Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında «Ordubad» və «Marazad» su-elektrik stansiyalarının tikintisi və istismarı haqqında Saziş»i imzaladılar.*

# İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Tehran*

*9 aprel 2014-cü il*

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata bəyanatlarla çıxış etmişlər.*

## İran prezidenti Həsən Ruhaninin bəyanatı

Mehriban və bağışlayan Allahın adı ilə!

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə və onun rəhbərlik etdiyi nümayəndə heyətinə İrana səfərlərinə görə minnətdarlığımı bildirirəm.

Mənim cənab Prezidentlə ilk görüşüm Davos Forumu çərçivəsində olmuşdur. Həmin görüş çərçivəsində biz münasibətlərimizin gələcəyi üçün çox mühüm qərarlar qəbul etdik. Bu gün keçirdiyimiz həm geniş tərkibdə, həm də təkbətək görüşlərdə ölkələrimizin münasibətləri ilə əlaqədar bütün sahələri əhatə edən hərtərəfli müzakirələr apardıq. Bu gün əziz İran xalqına bəyan etmək istəyirəm ki, bizim dost ölkələrimiz arasında əlaqələrin bütün səviyyədə inkişaf etməsi üçün heç bir maneə yoxdur. Azərbaycan Respublikası və İran İslam Respublikası 2 yaxın qonşu, dost, qardaş və həmməzhəb ölkələrdir. Ölkələrimiz arasındakı səmimi münasibətlər xalqlarımızın xeyrinədir. Həmçinin ölkələrimiz arasındakı bu

münasibətlər regionda sülhün, əmin-amanlığın və təhlükəsizliyin xeyrinədir.

Biz 2 ölkə arasında neft, neft-kimya, elektroenergetika, su və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün eyni fikirdəyik. Bu gün imzalanmış sənədlərdən əlavə, bugünkü görüşümüz və apardığımız danışıqlar nəticəsində biz gələcəkdə əlaqələrimizin daha da dərinləşməsi və hərtərəfli inkişafı üçün geniş müstəvi yaratdıq. Biz 2 ölkə xalqlarının mədəni əlaqələrinin inkişaf etdirilməsi üçün belə razılığa gəldik ki, xalqlarımızın əlaqələrinin daha da yaxşılaşdırılması üçün lazımlı, gərəkli addımlar atılsın. O cümlədən bizim islama və məzhəbə baxışlarımız eynidir. Hər ikimiz islam dinindən radikal hərəkətlərdə vasitə kimi istifadə olunmasına mənfi yanaşırıq. Bizim regionumuzda sabitliyin qorunması üçün mötədillik və terrorizmlə mübarizədən başqa bir yolumuz yoxdur. Həmçinin biz ölkələrimiz arasında Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı aparılan danışıqlar və bu sahədə əməkdaşlıq barədə fikir mübadiləsi apardıq. Hər 2 tərəf bu qənaətdədir ki, bu məsələdə yekun qərarın qəbul olunması üçün bizi uzaq yol gözləmir.

Biz beynəlxalq platformada əməkdaşlıqla bağlı oxşar fikirdəyik. Azərbaycan Respublikasının möhtərəm Prezidenti danışıqlarda İran İslam Respublikasının sülhməramlı nüvə texnologiyasından istifadə hüququnu dəstəklədiyini bəyan etdi. Biz onun tərəfindəyik ki, regiondakı bütün münaqişələr, o cümlədən Qarabağ münaqişəsi beynəlxalq səviyyədə qəbul edilmiş qərarlar və ədalət çərçivəsində öz həllini tapsın. Bizim mövqemiz belədir ki, regiondakı coğrafi sərhədlərin dəyişdirilməsi qəbuledilməzdir. Biz gərək bütün səylərimizi birləşdirək ki, belə oxşar məsələlər danışıqlar və sülh yolu ilə həll olunsun.

Mən cənab Prezidentin məni Azərbaycan Respublikasına dəvətini çox böyük məmnuniyyətlə qəbul edirəm. Əminəm ki, yaxın münasib vaxtlarda dost və qardaş Azərbaycan Respublikasını ziyarət edəcəyəm.

Həm İran xalqına, həm də Azərbaycan xalqına inkişaf, səadət və tərəqqi arzulayıram. Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

İlk növbədə, dəvətə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Qardaş İran torpağında olmağımdan çox məmnunam. Əminəm ki, mənim səfərim İran–Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm addım olacaq. Fürsətdən istifadə edərək, cənab Prezident, Sizi münasib olan vaxtda Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Onu da qeyd etməliyəm ki, bu səfər mənim İrana üçüncü rəsmi səfərimdir. Səfərlərin sayı özlüyündə bir göstəricidir. Biz istəyirik ki, əlaqələrimiz bütün sahələrdə uğurla inkişaf etsin və buna nail olmaq üçün indi çox gözəl imkanlar vardır.

Biz ilin əvvəlində cənab prezident Ruhani ilə Davosda görüşmüşük. Bu gün isə İranda bizim siyasi dialoqumuz davam edir. Biz bu gün ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini geniş və səmimiyyətlə müzakirə etdik. Biz beynəlxalq təşkilatlarda çox uğurlu fəaliyyət göstəririk. BMT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, «Qoşulmama Hərəkatı» təşkilatlarında bizim fəaliyyətimiz çox uğurludur.

Bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İranın dəstəyi çox önəmlidir. Bu münaqişə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. İran İslam Respublikasının bu münaqişə ilə bağlı ortaya qoyduğu mövqe ədalətə, beynəlxalq hüquqa əsaslanır və bu mövqeyə görə biz Sizə minnətdarıq.

Bildiyiniz kimi, uzun illər Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış əraziləri işğal altındadır. Bu işğal nəticəsində 1

milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişlər. Bu gün işğal edilmiş torpaqlarda bizim bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıbdır. Münaqişənin tezliklə və beynəlxalq hüquq əsasında həll edilməsi region üçün də böyük fayda olardı.

Bu gün biz digər sahələrdə əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. İqtisadi sahədə, sərmayə qoyuluşu sahəsində gözəl imkanlar vardır. Energetika sahəsində əməkdaşlıq uğurludur və bu gün imzalanan «Ordubad» və «Marazad» su- elektrik stansiyalarının tikintisi sazişi bu əməkdaşlığı daha da gücləndirəcəkdir. Neft-qaz sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar vardır. Eyni zamanda, hərbi sahədə əməkdaşlığın dərinləşməsi üçün biz əlavə yollar axtaracağıq. Bu gün eyni zamanda, yüksək texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları sahəsində mümkün olan əməkdaşlıq haqqında da fikirlərimiz birmənalıdır və üst-üstə düşür.

Əlbəttə, humanitar və mədəniyyət sahəsində əməkdaşlıq xüsusi məna daşıyır. Bizim tariximiz, mədəniyyətimiz, tarixi irsimiz xalqlarımız üçün çox qiymətlidir, dəyərlidir. Xalqlarımız əsrlərboyu bir yerdə yaşamış, yaratmışlar. Bizim xalqlarımızı dərin tarixi və mədəni köklər bağlayır. İran–Azərbaycan əlaqələri bu gün bu möhkəm zəmin üzərində qurulur. Əminəm ki, biz qarşımıza qoyduğumuz bütün məqsədlərə çatacağıq və birgə səylərlə İran–Azərbaycan əlaqələrini daha da yüksək pilləyə qaldıracağıq.

Diqqətinizə görə çox sağ olun.

# İRANIN RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ, HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ MAHMUD VAEZİ İLƏ GÖRÜŞ

*Tehran*

*9 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da İranın Rabitə və İnformasiya Texnologiyaları naziri, hökumətlərarası komissiyanın həmsədri Mahmud Vaezi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyevin İrana rəsmi səfərinin ikitərəfli münasibətlərin genişlənməsi baxımından əhəmiyyəti qeyd edildi. Azərbaycan və İran prezidentlərinin apardığı müzakirələrin hökumətlərarası komissiyanın işinə töhfə verəcəyi vurğulandı. Səfər zamanı aparılan müzakirələrin əlaqələrimizin daha da genişlənməsində mühüm rol oynayacağı bildirildi.*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*Tehran*

*9 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşmüşdür.*

*Seyid Əli Xamenei xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini və bu görüşlər zamanı səmimi söhbətləri məmnunluqla xatırlatdı. O, Azərbaycan Prezidentinin səfərinin ölkələrimiz arasındakı əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı. Seyid Əli Xamenei əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi, xalqlarımız, dövlətlərimiz arasındakı yaxınlığın və ümumi köklərin münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini qeyd etdi. İranın Ali Rəhbəri ölkəsinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında həllinin tərəfdarı olduğunu bildirdi. Seyid Əli Xamenei Azərbaycan Prezidentinin böyük təcrübəyə malik olduğunu vurğuladı və Azərbaycan xalqına firavanlıq arzularını çatdırdı.*

*Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini, ölkələrimiz arasında tarixi, mədəni, dini köklərin əlaqələrimizin inkişafı üçün möhkəm zəmin yaratdığını bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə İranın beynəlxalq səviyyədə bir-birini dəstəklədiklərini vurğuladı, iqtisadi əlaqələrimizin genişləndirilməsi işində yaradılmış müştərək komissiyanın mühüm rol oynayacağını diqqətə çatdırdı.*

*Azərbaycan Prezidenti ölkələrimiz və xalqlarımız arasında əlaqələrin bundan sonra da genişləndirilməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Ermənistanın təcavüzü nəticəsində meydana gəlmiş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları və prinsipləri əsasında həllinin vacib olduğunu bildirdi. Prezident İlham Əliyev münasibətlərimizin inkişafı üçün ölkələrimizin siyasi iradəyə malik olduğunu vurğulayaraq əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri aprelin 9-da başa çatmışdır.*

*Tehranın «Mehrabad» Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi İranın yüksək vəzifəli dövlət və hökumət rəsmiləri yola saldılar.*

## XƏZƏR BEYNƏLXALQ SU TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi Azərbaycanın paytaxtı Bakı şəhərində II Xəzər Beynəlxalq su texnologiyaları sərgisi və konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Ölkəmizdə müxtəlif sahələr üzrə keçirilən ənənəvi tədbirlər sırasında su təchizatı sistemlərində qazanılan uğurların və dünyada tətbiq olunan innovativ texnologiyaların nümayiş etdirildiyi sərgi və konfransınızın özünəməxsus yeri vardır.

Bu gün dinamik inkişaf edən Azərbaycan ölkə əhalisinin sağlamlığını qorumaq məqsədilə keyfiyyətli içməli su təchizatı sistemlərinin müasir standartlara uyğun yenidən qurulması istiqamətində irimiqyaslı layihələr gerçəkləşdirir.

Beynəlxalq tərəfdaşlığın genişləndirilməsi və yeni təşəbbüslərin işgüzar dairələrə çatdırılması baxımından mühüm əhəmiyyətə malik konfransınızın işində 90-dan artıq nüfuzlu alimin, eləcə də sərgidə 24 ölkənin 80-ə yaxın şirkətinin iştirakı bu mötəbər tədbirə marağın yüksək olduğunu göstərir.

İnanıram ki, forumunuz qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin daha da dərinləşməsinə yol açacaq və qarşıdakı illər üçün fəaliyyətinizin aparıcı inkişaf meyillərinin müəyyənləşməsinə öz töhfəsini verəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 aprel 2014-cü il*

# ZİMBABVE RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SİMBARAŞE MUMBENGEGVİ İLƏ GÖRÜŞ

*10 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Zimbabve Respublikasının Xarici İşlər naziri Simbaraşe Mumbengegvini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Zimbabvenin Xarici İşlər naziri Simbaraşe Mumbengegvinin ölkəmizdəki görüşlərinin məhsuldar keçəcəyinə və səfərin Azərbaycan ilə Zimbabve arasında ikitərəfli əlaqələrin inkişafı ilə bağlı yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi baxımından önəmli olacağına inandığını bildirdi.*

*Nazir Simbaraşe Mumbengegvi Zimbabve Respublikasının Prezidenti Robert Muqabenin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı prezident Robert Muqabenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Zimbabve dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## NATO BAŞ KATİBİNİN YENİ TƏYİN OLUNMUŞ MÜAVİNİ SORİN DUKARU İLƏ GÖRÜŞ

*10 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da NATO baş katibinin yeni təyin olunmuş müavini Sorin Dukarunu qəbul etmişdir.*

*NATO baş katibinin yeni təyin olunmuş müavini Sorin Dukaru NATO-nun baş katibi Anders Foq Rasmussenin salamlarını dövlətimizin başçısına çatdırdı. NATO ilə Azərbaycan arasında tərəfdaşlıq əlaqələrinin artıq 20 illik tarixə malik olduğunu vurğulayan qonaq bu əlaqələrin inkişafının önəmini qeyd etdi. Sorin Dukaru bildirdi ki, ölkəmizə səfərinin əsas məqsədi NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» Proqramının 20 illik yubileyində və eləcə də «Sülh və təhlükəsizlik naminə elm» proqramı üzrə keçiriləcək informasiya günlərində iştirak etməkdir.*

*Dövlətimizin başçısı NATO-nun Brüsseldəki mənzil-qərargahında keçirdiyi uğurlu görüşləri, aparılan müzakirələri məmnunluqla xatırlatdı. Əməkdaşlığımızın böyük tarixə malik olduğunu vurğulayan prezident İlham Əliyev tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə, xüsusilə enerji və Əfqanıstan ilə bağlı əməkdaşlıq sahəsində bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Anders Foq Rasmussenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO-nun baş katibinə çatdırmağı xahiş etdi.*

# NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*13 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 13-də Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz Nazirlər Kabinetinin iclasında 2014-cü ilin birinci rübünün iqtisadi və sosial yekunlarını müzakirə edəcəyik. Xatırlayıram, 2013-cü ilin yekunlarını müzakirə edərkən mən bildirmişdim ki, əminəm 2014-cü il də iqtisadi inkişaf baxımından ölkəmiz üçün uğurlu olacaqdır və ilin 3 ayının yekunları bunu təsdiqləyir. Azərbaycan dinamik inkişaf templərini saxlaya bilmişdir. Ölkəmiz bütün sahələrdə uğurla irəliyə gedir. İqtisadiyyat 2,5 faiz artmışdır. Hesab edirəm ki,

* Назирляр Кабинетинин 2014-ъц илин биринъи рцбцнцн сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласында Верэиляр назири Фазил Мяммядов, Енерэетика назири Натиг Ялийев vә Тящсил назири Микайыл Ъаббаров çıxış etdilər.

bu, yaxşı göstəricidir. Ümumi daxili məhsulumuzun strukturu da yaxşılaşır. Əlbəttə ki, son illərdə bizim üçün iqtisadi inkişafı göstərən əsas göstərici qeyri-neft sektorunun parametrləridir. Keçən ildə olduğu kimi, bu il də biz bu sahədə sürətli inkişafa nail ola bilmişik.

Keçən il qeyri-neft sektorumuz 10 faiz, bu ilin birinci rübündə isə 8,8 faiz artmışdır. Əlbəttə ki, bu artım son illərdə Azərbaycanda aparılan islahatların nəticəsidir. İqtisadiyyatla bağlı aparılan siyasət bizi, bax, bugünkü reallığa gətirib çıxarmışdır.

İqtisadiyyatın şaxələndirilməsi bizim əsas prioritetimizdir. Hesab edirəm ki, biz buna nail ola bilmişik. Çünki artıq uzun müddət ərzində qeyri-neft sektorumuz sürətlə artır.

Hesab edirəm ki, biz sosial məsələlərin həllində də siyasətimizi düzgün istiqamətdə aparırıq. Bu siyasət artıq illər ərzində aparılır və sınaqdan çıxmışdır. Əhalinin pul gəlirləri 4,5 faiz artmışdır. İnflyasiya isə cəmi 2 faiz təşkil edir. Beləliklə, həmişə olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı 2 dəfədən çox üstələyir. Bu da insanların sosial məsələlərinin həlli üçün əsas şərtdir. Bu, Azərbaycanda iqtisadi və sosial islahatların düzgün istiqamətdə aparılmasını göstərir. Çünki köklü iqtisadi islahatlar eyni zamanda, çox ciddi sosial proqramlarla da təmin edilməlidir.

Kənd təsərrüfatında artım 3 faizdən bir qədər çoxdur. Bu da müsbət hal kimi qiymətləndirilə bilər. Əminəm ki, gələcək illərdə görüləcək əlavə tədbirlər nəticəsində biz bu sahədə daha da böyük rəqəmlər görəcəyik.

Bizim valyuta ehtiyatlarımız artır və birinci rübdə xeyli artmışdır. Hazırda valyuta ehtiyatlarımız 53 milyard dollar təşkil edir. Bu çox böyük rəqəmdir. Xüsusilə ölkəmizin əhalisini nəzərə alsaq görərik ki, bu göstərici üzrə adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan dünyada qabaqcıl ölkələr sırasındadır. Ən önəmli məsələ ondan ibarətdir ki, baxmayaraq, bizim böyük investisiya proqramlarımız icra edilir, valyuta ehtiyatlarımız azalmır, ildən-ilə artır. Bu da bizim

siyasətimizdir. Mən bunu dəfələrlə bəyan etmişəm ki, iqtisadiyyatımızın, sahibkarlığın inkişafı, infrastruktur layihələrinin icrası üçün öz maliyyə imkanlarımızdan istifadə etməliyik, valyuta ehtiyatlarımız da ildən-ilə artmalıdır.

Bu gün bizim təcrübəmiz, vəsaiti iqtisadiyyatın real sektoruna yönəltmək, investisiyaları cəlb etmək və infrastruktur layihələrini icra etmək siyasətimiz hesab edirəm ki, dünya miqyasında artıq bir nümunə kimi qəbul edilir.

Çünki vaxtilə bu siyasətdə müxtəlif fikirlər var idi. Bəzi beynəlxalq maliyyə qurumları bizə başqa məsləhətlər verirdi, başqa tövsiyələr irəli sürülürdü. Ancaq biz öz siyasətimizi düzgün aparmışıq. Ölkəmizi inkişaf etdirmək, güclü potensial yaratmaq və qeyri-neft sektorunun inkişafı üçün biz valyuta ehtiyatlarımızdan çox səmərəli şəkildə istifadə etmişdik.

Bizim çox güclü maliyyə vəziyyətimiz müstəqil siyasətimizi şərtləndirir. Çünki iqtisadi cəhətdən azad olan, heç kimdən asılı olmayan ölkə beynəlxalq aləmdə öz sözünü daha da qətiyyətlə deyə bilir.

Bir sözlə, əsas iqtisadi parametrlərimiz çox müsbətdir. Bu mənzərə gələcəyə də nikbinliklə baxmaq üçün imkan yaradır. Əminəm ki, ilin sonuna qədər bu inkişaf templəri davam edəcək və biz 2014-cü ili də böyük uğurlarla başa vuracağıq.

Əhalinin banklarda əmanətləri 20 faizdən çox artmışdır. Bu da çox müsbət göstəricidir. Bu ilk növbədə, onu göstərir ki, insanların maddi vəziyyəti yaxşılaşır. Digər tərəfdən, bu hal banklara inamın təzahürüdür. Bu, imkan verir ki, banklarımız ölkəmizin iqtisadi inkişafında daha da fəal iştirak etsinlər və əvvəlki toplantılarda dediyim kimi, iqtisadiyyatın real sektoruna daha çox kredit resurslarını yönəltsinlər. Çünki belə olan halda işlərimiz daha da sürətlə gedəcəkdir.

Biz bu ilin birinci rübünün cəmi 2 ayı ərzində Azərbaycanda böyük bir sosial təşəbbüsün icrasını müşahidə edirik. Əhalinin dispanserizasiya proqramı icra edilir. Bu, sırf sosial məna daşıyan bir layihədir. Bu layihənin icra edilməsi üçün, əlbəttə ki, ilkin şərtlər olmalı idi. Bu da ondan ibarətdir ki, müasir

avadanlıqlar, müasir tibb mərkəzləri olmalıdır və bunları da biz son illər ərzində bütün ölkə üzrə yaratmışıq. Belə olan halda ən müasir avadanlıqdan istifadə edərək, müayinədən keçmək üçün ölkəmizin hər bir yerində imkan vardır. Qısa müddət ərzində – cəmi 2 ayda 4 milyon insan bu müayinədən keçib. Hesab edirəm ki, bu təşəbbüs hər il göstərilməlidir və bu, daimi proses olmalıdır.

Mən son illərdə müxtəlif bölgələrdə yeni xəstəxanaların açılışlarında, görüşlər əsnasında bir fikri dəfələrlə vurğulamışam ki, hər bir insan ildə 1 dəfə müayinədən keçməlidir. Şadam ki, artıq vətəndaşlar da buna müsbət reaksiya verirlər. Çünki bu ilk növbədə, onlar üçün lazımdır, hər bir insan üçün lazımdır. Bu gün Azərbaycanda müasir tibbi avadanlıqlar var ki, istənilən müayinəni aparmaq mümkündür. Yəni hesab edirəm ki, bu, sosial siyasətimizin tərkib hissəsi olan çox önəmli bir təşəbbüsdür. Şadam ki, bunu biz icra edə bilirik.

Birinci rübdə orta əməkhaqqı təxminən 7 faiz artmışdır. Bu gün Azərbaycanda orta əməkhaqqı 430 manat, yəni 550 dollar səviyyəsindədir. Əməkhaqqı ildən-ilə artır və artacaqdır. Gələcəkdə görüləcək işlər, iqtisadi inkişaf, neft-qaz sektorunun inkişafı sayəsində, eyni zamanda, maaşların və pensiyaların qaldırılması nəticəsində orta əməkhaqqı və orta pensiya daha da artmalıdır, artacaqdır.

İlin birinci rübündə regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı qəbul edildi. Biz ikinci Proqramın yekunlarını fevral ayında müzakirə etmişik. Üçüncü Proqramın qəbul edilməsi əminəm ki, qalan sosial və iqtisadi məsələlərin növbəti 5 il ərzində həlli üçün bizə böyük dəstək olacaqdır. Bu da əvvəlki proqramlar kimi, çox müfəssəl bir sənəddir. Proqramda bütün məsələlər öz əksini tapıb. Hər bir rayon üzrə konkret vəzifələr, tapşırıqlar var. Təbii ki, icra mexanizmləri, maliyyə resursları da bu Proqramı dəstəkləyir. Əminəm ki, 2018-ci ilə qədər bu Proqramın icrası nəticəsində bölgələrdə əsas sosial infrastruktur, iqtisadi məsələlər öz həllini tapacaqdır.

Eyni zamanda, Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilib. Bu Proqram 2016-cı ildə başa çatacaqdır. O vaxta qədər Bakının qəsəbələrində bütün infrastruktur layihələri icra ediləcəkdir. Qazlaşdırma tam axıra çatdırılacaqdır, elektrik enerjisi ilə təminat daha da yaxşı olacaqdır, içməli su, kanalizasiya, kənd yollarının tikintisi layihələri icra ediləcəkdir. İş yerləri açılacaq, məktəblər, xəstəxanalar, tibb məntəqələri tikiləcəkdir. Yəni hər bir qəsəbədə bu Proqram öz nəticəsini göstərəcəkdir.

Bütövlükdə birinci rübdə sosial infrastrukturun yaradılması istiqamətində də önəmli addımlar atılıb. Bu, artıq daimi bir prosesdir. Hələ ki, bu sahədə görüləsi işlər çoxdur. Baxmayaraq ki, 2 mindən artıq məktəb, 500-dən çox xəstəxana tikilib, yenə də buna ehtiyac vardır. Çalışmalıyıq ki, 2018-ci ilin sonuna qədər bu sahədə də bütün təmir-bərpa və tikinti işlərini yekunlaşdıraq ki, sosial infrastruktur tamamilə yenilənsin.

Birinci rübdə sahibkarlığın inkişafı istiqamətində əlavə tədbirlər görülmüşdür. Biznes mühitinin yaxşılaşdırılması üçün çox önəmli sərəncam imzalanmışdır. Bu sərəncamın icrası bizə imkan verəcək ki, həm də Dünya Bankının «Doing Business» reytinqində yerimizi daha da yüksəklərə qaldıraq. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üçün biz əlavə addımlar ataq. Bu, deyə bilərəm ki, bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Bu gün ölkə iqtisadiyyatının mütləq əksəriyyəti özəl sektorda formalaşır. Özəl sektor gələcəkdə Azərbaycan iqtisadiyyatının inkişafını təmin edəcəkdir. Biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici investorlar üçün daha da əlverişli vəziyyətin yaradılması daim diqqət mərkəzindədir. Əminəm ki, mənim sərəncamımda nəzərdə tutulan müddəaların icra edilməsi nəticəsində biz bu sahədə daha da yaxşı nəticələr əldə edəcəyik.

Bütövlükdə sahibkarlıqla bağlı məsələlər Azərbaycanda uğurla həll edilir. Ölkəmizdə investisiya iqlimi çox müsbətdir. Birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB məkanında liderlik rolunu saxlayır. Şadam ki, daxili investisiyalar artıq bir

neçə ildir ki, xarici investisiyaları üstələyir. Çalışmalıyıq ki, ölkə iqtisadiyyatına qoyulan vəsait artsın və bu vəsait bizim iqtisadi siyasətimizlə tam uzlaşsın.

Çünki xarici investorların təbii ki, öz maraqları ola bilər və vardır. Ölkəmizin də öz maraqları vardır. Biz bunları bir-biri ilə bağlamalıyıq, bağlayırıq. Bugünkü Azərbaycan artıq dünya miqyasında biznes aparmaq üçün çox gözəl ölkə kimi tanınır. Təsadüfi deyil ki, aparıcı maliyyə qurumlarının reytinqlərində Azərbaycanda iqtisadi islahatlarla bağlı çox müsbət rəy vardır. İqtisadiyyatımızın rəqabətqabliyyətliliyi artır. Aparıcı reytinq agentlikləri bizim kredit reytinqlərimizi yüksək səviyyədə saxlayır. Biz bu gün xarici maliyyə bazarlarından istənilən məbləğdə vəsait cəlb edə bilərik və bunu artıq bu yaxınlarda etmişik. Çox məhdud sayda etmişik. Ancaq tələbat və ya sifariş təklif etdiyimiz imkanlardan təqribən 4-5 dəfə artıq olmuşdur. Biz ən məqbul şərtlərlə əlavə maliyyə resursları cəlb etmişik.

Bizim maliyyə vəziyyətimiz, ümumiyyətlə, belədir ki, beynəlxalq bazarlardan istənilən məbləğdə limitsiz, məhdudiyyətsiz kredit resursları ala bilərik. Sadəcə olaraq, bunu böyük dərəcədə etmirik. Çünki buna ehtiyac yoxdur. Ancaq bu gün Azərbaycan xarici borcun azlığına görə, deyə bilərəm ki, dünyada aparıcı yerlərdədir. Xarici borc ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Bu, dünya miqyasında bəlkə də ən aşağı göstəricidir, bəlkə onlardan biridir.

Bir sözlə, bu gün bizim öz maliyyə imkanlarımız vardır. Onları biz yaratmışıq, gərgin iş, düşünülmüş siyasət nəticəsində, enerji sektorunun inkişafı sayəsində. Biz bu gün istənilən məbləği ölkə iqtisadiyyatına cəlb edə bilərik. Ancaq bir daha demək istəyirəm və hesab edirəm ki, xarici borcumuzun ümumi daxili məhsulumuzda səviyyəsi bir rəqəmlə ölçülməlidir. Bu gün bu, 8 faizdir. Yəni bu səviyyədə qalsa, hesab edirəm ki, gələcək üçün də və imkanlarımızın genişlənməsi üçün də bu, məqbul bir səviyyədir.

Azərbaycan birinci rübdə beynəlxalq siyasətlə bağlı öz mövqelərini dünyada daha da möhkəmləndirmişdir. Azərbaycan beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi tanınır. Bizim xarici

siyasətimiz açıqdır, prinsipialdır, ədalətə, beynəlxalq hüquqa söykənir. Bu prinsipiallıq və hər bir məsələ ilə bağlı mövqemizin sərgilənməsi, əlbəttə ki, Azərbaycana əlavə rəğbət yaradır. Bəzi beynəlxalq məsələlərlə bağlı dünya ictimaiyyətinin əksəriyyəti mövqe bildirməkdən çəkinir. Biz buna qiymət vermək fikrində deyilik. Ancaq Azərbaycan hər bir məsələ ilə bağlı prinsipial mövqe nümayiş etdirir. Bu mövqe ilk növbədə, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Beynəlxalq hüququn norma və prinsipləri əsas şərt olmalıdır. Çünki bugünkü beynəlxalq aləm bu prinsiplər üzərində qurulubdur. Əgər bunlar pozulursa, onda bütün beynəlxalq əməkdaşlıq və münasibətlər mexanizmi pozulur. Beynəlxalq aləmdə, bax, bu prinsipial mövqe, əlbəttə ki, bizə böyük rəğbət yaradır. Azərbaycan müstəqil, prinsipial ölkə kimi, öz mövqelərini daha da möhkəmləndirir. Beynəlxalq təşkilatlarda ölkəmiz haqqında bu düzgün təsəvvür gələcəkdə bizə əlavə imkanlar yaradacaqdır.

Birinci rübdə mən Davos Dünya İqtisadi Forumunda iştirak etmişəm. Deyə bilərəm ki, Azərbaycan bu Forumda 10 ilə yaxındır ki, iştirak edir. Bu Forum həm orada müzakirə olunan məsələlər baxımından, eyni zamanda, təmaslar nöqteyi-nəzərindən hesab edirəm ki, dünyada birinci Forumdur. Bu, təkcə iqtisadi Forum deyil, eyni zamanda, siyasi Forumdur. Bu Forumda iştirak, mövqemizin nümayiş etdirilməsi və izahı hesab edirəm ki, çox önəmli məsələdir. İlin əvvəlində mənim NATO-ya səfərim olmuşdur. Artıq mən bir neçə dəfə NATO-ya səfər etmişəm. Bu səfər də çox müsbət olmuşdur. Bizim ikitərəfli əlaqələrimiz müsbətdir. Gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparılıbdır. Enerji təhlükəsizliyində sülhməramlı missiyalarda Azərbaycanın iştirakı və onun payı təqdirlə qarşılanır.

Azərbaycan beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edir. Biz müxtəlif beynəlxalq təşkilatların üzvüyük. Bir neçə təşkilatla sıx əməkdaşlıq edirik. Hesab edirəm ki, bu siyasət də bizə əlavə dividendlər gətirir. Eyni zamanda, ilin birinci rübündə mən Dünya Nüvə Sammitində iştirak etmişəm.

Azərbaycanın bu sammitdə iştirakı xüsusi məna daşıyır. Çünki biz təbii ki, nüvə dövləti deyilik. Eyni zamanda, bizdə atom elektrik stansiyaları da yoxdur. Ancaq ölkəmizin önəmi, bölgədə və dünyada oynadığı rol, əlbəttə ki, Azərbaycana sammitdə iştirak edən ölkələrin sırasında olmaq üçün şərait yaratmışdır. Bu sammitdə həm açıq, həm də qapalı hissələrdə çox önəmli məsələlər müzakirə edilmişdir. Dünyada təhlükəsizliyin təmin edilməsi məsələləri, əlbəttə ki, indi dünya gündəliyinin birinci sıralarındadır. Azərbaycan bu sahədə də öz töhfəsini verir və verəcəkdir. Bildiyiniz kimi, biz BMT Təhlükəsizlik Şurasında sədrlik edən zaman məhz terrorizmə qarşı mübarizə mövzusu ilə bağlı müzakirələr təşkil etmişdik.

Birinci rübdə ikitərəfli formatda çoxsaylı təmaslarım olmuşdur. İndi Azərbaycana müxtəlif qitələrdən gələn nümayəndə heyətlərinin sayı getdikcə artır. Bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Yüksək səviyyəli qarşılıqlı səfərlər olmuşdur. Türkiyənin Baş naziri Azərbaycanda səfər-də olmuşdur. Bələdiyyə seçkilərindən sonra bu, Baş nazirin ilk səfəri idi. Bizim dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətləri bu səfər əsnasında bir daha təsdiqləndi.

Bu yaxınlarda mən İran İslam Respublikasına rəsmi səfər etmişəm. Bu səfər də çox uğurlu idi. Bu səfər zamanı imzalanan sənədlər, aparılan danışıqlar, fikir mübadiləsi bizim münasibətlərimizi daha da yüksək səviyyəyə qaldıracaqdır. Deyə bilərəm ki, bu səfərin çox böyük əhəmiyyəti vardır. Çünki səfər zamanı biz dostluq və səmimi əməkdaşlıq şəraitində bir çox məsələlərə aydınlıq gətirdik. Bir fikri ifadə etdik ki, bundan sonra da İran–Azərbaycan əlaqələri ancaq yüksələn xətlə inkişaf etməlidir. Hökumətlərarası birgə Komissiyanın yeni formatı müəyyən edilir, yaxın zamanlarda tam şəkildə formalaşacaqdır. Bütün istiqamətlər üzrə çox fəal iş aparılacaqdır.

Ümumiyyətlə, deyə bilərəm ki, biz həm beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edirik, eyni zamanda, qonşu ölkələrlə əlaqələrimiz ənənəvi olaraq çox müsbətdir, yaxındır. Bizim 5 qonşumuz vardır. Onlardan 1-i Ermənistandır – işğalçı

dövlətdir, düşməndir. 4-ü isə dostdur. Dost qonşularımızla əlaqələr bizim üçün prioritet məsələdir. Hesab edirəm ki, hər bir ölkə üçün onun qonşuları ilə münasibətləri xüsusi məna daşıyır. Bizi qonşularımızla tarix, keçmiş bağlayır. Bu gün biz müstəqil dövlətlər kimi, ikitərəfli əlaqələrimizi dostluq, əməkdaşlıq, bir-birinin işinə qarışmamaq prinsipləri üzərində qururuq. Əminəm ki, bu münasibətlərin inkişafı hər bir ölkə üçün gələcəkdə böyük fayda verəcəkdir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan regional müstəvidə 2 üçtərəfli formatın təşəbbüskarı olmuşdur. Bu formatlar artıq neçə ildir ki, fəaliyyət göstərir. Azərbaycan–İran–Türkiyə formatı. Xarici işlər nazirləri mütəmadi qaydada görüşürlər. Eyni zamanda, Azərbaycan–Gürcüstan–Türkiyə formatı. Burada həm iqtisadi, həm də siyasi blok artıq format kimi formalaşıb. Bu bizim təşəbbüsümüz olmuşdur. Hesab edirəm ki, çox düşünülmüş və müdrik təşəbbüs idi. Azərbaycan hər iki formatda fəal iştirak edir.

Beynəlxalq məsələlərlə bağlı bizim əsas məsələmiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, birinci rübdə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Baxmayaraq ki, keçən ilin sonlarında vasitəçilərin müəyyən nikbin fikirləri olmuşdur. Ancaq onlar özünü doğrultmur. Bu gün biz yenə də onun şahidiyik ki, Ermənistan sadəcə olaraq, vaxt uzatmaqla məşğuldur. Nə hərb, nə də sülh vəziyyətini saxlamaq istəyir və beynəlxalq vasitəçilər əfsuslar olsun ki, onlara ciddi təzyiq etmirlər.

Əslində çoxdan Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilməli idi. Çünki Ermənistan artıq 20 ildir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisini işğal altında saxlayır. Dinc əhaliyə qarşı soyqırımı törədib. Xocalı soyqırımını törədib. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıbdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi pozulur. Yəni heç bir başqa buna oxşar halda bu qədər ədalətsizlik və qanun pozuntusu olmamışdır. Beynəlxalq normalar pozulur. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir. Digər

beynəlxalq təşkilatların – Avropa Şurası, Avropa Parlamenti, ATƏT, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri icra edilmir. Onlara məhəl qoyulmur. Minlərlə Azərbaycan vətəndaşı həlak olubdur. Bizə qarşı soyqırımı törədilibdir. Nəticə etibarilə Ermənistana qarşı heç bir sanksiya tətbiq edilmir.

Sual olunur: nə üçün?! Nə vaxta qədər biz bu ikili standartlarla üzləşəcəyik?! Bunun səbəbi nədir?! Nə üçün qondarma «Dağlıq Qarabağ respublikası»nın rəhbərləri sanksiyalardan əziyyət çəkmir?! Nə üçün onlara qarşı sanksiyalar tətbiq olunmur?! Bu ədalətsizlikdir, ikili standartlardır. Ona görə biz beynəlxalq münasibətlərdə ikili standartlara qarşı öz etiraz səsimizi ucaldırıq. Bizimlə əməkdaşlıq edən Qərb ölkələrinin rəhbərlərindən xahiş edirik ki, qondarma «Dağlıq Qarabağ respublikası»nın «rəhbərləri»ni öz ölkələrinə buraxmasınlar. Onlara qarşı sanksiyalar tətbiq edilsin. Onlar gedib qanunsuz telemarafonlar keçirirlər, pullar yığırlar. Sonra o pulları bizim əleyhimizə istifadə edirlər. Onların «rəhbərləri»ni Qərbin aparıcı ölkələrində qəbul edirlər. Vizalar verilir, onlar orada «nümayəndəliklər» açırlar, gedib gəlirlər. Nə üçün?!

Hesab edirəm, vaxt gəlib çatıb ki, biz bu məsələ ilə bağlı fikrimizi daha da açıq şəkildə ifadə edək. Biz bu ikili standartlardan yorulmuşuq. Bu qədər ədalətsizliyə dözmək mümkün deyildir.

Nə üçün təcavüzkar bu günə qədər qınaq obyektinə çevrilməyib?! Nə üçün Avropa Şurası Parlament Assambleyasında Ermənistan nümayəndə heyətinin səlahiyyətlərini dayandırmaq məsələsi müzakirə edilmir?! Biz bu məsələni dəfələrlə qaldırmışıq. Yadımdadır ki, hələ 2001-ci ildə mən Azərbaycan Milli Məclisinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi, dəfələrlə bu məsələni qaldırmışam. Buna heç kim heç bir reaksiya vermir. Deyirlər, gedin razılaşın, gedin danışın, sülh yolu ilə həll edin bunu. Bizə qarşı etnik təmizləmə aparılmışdır, soyqırımı törədilmişdir. Azərbaycanlılar Dağlıq Qarabağdan qovulandan sonra orada dırnaqarası referendum keçirilmişdir. Hesab edilir ki, bu məqbuldur. Buna dözmək mümkün deyildir.

Bizə qarşı olan ədalətsizliyi faktlarla, dəlillərlə ifşa etməliyik. Hesab edirəm ki, bu prinsipial mövqe həm ədaləti bərpa edəcək, həm də ki, riyakar siyasəti ifşa edəcəkdir.

Bizə qarşı riyakar siyasət, ikili standart siyasəti davam edir. Biz isə bununla heç vaxt barışmayacağıq. O ki qaldı münaqişənin həllinə, heç kim üçün sirr deyil, bu gün dünyada əsas amil güc amilidir. Bu reallıqdır. Ona görə biz daha da güclü olmalıyıq və ilk növbədə, hərbi gücümüzü artırmalıyıq. Bir daha bu məsələni müzakirə edərkən görürük ki, biz nə qədər düzgün addım atmışıq, ordu quruculuğu prosesini daim diqqət mərkəzində saxlamışıq. Uzun illər ərzində alınan silahlar, texnikalar, sursatlar bu gün bizim gücümüzü böyük dərəcədə artırmışdır.

Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan geri qalmır. Bu yaxınlarda Naxçıvanda olarkən oradakı yeni texnikanın nümayişi göstərdi ki, Naxçıvan Ordusu da bu gün dünya ordularında olan ən müasir texnikaya malikdir. Artıq orada həm müasir artilleriya qurğuları, döyüş və nəqliyyat helikopterləri, tank əleyhinə qurğular, hava hücumuna qarşı qurğular, ən müasir «T-72», «T-90» tankları və digər hərbi silah-sursat vardır, daha da artacaqdır. Biz daha da güclü olmalıyıq və olacağıq.

## YEKUN NİTQİ

İkinci rübdə və ilin sonuna qədər görüləcək işlər çoxdur. Biz bu işlərin hamısını yüksək səviyyədə görməliyik. İlk növbədə, Dövlət İnvestisiya Proqramı tam şəkildə icra edilməlidir. Bu il bu İnvestisiya Proqramı kifayət qədər böyükdür. İnvestisiyalar ölkəmizin hərtərəfli inkişafına xidmət göstərir və güclü iqtisadi potensialımızın artırılmasına yönəlibdir.

İnfrastruktur layihələri proqram üzrə aparılır və aparılmalıdır. Hələ ki, biz infrastruktur layihələrini tam şəkildə başa çatdıra bilməmişik. Ancaq bu istiqamətdə müsbət irəliləyiş vardır. Bu il də ənənəvi olaraq qazlaşdırma, kənd yollarının, su

və kanalizasiya xətlərinin çəkilişi layihələri icra ediləcəkdir və əslində icra edilir. Bəzi rayonlarda bu layihələr başa çatıb. Bəzi rayonlarda isə hələ ki, işlər davam edir. İçməli su və kanalizasiya layihələri hazırda əsas prioritet məsələdir. Çünki elektrik enerjisi ilə təminat, qazlaşdırma sahəsindəki işlərin böyük əksəriyyəti artıq görülübdür. Hazırda kənd yolları, içməli su və kanalizasiya layihələri daha da böyük investisiya tələb edir. Bu yaxınlarda Prezidentin ehtiyat fondundan artezian quyularının qazılması üçün əlavə vəsait ayrılmışdır. Bu da insanları içməli su ilə təmin etmək üçün çox önəmli bir addım olacaqdır.

Bir sözlə, bu məsələlər Dövlət İnvestisiya Proqramında öz əksini tapıbdır, icra edilməlidir, maliyyə problemlərimiz yoxdur. Eyni zamanda, sosial infrastruktur layihələri icra edilir. Biz burada da keyfiyyətə üstünlük verməliyik. Məktəblərin, xəstəxanaların tikintisi ən yüksək səviyyədə aparılmalıdır. Əminəm ki, Dövlət İnvestisiya Proqramının tam həcmdə icrası bu il də təmin ediləcəkdir.

Sosial proqramların icrası da dövlət büdcəsində nəzərdə tutulub. Bu, dediyim kimi, daimi bir prosesdir. Biz çalışmalıyıq ki, insanlarımız sosial təminat baxımından əziyyət çəkməsinlər. Xüsusilə aztəminatlı ailələr üçün sosial dəstək daha da təsirli olmalıdır.

İnvestisiya Proqramımız böyük olduğuna görə biz, əlbəttə ki, makroiqtisadi vəziyyətə də daim diqqət yetirməliyik. Hazırda makroiqtisadi sabitlik təmin edilir, inflyasiya cəmi 2 faizdir. Ümid edirəm ki, ilin sonuna qədər inflyasiyanı bu səviyyədə saxlaya biləcəyik. Deyə bilərəm ki, Azərbaycan nadir ölkələrdəndir ki, giriş sözümdə dediyim kimi, əhalinin pul gəlirləri inflyasiyanı daim üstələyir – 2 dəfə, 3 dəfə. Amma bu, daimi üstələmədir. Bu göstərici sadəcə olaraq, gözəl bir iqtisadi parametr deyil, bu əslində insanların gündəlik həyatında böyük rol oynayan bir amildir.

Biz çalışmalıyıq ki, xarici investisiyaları ölkəmizin inkişafı üçün lazım olan, prioritet təşkil edən sektorlara cəlb edək. Bizdə

xarici investisiyalar daha çox neft-qaz sektoruna qoyulur. Bu da təbiidir. Artıq 20 ildir bu, belədir. Yəqin nəzərə alsaq ki, biz indi böyük enerji layihələrini icra edirik, belə də olacaqdır. Ancaq biz çalışmalıyıq ki, digər sektorlara da xarici və özəl investisiyaları daha böyük həcmdə cəlb edək. Çünki hazırda infrastruktur layihələrinin icrasına dövlət investisiyaları qoyulur. Biz dövlət kreditlərindən istifadə edərək, iqtisadiyyatın real sektorlarını da canlandırırıq. Ancaq çalışmalıyıq ki, xarici investisiyaları sənaye inkişafının artırılmasına, kənd təsərrüfatına, turizm, xidmət, İKT sektorlarına da cəlb edək. Əlbəttə, bu o qədər də asan məsələ deyildir. Çünki hələ ki, dünyanı bürümüş iqtisadi və maliyyə böhranının fəsadları yaşanır, hələ aparıcı dünya iqtisadiyyatlarının iqtisadi inkişafı onlar üçün lazımi səviyyədə təmin edilməyib. Ona görə xarici investisiyaları cəlb etmək o qədər də asan məsələ deyildir. Nəzərə almalıyıq ki, dünyanın əksər ölkələri bu işlərlə məşğuldur. Ancaq biz elə bir şərait yaratsaq və ümumiyyətlə, Azərbaycanda islahatlarla, biznes mühitinin yaxşılaşdırılması və ümumi inkişafla bağlı mənzərə çox müsbət olduğu üçün hesab edirəm ki, əgər bu məsələləri düzgün təşkil etsək, biz xarici investisiyaları daha çox lazım olan sahələrə yönəldə bilərik. Biz bu məsələlər ətrafında işləməliyik.

Sahibkarlığın inkişafı ilə əlaqədar işlər artıq yolundadır. Həm maliyyə resursları, həm məsləhət, tövsiyə xarakterli tədbirlər görülür ki, sahibkarlar aldığı güzəştli kreditlərdən daha da səmərəli şəkildə istifadə etsinlər. Bu, əlbəttə, emal sənayesinin, kənd təsərrüfatının inkişafında özünü gələcəkdə də göstərəcəkdir.

Ərzaq təhlükəsizliyi məsələləri bu sahədə prioritet təşkil edir. Hesab edirəm ki, biz Azərbaycanda istehlak edilən və istehsalı mümkün olan digər məhsulların istehsalı ilə ciddi məşğul olmalıyıq. Onların arasında tikinti materiallarının istehsalı hesab edirəm ki, diqqəti çəkməlidir. Çünki istehsalı mümkün olan bütün məhsullar Azərbaycanda istehsal edilməlidir və biz idxaldan asılılığımızı azaltmalıyıq. İlk növ-

bədə, iqtisadiyyatı inkişaf etdirmək və yeni iş yerlərini yaratmaq üçün. Eyni zamanda, biz ixrac imkanlarımızı da artırmalıyıq. Mən əminəm ki, indi kənd təsərrüfatı ilə bağlı aparılan islahatlar – məhsuldarlığın artırılması, subsidiyalarda şəffaflığın təmin edilməsi, kənd təsərrüfatı texnikasının daha da böyük həcmdə alınması və digər tədbirlər nəticəsində bizdə daha da böyük ixrac potensialı yaranacaq və bizim artan daxili tələbat Azərbaycanda istehsal olunacaq kənd təsərrüfatı məhsullarını həzm edə bilməyəcəkdir. Ona görə ixrac imkanlarımızı artırmalıyıq. İxraca çıxarılan məhsullar ən yüksək dünya standartlarına cavab verməlidir. Biz yeni ixrac bazarları axtarmalıyıq və o bazarlara çıxmalıyıq.

Belə olan halda biz gələcəkdə sahibkarlığın və kənd təsərrüfatının yüksəlişi üzrə çox dinamik inkişaf yolu ilə gedəcəyik, bu inkişafı təmin edəcəyik. Çünki bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir, əhalimiz ildən-ilə artır. Son məlumata görə, artıq 9 milyon 500 min səviyyəsinə çatıbdır. Ermənistanı götürsək, hər il Ermənistanı təxminən 80–100 min arası insan tərk edir və bu ilin birinci rübünün statistikasına görə, 20 mindən çox insan tərk edibdir. Əlbəttə, bu depopulyasiyadır. Bir müddətdən sonra orada, ümumiyyətlə, 1 milyondan az əhali olacaq. Ancaq olmayan iqtisadi inkişafı, necə deyərlər, təmin etmək üçün bu onlar üçün əlverişlidir. Əgər fərz etsək ki, Ermənistanda da Azərbaycandakı kimi əhali artır, onda tamamilə müflisləşmə baş verəcəkdir və səfalət daha da böyük göstəricilərlə ölçüləcəkdir. Baxmayaraq ki, bu gün də yoxsulluq səviyyəsində yaşayanların sayı Ermənistanda 35 faizdir. Demək istəyirəm ki, kənd təsərrüfatının inkişafı Azərbaycanda müsbət demoqrafik dinamikanı da nəzərə almalıdır.

Mən regionların sosial-iqtisadi inkişafı ikinci Dövlət Proqramını müzakirə edərkən bu məsələlərlə bağlı kifayət qədər geniş danışmışam, tapşırıqlarımı vermişəm. Əlavə sözlərə ehtiyac yoxdur. Sadəcə, demək istəyirəm ki, kənd təsərrüfatında aparılan islahatları dərinləşdirmək üçün yaxın günlərdə yeni

sərəncam imzalanacaq və əminəm ki, bu sərəncamın çox müsbət təsiri olacaq.

Bizim ümumi daxili məhsulumuzun böyük hissəsini bu gün qeyri-neft sektoru təmin edir. Bu, müsbət haldır və iqtisadi şaxələndirmə siyasətimizin nəticəsidir. Ancaq əgər biz ixrac strukturuna baxsaq görərik ki, burada mütləq əksəriyyət neft-qaz sektorunun payına düşür. Bu təbiidir. Çünki bu rəqəmlər və hasilat o qədər böyükdür ki, qeyri-neft sektoru bu templərlə ayaqlaşa bilmir. Çalışmalıyıq ki, biz qeyri-neft ixrac potensialımızı artıraq, gücləndirək. Buna nail olmaq üçün keyfiyyət yüksək olmalıdır, əlavə məhsul istehsal edilməlidir. Biz yeni bazarlara çıxmalıyıq və çıxacağıq.

Bildiyiniz kimi, 2014-cü il «Sənaye ili» elan edilmişdir və sənayeləşmə ilə bağlı düşünülmüş siyasət aparılır. Mən artıq bu barədə danışmışam. Bir daha demək istəyirəm ki, hər bir rayonda sənaye zonaları yaradılmalıdır. Fevral ayında göstəriş verilmişdir və bu göstəriş icra edilməlidir. Əlbəttə, bizim əsas sənaye mərkəzlərimiz müəyyən edilib. Bu, ənənəvi mərkəzlərdir. Bakı, Sumqayıt – Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir – Gəncə, Mingəçevir şəhərləri bizim əsas sənaye mərkəzlərimizdir. Ancaq dediyim kimi, bütün rayonlarda sənaye zonaları yaradılmalıdır və sənayenin inkişafı daha da sürətlə getməlidir.

Nəqliyyat sektorunun inkişafı ilə bağlı demək istəyirəm ki, yaxın günlərdə Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi istifadəyə veriləcəkdir. Bu, dünya miqyasında ən gözəl aerovağzal komplekslərinin sırasında olacaqdır, həm xarici görünüşü, həm daxili rahatlığı çox gözəldir, ən yüksək standartlara cavab verir. Nəzərə alsaq ki, Azərbaycanda çoxsaylı beynəlxalq tədbirlər artıq adi hal alıbdır, əlbəttə, bu aeroportun ölkəmizin ümumi inkişafında rolu çox böyük olacaq. Bu, ölkəmizə bir giriş qapısıdır. Yeni aerovağzal kompleksinin tikintisi hesab edirəm ki, tarixi hadisədir. Magistral yolların tikintisi qrafik üzrə davam edir. Biz burada da əsas diqqəti keyfiyyətə yönəltməliyik. Çünki magistral

yollarımızın əksəriyyəti tikilib, indi işlər davam edir. Ancaq keyfiyyət ön planda olmalıdır.

Dəmir yolumuzun bərpası layihəsi aparılır, yeni vaqonlar, elektrovozlar alınmalıdır. Müvafiq göstərişlər verilibdir. Əlbəttə ki, dəmir yolumuzun inkişafı ilə bağlı Dövlət Proqramı icra edilir.

Bu ilin yay aylarında yeni tikilən beynəlxalq dəniz limanının birinci mərhələsi artıq tamamlanmalıdır. Bu, böyük bir layihədir. Ələtdəki liman Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı olacaqdır. Qarşıya vəzifə qoyulubdur ki, bu ilin yayında artıq limanın birinci hissəsi istifadəyə verilsin. Ondan sonra ikinci mərhələdə işlər davam etsin.

Hesab edirəm ki, buna nail olmaq mümkündür. Belə olan halda indiki dəniz limanı şəhərin mərkəzindən köçürüləcəkdir və onun yerində ictimai yerlər yaradılacaqdır. Onsuz da artıq o limandan Zığ istiqamətinə yeni bulvar – «Ağ şəhər» bulvarı salınır. Onun indiki uzunluğu təqribən 2 kilometrdən bir qədər çoxdur. Orada yeni ictimai zonalar yaradılır. Əlbəttə, oradan limanın mümkün qədər tez köçürülməsi imkan yaradacaq ki, tezliklə biz o zonanı da vətəndaşların sərəncamına verək. Oradan dəmir yolu xətləri də çıxarılacaqdır. Səkkizzolaqlı sahil avtomobil yolu, gözəl bulvar tikilir. Onsuz da yeni beynəlxalq dəniz limanı yaxın zamanlarda tam fəaliyyətə başlayacaq. Amma heç olmasa, birinci mərhələni biz yay aylarında artıq başa çatdırmalıyıq.

Şəhər nəqliyyatı ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Metro tikintisi sürətlə gedir. Bildiyiniz kimi, biz metro stansiyalarının sayını 70-ə çatdırmaq əzmindəyik. Buna nail olacağıq. Bütün işlər qrafik üzrə gedir. Şəhərə ən yüksək standartlara cavab verən yeni sərnişin avtobusları gətiriləcəkdir. Bakıda yeraltı parkinqlər tikilibdir. Bu da tıxac probleminin həllinə bir dəstəkdir. Yerüstü parkinqlər də yaradılmalıdır. İnkişaf etmiş şəhərlərdə olduğu kimi, bizdə də yaxın aylarda küçələrdə parkinq avtomatları quraşdırılacaqdır ki, insanlar maşınlarını

orada rahat park edə bilsinlər. Bu sahədə də şəffaflıq təmin edilməlidir.

Bakı gözəl, müasir, inkişafda olan şəhərdir. İnkişaf etmiş ölkələrdə heç bir şəhərdə küçələrdə əlində çubuq parkinqlə məşğul olan tənzimləyiciləri görmək mümkün deyil. Bu bizə yaraşmır, yaraşmaz. Özü də heç kim bilmir ki, onlar harada işləyirlər, yığdıqları pulları hara verirlər, kimə ötürürlər. Mən başa düşürəm ki, indi yerüstü parkinq olmadığı üçün bunların sürücülərə köməyi dəyir. Bunu başa düşürəm. Ona görə hesab edirəm ki, biz təmkinli olmalıyıq. Amma normal, şəffaf park avtomatları quraşdırılandan sonra əlində çubuq olan vətəndaşları biz gərək digər işlərlə təmin edək.

Bizim bu il ordu quruculuğu ilə bağlı böyük proqramlarımız var. Tikintilərlə bağlı proqram vardır, nəinki silah-sursat alınır, eyni zamanda, tikinti işləri aparılır. Mən onların arasında Hərbi Dəniz Qüvvələri bazasını xüsusilə qeyd etmək istəyirəm. Artıq neçə ildir ki, bu böyük baza tikilir. Ümid edirəm ki, biz bu il bu bazanı artıq açacağıq. Digər hərbi şəhərciklərdə tikinti-quraşdırma işləri aparılır. Yeni hərbi bazalar tikilir. Bütün şəhərciklərdə, hərbi hissələrdə, hərbi bazalarımızda ən yüksək standartlar tətbiq edilir. Çünki bizim zabitlərimiz, əsgərlərimiz yaxşı şəraitdə xidmət göstərməlidirlər.

Ümid edirəm ki, yaxın illərdə bir dənə də köhnə, dağılmış, qəzalı vəziyyətdə hərbi hissə, yaxud da ki, tikili olmayacaqdır. Əfsuslar olsun ki, bu sahəyə əvvəlki illərdə diqqət göstərilmirdi. Biz bunu açıq deməliyik. Bizim əsgərlərimiz, zabitlərimiz ən yüksək şəraitdə xidmət etməlidirlər və yaşamalıdırlar. Ona görə qarşıya vəzifə qoyulub və vəsait ayrılıb ki, qısa müddət ərzində, bəlkə də növbəti 2 il ərzində hərbi hissələrdə bir dənə də qəzalı, yararsız, köhnə tikili olmasın.

Hesab edirəm ki, biz yeni tikilmiş Gəmiqayırma zavodundan da bu məqsədlər üçün istifadə etməliyik. Çünki bildiyiniz kimi, bu zavodda istənilən gəmi istehsal oluna bilər. Artıq zavoda ilkin sifarişlər də verilməyə başlanmışdır. Hesab edirəm ki, Müdafiə Nazirliyi də hərbi gəmilərin tikintisi ilə bağlı bu

zavoda sifariş verməlidir. Əlbəttə ki, Maliyyə Nazirliyi bu məsələnin maliyyə tərəfini təmin etməlidir. Hesab edirəm ki, biz bu il artıq bu işə başlamalıyıq. Çünki gəminin tikintisi çox vaxt aparacaqdır. Biz burada da vaxt itirməməliyik ki, həm zavod tam gücü ilə işləsin, həm də biz hərbi donanmamızı müasirləşdirək.

Bu il məcburi köçkünləri evlərlə təminetmə proqramı davam etdiriləcək. Keçən il 20 mindən çox köçkün yeni evlərə, mənzillərə köçmüşdür. Bu il də ən azı 20 min köçkün köçəcəkdir. Bu proqram icra edilir, davam etdirilir. Yerlər müəyyən edilib. Burada heç bir yubanma, ləngimə ola bilməz. Maliyyə problemi də ola bilməz. Ona görə burada hər şey qrafik üzrə gedir.

Qarabağ müharibəsi veteranlarının və əlillərin problemləri həll edilir. Bir müddət bundan əvvəl imzaladığım sərəncam əsasında bu kateqoriyadan olan 80 min insanın sosial təminatı yaxşılaşdırılmışdır. Bu proses davam etdiriləcəkdir. Müharibə veteranları, müharibə əlilləri, şəhid ailələri üçün daha da yaxşı şərait yaradılacaqdır. Bilirsiniz ki, evlər tikilib, mənzillər paylanır, əlillər üçün minik maşınları nəzərdə tutulubdur. Ümid edirəm ki, bu il ilk növbədə dayanan müharibə əlilləri və şəhid ailələri minik maşınları ilə tam şəkildə təmin ediləcəklər. Növbəti 3-4 il ərzində növbədə dayanan şəhid ailələrinin və müharibə əlillərinin hamısı yeni mənzillərlə və fərdi evlərlə təmin ediləcək. Bu göstəriş verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu işlərlə məşğuldur. Dövlət investisiya xərclərində də bu məsələ nəzərə alınmalıdır.

Neft-qaz sektorunda işlər yaxşı gedir. Həm ölkə daxilində, həm xarici tərəfdaşlar burada investisiyaları artırırlar. Yeni tikilən platformalar, qazılan quyular bizim enerji potensialımızı artırır. Qazlaşdırma prosesi də uğurla gedir və əminəm ki, biz istədiyimiz rəqəmə yaxın zamanlarda çatacağıq.

Əlbəttə, TANAP layihəsinin icrası artıq başlamışdır. TANAP layihəsi XXI əsrin layihəsidir. «Şahdəniz-2», TANAP və TAP Avropanın ən böyük infrastruktur layihələridir. Artıq

tenderlər elan edilibdir. Ümid edirəm ki, yaxın zamanlarda biz tikintiyə başlayacağıq. Artıq keçən ilin sonlarında bu layihəyə start verildi. Hazırlıq işləri başlanıb. Azərbaycan bu layihənin icrasında liderlik keyfiyyətlərini nümayiş etdirir. Hesab edirəm, tam əminəm və bilirəm ki, bizim siyasətimiz, enerji siyasətimiz, cəsarətli siyasət olmasa idi, bu layihə heç vaxt reallaşa bilməzdi. Bu layihələrin təşəbbüskarı Azərbaycandır. Əsas rol oynayan da Azərbaycandır. Bütün riskləri Azərbaycan öz üzərinə götürübdür. Maliyyə risklərini, texniki risklərin hamısını Azərbaycan öz üzərinə götürüb. Əminəm ki, biz bu layihəni də uğurla icra edəcəyik.

Çünki bu günə qədər təşəbbüskarı olduğumuz bütün enerji layihələrində biz uğur qazanmışıq. Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz layihələri artıq reallıqdır. Uzun illərdir fəaliyyət göstərir. Ona görə əminəm ki, biz bu böyük layihələri də şərəflə icra edəcəyik.

Ətraf mühitin qorunması ilə bağlı bir neçə söz demək istərdim. Bir neçə il bundan əvvəl Azərbaycanda «Ekologiya ili» elan edilmişdi. Xatırlayıram, o vaxt biz «Ekologiya ili»ndə görülən işləri müzakirə edərkən mən demişdim ki, «Ekologiya ili» hər il olmalıdır. Çünki ətraf mühit, xüsusilə Bakı və Abşeron yarımadası üçün əsas məsələlərdən biridir. Burada illər, əsrlərboyu neftlə çirklənmiş gölməçələr, yerlər, ekoloji cəhətdən məqbul olmayan mənzərə vardır. Biz son illərdə bu istiqamətdə çox böyük işlər görmüşük. Çünki neft hasilatı Azərbaycanda artıq 200 ilə yaxındır ki, aparılır. Ancaq əfsuslar olsun ki, ekoloji vəziyyətə diqqət lazımi səviyyədə olmamışdır. Yadınıza salın, Bibiheybət buxtası nə gündə idi, bir fəlakət mənzərəsi idi. İndi ora tamamilə təmizlənib. Buruqlar yerində qalıb, ətrafı təmizlənib. İndi göstəriş vermişəm ki, orada, o buruqların arasında ağacəkmə kampaniyası da başlasın. Biz oranı yaşıllıq zonaya çevirməliyik. Şəhərin mərkəzində Yod zavodu fəaliyyət göstərirdi. Sonra fəaliyyəti dayandırıldı. Ancaq orada qalan o yod çöküntüləri ətraf mühitə nə qədər böyük ziyan vururdu. Biz oranı da təmizlədik, o məsələ də ən yüksək

səviyyədə öz həllini tapdı. Balaxanı zibilxanası yanırdı, tüstü verirdi. O tüstü bütün şəhəri bürümüşdü, nəfəs almaq mümkün deyildi. Nəinki Balaxanı sakinləri, bütün şəhər o tüstüdən əziyyət çəkirdi. Biz oranı da təmizlədik. İndi poliqonda bir dənə də olsun tullantı, zibil yoxdur. Ağaclar əkilib, tüstü də yoxdur. Böyük maliyyə vəsaiti hesabına Zibilyandırma zavodu tikilib fəaliyyət göstərir. Yəni belə misallar çoxdur. Ağacəkmə kampaniyası zamanı 10 milyondan çox ağac əkilib və bu proses davam etdirilir.

Ona görə biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Ancaq ictimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol vermək olmaz. Hesab edirəm ki, biz burada daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır. Ancaq nadir hallarda, o da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi ilə haradasa ağac ya köçürülə, ya kəsilə bilər. Ona görə mən dəfələrlə bu məsələlərlə bağlı öz fikrimi bildirmişəm. Deyə bilərəm ki, vəziyyət əvvəlki illərə nisbətən daha müsbətdir. Ancaq biz istədiyimizə tam şəkildə nail ola bilməmişik. Gecə vaxtı gəlirlər, qanunsuz olaraq ağacları kəsirlər, yerləri düzəldirlər ki, ev tiksinlər. Bu vicdansızlıqdır, bu biabırçılıqdır, bu cinayətdir.

Ona görə aidiyyəti qurumlar təklif versinlər, biz ağacları kəsənlərə qarşı daha da ciddi tədbir görməliyik. Onlar məsuliyyətə cəlb edilməlidirlər. Bir daha demək istəyirəm ki, şəhərdə bir dənə də olsun ağac Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi, rəyi olmadan kəsilə bilməz. Bu mənim son xəbərdarlığımdır. Biz bu aydan başlayaraq «Avro-4» standartına keçmişik. Bu da əminəm ki, havanın tərkibini böyük dərəcədə yaxşılaşdıracaq. Çünki verilən məlumata görə, havanı çirkləndirən əsas amil sənaye müəssisələri yox, maşınlardır. Burada «Avro-4» standartının tətbiq edilməsi hesab edirəm ki, bunun qarşısını alacaqdır. Eyni zamanda, əlbəttə, biz bunu da deməliyik ki, Azərbaycanda istehsal olunan yanacağın keyfiyyəti də yaxşılaşdırılmalıdır. Bakıda yeni Neftayırma

zavodunun tikintisi nəzərdə tutulur, tikiləcəkdir, ancaq bu, vaxt aparacaqdır. Haradasa, bəlkə 3-4 il vaxt aparacaq. Çalışmalıyıq və hökumət də öz təkliflərini versin ki, o tikilənə qədər Azərbaycanda istehsal olunan yanacağın keyfiyyətini biz necə yaxşılaşdıra bilərik. Hesab edirəm ki, biz bu məqsədlər üçün də maliyyə resursları ayıra bilərik.

Bakıda mövcud olan göllərin təmizlənməsi proqramı da artıq başlayır. Bu göllərin siyahısı mənə verilib. Burada 9 göl vardır. Amma bu gölləri heç göl adlandırmaq da düzgün deyildir. Çünki göl təbii, təmiz bir su hövzəsidir, bu göllər isə ekoloji fəlakət mənzərəsidir. İllər boyu bu göllərə kanalizasiya, çirkab suları, neftlə çirklənmiş sular, lay suları axıdılıb. Bu göllər şəhərin içində, şəhərin mərkəzində bir ekoloji fəlakətdir. Ona görə bu məsələ ilə bağlı artıq bütün göstərişlər verilibdir. Biz bundan sonra bu vəziyyətlə barışa bilmərik. Bu məqsədlər üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaqdır. Bu çirkab su hövzələrini biz təmiz göllərə çevirəcəyik. Bakı indi parklar şəhəridir. Bakı həm də təmiz göllər şəhəri olacaq. Bu vəzifəni mən bu gün qarşıya qoyuram və hesab edirəm ki, biz tezliklə bu işlərə başlamalıyıq. Sözün düzü, artıq biz işə başlamışıq. Bu sahədə təcrübəsi olan xarici şirkətlərlə artıq müqavilələr də bağlanıbdır. Biz ən ağır, ekoloji və texniki cəhətdən ağır olan layihədən başlamışıq. Bu da Böyükşor gölünün təmizlənməsidir. Böyükşor gölünün ərazisi 11 kvadratkilometrdir, 1000 hektardan böyükdür. Böyükşor gölünü biz hələlik 2 yerə bölürük. Bənd tikiləcəkdir. Bu bənd eyni zamanda, avtomobil yolu olacaqdır. Həm nəqliyyat üçün, həm təmizləmə işlərini mərhələlərə bölmək üçün biz bu işləri görürük.

Birinci mərhələdə gölün tikilən Olimpiya stadionuna yaxın olan hissəsi təmizlənəcəkdir. O sahənin ərazisi 300 hektardır. Orada təmiz, şəffaf su olacaq. Gölün ətrafında gözəl bulvar salınacaqdır. Bizim Dənizkənarı Bulvarımız vardır. İndi, bundan sonra Böyükşor bulvarımız da olacaqdır və gözəl yaşıllıqlar salınacaqdır, ağaclar, kollar əkiləcəkdir, istirahət zonaları və təmiz bir göl olacaqdır.

İkinci mərhələdə isə gölün qalan böyük hissəsi təmizlənəcəkdir. Beləliklə, şəhərimizdə yeni, gözəl istirahət, sağlamlıq zonası yaradacağıq. Dediyim kimi, bir neçə ildən sonra Bakı təmiz, gözəl göllər şəhəri kimi, artıq öz sözünü deyəcək. Düzdür, burada görüləsi işlər çoxdur, 9 göldən söhbət gedir, ancaq çalışmalıyıq ki, növbəti 5 ya 6 il ərzində bunları yerinə yetirək. Əlbəttə ki, bütün bu işlər dövlət büdcəsində nəzərə alınmalıdır. Maliyyə resursları burada, əlbəttə ki, təmin ediləcəkdir və bütün işlər ən yüksək səviyyədə aparılmalıdır.

Nəhayət, biz artıq bu il I Avropa oyunlarına hazırlığın həlledici mərhələsinə qədəm qoyuruq. Bütün işlər cədvəl üzrə gedir. Bu yaxınlarda Avropa Olimpiya Komitəsinin prezidenti və Koordinasiya Komitəsi Bakıda idi. Bakıda hazırlıqla bağlı gedən işlərə çox yüksək qiymət verildi. Bütün idman obyektlərində tikinti işləri gedir. Olimpiya stadionu, Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Atıcılıq Mərkəzi tikilir, digər obyektlərdə təmir işləri aparılır, yollar çəkilir. İdmançılar üçün Olimpiya Şəhərciyi, demək olar ki, hazırdır. Yəni biz hazırlıq işlərini davam etdiririk, aparırıq.

Bir daha demək istəyirəm ki, biz bu oyunları Olimpiya oyunları səviyyəsində keçirmək istəyirik. Bəziləri bilmirlər ki, bu oyunlar həm idman növlərinin və həm də idmançıların sayına görə Olimpiya oyunlarına çox yaxındır. Hazırlıq və tikinti baxımından Qış Olimpiya oyunlarından daha böyükdür. Bizdə gələn il yarışacaq idmançıların sayı Qış Olimpiya oyunlarında iştirak edən idmançıların sayından 2 dəfə çoxdur. Ona görə bu, böyük bir sınaqdır, böyük bir çağırışdır. Nəzərə alsaq ki, Yay Olimpiya oyunlarına hazırlıq müddəti 7 ildir, bizdə isə cəmi 2 il yarımdır. Ancaq biz güclü dövlətik, bizdə bütün işlər düzgün təşkil olunur və həll edilir. Güclü siyasi iradə, texniki imkanlarımız vardır, səfərbərlik təmin edilibdir. Yəni bu oyunları biz elə keçirəcəyik ki, bu, gələcək Olimpiya oyunları üçün də nümunə olsun. Azərbaycan özünü dünyaya yenidən müasir, dinamik inkişaf edən, güclü dövlət kimi təqdim edəcəkdir. İlin sonuna qədər görüləsi işlər çoxdur. Bu işləri görmək üçün sizin hamınıza uğurlar arzu edirəm.

Sağ olun.

## DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Danimarka arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edərək, xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar diləyir, dost Danimarka xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 aprel 2014-cü il*

## RUSİYA FEDERASİYASININ ULYANOVSK VİLAYƏTİNİN QUBERNATORU SERGEY MOROZOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin, o cümlədən ölkəmiz ilə Rusiyanın ayrı-ayrı subyektləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Rusiya Federasiyasının Ulyanovsk vilayətinə səfərini məmnunluqla xatırlatdı. Ölkəmiz ilə Rusiya Federasiyası və onun subyektləri arasında müxtəlif istiqamətlərdə, o cümlədən investisiya, birgə istehsal və digər sahələrdə fəal əməkdaşlığın mövcud olduğunu deyən prezident İlham Əliyev bu əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığımızın yeni sahələrinin müəyyənləşdirilməsi baxımından Bakıda keçirilən Rusiya–Azərbaycan biznes-forumunun önəmini qeyd etdi. Prezident İlham Əliyev Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.*

*Böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini vurğulayan Sergey Morozov əməkdaşlığımızın müxtəlif sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Sergey Morozov Azərbaycan ilə iqtisadi və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün Ulyanovsk vilayətində həyata keçirilən işlər və layihələrdən danışdı, əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini bildirdi.*

## LİTVA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ DAİLİS ALFONSAS BARAKAUSKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Litva Respublikasının Daxili İşlər naziri Dailis Alfonsas Barakauskasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Litvanın Daxili İşlər naziri Dailis Alfonsas Barakauskas Litva Respublikasının Prezidenti xanım Dalya Qribauskaytenin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycana bir neçə dəfə səfər etdiyini vurğulayan litvalı nazir ötən dövr ərzində ölkəmizdə gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı ölkəmizdə bütün sahələrdə sürətli iqtisadi inkişafa nail olunduğunu məmnunluqla qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Litva arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Dalya Qribauskaytenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Litva dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## FRANSA RESPUBLİKASININ SABİQ XARİCİ İŞLƏR NAZİRİ HUBERT VEDRİN İLƏ GÖRÜŞ

*14 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Fransa Respublikasının sabiq Xarici İşlər naziri Hubert Vedrini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əməkdaşlıq əlaqələri, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MONTENEQRO PARLAMENTİNİN SƏDRİ, ATƏT-in PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ RANKO KRİVOKAPİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Monteneqro Parlamentinin Sədri, ATƏT-in Parlament Assambleyasının prezidenti Ranko Krivokapiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ranko Krivokapiç ATƏT-in Parlament Assambleyasının son dövrdəki fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi. ATƏT-in Parlament Assambleyasının illik sessiyasının Azərbaycanda keçirilməsinin əhəmiyyətini vurğulayan qonaq bunu əməkdaşlığımızın yeni mərhələsi kimi dəyərləndirdi. Ranko Krivokapiç ATƏT-in Azərbaycan ilə əməkdaşlığı müxtəlif istiqamətlərdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi.*

*Dövlətimizin başçısı ATƏT-in Bakı ofisinin yeni statusda fəaliyyətə başlamasının əməkdaşlığımızın genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Regiondakı vəziyyətə toxunan prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizin ərazi bütövlüyünün pozulduğunu və bununla bağlı Azərbaycanın ikili standartlarla üzləşdiyini təəssüflə qeyd etdi.*

*Görüşdə beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MİLLİ GİMNASTİKA ARENASININ AÇILIŞI MƏRASİMİ

*16 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 16-da Bakıda Milli Gimnastika Arenasının açılışında iştirak etmişlər.*

*Son illər ölkəmizdə bütün sahələrdə olduğu kimi, müasir idman infrastrukturunun yaradılması istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirilir, yeni-yeni idman obyektləri tikilib istifadəyə verilir. Dünyanın qabaqcıl idman ölkələrindən biri olan Azərbaycan hazırda beynəlxalq olimpiya hərəkatının fəal üzvlərindən biridir. İdmanın bütün sahələrinin inkişaf etdirilməsi Azərbaycan Prezidentinin daim diqqət mərkəzindədir. Paytaxt Bakıda və regionlarda inşa edilən, ən müasir avadanlıqlarla təchiz olunan olimpiya idman komplekslərinin sayı artıq 40-ı ötmüşdür. Mövcud idman komplekslərinin əsaslı şəkildə yenidən qurulması isə beynəlxalq yarışların keçirilməsi üçün ölkəmizin imkanlarını daha da artırır.*

*İdmanın inkişafına göstərilən yüksək dövlət qayğısı nəticəsində Azərbaycan idmançıları dünyanın mötəbər yarışlarında və Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil edir, uğurlarını ildən-ilə daha da artırırlar. 2015-ci ildə Bakıda keçiriləcək I Avropa oyunlarına hazırlıq məqsədilə beynəlxalq standartlara uyğun mühüm layihələrin icra olunması ölkəmizdə müasir idman infrastrukturunun yaradılması işinə böyük töhfə verəcəkdir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Bakıda təməli qoyulan Milli Gimnastika Arenasının inşası idmanın bu növünün daha da inkişaf etdirilməsi işində mühüm rol oynayacaqdır.*

*Hazırda tərkibində idmanın 4 növünü – bədii gimnastika, kişi idman gimnastikası, akrobatika gimnastikası və tamblinqi birləşdirən Azərbaycan Gimnastika Federasiyasının son illər əldə etdiyi böyük uğurlar dünyanın idman ictimaiyyəti tərəfindən maraqla izlənilir. Bütün bu nailiyyətlər birinci xanım Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi sayəsində mümkün olmuşdur. Belə ki, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün yeni inkişaf mərhələsi başlandı.*

*2003-cü ildə Bakıda bədii gimnastika üzrə ilk dünya kuboku keçirildi. Bakı 2005-ci ildə gimnastika üzrə dünya çempionatına ev sahibliyi etdi. 2007–2009-cu illərdə isə ölkəmizdə 2 dəfə Avropa çempionatı keçirildi. Bu işlərin nəticəsi olaraq Azərbaycan gimnastları da son illərdə böyük irəliləyişlərə nail oldular. Dinara Gimatova 2003-cü ildə Afina Olimpiya oyunlarına ilk milli lisenziyanı qazandı. Aliyə Qarayeva isə 2007-ci ildə bədii gimnastika üzrə Avropa çempionu tituluna sahib çıxdı. Dünya çempionatında isə qızlarımız komanda hesabında üçüncü oldular. Azərbaycan gimnastları növbəti illərdə ölkəmizi Olimpiya oyunlarında layiqincə təmsil etdilər.*

*İndi Azərbaycan 2015-ci ildə keçiriləcək ilk Avropa oyunlarına hazırlaşır. İdman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Milli Gimnastika Arenasının tikintisi də beynəlxalq əhəmiyyətli bu idman yarışının yüksək səviyyədə təşkili üçün geniş imkanlar açır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli Gimnastika Arenasının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Kompleksin fasadı xüsusi formada işlənilib. Burada maraqlı illüminasiya elementləri təqdim edən ekranlar quraşdırılıb. Əsasən gimnastika yarışları üçün nəzərdə tutulan arenanın əhəmiyyətini artıran mühüm*

*amillərdən biri də buranın digər idman tədbirlərinin və yarışlarının da keçirilməsi üçün uyğunlaşdırılmasıdır.*

*Gimnastika zalı əsas yarış və köməkçi məşq hissələrindən ibarətdir. Yarışların miqyasından asılı olaraq, arenanın əsas hissəsində oturacaq yerlərinin sayını 5 mindən 10 minə qədər artırmaq mümkündür. Dünya standartlarına uyğun inşa olunan kompleksdə Mətbuat mərkəzi, ilk tibbi yardım məntəqəsi, xoreoqrafiya, trenajor zalları, dopinq nəzarəti, inzibati otaqlar, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir. Dünyanın ən yaxşı gimnastika komplekslərindən biri olacaq bu idman qurğusunda hotel də yaradılıb.*

*Azərbaycan Gimnastika Federasiyası əhalinin bədən tərbiyəsi və sağlamlıq fəaliyyətinə geniş cəlb olunması, milli idman kadrlarının hazırlanması, yığma komandaların formalaşdırılması və hazırlığı, onların beynəlxalq yarışlara, toplanışlara göndərilməsi ilə də fəal şəkildə məşğul olur. Federasiya xarici ölkələrin idman təşkilatları və beynəlxalq idman qurumları ilə əlaqələrini inkişaf etdirir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva zalda yaradılan şəraitlə tanış oldular və gimnastların məşq prosesinə baxdılar.*

*Dövlətimizin başçısı və xanımı gimnastlarla xatirə şəkli çəkdirdilər.*

*Burada da idmançılar üçün hər cür şərait yaradılıb. Avropa Gimnastika İttifaqının prezidenti də burada yaradılan şəraiti yüksək qiymətləndirib. Zalda ən son gimnastika avadanlığı quraşdırılıb. Həmin avadanlıq Avropa Gimnastika İttifaqı, Azərbaycan Gimnastika Federasiyasının tövsiyələrinə əsasən yerləşdirilib.*

*Milli Gimnastika Arenasında bu ilin iyununda bədii gimnastika üzrə Avropa çempionatı keçiriləcəkdir. Aprelin 19-da isə bədii gimnastika üzrə 21-ci Azərbaycan çempionatı təşkil olunacaqdır. Gimnastlar mütləq çoxnövçülükdə, o cümlədən ayrı-ayrı növlər üzrə medallar uğrunda yarışacaqlar. Turnirdə, həmçinin Bakıda təlim-məşq toplanışlarında olan Macarıstan*

*və Qazaxıstan gimnastlarının müsabiqədənkənar çıxışları nəzərdə tutulur. Çempionatın Milli Gimnastika Arenasında keçirilməsi və iyunun 13–15-də təşkil olunacaq bədii gimnastika üzrə Avropa çempionatı öncəsi test turniri xarakteri daşıması yarışlara olan marağı daha da artırır. Bundan əlavə, 2015-ci ildə baş tutacaq I Avropa oyunları çərçivəsində gimnastikanın 6 növü üzrə yarışların, 2019-cu ildə isə bədii gimnastika üzrə 2020-ci il Olimpiadasına lisenziya xarakterli dünya çempionatının burada keçirilməsi planlaşdırılır.*

*Prezident İlham Əliyevə «Beynəlxalq İdman Mətbuatı Assosiasiyası – AİPS-in tarixi» kitabının ilk nüsxəsi təqdim olundu.*

*Qeyd edildi ki, qurumun 90 illik tarixinə həsr olunan kitab Gənclər və İdman Nazirliyi ilə birgə hazırlanıb. Kitabın ilk 18 səhifəsi Azərbaycanda idmanın inkişafına həsr olunub.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Azərbaycanda tarixən təşəkkül tapmış səmavi dinlər yüz illər boyu qarşılıqlı hörmət və etimad şəraitində dinc yanaşı fəaliyyət göstərərək, insanlar arasında humanizm, həmrəylik, dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasında, cəmiyyətimizdə mükəmməl etnik-dini tolerantlıq mühitinin və zəngin multikultural ənənələrin formalaşmasında müstəsna rol oynamışdır. Təsadüfi deyildir ki, bu gün Azərbaycan bütün dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır və qəbul edilir.

Azərbaycan Respublikasında dövlət–din münasibətləri demokratik prinsiplərə və beynəlxalq hüquq normalarına uyğun şəkildə tənzimlənmiş, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin etiqad və vicdan azadlığı təmin edilmişdir. Ölkəmizin dindar təbəqəsi, o cümlədən xristian inanclı vətəndaşlarımız dini etiqad və ayinlərini, milli bayram və mərasimlərini azad və sərbəst şəkildə icra edir, ictimai-siyasi, mədəni-mənəvi həyatımızın bütün sahələrində, vətəndaş cəmiyyəti quruculuğunda yüksək fəallıq göstərirlər.

Əziz dostlar!

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Pasxa bayramı əmin-amanlığın, həmrəyliyin, xeyirxahlıq və şəfqət duyğularının rəmzidir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2014-cü il*

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ XƏLİL AKINCI İLƏ GÖRÜŞ

*17 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncını qəbul etmişdir.*

*Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində həyata keçirilən tədbirlərdən danışıldı, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı türkdilli dövlətlərin rəmzlərinin əks olunduğu bayrağı prezident İlham Əliyevə təqdim etdi.*

## AVROPA ŞURASININ BAKIDAKI OFİSİNİN YENİ RƏHBƏRİ DRAQANA FİLİPOVİÇ İLƏ GÖRÜŞ

*17 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Avropa Şurasının Bakıdakı ofisinin yeni rəhbəri xanım Draqana Filipoviçi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BAKIDA TİKİLƏN SU İDMANI SARAYINDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*17 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri aprelin 17-də Bakıda tikilən Su İdmanı Sarayında inşaat işlərinin gedişi ilə tanış olmuşlar.*

*2015-ci ildə Avropa ölkələri arasında tarixdə ilk dəfə Bakıda təşkil olunacaq Olimpiya oyunlarına hazırlıq məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilir. Dövlətimizin başçısının tapşırığı ilə ən yüksək standartlara cavab verən müasir idman kompleksləri inşa edilir, mövcud idman obyektləri əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilir.*

*Prezident İlham Əliyev Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədilə 2012-ci il avqustun 30-da Bakıda müasir standartlara cavab verən Su İdmanı Sarayının tikilməsi haqqında sərəncam imzalamışdır. Su İdmanı Sarayının layihələndirilməsini Koreya Respublikasının «Securo CO.LTD» şirkəti qısa müddətdə başa çatdırmış və inşaat işlərinə başlanılmışdır.*

*Gənclər və İdman naziri Azad Rəhimov Su İdmanı Sarayında layihə əsasında görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, Su İdmanı Sarayı üçün 6 hektar torpaq sahəsi ayrılıb. Ümumi sahəsi 66 min kvadratmetr olan saray Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə tam cavab verir. Sarayda 3 üzgüçülük hovuzu olacaqdır. Uzunluğu 50, eni 25 metr olacaq hovuz yarışlar üçün nəzərdə tutulub. İkinci hovuzda isə məşqlər keçiriləcəkdir. Hündürlükdən suyatullanma hovuzunun uzunluğu 25, eni 20 metrdir. Bundan başqa, sarayda*

fitnes zalları, restoran, konfrans zalı, ofislər, digər işçi və köməkçi otaqlar fəaliyyət göstərəcəkdir.

Su İdmanı Sarayının ərazisində köməkçi bina və qurğular, 500 yerlik yerüstü avtomobil dayanacağı yaradılacaqdır. Sarayda keçiriləcək idman yarışlarını 6 min tamaşaçı izləyə biləcəkdir. Burada idmançıların məşq etmələri, respublika və beynəlxalq səviyyəli yarışların təşkili üçün hər cür şərait olacaqdır. Tikinti işlərini xarici və yerli şirkətlər icra edir.

Dövlətimizin başçısına və xanımına Avropa oyunları parkının layihəsi əsasında aparılacaq inşaat işləri barədə də məlumat verildi.

Bildirildi ki, 18 hektar ərazidə inşa ediləcək Avropa oyunları parkı 3 idman qurğusundan – su polosu, çimərlik voleybolu və futbolu, basketbol yarışları qurğularından ibarət olacaqdır. Bu qurğular arasında ikimərtəbəli funksional keçidin inşası da nəzərdə tutulur. Burada 4 hissədən ibarət funksional sahələrin yaradılması üçün də xüsusi ərazi ayrılıb. Avropa oyunları parkında iclas və konfrans zallarının, kafe və funksional otaqların inşası da nəzərdə tutulur. Parkda, həmçinin mətbuat və yayım üçün çəkiliş qurğuları sahəsi, avtomobil dayanacağı və digər xidmət sahələri də yaradılacaqdır.

Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ XANIM PAK KİN HEYƏ**

Hörmətli xanım Prezident!

«Sevol» bərəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 aprel 2014-cü il*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XUAN MANUEL SANTOSA**

Hörmətli cənab Prezident!

Böyük yazıçı, Nobel mükafatı laureatı Qabriel Qarsiya Markesin vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Bu əvəzsiz itki ilə əlaqədar kədərinizi bölüşür, Sizə, mərhumun ailəsinə, bütün Kolumbiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 aprel 2014-cü il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI SƏRHƏD XİDMƏTİNİN BAŞ DİREKTORU ZUMEYYİM BİN CUVEYBİR ƏS-SƏVVATIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Səudiyyə Ərəbistanı Krallığı Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir əs-Səvvatın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin önəmini qeyd etdi. Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev mədəniyyət və humanitar sahələrdə də əməkdaşlığımızın razılıq doğurduğunu bildirdi. Sərhəd xidmətləri arasında da əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu sahədə birgə fəaliyyət, qarşılıqlı təcrübə və informasiya mübadiləsinin ölkələrimizin təhlükəsizliyinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səudiyyə Ərəbistanı Krallığı Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir əs-Səvvat ölkəmizə keçənilki səfərini məmnunluqla xatırlatdı. Zumeyyim bin Cuveybir əs-Səvvat azərbaycanlı həmkarları ilə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri barədə müzakirələr apardıqlarını vurğuladı.*

## ABŞ NÜMAYƏNDƏLƏR PALATASININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ ED ROYS VƏ ONU MÜŞAYİƏT EDƏN KONQRESMENLƏRLƏ GÖRÜŞ

*19 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da ABŞ Nümayəndələr Palatasının xarici əlaqələr komitəsinin sədri konqresmen Ed Roysu və onu müşayiət edən konqresmenləri qəbul etmişdir.*

*Konqresmen Ed Roys Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu dedi və bundan məmnunluğunu ifadə etdi. Konqresmenlər ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji, terrorizmə qarşı mübarizə və Əfqanıstanla bağlı uğurlu əməkdaşlığı yüksək qiymətləndirdilər. Qonaqlar, həmçinin Azərbaycanın Avropa strukturları ilə əməkdaşlığını da yüksək dəyərləndirdilər.*

*Dövlətimizin başçısı öz növbəsində, Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycanın ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiyini dedi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyini diqqətə çatdırdı. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, Dağlıq Qarabağın və ətraf 7 rayonun işğala məruz qaldığını vurğulayan prezident İlham Əliyev münaqişənin ədalətli və*

*Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı ATƏT-in Minsk qrupu həmsədrlərinin* konkret *addımlar atmalarının* vacibliyini qeyd etdi.

*Görüşdə ABŞ nümayəndə* heyətinin *Azərbaycana* bu *səfərinin ölkəmizlə yaxından tanış* olmaq *üçün yaxşı fürsət yaratdığı* bildirildi, *səfərin əlaqələrimizin* yeni *sahələrinin müəyyənləşdirilməsi baxımından önəmi* qeyd edildi, *ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə* daha da *genişləndirilməsi ilə bağlı məsələlər ətrafında* fikir *mübadiləsi* aparıldı.

## KAMBOCA KRALLIĞININ BAŞ NAZİRİ HUN SENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Kamboca Krallığının Baş naziri Hun Senin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Kamboca Krallığının Baş nazirinin Azərbaycana ilk səfərinin əlaqələrimizin inkişafı baxımından tarixi əhəmiyyət daşıdığını bildirən dövlətimizin başçısı səfərin uğurlu olacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi və güclü tərəfdaşlıq əlaqələri qurulması üçün yaxşı imkanların olduğunu vurğuladı. Dövlətimizin başçısı Kamboca Krallığının Baş naziri Hun Senin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin təkcə siyasi sahədə deyil, iqtisadi sahədə də əməkdaşlıq imkanlarını müzakirə etmək üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi.

Baş nazir Hun Sen Kamboca kralı Norodom Sihamoninin salamlarını prezident İlham Əliyevə çatdırdı. Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Baş nazir xalqımızın ümummilli lideri Heydər Əliyev ilə 2 dəfə görüşdüyünü böyük ehtiramla xatırlatdı. Baş nazir Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Bu il Azərbaycan ilə Kamboca arasında diplomatik əlaqələrin qurulmasının 20 illik yubileyinin olacağını vurğulayan Hun Sen ölkəsinin Azərbaycanla ikitərəfli əlaqələri genişləndirməkdə maraqlı olduğunu dedi. Baş nazir ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının genişləndirilməsinin əhəmiyyətini vurğuladı. Kamboca

*Krallığının Baş naziri Hun Sen Azərbaycan prezidenti İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi.*

*Dövlətimizin başçısı kral Norodom Sihamoninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kamboca Kralına çatdırmağı xahiş etdi.*

## QAZAXISTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ SERİK AXMETOV İLƏ GÖRÜŞ

*21 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Qazaxıstan Respublikasının Müdafiə naziri Serik Axmetovu qəbul etmişdir.*

*Müdafiə naziri Serik Axmetov Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, Qazaxıstanın Müdafiə naziri Serik Axmetovun Azərbaycana səfərinin müdafiə sahəsində də əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Prezident İlham Əliyev prezident Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## İSPANİYA KRALLIĞININ XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ XOSE MANUEL QARSİA-MARQALYONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də İspaniya Krallığının Xarici İşlər və Əməkdaşlıq naziri Xose Manuel Qarsia-Marqalyonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Xose Manuel Qarsia-Marqalyonun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. İspaniyanın Baş naziri Mariano Raxoy Breylə Vilnüsdəki görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev görüş zamanı əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr apardığını dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, mədəni və digər sahələrdə inkişaf etdirilməsi üçün qarşılıqlı marağın olmasının önəmini qeyd etdi.*

*Nazir Xose Manuel Qarsia-Marqalyo İspaniya kralı Xuan Karlosun və Baş nazir Mariano Raxoy Breyin salamlarını dövlətimizin başçısına çatdırdı. O, İspaniyanın Baş naziri Mariano Raxoy Breyin Azərbaycan Prezidentinin İspaniyaya səfərə dəvəti ilə bağlı məktubunu prezident İlham Əliyevə təqdim etdi. İspaniyalı nazir ölkəsinin Baş naziri Mariano Raxoy Breyin öz növbəsində, Azərbaycan Prezidenti ilə Vilnüsdəkı görüşünü məmnunluqla xatırlatdığını dedi.*

*İspaniya Xarici İşlər və Əməkdaşlıq nazirinin ölkəmizə ilk səfərinin olduğunu vurğulayan Xose Manuel Qarsia-Marqalyo əlaqələrimizin genişləndirilməsi baxımından səfərin önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı İspaniya kralı Xuan Karlosun və Baş nazir Mariano Raxoy Breyin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İspaniyanın Kralına və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## NİDERLAND KRALLIĞI SENATININ ÜZVÜ RENE VAN DER LİNDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Niderland Krallığı Senatının üzvü Rene Van der Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurlu inkişafı məmnunluqla qeyd olundu, Niderland Krallığı Senatının üzvü Rene Van der Lindenin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.*

## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNUN YENİ AEROVAĞZAL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*23 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri aprelin 23-də Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanda sərnişindaşımalarının həyata keçirilməsi üçün aerovağzal binası ilk dəfə 1933-cü ildə yaradılıb. Bakı aeroportunun ərazisində ilk ikimərtəbəli aerovağzal binası 1965-ci ildə tikilib istismara verilib. 1980-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakı aeroportunda yeni aerovağzal kompleksinin layihələndirilməsinə və tikintisinə başlanılıb. Lakin bu layihənin həyata keçirilməsi yalnız Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra baş tutdu. Beynəlxalq standartlar səviyyəsində aerovağzal kompleksinin açılışı ulu öndər Heydər Əliyevin iştirakı ilə 1999-cu ildə oldu. Cəmi bir neçə il ərzində Bakı aeroportunda uçuş-enmə zolaqları və yönəldici yollar yenidən quruldu, uçuşları idarəetmə sistemləri müasirləşdirildi, radionaviqasiya və meteoavadanlıq yeniləndi, digər silsilə tədbirlər reallaşdırıldı.*

*Bununla paralel olaraq, ölkənin regionlarında da mülki aviasiya intensiv inkişaf mərhələsinə qədəm qoydu. 2004-cü ildə beynəlxalq standartlara cavab verən Naxçıvan Beynəlxalq Aeroportu işə düşdü. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2006–2008-ci illərdə bir-birinin ardınca Gəncədə, Zaqatalada və Lənkəranda aeroportlar istismara verildi. Daha sonra Qəbələdə və Yevlaxda aeroportlar inşa olundu.*

*Bundan əlavə, sərnişin və yükdaşımalarının* daha *müasir səviyyəyə çatdırılması üçün təyyarə və* helikopter *parkı* yeni*ləndi. «Azərbaycan* Hava *Yolları» Qapalı Səhmdar Cəmiyyətinin (AZAL) təyyarə parkı dünyanın tanınmış şirkətlərindən alınan yeni və müasir təyyarələrlə zənginləşdirildi. Hazırda AZAL-ın təyyarələri dünyanın* onlarla *ölkəsinə uçuşlar həyata keçirir.*

*Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli mövqe tutmasını başlıca prioritetlərdən biri kimi qarşıya məqsəd* qoyan prezident *İlham Əliyevin həyata keçirdiyi sürətli* sosial-iqtisadi *inkişaf proqramları* mülki aviasiyanın *yüksəlişində də mühüm* rol *oynayıb. Son illərdə ölkəmizdə mülki aviasiyanın inkişafı istiqamətində görülən tədbirlərdən biri də Heydər Əliyev Beynəlxalq* Aeroportunda *yeni aerovağzal* kompleksinin tikintisidir.

*2011-ci il martın 17-də* prezident *İlham Əliyevin iştirakı ilə təməli qoyulan və bu günlərdə* tikintisi *başa çatdırılan yeni aerovağzal* kompleksi *gözəlliyi və* funksional *keyfiyyətləri ilə seçilir. Dövlətimizin başçısı* bir *neçə dəfə* tikinti *işlərinin gedişi ilə maraqlanıb, tapşırıq və tövsiyələrini verib.*

*Prezident İlham Əliyev Heydər Əliyev Beynəlxalq* Aero*portunun yeni aerovağzal* kompleksinin *rəmzi açılışını* bildirən lenti *kəsdi.*

*«Azərbaycan* Hava *Yolları»* QSC-nin *prezidenti* Cahangir *Əsgərov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat* verdi.

Bildirildi *ki, ölkəmizin* hava *nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərilir. Nəhəng aviaşirkətlərdən* birinə *çevrilmiş AZAL həm* regionda, *həm də* MDB *məkanında yeni avialaynerlərin sayına görə liderlərdən* biridir. *Heydər Əliyev Beynəlxalq* Aeroportunda *yeni aerovağzal* kompleksinin isti*fadəyə verilməsi* bu aeroportun strateji *əhəmiyyətini* daha da *artırır.*

*Prezident İlham Əliyev mərasimdə çıxış* etdi.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin açılışını qeyd edirik. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Yeni aerovağzal kompleksinin açılışı böyük hadisədir. Bu möhtəşəm bina ölkəmizin inkişafını, Azərbaycanın gücünü göstərir. Bu aeroport dünyanın ən gözəl aeroportlarından biridir, nadir memarlıq əsəridir, daxili dizayn da göz oxşayır. Burada bütün işlər yüksək keyfiyyətlə, böyük zövqlə görülmüşdür. Yəni bu, ölkəmizin hava qapısı kimi, bugünkü Azərbaycanın inkişafını göstərir və gözəlləşən Bakıya əlavə yaraşıq verir.

Burada sərnişinlər üçün bütün lazımi şərait yaradılıb. Çox rahat istirahət zonaları, ictimai yerlər, böyük hollar tikilib. Yuxarıdan baxanda isə bu bina qanadlarını açmış böyük quşa bənzəyir. Necə ki, bu gün Azərbaycan da inkişafdadır, Azərbaycan da öz qanadlarını geniş açıb irəliyə gedir, iqtisadi inkişaf templərinə görə dünyada birinci yerdədir. Belə möhtəşəm binaların, nəqliyyat infrastrukturunun yaradılması bizim dövlət siyasətimizdir.

Hava nəqliyyatının inkişafı Azərbaycanda prioritet məsələlərdən biridir, dövlət öz dəstəyini əsirgəmir. Son illərdə hava nəqliyyatının inkişafına böyük dövlət investisiyaları qoyulub. Dövlət büdcəmizin artması hesabına bu sahəyə də əlavə vəsaitin ayrılması mümkün olub. Deyə bilərəm ki, son illər ərzində hava nəqliyyatı infrastrukturuna qoyulan vəsaitin hamısı dövlət investisiyaları hesabına mümkün olub.

Təkcə onu demək kifayətdir ki, bu aeroport ildə 6 milyon sərnişinə xidmət edəcəkdir. 15 il bundan əvvəl tikilmiş və bu yaxınlarda əsaslı şəkildə bərpa edilmiş aeroportun köhnə binası da 3 milyon sərnişini qəbul etmək imkanına malikdir. Beləliklə,

Azərbaycanda ildə 9 milyon sərnişin Bakının hava limanından istifadə edə bilər.

Ölkəmizin digər şəhərlərində son 10 il ərzində 7 aeroport tikilib. Onlardan 5-i beynəlxalq statusa malikdir. Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala və Yevlax aeroportları tikilib istifadəyə verilmişdir. Bu aeroportlarda həm xarici ölkələrə uçuşlar təşkil edilir və uçuşların sayı artır, eyni zamanda, daxili uçuşların da sayı artmaqdadır.

Mən yaxşı xatırlayıram, biz regional aeroportların tikintisinə başlayanda müxtəlif fikirlər var idi ki, bəlkə buna ehtiyac yoxdur, kim bu aeroportlardan istifadə edəcək, uçuşlar təşkil edilməyəcək. Ancaq baxın, bu gün regional aeroportlarımızdan nə qədər sərnişin istifadə edir, nə qədər Azərbaycan vətəndaşı indi yaşadığı zonadan başqa ölkələrə rahat gedə bilir. Bu gün Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ aeroportlarından xarici ölkələrə uçuşlar təşkil edilir.

Dövlət yeni təyyarələrin alınmasında da öz siyasətini davam etdirir. Deyə bilərəm ki, AZAL-ın bir dənə də olsun köhnə təyyarəsi qalmayıb. Bütün təyyarələr təzədir və ən yüksək standartlara cavab verir. Yəni bu standartlardan yuxarı standart yoxdur. Çünki AZAL-ın bu gün hava parkı «Boeing», «Airbus», «Embraer» təyyarələrindən ibarətdir. Bu gün bizim 25-ə yaxın təyyarəmiz vardır və bu proses davam etdirilir. Yaxın gələcəkdə yeni, böyük təyyarələrin alınması da nəzərdə tutulur. Bu aeroporta hətta dünyanın ən nəhəng təyyarəsi olan «Airbus A380» də enə və burada ona xidmət göstərilə bilər. Heydər Əliyev Beynəlxalq Aeroportu həm gözəlliyi, dizaynı, rahatlığı və həm də burada göstərilən xidmətlər baxımından bu gün dünyada seçilən aeroportlardandır. Azərbaycan dövləti bundan sonra da hava nəqliyyatının inkişafına öz dəstəyini verəcəkdir.

Bu gözəl şərait, maddi dəstək və hava nəqliyyatının infrastrukturuna qoyulan vəsait milli aviaşirkətimizin inkişafına da öz təsirini göstərıb. Bu gün AZAL dünya miqyasında seçilən hava şirkətlərindəndir. Təhlükəsizlik və keyfiyyət ön plandadır. Bu 2

amil bu gün AZAL-ı dünyada müasir və dinamik şirkət kimi təqdim edir. Mən bilirəm və maraqlanıram, sərnişinlər xidmətdən də razıdırlar. Ümumiyyətlə, AZAL-ın uğurlu inkişafı ölkəmizin ümumi inkişafına da öz müsbət təsirini göstərir. Çünki Azərbaycana, Bakıya və ya digər şəhərlərə gələn ilk qonaq AZAL-la üzləşir və orada göstərilən xidmət ilk dəqiqələrdən ölkəmiz haqqında təsəvvür yaradır.

Bu gün ölkəmiz inkişafdadır. Bu gün müasir Azərbaycan dünya miqyasında öz imkanlarını ortaya qoyur. Əlbəttə ki, belə olan halda, ilk təmas yerində də səviyyə ölkəmizin ümumi səviyyəsinə bərabər olmalıdır. Mən çox şadam ki, dövlət dəstəyindən istifadə edərək, AZAL bu gün nəinki regionda, dünya miqyasında böyük şirkətlərdən biridir və uçuşların sayı artır. Bu gün dünyanın 30-dan yuxarı aeroportuna uçuşlar təşkil edilir.

Əlbəttə, bu müsbət dinamika əminəm ki, gələcəkdə daha da güclənəcəkdir. Çünki görüləsi işlər çoxdur. Baxmayaraq ki, son illər ərzində hava nəqliyyatı infrastrukturunun yaradılması ilə bağlı, demək olar, bütün əsas işlər görülüb. Aeroportlar tikilib, müasir texnika, yeni təyyarələr alınır, yeni uçuşlar təşkil edilir. Azərbaycan inkişaf edir və ölkəmizə gələn qonaqların sayı artır. Belə olan halda, əlbəttə ki, hava nəqliyyatının inkişafı bundan sonra da prioritet məsələ olaraq qalacaqdır.

Azərbaycanda yükdaşımalarının həcmi də artır. Azərbaycanda karqo aviasiya deyə bilərəm ki, dünya miqyasında ən birinci yerlərdədir. Biz öz coğrafi vəziyyətimizdən çox səmərəli şəkildə istifadə edirik. Çalışırıq və hesab edirəm buna nail olmuşuq ki, Bakını nəqliyyat və logistika mərkəzinə çevirək. Bu məqsədlə karqo aviasiya Azərbaycanda uğurla inkişaf edir. Yeni təyyarələr alınır. Karqo terminal neçə ildir ki, fəaliyyət göstərir. Yəni biz coğrafi vəziyyətimizdən maksimum dərəcədə istifadə etməliyik ki, Azərbaycanı, o cümlədən regionu nəqliyyat mərkəzinə də çevirək. Bu istiqamətdə işlər uğurla gedir. Bu, ölkəmizin önəmini artırır, iqtisadi potensialımızı gücləndirir. Hesab edirəm ki, bu istiqamətdə əlavə tədbirlərin

görülməsi nəticəsində biz imkanlarımızı bölgədə daha da möhkəmləndirəcəyik.

Beləliklə, Azərbaycan dünya miqyasında nəqliyyat-logistika mərkəzi kimi, öz rolunu bundan sonra da oynayacaqdır. Bizim coğrafi vəziyyətimiz çox əlverişlidir. Xatırlayıram, hələ 10 il bundan əvvəl nəqliyyat məsələləri ilə bağlı çıxışlarımda demişəm ki, əgər biz bu coğrafi vəziyyətimizi infrastrukturla təmin etməsək, bu coğrafiyanın heç bir mənası olmayacaqdır. Ona görə son illər ərzində başqa sahələrdə aparılan siyasətlə yanaşı, nəqliyyat sektorunun inkişafı da prioritet məsələ olmuşdur. Təsadüfi deyil ki, Azərbaycanda ən böyük dövlət investisiyaları nəqliyyat sektoruna qoyulub. İlk növbədə ona görə ki, buna ehtiyac var idi. Çünki biz bütün nəqliyyat infrastrukturumuzu yenidən qurmalıydıq. Digər tərəfdən, nəqliyyat və infrastruktur iqtisadi inkişafı şərtləndirən birinci amildir. Bəzi hallarda belə hesab oluna bilər ki, yollara, hava nəqliyyatına, dəniz nəqliyyatına qoyulan vəsait tez qayıdan vəsait deyildir. Bu həqiqətdir. Yeni yaradılan imkanlar, turizm zonaları, iqtisadi inkişaf, şəhərlərarası rabitənin rahatlığı, yükdaşımalarının artımı, tranzit potensialımızın inkişafı – bütün bu amillər bizi həm siyasi, həm də eyni zamanda, iqtisadi cəhətdən də gücləndirir. Ona görə nəqliyyat sektoruna qoyulan investisiyalar özünü doğruldur.

Bu gün nəqliyyatın bütün istiqamətləri üzrə konkret proqramlar icra edilir. Avtomobil yolları çəkilir. Magistral yollar, şəhərlərarası yollar, demək olar ki, tamamlanır. Biz son bir neçə il ərzində ilk növbədə, kənd yollarının tikintisi ilə ciddi məşğuluq. Həm dövlət büdcəsinin, həm də Prezidentin ehtiyat fondunun vəsaiti hesabına kənd yollarının tikintisi sürətlə gedir. Hesab edirəm ki, növbəti illərdə – 2018-ci ilə, üçüncü regional Proqram başa çatana qədər biz bütün kənd yollarını tikəcəyik və bərpa edəcəyik.

Dəniz nəqliyyatı da prioritet olaraq qalır. Xəzər Gəmiçiliyi dünya miqyasında böyük şirkət hesab olunur. Yaxın keçmişdə bu şirkətin daha da səmərəli fəaliyyəti üçün əlavə tədbirlər

görülüb, struktur islahatları aparılıb. Bu gün Xəzər Gəmiçiliyi də AZAL-ın səviyyəsinə çatmalıdır və çatacaqdır. Bizim 260-dan yuxarı gəmimiz vardır. Düzdür, onların bəziləri lazımi səviyyədə deyil. Ancaq son 10 il ərzində 20-yə yaxın gəmi alınıb. Onlardan 10-u tanker, 6-sı isə bərədir. Azərbaycanda böyük Gəmiqayırma zavodu tikilib. Heç vaxt Azərbaycanda belə zavod olmayıb. Ancaq gəmi təmiri zavodlarımız olub Amma bu gün Gəmiqayırma zavodumuzda istənilən gəmi istehsal oluna bilər – tanker, bərə, sərnişin gəmisi, neft əməliyyatlarına xidmət edən gəmilər və eyni zamanda, hərbi gəmilər. Bu gün Xəzər hövzəsində ən böyük beynəlxalq dəniz ticarət limanı da Azərbaycanda – Ələtdə tikilir. Bu il bu limanın birinci mərhələsi başa çatacaq, istifadəyə veriləcəkdir. Bütövlükdə isə biz gələn il Ələt Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd edəcəyik. Birinci mərhələdə 10 milyon, ondan sonra 20 milyon, o cümlədən 1 milyon konteyner yükdaşıma qabiliyyətinə malik olan bu liman Azərbaycanın tranzit imkanlarını daha da artıracaqdır.

Bununla paralel olaraq Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi də uğurla gedir. Bu layihəni biz tərəfdaşlarla – Türkiyə və Gürcüstanla bərabər icra edirik. Bu dəmir yolunun tikintisi nəticəsində Azərbaycan 2 qitəni birləşdirəcəkdir. Onsuz da biz Avropa ilə Asiya arasında olan bir ölkəyik. Dəmir yolları ilə, avtomobil yolları ilə, hava nəqliyyatı ilə biz öz mərkəzi rolumuzu daha da artıracağıq. Bakı–Tbilisi–Qars tarixi layihədir. Azərbaycan maliyyə yükünün böyük hissəsini öz üzərinə götürüb. Azərbaycanın payına düşən tikinti işləri artıq bu ilin sonuna qədər tamamlanacaq və ümid edirəm ki, yaxın vaxtlarda bu yol tamamilə açıla bilər. Beləliklə, Asiya ilə Avropanı birləşdirən ən rahat, qısa yol Azərbaycandan keçəcəkdir.

Bir sözlə, bu gün, bu gözəl və tarixi bir gündə bütövlükdə nəqliyyat sektorunda gedən işlər, aparılacaq islahatlar və siyasət haqqında istərdim ki, öz fikrimi bildirim. Bundan sonra da dövlət öz siyasətini davam etdirəcəkdir. Azərbaycanda

nəqliyyat sektoru iqtisadiyyatımızın aparıcı sektoruna çevrilməkdədir. Belə gözəl aeroportların tikintisi eyni zamanda, gənc, amma müasir və dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkə olan Azərbaycanın gücünü göstərir.

Bu aeroportun tikintisində iştirak etmiş bütün insanlara – inşaatçılara, dizaynerlərə, memarlara təşəkkürümü bildirirəm. Əminəm ki, Azərbaycan vətəndaşları və ölkəmizə gələn qonaqlar bu gözəl imkanlardan istifadə edəcəklər. Bu binaya girərkən adamın ürəyi açılır. Mən fəxr edirəm ki, bizim belə gözəl aeroportumuz vardır.

Əziz dostlar, sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibəti ilə bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

**Cahangir Əsgərov** *(«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin (AZAL) prezidenti):* Möhtərəm cənab Prezident! Bu gün həqiqətən, tarixi bir gündür. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi istismara verilir.

Cənab Prezident, icazə verin, bizə göstərdiyiniz daimi diqqət və qayğıya, aviatorların işinə verdiyiniz yüksək qiymətə görə Sizə dərin minnətdarlığımızı bildirim.

Bakıda beynəlxalq standartlara uyğun ilk aerovağzal binasını 1999-cu ildə ulu öndərimiz Heydər Əliyev açmışdı.

Ulu öndərin dediyi «Mən inanıram ki, AZAL bundan sonra da yeni nailiyyətləri ilə bizi sevindirəcək» sözləri bu gün gerçəkləşir.

Son illər Sizin birbaşa göstəriş və tövsiyələriniz nəticəsində mülki aviasiya sahəsində çox sayda sevindirici hadisələr və yeniliklər baş verir.

Aviaşirkətimizin hava gəmiləri tamamilə yenilənib. Bu gün Azərbaycan vətəndaşları yalnız müasir, Qərb istehsalı olan «Airbus» 340, 320, 319, «Boeing» 757, 767 və «Embraer» təyyarələri ilə uçurlar.

Sizin dediyiniz kimi, respublikamızın şəhərlərində ardıcıl olaraq 2004-cü ildə Naxçıvanda, 2006-cı ildə Gəncədə, 2008-ci ildə Lənkəranda və Zaqatalada, 2011-ci ildə Qəbələdə beynəlxalq aeroportlar tikilib, müasir uçuş-enmə zolaqları inşa edilib.

2012-ci ildə mövcud aerovağzal binası tamamilə yenidən qurulub. 2013-cü ildə isə Yevlax aeroportunun yenidənqurma işləri başa çatıb.

Möhtərəm cənab Prezident!

Bu gün sərnişinlərimizi yeni, müasir aerovağzal binasına dəvət edəcəyik. Sizin xeyir-duanızla bu gün saat 17.50-də Bakıdan İstanbula uçan təyyarə artıq bu terminaldan yola düşəcəkdir.

İldə 6 milyon sərnişindaşıma gücünə malik olan yeni aerovağzal kompleksinin ümumi sahəsi 65 min kvadratmetrdir.

Təməli qoyulduğu gündən indiyədək Sizin birbaşa tövsiyələriniz nəticəsində bu terminalın tikintisində ən keyfiyyətli materiallardan istifadə edilib və müasir tələblərə cavab verən avadanlıqlar quraşdırılıb.

Bu terminalda uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki nailiyyətlər tətbiq edilib.

Sərnişinlərin rahatlığını təmin etmək üçün hər bir imkan yaradılıb – çox sayda kafe və restoranlar, biznes salonlar, interaktiv köşklər və uşaq meydançası inşa edilib, zallarda 2000-dən çox rahat oturacaq, 40 ədəd qeydiyyat masası, 30 eskalator, 21 lift və binanın xaricində teleskopik traplar quraşdırılıb.

Bu traplar eyni zamanda 12 təyyarəni, o cümlədən dünyanın ən böyük sərnişin təyyarəsini – «Airbus A 380»ni qəbul edə bilir.

Bu gün mən bu tikintidə iştirak edən memarlara və inşaatçılara təşəkkürümü bildirmək istəyirəm.

Terminalın tikintisi ilə yanaşı, Heydər Əliyev Beynəlxalq Aeroportunun infrastrukturu dəyişmiş, terminalın istismar tələblərinə uyğunlaşdırılmışdır.

Möhtərəm cənab Prezident!

İcazənizlə, mən bu işlərin bir neçəsi barədə Sizə məlumat verim. Dünyanın ən möhtəşəm, öz arxitektura görünüşü ilə hər kəsi heyran qoyan, hündürlüyü 65 metr olan Hava Hərəkətinin İdarəetmə Mərkəzi inşa edilib.

İdarəetmə Mərkəzində quraşdırılmış avadanlıq 165 min kvadratkilometr ərazidə hava gəmilərinin uçuşlarını idarə etməyə imkan verir. Hava dəhlizinin uzunluğu isə 8 min kilometrdən artıqdır.

Uzunluğu 4 min metr və eni 75 metr olan yeni uçuş-enmə zolağı inşa edilib. Hər cür hava şəraitində təyyarələri qəbul etmək məqsədilə bu zolaq İKAO-nun ən yüksək kateqoriyasına cavab verən işıqlandırma sistemləri, radionaviqasiya avadanlığı və radarlarla təchiz olunub.

Təyyarələrin hərəkəti və yaxınlaşması üçün sahəsi 281 min kvadratmetr olan asfalt-beton perronun tikintisi həyata keçirilib.

Yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə Yanğınsöndürmə Stansiyası tikilib və 8 ədəd müasir yanğınsöndürən maşın alınıb.

Aerovağzal kompleksinin fasiləsiz elektrik enerjisi ilə təchizatı üçün sahəsi 3500 kvadratmetr olan Enerji Mərkəzi tikilib və 34 min metr kabel çəkilib.

Mühəndis-kommunikasiya xətlərinin çəkilişi üçün uzunluğu 700 metr yeraltı dəmir-beton qalereya inşa edilib.

Aerovağzalın önündə 750 yerlik avtomobil dayanacağı və ona bağlanan avtomobil yolları salınıb, 90 min kvadratmetr asfalt döşənilib.

Kompleksin istilik təminatı üçün aeroportun mərkəzi qazanxanası yenidən qurulub.

Bütün aeroport üçün Mərkəzi Kanalizasiya Kollektor Stansiyası və 3 yeni Drenaj Nasos Stansiyası inşa edilib.

Aerovağzal kompleksinin tikintisi ilə bağlı aeroportun perimetri boyu mühafizə tədbirləri ilə əlaqədar 11 kilometr yeni elektron mühafizə hasarı çəkilib.

Bu gün biz inamla deyə bilərik ki, Heydər Əliyev Beynəlxalq Aeroportu ən yüksək standartlara cavab verən, dünyanın ən gözəl, ən müasir hava limanlarından biridir və ona «Ən Yaxşı Aeroport» adı verilməsi üçün artıq müraciət edilib.

Möhtərəm cənab Prezident!

Bu gün Siz aviatorlarımıza əsl bayram bəxş etdiniz.

Biz də Sizə söz veririk ki, bu terminalda yüksək keyfiyyəti təmin etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Çox sağ olun!

*Cahangir Əsgərov yeni aerovağzal kompleksinin ilk rəmzi sərnişin biletlərini dövlətimizin başçısına və xanımına təqdim etdi.*

**M a r t i n B u r n s** *(Aerovağzal kompleksinin tikinti işləri üzrə baş əlaqələndiricisi):* Cənab Prezident!

Hörmətli qonaqlar, həmkarlarım!

5 ildən az vaxt öncə – bu cür möhtəşəm yeni hava limanı terminalının texniki əsaslandırma işlərinin başa çatdırılmasından sonra bu cür tikintini qısa müddətdə layihələndirmək və başa çatdırmaq həm texniki, həm də təkmil konstruksiya və hava limanı sistemlərinin mürəkkəbliyi baxımından, demək olar ki, rekord sayıla bilər.

AZAL üçün bu cür gözəl binanı yaratmaq məqsədilə vahid komanda kimi işləmiş hər kəsə minnətdarıq. Onlar ürəkdən çalışmış, peşəkarlığını, səbrini və bacarıqlarını nümayiş etdirmiş şəxslərdir. Əminəm ki, bu hava limanı həm gözəlliyi, həm innovasiyaları ilə beynəlxalq nüfuz qazanacaqdır.

Layihənin uğurlu olmasına, həyata keçirilməsinə töhfə vermiş və bu cür qətiyyətlə çalışmış bütün şirkətlərə AZAL adından minnətdarlığımı bildirmək istəyirəm. Bizimlə işləmiş şirkətlər aşağıdakılardır:

Tikinti podratçısı kimi çıxış etmiş, bütün inşaat işlərini aparmaq, «MEP» sistemlərini və peşəkar aeroport avadanlığını «SITA» alt podratçısı vasitəsilə quraşdırmış «MAPA» şirkəti;

Binanın heyrətləndirici fasadının dizaynını vermiş və tikmiş «WAAGNER-BIRO» şirkəti, memarlar Woods Bagot, struktur, seysmik və «MEP» sistemlərin quruluşuna cavabdeh mühəndislər Buro Happold, müsafirlərin gördüyü və toxunduğu yeni innovativ interyer dizaynını təmin etmiş «AUTOBAN» şirkəti, müasir baqajların idarə edilməsi sisteminin dizaynı və quruluşunu təmin etmiş «VANDERLANDE», sərnişinlərin teleskopik traplara daxilolma platformalarını quraşdırmış «CAVAG», bütün lift və eskalatorları təmin etmiş «SCHINDLER» şirkətləri.

Əlavə olaraq, biz aerovağzalın görünüşünün mühüm hissəsini bu cür tərtib edən müəssisələr adından bütün podratçılara öz təşəkkürümüzü bildiririk.

Belə bir mühüm layihədə iştirak etmək hamımız üçün şərəf və iftixar oldu.

AZAL-ın təkliflərini, layihəyə dəstək vermiş heyətin mühüm və dəyərli töhfəsini də yaddan çıxarmırıq.

Azərbaycanın bu cür qonaqpərvər təəssürat bağışlayan qapılarının yaradılmasında yorulmadan çalışan hər bir şəxsə səmimi minnətdarlığımızı bildiririk.

Çox sağ olun!

**Hacıağa Əliyev** *(Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyasının direktor müavini):* Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra mülki aviasiyada mühüm irəliləyişlər baş verdi. Ulu öndərimiz Heydər Əliyevin tövsiyələrinə əsasən, təyyarə parkının müasirləşdirilməsinə istiqamət götürüldü və beləliklə, çox böyük olmayan vaxt ərzində – 1993-cü ildən başlayaraq «Boeinq-727», «Boeinq-757», «A-320», «Gulfstream», «ATR-72», «EC-155», «S-92», son 3 ildə «Agusta199» helikopteri, «Boeinq-767», «Boeinq-747-400», «Embraer»-170/190», «A-340» hava gəmiləri Azərbaycanın təyyarə parkına daxil edildi və eyni zamanda, onların texniki

xidməti də təşkil olundu. 2014-cü ildə ən müasir, uçuş kütləsi 442 ton olan «Boeinq–747-8» təyyarəsinin gəlməsi gözlənilir. «TU-134» və «TU-154» kimi köhnəlmiş texnika artıq istismardan tam xaric edilib

Belə bir müsbət cəhəti də qeyd etmək lazımdır ki, bu hava gəmilərini idarə edən pilotların, kapitanların, gənc nəslin çox hissəsi bizim Milli Aviasiya Akademiyasının müdavimləridir. Akademiyamız pilotlardan əlavə, aviasiyanın tələb edilən bütün sahələri üzrə mütəxəssislər hazırlayır. Akademiyada ən son standartlara cavab verən «A-320», «Boeinq-767», «ATR-72», «İL-76», «Mİ-8» hava gəmilərinin trenajorları quraşdırılıb və regionda tələb edilən «Embraer» təyyarəsinin və «Sikorski» helikopterlərinin trenajor komplekslərinin qurulması nəzərdə tutulub.

Fürsətdən istifadə edərək, mən bir pilot kimi, bütün cavabdehliklə deyə bilərəm ki, respublikada inşa edilən yeni aeroportlarımız da ən yüksək tələblərə uyğundur. Bütün bu son nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliyi və respublikamızın prezidenti cənab İlham Əliyevin düzgün strategiyasının nəticəsidir. Azərbaycan aviasiyasının sürətli inkişafı ilk növbədə, respublikamızın rəhbərliyinin diqqəti və qayğıkeşliyi nəticəsində mümkün olmuşdur.

İcazə verin, bu gün aviasiya və aviasiya işçilərinə göstərilən diqqət və qayğıya görə Sizə əməkdaşlarımız adından öz minnətdarlığımı bildirim və bir daha Sizi əmin edim ki, bizə etibar edilən avadanlığın və texnikanın düzgün istismarını təmin edəcəyik. Yeni terminalın açılması münasibəti ilə bir daha hamını təbrik edirəm.

Diqqətinizə görə çox sağ olun!

* * *

*Prezident İlham Əliyev yeni aerovağzal kompleksi ilə yaxından tanış oldu.*

*Azərbaycanın mülki aviasiyası bütün dünyada nəqliyyatın elitar və yüksək texnologiyalara əsaslanan seqmenti kimi*

*tanınmaqdadır. Azərbaycanın coğrafi cəhətdən olduqca əlverişli mövqedə yerləşməsi ölkəmizin dünyanın hava nəqliyyatı sistemindəki rolunu və yerini daha da artırır. Ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərən prezident İlham Əliyevin tapşırıq və göstərişlərinin yüksək səviyyədə icra olunması Azərbaycanın aviasiya sahəsinin tamamilə yeni mərhələyə çıxarılmasına şərait yaradıb. Məhz dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində mülki aviasiyamız 2003-cü ildən etibarən inkişafının yeni mərhələsinə qədəm qoyub.*

*Son illərdə respublika ərazisində mövcud olan aeroportların maddi-texniki bazasının gücləndirilməsi, aerovağzalların fəaliyyətinin müasir səviyyəyə çatdırılması istiqamətində görülən işlər ardıcıl və sistemli xarakter daşıyır. Mülki aviasiyanın inkişafına prezident İlham Əliyevin göstərdiyi diqqətin ən önəmli nəticələrindən biri də Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal binasının inşasıdır. Bu layihənin həyata keçirilməsində məqsəd sərnişin aviadaşımaları ilə bağlı xidmətin səviyyəsini daha da yüksəltmək, eləcə də uçuşların təhlükəsizliyini dünya standartlarına uyğunlaşdırmaqdır.*

*Bildirildi ki, ildə 6 milyon sərnişindaşıma gücünə malik olan yeni aerovağzal kompleksinin sahəsi 65 min kvadratmetrdir. Təyyarə qanadları formasında olan dördmərtəbəli möhtəşəm aerovağzal binası memarlıq görünüşü ilə diqqəti cəlb edir. Birinci mərtəbə uçuşa gedən sərnişinlərin qeydiyyatı və gələn sərnişinlərin baqajlarının alınması üçün nəzərdə tutulub. Burada, həmçinin «biznes-klass» sərnişinlərinə də yüksək səviyyədə xidmət göstəriləcəkdir. Aerovağzal kompleksinin ikinci mərtəbəsi isə uçuşdan gələn sərnişinlər üçün nəzərdə tutulub. Bu mərtəbədə sərnişinlərin sərhəd nəzarəti, viza alınması üçün köşklər, tranzit sərnişinlərinin aviasiya təhlükəsizliyi nəzarəti sahələri, eləcə də uçuşa gedən sərnişinlər üçün istirahət zonaları yaradılıb. Sərnişinlərin gedişi üçün nəzərdə tutulan üçüncü mərtəbədə müasir sərnişindaşınma texnologiyasına əsaslanan, sərnişinlərin gömrük və aviasiya təhlükəsizliyi və sərhəd nəzarəti həyata keçirilir. Bu*

*mərtəbədə xüsusi dizaynla tərtib olunmuş «Duty free» mağazaları, kafelər fəaliyyət göstərir. Aerovağzal binasının dördüncü mərtəbəsində də «biznes-klass» sərnişinlərinə xidmət göstərmək məqsədilə bar və kafelər, görüşlərin keçirilməsi üçün rabitə avadanlığı ilə təchiz olunan otaqlar yerləşir. Bütün mərtəbələrdə elektron məlumat tabloları yerləşdirilib.*

*Yeni terminalın binasında müasir eskalatorlar və liftlər quraşdırılıb. Burada beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq edilib. Müasir görünüşü ilə diqqəti cəlb edən yeni aerovağzalda sərnişinlərə xidmət ən yüksək tələblər səviyyəsində olacaqdır. Ən müasir avadanlığın tətbiqi uçuşların təhlükəsizliyinə hərtərəfli imkan yaradacaqdır. Aerovağzal binasında sərnişinlərin dincəlməsi üçün yüksək standartlar nəzərə alınıb. Burada sərnişinlərin zövqünü oxşamaq üçün yaşıl zonalar xüsusi dizaynla yerləşdirilib. Binanın ərazisində eyni vaxtda 12 təyyarəni qəbul edə biləcək teleskopik traplar quraşdırılıb. Teleskopik traplardan ikisi dünyanın ən böyük sərnişin təyyarəsini – ikigöyərtəli «Airbus A-380» hava gəmisini qəbul etmək üçün nəzərdə tutulub. Təhlükəsizlik tədbirləri ən müasir standartlar səviyyəsində həyata keçirilir.*

*Məlumat verildi ki, aerovağzal binasında mühəndis-texniki, sərnişindaşıma və aviasiya təhlükəsizliyi ilə bağlı kadrların işə qəbulu müsabiqə yolu ilə aparılıb. Yeni işçilərin qəbulu və məşqləri ilə bağlı bütün tədbirlər başa çatıb. Ümumilikdə, Heydər Əliyev Beynəlxalq Aeroportundakı yeni aerovağzal binasında təyyarələrin qəbulu, yerüstü xidmət üçün bütün lazımi infrastruktur mövcuddur.*

*Qeyd olundu ki, bəzi beynəlxalq təşkilatlar tərəfindən ölkəmizdə aviasiya təhlükəsizliyi sahəsində aparılan audit nəticəsində Azərbaycana «1-ci dərəcə» statusu verilib. Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportundan dünyanın 15 dövlətinin 33 hava limanına uçuşlar həyata keçirilir. Uzaq məsafələrə, o cümlədən ABŞ-a birbaşa uçuşların təşkili istiqamətində aparılan işlər yekunlaşmaq üzrədir. Respublika daxilində isə*

*Naxçıvan, Gəncə, Qəbələ şəhərlərinə müntəzəm, Zaqatala və Lənkəran şəhərlərinə isə çarter reysləri yerinə yetirilir. 2013-cü ildə Heydər Əliyev Beynəlxalq Aeroportundan təyinat məntəqələrinə və geriyə 2 milyon 857 min sərnişin daşınıb. Bu göstəricilər son illərdə ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinin və təyyarə parkının müasir, yeni təyyarələrlə daha da zənginləşməsi sayəsində əldə olunub. Yeni aerovağzal kompleksinin meydanında 750 avtomobil yerlik dayanacaq və ona birləşən yollar da tikilib, ətrafda geniş yaşıllaşdırma işləri aparılıbdır.*

*Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

* * *

*Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin ilk sərnişinləri olan prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva buradan Çex Respublikasının paytaxtı Praqaya yola düşdülər.*

## ÇEX RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*23 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Çex Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Çexiyanın dövlət bayraqlarının dalğalandığı Praqanın Hökumət Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

## ÇEX RESPUBLİKASININ DEPUTATLAR PALATASININ SƏDRİ, ÇEXİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ YAN HAMAÇEK İLƏ GÖRÜŞ

*Praqa*

*23 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Çex Respublikası Deputatlar Palatasının Sədri, Çexiya–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Yan Hamaçek ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Parlamentlərarası əlaqələrin daha da genişlənməsinin Azərbaycan–Çexiya əməkdaşlığının inkişafına töhfə verdiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

**NİDERLAND KRALI ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kral Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu yaxınlarda III Nüvə Təhlükəsizliyi Sammiti ilə bağlı Niderlanda etdiyim səfərdən məmnunam. İnanıram ki, Azərbaycan ilə Niderland arasındakı dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf edərək, bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2014-cü il*

# AVROPA İTTİFAQININ «ŞƏRQ TƏRƏFDAŞLIĞI» PROQRAMININ NÖVBƏTİ SAMMİTİNDƏ İŞTİRAK

*Praqa*

*24 aprel 2014-cü il*

*Aprelin 24-də Çex Respublikasının paytaxtı Praqa şəhərində Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramının növbəti sammiti işə başlamışdır.*

*Bu sammit «Şərq Tərəfdaşlığı»nın 2009-cu ildə keçirilmiş Praqa Sammitinin beşinci ildönümünə həsr olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.*

*Sammit Praqa qəsrində dövlət və hökumət başçılarının rəsmi qarşılanma mərasimi ilə başladı.*

*İştirakçı ölkələrin dövlət bayraqlarının dalğalandığı meydanda dövlət və hökumət başçılarının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Çexiya prezidenti Miloş Zeman Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Daha sonra sammitin birinci iclası keçirildi.*

*Prezident İlham Əliyev iclasda iştirak etdi.*

*Çex Respublikasının Prezidenti Miloş Zeman sammiti açaraq iştirakçı ölkələrin dövlət və hökumət başçılarını salamladı. O, «Şərq Tərəfdaşlığı» Proqramının ötən 5 ildə böyük inkişaf yolu keçdiyini dedi, bu istiqamətdə görülən tədbirlərin iştirakçı ölkələri Avropa dəyərlərinə və meyarlarına daha da yaxınlaşdırdığını vurğuladı.*

*Çex dövlətinin başçısı qarşıda duran vəzifələrdən danışarkən əmin olduğunu bildirdi ki, ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq əlaqələri bundan sonra da davam etdiriləcəkdir.*

*Avropa İttifaqının genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle «Şərq Tərəfdaşlığı» Proqramının beşinci ildönümü münasibətilə təbriklərini çatdırdı. Komissar bu görüşün 2013-cü ildə Vilnüsdə keçirilmiş «Şərq Tərəfdaşlığı» Sammiti ilə gələn il Riqada təşkil ediləcək növbəti Zirvə görüşü arasında bir bağlantı olduğunu diqqətə çatdırdı.*

*Sonra müzakirələr başlandı.*

*«Şərq Tərəfdaşlığı» Proqramı Avropa İttifaqının yeni layihələrindən biri hesab olunur. Proqram 2008-ci ilin mayında Avropa İttifaqının üzvləri olan Polşa və İsveç tərəfindən irəli sürülmüşdür. Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ukrayna və Ermənistanı əhatə edən «Şərq Tərəfdaşlığı» Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində MDB dövlətləri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsüdür. Bu proqram Avropa İttifaqına daha da yaxınlaşmağı, sabitlik, yaxşı idarəçilik və iqtisadi inkişafı təşviq etməyi nəzərdə tutur, demokratiya, qanunun aliliyi, insan hüquqlarına və əsas azadlıqlara hörmət, bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə əsaslanır.*

*«Şərq Tərəfdaşlığı» Sammiti ilk dəfə 2009-cu ilin mayında Praqada keçirilib. İkinci sammit 2011-ci ilin sentyabrında Varşavada, üçüncüsü isə ötən ilin noyabrında Vilnüsdə təşkil edilmişdir.*

*** * ***

*Aprelin 24-də Çex Respublikasının Prezidenti Miloş Zemanın adından «Şərq Tərəfdaşlığı» Proqramının qəbul edilməsinin 5 illiyinə həsr olunmuş sammitdə iştirak etmək üçün Praqada səfərdə olan dövlət və hökumət başçılarının şərəfinə nahar verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev naharda iştirak etdi.*

*Sonra konsert proqramı oldu.*

## ÇEX RESPUBLİKASININ PREZİDENTİ MİLOŞ ZEMAN İLƏ GÖRÜŞ

*Praqa*

*24 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Praqada Çex Respublikasının Prezidenti Miloş Zeman ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu. «Şərq Tərəfdaşlığı» Proqramının Praqada keçirilən sammitində səmərəli müzakirələrin aparıldığı qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə Çexiya arasında müxtəlif sahələrdə, xüsusilə sərmayə qoyuluşu, infrastruktur layihələrinin həyata keçirilməsi, təhsil, nəqliyyat və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycan–Çexiya hökumətlərarası birgə Komissiyanın işinin gücləndirilməsinin, Çex şirkətlərinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsinin önəmi vurğulandı.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ NİKOLAE TİMOFTİ İLƏ GÖRÜŞ

*Praqa*

*24 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Praqada Moldova Respublikasının Prezidenti Nikolae Timofti ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin səviyyəsindən məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulandı, iqtisadi və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinin önəmi qeyd edildi.*

*Söhbət zamanı Avropa İttifaqı ilə ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*Praqa*

*24 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 24-də Praqada Polşa Respublikasının Prezidenti Bronislav Komorovski ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı və bu əlaqələrin inkişaf etdirilməsinin önəmi qeyd edildi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı. Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə edildi.*

*Polşa prezidenti Bronislav Komorovski dövlətimizin başçısını ölkəsinə səfərə dəvət etdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*Praqa*

*24 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Praqada Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvili ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından razılıq* bildirildi, *yüksək səviyyəli* regional *əməkdaşlığın* bu *əlaqələrə töhfə* verdiyi qeyd olundu. *Enerji sahəsində əməkdaşlığın uğurlu olduğu vurğulandı. Azərbaycan ilə Gürcüstan arasında* turizm, *mədəniyyət, təhsil,* idman *və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu* qeyd edildi.

*Gürcüstan prezidenti Georgi Marqvelaşvili prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət* etdi.

## AVROPA İTTİFAQININ «ŞƏRQ TƏRƏFDAŞLIĞI» PROQRAMININ 5 İLLİYİNƏ HƏSR OLUNMUŞ SAMMİTDƏ ÇIXIŞ

*Praqa*

*24 aprel 2014-cü il*

*Aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramının 5 illiyinə həsr olunmuş sammit keçirilmişdir.*

*Ermənistan prezidenti Serj Sarkisyan Zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlükdə qondarma «erməni soyqırımı» ilə bağlı mülahizələrə həsr etdi. Türkiyənin sammitdə təmsil olunmamasından sui-istifadə edən Ermənistan prezidenti bununla da Zirvə görüşünün plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma «soyqırımı» məsələsini qabardıb Türkiyəni əsas tənqid hədəfi kimi seçdi. Serj Sarkisyan bir tərəfdən, Türkiyəni qondarma «soyqırımı» ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib. Ermənistan prezidenti çıxışında hər cəhdlə inandırmağa çalışıb ki, Avropa ictimaiyyəti qondarma «soyqırımı» ilə bağlı daha təsirli mövqe tutmalıdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev plenar iclasda çıxış edərək demişdir:*

– Təşəkkür edirəm, cənab Prezident. İlk növbədə, prezident Zemana dəvətə və bu əhəmiyyətli tədbiri təşkil etdiyinə, qonaqpərvərliyə görə təşəkkür etmək istərdim. Gözəl Praqa şəhərində yenidən olmağımdan və dialoqumuzu davam etdirməkdən çox məmnunam. Bildirmək istərdim ki, biz Avropa təsisatları ilə daha yaxından əlaqə qurmağımız baxımından son 5 ili çox əhəmiyyətli hesab edirik. Bu 5 il ərzində ölkəmizdə

siyasi, iqtisadi və digər sahələrdə islahatlar həyata keçirmişik. Avropa İttifaqının üzvü olan dövlətlərlə əlaqələrimiz çox geniş və konstruktiv olmuşdur. Bu əlaqələrin mahiyyəti, əlbəttə ki, müsbət istiqamətdə dəyişir.

Biz siyasi islahatlara böyük əhəmiyyət veririk və bu baxımdan Avropa İttifaqı ilə əməkdaşlığımızı önəmli hesab edirik. Demokratik inkişaf, insan hüquqlarının qorunması, qanunun aliliyinin və fundamental azadlıqların təmin olunması bizim əsas prioritetlərimizdəndir. Biz ölkəmizi müasirləşdiririk. Müasir iqtisadi sistem müasir siyasi sistemlə tamamlanmalıdır. Bu baxımdan Avropa İttifaqının nümunəsi yaxşı örnəkdir. İqtisadi sahədə biz çox işlər görmüşük. Sizə deyə bilərəm ki, əsasən iqtisadi islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı son 10 ildə dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı olmuş, 3 dəfədən çox artmışdır. Biz yoxsulluğu, işsizliyi aradan qaldıra bilmişik. Yoxsulluq Azərbaycanda 5 faiz təşkil edir. Xarici borcumuz ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Davos Dünya İqtisadi Forumuna əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünyada 39-cu yerdədir. Avropa təsisatları ilə əməkdaşlığımız genişdir, siyasi, iqtisadi, ticarət sahələrini, siyasi islahatlar və əlbəttə ki, enerji təhlükəsizliyi məsələlərini əhatə edir. 2011-ci il bu baxımdan əhəmiyyətli olmuşdur. Həmin vaxt prezident Barrozu və mən Bakıda sıx əməkdaşlıq üçün imkan yaradan enerji sahəsində strateji tərəfdaşlıq Memorandumunu imzaladıq. Bu qısa vaxt ərzində biz böyük uğurlar əldə edə bildik. Xüsusilə Vilnüs Sammitindən 1 ay sonra Avropanın 45 milyard dollar dəyərində ən böyük infrastruktur layihəsi hesab olunan XXI əsrin sazişini imzaladıq. Əsas investisiya Azərbaycan və bizim tərəfdaşlarımız tərəfindən qoyulacaqdır. Nəhəng qaz yatağı olan «Şahdəniz»in işlənilməsi, Trans–Anadolu və Trans–Adriatik qaz boru kəmərlərinin tikintisi Avropanın enerji xəritəsini dəyişdirəcək. Bununla da qarşıdan gələn 4-5 il ərzində Avropa üçün yeni qaz mənbəyi açılacaqdır. Düşünürəm ki, Avropa ilə Azərbaycan arasında güclü tərəfdaşlıq elə davam etdirilməlidir ki, biz qarşılıqlı faydalı olan vacib layihələri həyata keçirə bilək.

Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək, Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə–Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm.

Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub. Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl – Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə 7 Azərbaycan rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir.

Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq bu günədək davam edir. Ermənistan bu qətnamələrə məhəl qoymur və nə tarixən, nə də beynəlxalq hüququn normalarına əsasən onlara aid olmayan ərazinin işğalını davam etdirir. Eyni zamanda, onlar Azərbaycanı qeyri-konstruktiv yanaşmada günahlandırmaqda davam edirlər. Bizim torpaqlarımız işğal altındadır. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri çox aydın əks olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünün pozulması hesabına əldə olunmamalıdır. Üstəgəl ermənilər artıq öz müqəddəratını təyin ediblər, onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər hər yaşadıqları yerdə öz müqəddəratını təyin etməyi davam etdirsələr, nə baş verər. Onlar burada – Çex Respublikasında, Gürcüstanda, Rusiyada, Amerikada, yaşadıqları istənilən yerdə eyni yanaşma göstərə bilərlər. Onların öz dövləti var, onlar öz müqəddəratını təyin ediblər.

Münaqişənin tez bir zamanda həlli Azərbaycanın marağındadır. Mən əminəm ki, bu həmçinin Ermənistan xalqının marağındadır, Cənubi Qafqazda əməkdaşlıq baxımından da maraq dairəsindədir.

Türkiyə–Ermənistan əlaqələrinə gəldikdə, Baş nazir Ərdoğan bir neçə il öncə bəyanatla çıxış edərək, Ermənistanın rəhbərliyinə bütün arxivləri açmağı təklif etmişdi ki, tarixçilər 2 xalq arasındakı münasibətlərin tarixi məqamlarını nəzərdən keçirsinlər. Ancaq bu təklif adekvat cavabla qarşılanmadı. Dünən isə Baş nazir Ərdoğan erməni əsilli insanlara başsağlığı verdi, ancaq təəssüf ki, buna da Ermənistan tərəfindən müvafiq reaksiya verilmədi. Baxmayaraq ki, Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq görünür bu, Ermənistan hökuməti üçün kifayət deyildir. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır.

Nəhayət, sonuncu məsələ, Azərbaycan xalqı bir sual verir: niyə Ermənistana sanksiyalar qoyulmur? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu dözülməzdir və buna son qoyulmalıdır.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 25-də Çex Respublikasına işgüzar səfəri başa çatmışdır.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Əlcəzair arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişləndirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Əlcəzair xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 aprel 2014-cü il*

## BİNƏQƏDİ RAYONU ƏRAZİSİNDƏ TİKİLƏN YENİ MƏSCİD KOMPLEKSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Bakının Binəqədi rayonu ərazisində tikilən yeni məscid kompleksində aparılan inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məscid kompleksinin layihəsi əsasında görülən işlərlə bağlı məlumat verildi.*

*Dövlətimizin başçısı ayrı-ayrı inşaat sahələrini gəzdi, tikintinin gedişi ilə yaxından tanış oldu və müvafiq tapşırıqlarını verdi.*

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*26 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Latviya Respublikasının sabiq prezidenti xanım Vayra Vike-Freyberqanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi vurğulandı, yüksək səviyyəli qarşılıqlı rəsmi səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından önəmi qeyd olundu.*

*Söhbət zamanı əməkdaşlığımızın daha da inkişaf etdirilməsində Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun əhəmiyyəti vurğulandı.*

## ANDORRA KNYAZLIĞININ SABİQ BAŞ NAZİRİ OSKAR RİBAS REYQ İLƏ GÖRÜŞ

*26 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Andorra Knyazlığının sabiq Baş naziri Oskar Ribas Reyqi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Andorra Knyazlığı arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

## SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Serbiya Respublikasının sabiq prezidenti Boris Tadiçi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi vurğulandı.*

*Söhbət zamanı Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

## XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Xorvatiya Respublikasının sabiq prezidenti Stepan Mesiçi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin müxtəlif sahələrdə dinamik inkişafından məmnunluq ifadə edildi, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunda müzakirə ediləcək məsələlərin ölkələrarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti qeyd olundu.*

## İSRAİL DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ EHUD BARAK İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də İsrail Dövlətinin sabiq Baş naziri Ehud Barakı qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun ölkələrarası əməkdaşlığın davamlı inkişafı ilə bağlı müzakirələr aparılması üçün yaxşı imkan yaradacağı vurğulandı.*

## BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ PETER STOYANOV İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Bolqarıstan Respublikasının sabiq prezidenti Peter Stoyanovu qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndiyi vurğulandı, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun əməkdaşlığın möhkəmləndirilməsinə dair müxtəlif məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağı bildirildi.*

## MOLDOVA RESPUBLİKASININ SABİQ PREZİDENTİ PETRU LUÇİNSKİ İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Moldova Respublikasının sabiq prezidenti Petru Luçinskini qəbul etmişdir.*

*Sabiq prezident Petru Luçinski Azərbaycanın böyük şairi, dahi Nizami Gəncəvinin Moldovada 4 dildə nəşr olunmuş müdrik kəlamlarından ibarət kitabını dövlətimizin başçısına təqdim etdi.*

*Görüşdə Azərbaycan ilə Moldova arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olundu.*

## RUMINİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ EMİL KONSTANTİNESKU İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Rumıniyanın sabiq prezidenti Emil Konstantineskunu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlərin hərtərəfli inkişafından məmnunluq ifadə edildi, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun önəmi qeyd olundu.*

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Latviya Respublikasının sabiq prezidenti Valdis Zatlersi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Latviya arasında əlaqələrin müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etdiyi razılıqla qeyd olundu, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun nəticələrinin uğurlu olacağına əminlik ifadə edildi.*

## ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ ARNOLD RÜTEL İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Estoniya Respublikasının sabiq prezidenti Arnold Rüteli qəbul etmişdir.*

*Estoniya Respublikasının sabiq prezidenti Arnold Rütel dünyada iqtisadi və maliyyə böhranının hökm sürdüyü bir vəziyyətdə Azərbaycanda əldə olunan yüksək iqtisadi nailiyyətləri fenomen adlandırdı.*

*Görüşdə ikitərəfli münasibətlərimizin inkişafının razılıq doğurduğu bildirildi, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun regional və beynəlxalq əməkdaşlıqla bağlı qarşılıqlı fikir mübadiləsi aparılması baxımından əhəmiyyəti qeyd olundu.*

## FİNLANDİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ TARYA HALONEN İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Finlandiya Respublikasının sabiq prezidenti xanım Tarya Haloneni qəbul etmişdir.*

*Finlandiya Respublikasının sabiq prezidenti xanım Tarya Halonen dünyada dərin maliyyə və iqtisadi böhranın hökm sürdüyü dövrdə Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurların onda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı ölkəmizdə bütün sahələrdə olduğu kimi, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun inkişafına böyük önəm verildiyini vurğuladı.*

*Görüşdə Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun əhəmiyyətindən danışıldı.*

## BAKIDA BEYNƏLXALQ İDMAN MƏTBUATI ASSOSİASİYASININ 77-ci KONQRESİNİN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*27 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Bakıda Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının – AİPS-in 77-ci konqresinin iştirakçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə, hamınızı Azərbaycanda salamlayıram və sizin Azərbaycanda keçirdiyiniz günlərin uzun müddət yaddaşınızda qalacağı barədə qəti inamımı bildirirəm. Çox şadam ki, Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının konqresi bizim ölkədə keçirilir. Fürsətdən istifadə edərək, Assosiasiyanı 90-cı ildönümü münasibətilə təbrik etmək istəyirəm.

Bu tədbirin Azərbaycanda keçirilməsi bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu tədbir bizə ölkəmizi sizə təqdim etmək imkanı verəcəkdir. Siz Azərbaycanda, Bakıda bir neçə gün keçirəcəksiniz. Ölkəmizin tarixini, mədəniyyətini, ənənələrini və müasir inkişafını öz gözlərinizlə görəcəksiniz.

Azərbaycan zəngin tarixə, mədəniyyətə və ənənələrə malik olan ölkədir. Lakin müstəqil ölkə kimi gəncdir. Müstəqil ölkə kimi, yalnız 22 ildir yaşayırıq. Bu illər ərzində dövlətçiliyimizi qurmuşuq. Bir sistemdən digər sistemə keçid etmişik və sürətli

inkişafa nail olmuşuq. Biz həyatımızın hər bir sahəsini dəyişməli olduq. Birincisi, biz müstəqil və azad deyildik. Lakin əsrlər ərzində digər dövlətlərin bir hissəsi olaraq biz özünəməxsusluğumuzu, mədəniyyətimizi və ənənələrimizi qoruya bilmişik. Tamamilə fərqli siyasi sistemdə yaşamışdıq. İndi Azərbaycanda olan sistemdən tamamilə fərqli bir sistem idi. Buna görə müstəqillik illəri keçid, siyasi və demokratik təsisatların yaradılması, iqtisadi və siyasi islahatlar illəri olmuşdur.

Qürur hissi ilə qeyd etmək istəyirəm ki, iqtisadi çətinliklərin əksəriyyəti artıq geridə qalıb. Azərbaycan güclü demokratik təsisatlara malik olan ölkədir. Bu gün mətbuat nümayəndələri qarşısında çıxış edərək, bildirmək istəyirəm ki, bizim ən böyük nailiyyətlərimizdən biri medianın və mətbuatın azadlığıdır. Azad internet bizim həyatımızın tərkib hissəsidir. Bu gün əhalimizin 70 faizdən çoxu internet istifadəçisidir. Hökumət də Azərbaycanın hər bir şəhərinə və kəndinə genişzolaqlı interneti gətirmək üçün çoxlu sərmayə yatırır.

Siyasi islahatlar iqtisadi islahatlarla dəstəklənir. Çünki biz aydın başa düşdük ki, müstəqilliyimizi qorumaq və uğur qazanmaq üçün iqtisadiyyatımız güclü olmalıdır. Buna görə də köklü iqtisadi islahatlar həyata keçirilib. Nəticə etibarilə iqtisadiyyatımızın 80 faizindən çoxu özəl sektorda cəmləşib. Lakin 22 il bundan əvvəl bu faiz sıfır təşkil edirdi.

Sürətli iqtisadi artım bizə sosial infrastruktura sərmayə yatırmaq imkanı verdi və bu, prioritetlərimizdən biri idi. Məktəblərin tikintisi, təhsilə sərmayə qoyuluşu və mədəni irsin qorunması – bütün bunlar gündəliyimizin bir hissəsi idi. İndi isə biz deyə bilərik ki, Azərbaycanda sürətli iqtisadi artım bizə əksər sosial və iqtisadi problemlərin öhdəsindən gəlməyə kömək etdi.

Son 10 ildə Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olmuşdur. Bu iqtisadiyyat indi də sürətlə inkişaf edir. Maliyyə və iqtisadi böhran illərinə baxmayaraq, biz iqtisadi inkişaf sahəsində müsbət meyilləri

saxlaya bildik. Biz işsizliyi 5 faizə qədər azalda bildik. Bizdə çox sabit maliyyə vəziyyəti mövcuddur. Başqa sözlə, müstəqillik illəri ilk olaraq Azərbaycan xalqına onu göstərdi ki, ölkənin taleyi öz xalqının əlində olduqda bir çox şeylərə nail olmaq mümkündür. Buna görə də bizim üçün müstəqilliyimizin gücləndirilməsi, islahatların davam etdirilməsi və insanlarımıza daha yaxşı həyat şəraitinin yaradılması ən yüksək prioritet təşkil edir.

Müstəqillik illərində idmanın inkişafı və olimpiya hərəkatının dəstəklənməsi sahəsində bir çox işlər görülmüşdür. Biz Azərbaycanda çoxsaylı beynəlxalq yarışları, o cümlədən dünya və Avropa çempionatlarını təşkil etmişik. Bizim idmançılarımız beynəlxalq arenada yaxşı nəticələr əldə etmişlər. Yay Olimpiya oyunlarında ilk dəfə 1996-cı ildə iştirak etmişik. O zaman yalnız 1 medal qazanmışdıq. Sonuncu dəfə Londonda keçirilən Olimpiya oyunlarında isə 10 medal qazanmışıq, bunların da 2-si qızıl idi. 200-dən çox ölkə arasında 30-cu yeri tutmuşuq. Bu da idmanın inkişafının, dövlət və ictimai təşkilatların idmanın inkişafına göstərdiyi münasibətin təzahürüdür.

Azərbaycanda hökumət, dövlət qurumları, Gənclər və İdman Nazirliyi, Olimpiya Komitəsi, federasiyalar və klublar qarşılıqlı fəaliyyət göstərirlər. Buna görə də biz idmanı inkişaf etdirmək və idmançılarımıza yaxşı şərait yaratmaq üçün birgə planlar əsasında fəaliyyət göstəririk. Biz müstəqilliyin ilk illərində tamamilə məhv edilmiş idman infrastrukturunun inkişafına sərmayə yatırdıq. İndi isə bütün ölkə ərazisində 40-dan çox Olimpiya Mərkəzi tikilmişdir və bu proses hələ də davam edir. Hədəf ondan ibarətdir ki, Azərbaycanın hər bir şəhərində Olimpiya Mərkəzi olsun.

Biz bu hədəfə çatmağa artıq yaxınıq. Bakıda idman infrastrukturu bərpa olunur və yeni idman obyektləri tikilir. Əlbəttə, bu çox vəsait tələb edən təşəbbüsdür. Bu obyektlərə çoxlu vəsait sərf edilir və vəsait dövlət büdcəsindən ayrılır. Biz tamamilə əminik ki, bu vəsait Azərbaycanın gələcəyinə, sağlamlığına, gənc nəslə yatırılır. Bu gün idmançılarımızın əksəriyyəti təkcə beynəlxalq yarışlarda ölkəmizin şərəfini qorumaq nöqteyi-nəzərindən deyil, həm də davranışları ilə

örnəkdirlər. Ona görə də məşhur idmançıların mənəvi məsuliyyəti bizim diqqət mərkəzində saxladığımız məsələdir. Xoşbəxtlikdən bizim bütün məşhur idmançılarımız nümunəvi vətəndaş və vətənpərvərdirlər.

Əlbəttə ki, cəmi 22 illik müstəqillik tarixinə malik olan ölkə kimi, istər dünya, istərsə də Avropa çempionatlarında milli himnimizin səsləndirilməsini eşidəndə və milli bayrağımızın qalxmasını görəndə qəlbimiz fərəh hissi ilə dolur. Bu başadüşüləndir. Biz əlimizdən gələni edəcəyik ki, bu sürətli inkişaf həyatımızın hər bir sahəsində, o cümlədən idman sahəsində də davam etsin.

Sizin də bildiyiniz kimi, gələn il biz ilk Avropa oyunlarına ev sahibliyi edəcəyik. Bu, böyük məsuliyyət və vəzifədir. Bu həm ölkəmizi təqdim etmək, həm də müvafiq siyasət, öhdəlik, güclü siyasi iradə ilə siyasi xəritədə nisbətən yeni yaranmış ölkədə ilk Avropa oyunlarının keçirilməsinin mümkün olduğunu nümayiş etdirmək üçün fürsətdir. Biz bu oyunları Yay Olimpiya oyunları səviyyəsində keçirməyi planlaşdırırıq. Lakin bu baxımdan bizim vəziyyətimiz o qədər asan deyildir. Çünki hazırlıq işləri üçün yalnız 2 il yarım vaxtımız var. Müqayisə üçün, Yay Olimpiya oyunlarına ev sahibliyi edən ölkələrə 7 il vaxt verilir. Beləliklə, bizim isə 3 dəfə az vaxtımız var.

Lakin həvəsimiz böyükdür, qarşımızda isə çoxlu əlaqələndirmə və təşkilatçılıq işləri durur. Fürsətdən istifadə edərək, gələn il Bakı Olimpiya stadionunda keçiriləcək açılış mərasimində qonaq qismində iştirak etmək üçün hamınızı dəvət etmək istəyirəm. 2016-cı ildə biz Dünya Şahmat Olimpiadasına ev sahibliyi edəcəyik. 2017-ci ildə İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Bu da həmçinin coğrafi yerləşməmizin, mədəniyyətimizin və bugünkü Azərbaycanın göstəricisidir. 2 il ərzində bizdə Avropa və İslam Həmrəyliyi oyunları keçiriləcəkdir.

Azərbaycan müsəlman ölkəsidir, eyni zamanda, Avropa ilə güclü əlaqələri olan ölkədir. Bu əlaqələrin tarixi XIX əsrə gedib çıxır. İndi isə bu əlaqələr daha da güclüdür. Çünki onların

əsasını tərəfdaşlıq təşkil edir. Buna görə də Azərbaycanda multikulturalizm ənənələri çox güclüdür. Multikulturalizm bizim dövlət siyasətimizdir, bu bizim insanların həyat tərzi və əhval-ruhiyyəsidir. Biz etnik və dini köklərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşlarının faydalandığı etnik və dini tolerantlığa yüksək qiymət veririk.

Mən əminəm ki, ölkəmizə səfəriniz zamanı sizin Azərbaycanda müxtəlif millətlərin nümayəndələrinə mənsub olan tarixi abidələri və ənənəvi yerləri görmək fürsətiniz olacaqdır. Bu tədbirin Azərbaycanda, Bakıda keçirilməsi ilə əlaqədar olaraq, Assosiasiyanın rəhbərliyinə öz təşəkkürümü bildirmək istəyirəm. Tədbir iştirakçılarına bu gün bizimlə olduqları üçün minnətdaram. Sizə uğurlar arzulayıram.

Sağ olun.

* * *

**C a n n i M e r l o** *(Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının prezidenti):* Hörmətli cənab Prezident!

Hörmətli həmkarlar və dostlar!

İcazə verin, öz şəxsi təəssüratlarımı sizinlə bölüşüm. Kontinental filialımızın icraedici komitəsinin nümayəndələri ilə birlikdə biz 4 il bundan əvvəl ilk dəfə təyyarə ilə Bakıya gəldikdə bu şəhər, onun tarixi və mədəniyyəti mənə böyük təəssürat bağışladı.

Bu xüsusi tədbirə bir çox ölkələrin nümayəndələri qatılıb və siz ətrafınızda bütün dünya nümayəndələrini görə bilərsiniz. Bu tədbirə Asiya, Afrika, Amerika, Avropa, Okeaniya nümayəndələri qatılıb. Ona görə düşünürəm ki, burada bütün dünya təmsil olunub. Onlar bizi buraya toplayıblar və biz dördüncü dəfədir ki, Bakıya gəlirik. Deyə bilərəm ki, müəyyən mənada, biz Bakının sakinlərinə çevrilmişik.

İndi isə bizim buraya toplaşmağımızın məqsədi idman jurnalistikasının cəmiyyətin inkişafında fundamental rolunu xatırlatmaqdır. Biz dünyanın gənc insanları ilə ünsiyyət quru-

ruq. Məramımız həqiqi sülh məramıdır, bu da çox vacibdir. Çünki biz bu mesajı bütün ölkələrin gənclərinə çatdırırıq.

Sizin əvvəl qeyd etdiyiniz kimi, idman jurnalistləri gənclərlə əlaqəlidir. Bu çox vacib mədəni mesajdır. Biz onlarla danışırıq və düşünürəm ki, bizim mədəni öhdəliyimizin heç bir hüdudu yoxdur. Bu da çox əhəmiyyətlidir. Burada toplaşmış dünya nümayəndələri eyni dildə danışır, eyni qaydalara əməl edir və eyni fəlsəfi düşüncəyə malikdirlər.

Biz, idman jurnalistləri bir tərəfdən də idmanda bütövlüyün və ədalətin qoruyucusuyuq. Biz bunu unutmamalıyıq, çünki biz gənc nəsillə ünsiyyətdəyik. Bizim işimiz müvafiq sosial funksiyadan ibarətdir və çox zaman ona lazımi qiymət verilmir. Əvəzində öz missiyamızdan daha dərindən yararlanaraq onunla fəxr etməliyik. Mükəmməllik və yüksək nailiyyətlər naminə çalışmağa davam etməliyik. İdman vasitəsilə dünyada sülh əldə etmək üçün bəzən düşündüyümüzdən də çox işlər görmək olar. Bu səbəbdən biz öz missiyamıza inanmalıyıq. Əminəm ki, Azərbaycan İdman Jurnalistləri Assosiasiyası bu mədəni inkişaf prosesini davam etdirəcəkdir.

Cənab Prezidentin xatırlatdığı kimi, gələn il Bakıda ilk Avropa oyunları keçiriləcək. Bu, yeni çağırışdır və Sizin çox gənc idman tarixinizdə böyük bir hədəfdir. Biz öz gənc jurnalistlərimizlə sizin yanınızda olacağıq. Çünki biz 2012-ci ildə fəaliyyətə başlamışıq və gələn il, yəni 3 ildən sonra artıq burada bizimlə olan gənc jurnalistlərlə iştirak edəcəyik. Onlar ölkənizin ənənələr kitabının yeni fəslinin yazılmasında iştirak edəcəklər. Daha sonra isə biz yeni bir iş üsulunu quracağıq.

Cənab Prezident, indi isə icazə verin, həmkarlarımız üçün mükəmməl işlər görən bütün nümayəndələrinizə təşəkkürümü bildirim. Ölkənizin necə dəyişdiyini hava limanından görmüşük. Qarşılanma mərasimi çox yüksək səviyyədə idi. Hətta bəzi hallarda Olimpiya oyunları zamanı təşkil olunan qarşılanma mərasimlərindən də yaxşı idi. Siz bununla fəxr edə bilərsiniz. Biz hamımız çoxsaylı Olimpiya oyunlarında iştirak

etmişik və bunu Sizin qarşınızda olduğumuza görə demirik, bu həqiqətən, belədir.

Biz Sizin müstəqil ölkədə azad internet, mətbuatın azadlığı ilə bağlı söylədiklərinizi qəbul edirik. Çünki bizim idmanda olan müstəqilliyimiz idmanın inkişafına kömək edir. Bu da olduqca vacibdir. Cənab Prezident, buna görə də bizə belə fürsət verdiyiniz üçün yenə də Sizə təşəkkürümüzü bildirmək istəyirəm. Bundan əvvəl həmkarlarımızın alqışları bizim bunu necə dəyərləndirdiyimizi Sizə nümayiş etdirdi. Çox sağ olun!

*Daha sonra Canni Merlo prezident İlham Əliyevə Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının xüsusi xatirə hədiyyəsini təqdim etdi.*

## BEYNƏLXALQ İDMAN MƏTBUATI ASSOSİASİYASININ 77-ci KONQRESİNİN İŞTİRAKÇILARINA

Hörmətli media nümayəndələri!

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində salamlayır, növbəti ali toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Əlamətdar haldır ki, Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının 77-ci konqresi təşkilatın yaradılmasının 90-cı ildönümü ilə eyni vaxta təsadüf edir. Yubiley ilinə qədəm qoyan Assosiasiya təsis olunduğu dövrdən indiyədək dünyanın əksər ölkələrində idman jurnalistikası sahəsində ixtisaslaşmış qurumları öz ətrafında birləşdirməyə nail olmuş, onların fəaliyyətini uğurla koordinasiya edən mərkəzə çevrilə bilmişdir.

Nüfuzlu təşkilatın mötəbər toplantısının və yubiley mərasiminin Azərbaycanda keçirilməsi respublikamızın ictimai həyatında diqqətəlayiq hadisədir. Ümumiyyətlə, son illər Azərbaycan müxtəlif zirvə görüşlərinə, dövlətlərarası qurumların toplantılarına, sivilizasiyalararası dialoq forumlarına, qitə və dünya miqyaslı yarışlara ev sahibliyi edən bir məkan kimi tanınmağa başlanmışdır. Beynəlxalq idman təşkilatları 2015-ci ildə ilk Avropa oyunlarının, 2017-ci ildə isə IV İslam Həmrəyliyi oyunlarının ölkəmizdə keçirilməsi barədə qərar qəbul etmişlər. Biz bu qərarları cəmiyyətimizə xas olan yüksək tolerantlıq mühitinə, mükəmməl idman infrastrukturunun yaradılması sahəsində görülən işlərə və iri beynəlxalq tədbirlərin təşkili sahəsində əldə edilmiş zəngin təcrübəyə möhkəm inamın təzahürü kimi dəyərləndiririk.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanda söz və ifadə azadlığı təmin olunmuş, çoxsaylı vətəndaş cəmiyyəti institutları və müxtəlif dillərdə nəşr edilən plüralist media məkanı formalaşmışdır. Bu gün ölkəmizdə minlərlə kütləvi informasiya

vasitəsi – televiziya, radio, qəzet, jurnal, sayt və xəbər portalı fəaliyyət göstərir. Onlardan 60-a qədəri bilavasitə idmanla bağlıdır.

Hesab edirəm ki, Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının 77-ci konqresi üzv ölkələrdə idman jurnalistikasının inkişafına, media nümayəndələri arasında əməkdaşlığın dərinləşməsinə, sağlam həyat tərzinin təbliğinə və təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə sanballı töhfə verəcəkdir. Konqresin işinə uğurlar arzulayır, bütün iştirakçıları Assosiasiyanın 90 illik yubileyi münasibətilə təbrik edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 aprel 2014-cü il*

# II QLOBAL AÇIQ CƏMİYYƏTLƏR FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunun rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun təşkilatçılığı, BMT, Dünya Elmlər və Mədəniyyət Akademiyası, Roma Klubu, İsgəndəriyyə Kitabxanası və digər təşkilatların birgə əməkdaşlığı çərçivəsində keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumu 2015-ci il və ondan sonrakı mərhələdə dünyanın davamlı inkişafına həsr olunub. 2 gün davam edəcək bu mötəbər beynəlxalq tədbirdə 30 ölkədən sabiq dövlət və hökumət başçıları, ümumilikdə 200-dək tanınmış siyasi və ictimai xadim, ekspert və elm adamı iştirak edir.*

*II Qlobal Açıq Cəmiyyətlər Forumunun açılışında çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin bildirdi ki, dünyada insanları bir araya gətirməyi, onlar üçün daha yaxşı həyat şəraitinin yaradılması ilə bağlı təşəbbüslərin irəli sürülməsinə nail olmağı əsas məqsədinə çevirən bu Forum qloballaşma dövründə açıq cəmiyyətlərin qurulmasına xüsusi əhəmiyyət verir.*

**İsmail Serageldin:** Zati-aliləri!

Xanımlar və cənablar!

Belə bir möhtəşəm toplantıya xoş gəlmisiniz! Bizim buraya toplaşmaqda məqsədimiz bütün dünyada yaşayan insanları bir

araya gətirmək, onların arasında təmaslar yaratmaq, onlar üçün daha yaxşı həyat tərzini və səviyyəsini təmin etməkdir.

Bu gün biz dünyada olan vəziyyətə, havanın qlobal istiləşməsinə, münaqişələrə, müharibələrə, su resurslarının idarə edilməsinə və digər problemlərə diqqət yetirəcəyik. Cəmiyyətlər daxilindəki təcridolunma hallarına nəzər yetirsək görə bilərik ki, açıq cəmiyyətlərin qurulması xüsusi əhəmiyyət kəsb edir. Buna görə biz diqqətimizi məhz tariximizin səhifələrinə yetirməliyik, özümüz üçün müəyyən etməliyik ki, həyatın cövhəri nədir, biz həyati dəyərlərimizi nə dərəcədə qoruyub saxlaya bilmişik, yoxsa biz onları itirmişik, yoxsa biz onları diqqətdən kənarda qoymuşuq?! Buna görə bu il yenidən bizim Bakıda toplaşmağımız 2013-cü ildə keçirilmiş I Forumda qaldırılmış məsələləri daha ətraflı şəkildə müzakirə etmək imkanı yaradır.

Hər zaman biz belə bir mühüm tədbirləri ilk növbədə, ev sahibinə, zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq sözləri ilə başlayırıq.

*Dövlətimizin başçısı Forumda nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizin hamınızı Azərbaycanda salamlayıram və ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkəmizdə olacağınız günlər uzun müddət ərzində sizin yaddaşınızda qalacaqdır. Burada Azərbaycana ilk dəfə səfər edən qonaqlarımız da vardır. Ümidvaram ki, bizim ölkəmiz, tariximiz, mədəniyyətimiz haqqında yaxşı təəssüratlarınız olacaqdır. Mən xüsusi olaraq həmkarlarımı – sabiq dövlət və hökumət başçılarını salamlamaq istəyirəm. Təxminən 30-dan artıq sabiq dövlət və hökumət başçısı qonaqlarımız sırasındadır. Bu, əlbəttə ki, tədbirimizin əhəmiyyətini göstərir.

Mən həmçinin Madrid Klubuna təşəkkürümü bildirmək istəyirəm ki, onlar bizim ölkəmizin yaxşı tərəfdaşıdır. Bizim əməkdaşlığımız bir neçə il öncə qurulub və bu çox məhsuldar və fəal işbirliyidir. Mən çox məmnunam ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu yaxınlarda yaradılmış bir qurum kimi, olduqca qısa müddət ərzində kifayət qədər nüfuzlu beynəlxalq təsisata çevrilmişdir və artıq Madrid Klubu ilə birlikdə bu cür mühüm toplantını təşkil edir. Dostlarımıza, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə dəstək verənlərə apardıqları fəaliyyətə görə olduqca minnətdaram. Bu Mərkəz Azərbaycan xalqının istedadının və müdrikliyinin rəmzi olan Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır.

Forumun gündəliyi çox genişdir və həyatımızın bütün mühüm aspektlərini əhatə edir. Əlbəttə ki, bu gün və sabah keçiriləcək sessiyalar zamanı hər kəs üçün bərabər imkanlar və lazımi həyat standartlarını təmin etmək məqsədilə keçmişdə baş verənlər və gələcəkdə görülməli işlər barədə mühüm bəyanatlar veriləcək. Açıq cəmiyyət elə bir cəmiyyətdir ki, onun bütün üzvləri özlərini rahat hiss edir, şərəfli həyat tərzi sürür, iş yerləri vardır və öz övladlarının gələcəyinə əmindirlər.

Bizim öz təcrübəmiz var. Müstəqillik baxımından ölkəmiz gəncdir. Müstəqilliyimizin əldə edilməsindən sonra cəmi 22 il keçməsinə baxmayaraq, belə bir qısa tarixi müddətdə müxtəlif məsələləri həll etməli olduq. Başlanğıcda bir çox problemlərdən, siyasi və iqtisadi çətinliklərdən əziyyət çəkmişik. İndi isə Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olduğu dövrdə bu dəyişiklik sadəcə, gözlərimiz qarşısındadır və şadıq ki, biz bu prosesin bir hissəsi olmuşuq və həmçinin Azərbaycanın müasir dövlətə çevrilməsində fəal iştirak edirik. Xalqımızın gözəl tarixi, adət-ənənələri, mədəniyyəti vardır, lakin müstəqil ölkə kimi, biz gəncik. Ötən əsrin əvvəlində müstəqillik dövrümüz olub, lakin bu, rus imperiyası dağıldıqdan və bolşevik inqilabından sonra baş verib və qısa sürüb, yalnız 2 il çəkib. İnqilabın o vaxt şüarları var idi: zavodlar fəhlələrə, torpaqlar kəndlilərə

verilməli, azadlıq isə rus imperiyasının bütün xalqları üçün təmin edilməli idi. Lakin həmin vədlərin heç biri reallığa çevrilmədi.

Buna görə 2 ildən sonra biz müstəqillikdən məhrum olduq və Azərbaycan digər ölkənin bir hissəsinə çevrildi. Əlbəttə, bu, həyatımızın, tariximizin bir hissəsi olub. Ona görə keçmiş sovet məkanında yaşayan insanlar fikrimcə, öz müstəqilliyini, müstəqil seçimini, azad olmaq, öz dövlətinə malik olmaq hüququnu daha yüksək dəyərləndirirlər və onlar öz dövlətləri ilə fəxr edirlər. Azərbaycanın təcrübəsi göstərir ki, gələcəyimiz, taleyimiz öz əlimizdə olduğu zaman biz əvvəlki vaxtlarla müqayisədə daha çox iş görə bilərik. Çünki qısa müstəqillik dövrümüz göstərir ki, bütün çətinliklərə, iqtisadi və siyasi böhranlara, keçən əsrin 90-cı illərinin əvvəllərində vətəndaş müharibəsinə cəhdə baxmayaraq, biz həmin çətinliklərin öhdəsindən gələ bildik. Bu gün gələcəyimizi planlaşdırdıqda həyat tərzimizi daha da yaxşılaşdırmaq və daha güclü olmaq haqqında düşünürük.

Bu cür dəyişikliklərin əsas səbəblərindən birinə, yəni ilkin şərtlərə gəldikdə, bu, islahatlar siyasətidir. Çünki həyatımızın hər bir aspektini dəyişməli idik, biz öz azad və müstəqil dövlətimizə malik olmağı və bir siyasi sistemdən digər sistemə keçməyi öyrənməli idik. Bunu etmək isə asan deyildi. Lakin bu, baş verdi. Bu gün dövlətçiliyimizin möhkəm əsasları vardır. Biz geniş şəkildə ölkəmizi müasirləşdirən siyasi və iqtisadi islahatlar apardıq. Demokratiyanı inkişaf etdirdik, əsas azadlıqları, o cümlədən indiki həyatımızın ayrılmaz hissəsi olan toplaşmaq azadlığı, media azadlığı, azad interneti təmin etdik.

22 il öncə biz bunu sadəcə, arzulaya bilərdik. Eyni zamanda, aydın anladıq ki, möhkəm iqtisadi əsaslar olmasa, müstəqilliyimiz tam ola bilməz. Buna görə də siyasi islahatlarla iqtisadi islahatlar paralel həyata keçirilir. Burada qeyd etməliyəm ki, uğurlarımızın əsas səbəblərindən biri xarici sərmayələrin cəlb edilməsi idi. 20 il öncə eyni çətinliklərlə üzləşən ölkələrə gəldikdə isə, bizim təcrübəmiz ölkəni necə

dəyişmək, vətəndaşlara daha yaxşı həyat təmin etmək üçün yaxşı nümunə ola bilər.

Biz xarici sərmayələri cəlb etməyi bacardıq. Həmin sərmayələri inkişaf etdirmək istədiyimiz, həmçinin sərmayədarlar üçün cəlbedici olan iqtisadiyyat sahələrinə istiqamətləndirdik. Biz münbit sərmayə şəraitini yaratdıq və çox çalışdıq ki, hətta 15 il öncə mövcud olmuş məhdud resurslarla çox sayda iş yerləri yaradaq. Biz bu gün də düzgün istiqamətdə irəliləyirik. Aydın şəkildə anladıq ki, müstəqilliyimizin gücləndirilməsində, onun əbədi, dönməz olmasında irəliyə doğru yol ondan ibarətdir ki, biz iqtisadi baxımdan azad, müstəqil və güclü olmalıyıq. İndi isə mən söyləyə bilərəm ki, illər boyu aparılan və bu gün də davam edən islahatlardan sonra Azərbaycan çox aydın gələcəyə malik olan ölkə kimi qəbul edilə bilər. Biz son 10 il ərzində dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olmuşuq. Bizim üçün davamlı inkişaf gələcək üçün planlaşdırma deməkdir. Bizim «Azərbaycan – 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyamız vardır. Bu sənəd gələcəyimizin əsas bələdçi sənədi kimi qəbul edilib.

Maliyyə vəziyyətimiz sabitdir. Xarici borcumuzun səviyyəsi çox azdır, ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Bu o deməkdir ki, biz beynəlxalq maliyyə təsisatları ilə daha fəal şəkildə işləmək planlarını qura bilərik. İqtisadiyyat inkişaf etdirilmək üçün şaxələndirilməlidir. Əlbəttə, təbii sərvət hesab edilən neft və qaz uğurlarımızın aparıcı meyarı olub. Hazırda şaxələndirilmə bizim əsas prioritetimizdir. Çünki neft və qaz sektoru hesabına çox iş yerləri açılmır. Buna görə iqtisadiyyatın şaxələndirilməsi, sosial infrastruktura yatırımlar uzaq bölgələrdə belə, lazımi həyat tərzini təmin edir, hər bir şəhərə genişzolaqlı internet çıxışını yaradır. 3 min orta məktəbin, 500 xəstəxananın tikilməsi və digər amillər cəmiyyətimizə tamamilə yeni mühit yaratmaq imkanını verdi. İlk addım olaraq, biz xaricə miqrasiyanı, yəni Azərbaycandan digər ölkələrə axını dayandırdıq. Bu, sonra ölkədaxili miqrasiya, yəni insanların kiçik kənd yerlərindən Bakıya axını ilə əvəzləndi. İndiki

məqsəd isə bu miqrasiyanı da dayandırmaqdır. Bu məsələ də ilbəil öz həllini tapır.

İqtisadi inkişaf olduqca ciddi sosial proqramlarla dəstəklənir. Çünki bilirik ki, bəzi hallarda radikal iqtisadi islahatlar insanların gündəlik həyatında müəyyən çətinliklər yaradır. Buna görə də hökumətimiz üçün sosial məsələlər hər zaman prioritet xarakter daşıyıb. Yaşayış standartlarının yaxşılaşdırılması, iş yerlərinin açılması, işsizliyin azaldılması, bütün bunlar göstərir ki, bunu etmək olar. Birinci olaraq, bizə sadəcə, sabitlik lazımdır. Çünki sabitlik olmadan bütün bunlar mümkünsüzdür. İkincisi, əhalimizin əksər hissəsi tərəfindən dəstəklənən olduqca aydın daxili siyasətimiz vardır və biz nəticələrə nail olmalıyıq, verdiyimiz vədləri yerinə yetirməliyik, üzərimizə götürdüyümüz vəzifələri icra etməliyik. Bu halda olduqca mühüm məqama, siyasətçilərin məsuliyyətinə toxunuruq. Bu şəxslər işlərin başında dayanır. Bir sıra hallarda daha çox dəstək və daha çox səslərin qazanılması üçün bəzi həmkarlarımız populist vədlərlə çıxış edirlər. Lakin onlar yerinə yetirilməyəndə insanlar məyus olurlar. Siyasətçilərin məsuliyyəti onların özləri üçün olduqca çox vacibdir. Çünki bu onlara etimad səviyyəsini artırır və cəmiyyəti daha da gücləndirir. Buna görə nəticələrin əldə edilməsi əsas məqsədimiz idi. Bu nəticələr iqtisadi və statistik göstəricilərdə əks olunur. Hazırda yoxsulluq səviyyəsi təxminən 5 faizdir. Halbuki 10 il öncə 49 faiz olub. Sürətli iqtisadi inkişaf Azərbaycanın ətrafında olduqca yaxşı beynəlxalq mühit yaradır, çünki ölkəmiz daha çox tanınmağa başlayır. İndi daha çox insan Azərbaycanı tanıyır.

Hazırda biz tarixdə heç vaxt olmadığı kimi, beynəlxalq təsisatların dəstəyinə malikik. Bunun bir nümunəsi bizim BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimizdə 155 ölkənin lehimizə səs verməsi oldu. Bu o deməkdir ki, beynəlxalq ictimaiyyətin tam əksəriyyəti bizi dəstəklədi. Hətta ikitərəfli münasibətlərimizin o qədər fəal olmadığı ölkələr belə, bizi dəstəklədi. Onlar bizə etimad göstərdilər. Çünki bilirdilər ki, biz öz vədlərimizi yerinə yetirəcəyik. BMT Təhlükəsizlik

Şurasının üzvü kimi, əsas gündəliyimiz hüququn aliliyini və ədaləti qorumaq idi. Fikrimcə, bunlar indiki dünyanın 2 ən əsas elementidir. Əfsuslar olsun ki, onların hər ikisi kobud şəkildə pozulub. Bu pozulmaya reaksiya yoxdur, çünki erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Həmin qətnamələrdən heç biri həyata keçirilməyib. İşğal davam edir. Biz etnik təmizləməyə məruz qalmışıq. Ölkəmizin tarixi hissəsi olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon 20 ildən çoxdur ki, işğal altındadır. Beynəlxalq təşkilatlar, əlbəttə ki, qətnamələri qəbul ediblər. Bununla bağlı digər beynəlxalq təşkilatlar – ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və əlbəttə ki, BMT-nin Baş Məclisi və Təhlükəsizlik Şurası qərarlar qəbul ediblər. Lakin onlardan heç biri yerinə yetirilməyibdir. Görünür, onların icra mexanizmləri yoxdur.

Zənnimcə, ötən əsrin 90-cı illərinin əvvəllərində baş verənlər göstərdi ki, biz azad olmaq, müstəqillik üçün böyük qurbanlar verməli idik. Lakin cəmiyyətimizin bütün üzvləri tam əmin idi ki, bu vəziyyət uzun çəkə bilməz. Biz doğma torpaqlarımıza qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Azərbaycan xalqı, 1 milyon qaçqın və məcburi köçkün hazırda işğalçılar tərəfindən zəbt olunmuş torpaqlarında, doğma yurdlarında yaşamaq hüququnu bərpa edəcəkdir. XX əsrin 90-cı illərinin əvvəllərində Dağlıq Qarabağda ermənilər qeyri-qanuni referendum keçirdilər. Bundan öncə, Dağlıq Qarabağın əhalisinin üçdəbirini təşkil edən etnik azərbaycanlılar oradan qovuldular. Bu hadisədən sonra qeyri-qanuni referendum keçirildi. Bu səbəbdən dünyanın heç bir ölkəsi nə həmin «referendum»u, nə də qondarma «Dağlıq Qarabağ respublikası»nı tanımır. Bir sözlə, beynəlxalq hüquq, ədalət və tarix mövqemizi dəstəkləyir. Lakin aydın şəkildə anlayırıq ki, ədaləti və beynəlxalq hüququ bərpa etmək üçün bu, kifayət deyildir. Bunu etmək üçün biz daha güclü olmalıyıq. Əfsuslar olsun, görürük ki, güc yenidən beynəlxalq münasibətlərin

gündəliyində əsas yer tutur. Onda regionumuzun ölkələri, bizim kimi ölkələr nə etməlidir? Əminəm ki, belə bir sual bu Forumda müzakirə olunacaqdır. Müxtəlif ssenarilər vardır. Lakin bir məsələ tam aydındır ki, siz öz taleyinizin sahibi olmalısınız. Siz daha güclü olmalısınız. Cəmiyyəti əsas prioritetlər ətrafında səfərbər etmək üçün ürəkdən çalışmalısınız. Bizim üçün əsas prioritet ərazi bütövlüyümüzün bərpa edilməsi, müstəqilliyimizin gücləndirilməsidir və daha yaxşı həyat standartlarının xalqımız üçün təmin edilməsidir. Bütün bu elementlər bir-biri ilə bağlıdır. Əgər insanlar hökumətin gördüyü işin nəticələrini görürlərsə, gündəlik əsaslarla onların həyat tərzi yaxşılaşırsa, öz ölkəsi ilə fəxr edirlərsə, onda cəmiyyət güclü olur, parçalanmır. Cəmiyyət əsas məqsədlər ətrafında səfərbər olunur, öncə qeyd etdiyim kimi, müstəqillik və suverenlik məqsədi ətrafında toplaşır. Əlbəttə, Azərbaycanın inkişafı, çatışmazlıqlar və problemlər barədə cəmiyyətimizdə müxtəlif fikirlər vardır. Biz cəmiyyətimiz daxilində bu müzakirələri hər zaman yüksək dəyərləndiririk. Lakin həyatımızın strateji aspektinə gəldikdə, biz birik, yekdilik. Bu birlik bizi beynəlxalq səhnədə gücləndirir, bizə bu gün dünyanın üzləşdiyi problemlər haqqında açıq danışmaq, öz mövqemizi, beynəlxalq hüququ müdafiə etmək imkanını verir. Belədir ki, var.

Bu gün Azərbaycan açıq şəkildə bəyan edilən mövqeyə malik olan ölkədir. Bu bir daha ədalətə və beynəlxalq hüquqa əsaslanır. Biz 10,20,30 il əvvələ baxmalıyıq və siyasətimizi elə planlaşdırmalıyıq ki, dayanıqlı inkişaf davam etsin. Davamlı inkişaf isə bu gün hər bir ölkə üçün ən vacib prioritetlərdən biridir. Hətta ən inkişaf etmiş ölkələrə gəldikdə, onların öz problemləri vardır. Onların iqtisadi problemləri, miqrasiya məsələləri vardır. Onlara əlavə işçi qüvvəsi lazımdır. Lakin bu, cəmiyyətlərdə müəyyən gərginlik yaradır. Bizim fərqli problemlərimiz var. Fikrimcə bu, problem deyil, əslində üstünlükdür. Bizim artan, gənc, dinamik əhalimiz vardır. Bu o deməkdir ki, iqtisadiyyatımız hər zaman əhalinin artım tempindən daha sürətlə inkişaf etməlidir. Çünki belə olmasa, biz günlərin bir günündə

çətinliklər və işsizliklə üzləşə bilərik. Buna görə sürətli iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi və enerji əməliyyatlarından əldə edilən gəlirlərin iqtisadiyyatımızın ən vacib sahələrinə istiqamətləndirilməsi prioritetdir. Biz bu yolla davamlı inkişafa nail ola bilərik.

Cəmiyyətimizdə sosial və siyasi razılığın ən vacib elementlərindən biri multikulturalizmdir. Biz bir neçə beynəlxalq tədbir keçirmişik. Sivilizasiyalararası dialoq mövzusunda söhbətlər aparmışıq, beynəlxalq humanitar forumlar təşkil etmişik ki, bu mühüm mövzuları nəzərdən keçirək. Fikrimcə, bu kimi məsələlər bu günə qədər belə açıq şəkildə müxtəlif beynəlxalq təsisatlarda müzakirə olunmur. Çünki bu vəziyyətlə bağlı müxtəlif yanaşmalar vardır. Bəzi insanlar hesab edir ki, bu ideya baş tutmayıb. Lakin mən hesab edirəm ki, yaxşı misallar vardır və onlar yaxşı şəkildə nəzərdən keçirilməlidir ki, burada hər hansı bir bədbinlik olmasın. Multikulturalizm uçurum kimi qəbul edilərsə, bu dünyada yaşamağın başqa üsulu yoxdur. Çünki belə olmasa, xalqlar özlərini təcrid olunmuş vəziyyətdə hiss edəcəklər. Bu nə iqtisadi, nə də sosial baxımdan mümkün deyildir. Buna görə fikrimcə, Azərbaycanın, o cümlədən digər ölkələrin tarixi ənənələrinə əsaslanan müsbət misallar var ki, onlar təfərrüatlı şəkildə nəzərdən keçirilməlidir. Biz bu dəyərləri təşviq etməliyik. Bu da bizim vacib elementlərimizdən biridir ki, mən onları qeyd edirəm. Müsbət təcrübənin təşviqi bəzən bizim üçün çatışmır. Lakin fikrimcə, dəyərlərin qorunması, qlobal siyasətdə müsbət meyillərin gücləndirilməsi üçün biz müsbət təcrübəyə diqqətimizi yönəltməliyik və bunu yaymalıyıq. Çünki bunun başqa bir yolu yoxdur ki, ölkələr gələcəkdə o yolla əməkdaşlıq etsinlər.

Əminəm ki, Forum çərçivəsində bir çox maraqlı müzakirələr aparılacaq və gələcək inkişafla bağlı hökumətlər üçün tövsiyələr veriləcəkdir. Bu cür sessiyaların üstünlüyü ondan ibarətdir ki, məşhur siyasətçilər, sabiq dövlət və hökumət başçıları öz fərdi təcrübələrini, biliklərini, ekspert bacarıqlarını çox açıq şəkildə bölüşə bilərlər. Çünki hazırkı və sabiq

prezidentlər və baş nazirlər arasındakı fərq ondan ibarətdir ki, hazırkı dövlət başçıları ictimaiyyət qarşısında söylədiyi şərhlərdə müəyyən çərçivə daxilindədirlər, məhdud imkanları vardır. Bəzi hallarda sən söylədiyindən də artıq danışmaq istəyirsən. Lakin sabiq siyasətçilər hər hansı məsələ ilə bağlı fikir söyləməkdə azaddırlar. Onların bu söhbəti məhz bu tərəqqinin əldə edilməsi üçün vacibdir. Ona görə əminəm ki, Forumumuzun əsas məqsədi tövsiyələr və təhlillər vermək, baş verənləri müzakirə etməkdir. Bu məqsəd bizə öz işlərimizi dinc şəraitdə davam etdirmək, şərəfli həyat tərzi sürmək və geniş şəkildə beynəlxalq əməkdaşlıq aparmaq imkanı yaradacaqdır.

Hörmətli dostlar, Azərbaycana bir daha xoş gəlmisiniz! Forumun işinə uğurlar arzulayıram. Sağ olun.

**İsmail Serageldin:** Sağ olun, Zati-aliləri cənab Prezident! Olduqca ətraflı çıxışınıza görə Sizə təşəkkür edirik. Siz təbii ki, nitqinizin sonunda bizi xüsusi olaraq belə bir müdrik mövqedən çıxış edərək, dəyərli tövsiyələrimizi tərtib və təqdim etməyə dəvət etdiniz. Buna görə Sizə minnətdarıq, biz buna da çalışacağıq.

Biz hamımız ətrafımıza baxmalıyıq və bilməliyik ki, hansı regiondayıq, hansı ölkələrdəyik və hansı yerdə yaşayırıq. Biz bütövlükdə bəşəriyyət üçün ən yaxşı məqsədləri formalaşdırmalıyıq və gələn onilliklər və ondan sonrakı dövr üçün məhz inkişaf məqsədlərimizi müəyyən etməliyik. Bununla belə, biz real tərəqqiyə bu məqsədlər istiqamətində nail olmalıyıq.

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü, Finlandiyanın sabiq prezidenti Tarya Halonen dünyanın bir çox ölkələrinin sabiq dövlət və hökumət başçılarının bir yerə toplaşıb çox vacib müzakirələr aparmağa şərait yaradılması baxımından Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun birgə fəaliyyətini yüksək dəyərləndirdi, növbəti dəfə belə müzakirələrə şərait yaratdığına görə Azərbaycan Prezidentinə minnətdarlıq etdi. O, BMT çərçivəsində Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq ideal cəmiyyət yaratmaq istiqamətində Azərbaycanın nümunəsindən danışdı.*

**T a r y a  H a l o n e n:** Hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli həmkarlarım, hörmətli dostlar!

Bu gün bu qədər çox sayda qonaqlarımız və dostlarımız qarşısında çıxış etməkdən şərəf hissi duyuram. Burada bütün həmkarlarımı təbrik edirəm ki, biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubu çərçivəsində əməkdaşlıq nəticəsində bu sayda keçmiş hökumət və dövlət başçılarını bir araya yığırıq və burada açıq cəmiyyətlər mövzusunda ümumi müzakirələr aparırıq.

Mən bu fürsətdən istifadə edərək ev sahibinə – Azərbaycan hökumətinə və təşkilatçılarına Bakı şəhərində bizə göstərilmiş gözəl, səmimi qonaqpərvərliyə görə təşəkkürümüzü bildirmək istəyirəm. Bizim dərin minnətdarlığımızı hamınız adından izhar edirəm.

Hörmətli dostlar, burada bizim qarşımızda duran vəzifə ondan ibarətdir ki, biz 2015-ci ildən sonra inkişafın hansı məsələləri barədə daha çox söhbət aparacağıq. Sizin qarşınızda etdiyim çıxışın əsas məqsədlərindən biri ondan ibarətdir ki, biz hamımız dərk etməliyik üzərimizə düşən məsuliyyət hansı dərəcədə olmalıdır. Gələcək illərdə biz bu məsuliyyəti necə icra etməliyik. Çünki BMT-nin Minilliyin Sammitində çox məşhur olan Minilliyin İnkişaf Məqsədləri qəbul edildikdən sonra biz bir çox işləri görmüşük. Bilirik ki, bizim üçün müəyyən mühit yaradılıb və bu mühitin əsas məqsədi məhz əməkdaşlıq olubdur. BMT çərçivəsində məhz dövlət və hökumət başçıları bəyan etdilər ki, onlar da bu minillik ərzində daha yaxşı cəmiyyətlər yaratmaq istəyirlər. Təbii olaraq bizim də qarşımızda eyni bir məqsəd var idi ki, biz öz gələcək nəsillərimiz üçün daha yaxşı cəmiyyəti, gələcəyi təmin etməliyik. Zənnimcə, biz buna müəyyən mənada nail ola bilmişik. Hətta onu qeyd edək ki, bəlkə də məqsədlərin hamısı hələ tam şəkildə icra olunmadıqda belə, biz israrlıyıq, biz əzmkarıq. Biz istəyirik ki, bundan sonra da öz siyasi fəaliyyətimizlə bu məqsədlərə nail olunmasında, məsələn, təhsilin təmin edilməsində və digər vacib vəzifələrin

həllində irəliyə doğru gedək. Bu gün ev sahibliyi edən məhz Azərbaycandır.

Azərbaycan son illər ərzində öz sürətli inkişafı ilə çox gözəl nümunələr göstərmişdir. Biz bilirik ki, Azərbaycanda yoxsulluq böyuk dərəcədə azaldılmışdır. Yoxsulluq 2012-ci ildə 6 faizə düşmüşdür. Bu da çox mühüm bir hadisədir. Biz bilirik ki, sizin bu sahədə qazandığınız uğurlar, verəcəyiniz məsləhətlər də digər ölkələr üçün dəyərli ola bilər. Ona görə biz BMT çərçivəsində təqdim etdiyimiz proqramımızda göstərmişik ki, Minilliyin sonrakı inkişaf məqsədləri nədən ibarət olmalıdır. Bu haqda da söhbət aparmışdıq. Biz hazırda çalışırıq ki, bu proqramı yüksək səviyyədə təqdim edək. Bununla bağlı məhz İndoneziya Prezidenti ilə birgə çıxış edərək, bu təşəbbüsü BMT-nin Baş Məclisinə təqdim etmişik. Biz istəyirik özümüz üçün müəyyən edək ki, gələcək üçün hansı işləri həyata keçirməliyik. Biz 19 əsas fəaliyyət sahəsini müəyyən etmişik. Ümidvarıq ki, qarşıdan gələn iyul ayında bu proqram qəbul olunduqdan sonra Baş Məclis çərçivəsində biz bunun icrasının hüquqi mexanizmləri haqqında düşünməli olacağıq. Burada əhatə olunan müddət əsasən 2015-ci ildən sonrakı dövrə aiddir. Biz bilirik ki, BMT bu sahədə aparıcı rol oynayır. BMT-nin əsas rolu ondan ibarətdir ki, aramızda müxtəlif məlumat mübadiləsini təmin edir. Lakin öz tərəfimdən əminliklə deyə bilərəm ki, hökumətlər, hökumət və dövlət başçıları vardır ki, onlar BMT-nin Baş Məclisində bu məsələni xüsusi olaraq dəstəkləməkdə maraqlı ola bilərlər. Biz isə öz tərəfimizdən onların bu fəaliyyətinin daha da düzgün istiqamətdə, sürətli şəkildə irəliyə doğru aparılmasına töhfəmizi verməliyik. BMT-nin Baş katibi bütün xalqlara, millətlərə müraciət edərək xahiş etmişdir ki, onlar öz gələcəklərini düşünürlərsə bu yeni inkişaf məqsədlərinin formalaşdırılmasına töhfələrini versinlər.

Azərbaycan isə digər bir neçə ölkə ilə eyni mövqedən çıxış edərək, 2015-ci ildən sonra inkişafın prioritetlərinin nədən ibarət olacağı ilə bağlı artıq öz töhfəsini verməyə razılıq vermişdir. Azərbaycan hökuməti artıq 2020-ciilədək inkişaf proqramını qəbul etmişdir. Bu sənəddə məqsədlər aydın göstə-

rilir. Həmin məqsədləri Minilliyin yeni İnkişaf Məqsədlərinə daxil etmək olar.

*Tarya Halonen əsas siyasi, iqtisadi və humanitar fəaliyyət sahələrində reallaşdırılan layihələrdən danışdı və bu baxımdan Azərbaycanın növbəti illər üçün inkişafa xidmət edən konkret proqramlara malik olduğunu vurğulayaraq bildirdi:*

– Azərbaycanın təbii sərvətləri, neft və qaz resurslarına sərmayə yatırılması nəticəsində geniş imkanlar yaradılmışdır. Bu ölkədə neft və qaz gəlirlərindən səmərəli istifadə olunaraq iqtisadiyyatın digər sahələrinə də sərmayələr yatırılır. Cənab Prezident buradakı nitqində iqtisadi sektorun şaxələndirilməsini xüsusi vurğuladı. Bunun sayəsində iqtisadiyyatın informasiya texnologiyaları və digər sektorları da sürətlə inkişaf edəcəkdir. Bu fikirlərdən çıxış edərək bildiririk ki, vətəndaşlarımızın rahat və təhlükəsiz həyatı vacib bir məqam kimi, yenə də bizim gündəliyimizdə qalacaqdır. Ona görə də biz hesab edirik ki, bütün bunlar həyatımızın çiçəklənməsinə aparan əsas yollardan biridir. Davamlı enerji mənbələri 2015-ci ildən sonra da hamı üçün inkişaf məqsədlərinin bir hissəsi ola bilər.

*Finlandiyanın sabiq prezidenti daha sonra Azərbaycanın BMT-nin insan kapitalına yüksək qiymət vermək ənənəsinə sadiq qalaraq gender siyasətini uğurla həyata keçirdiyini bildirdi. O, işsizliyin və yoxsulluğun aradan qaldırılması, ətraf mühitin qorunması, çevik enerji siyasətinin yerinə yetirilməsi, təbii sərvətlərin şaxələndirilməsi, alternativ enerji mənbələrindən istifadə olunması sahəsində Azərbaycanda atılan addımları hamı üçün faydalı nümunə kimi dəyərləndirdi.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Madrid Klubunun prezidenti, Latviyanın sabiq dövlət başçısı Vayra Vike-Freyberqa da dünyanı narahat edən məsələlərin müzakirəsi üçün bu Forumun keçirilməsinə verdiyi dəstəyə görə prezident İlham Əliyevə təşəkkür etdi. Nizami sənətinin fövqəlbəşər olduğunu deyən Vayra Vike-Freyberqa onun əsərlərinin insanlığı ədalətə və humanizmə səsləyən motivlərlə zəngin olduğunu bildirdi.*

**V a y r a V i k e - F r e y b e r q a:** Zati-aliləri hörmətli prezident Əliyev!

Hörmətli Azərbaycan hökumətinin üzvləri, merlər, diplomatik korpusun nümayəndələri, mənim hörmətli həmkarlarım, sabiq prezidentlər və sabiq baş nazirlər, bir çox ölkələrin yüksək rütbəli nümayəndələri və Madrid Klubunun üzvləri!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Madrid Klubu arasında qurduğumuz bu sistem, bu əməkdaşlıq mexanizmi çox məhsuldar işbirliyinin nümunəsidir. Biz bunu belə qiymətləndiririk. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bir neçə il öncə yaradılmışdır. Məqsəd nədən ibarət idi? Bu böyük şəxsiyyətin əsrlər öncə yaşayıb yaratmış ideyalarını bütün dünyada təşviq etməkdir. Nizami ədəbiyyat şedevrləri yaratmışdır. Onun doğma şəhəri Gəncədə yaratdığı əsərlər Azərbaycan və bütün dünyanın mədəni irsinin vacib hissəsinə çevrilmişdir. Hesab edirik ki, bir halda Nizaminin əsərlərini, onun ideyalarını qəlbimizdə yaşadırıqsa və əgər onun irsinin davamçılarıyıqsa, biz onun yaratdıqlarından istifadə edib stereotiplərin aradan qaldırılmasına çalışmalıyıq. Nizaminin əsərlərinə, yazdığı şeirlərə fikir versək görərik ki, onlar elə indinin özündə də aktualdır. Biz onu şairlikdən əvvəl məhz həyat ideyalarının, həyat dəyərlərinin formalaşmasına çalışan, bu istiqamətdə işləyən bir mütəfəkkir kimi qəbul etməliyik. O bizim mədəniyyətimizin böyük simasıdır, qəhrəmanıdır. Onun bizim üçün yaratdığı və qoyub getdiyi irsə böyük hörmətlə yanaşmalıyıq.

Bu gün dünyanın müxtəlif yerlərində müxtəlif millətlər, xalqlar arasında dialoq məsələsi tez-tez səsləndirilir. Bizim klubumuz bu məqsədlərdən biri uğrunda mübarizə aparır. Əslində biz 10 il öncə Madrid Klubunu yaradanda, sabiq baş nazirləri və sabiq dövlət başçılarını bir araya gətirəndə özümüzə bir sual verdik ki, biz demokratiyanı, xüsusən də müstəqilliyini yenicə qazanmış ölkələrdə bu demokratiyanı hansı şəkildə gücləndirməliyik? Ona görə elm adamları, elm dairələrinin mütəxəssisləri də o fikri yekdil şəkildə dəstəklədilər ki, siyasətçilər

və alimlər, yüksək vəzifədə xidmət etmiş şəxslər öz ölkələrində bir çox islahatları həyata keçirmiş, prezidentlik səviyyəsinə çatmış insanlar kənarda qalmalı deyillər, onlar bir araya gəlməlidirlər, həyatlarının sonuna qədər bu təşkilat çərçivəsində fikir mübadiləsi aparıb öz təcrübələrini bölüşməlidirlər. Mən bu gün bu auditoriyaya baxdıqda görürəm – burada elə insanlar əyləşiblər ki, onlar bəşəriyyətin gələcək inkişaf məqsədlərinə sadiq olan şəxslərdir. Onlar istəyirlər ki, daha yaxşı həyat qurulsun, dünya daha təkmil inkişaf etsin.

*Dünyada stereotiplərin, yoxsulluğun, ayrı-seçkiliyin mövcudluğunu nəzərə alaraq bu problemlərin aradan qaldırılmasında bu cür tədbirlərin son dərəcə vacib olduğunu deyən xanım Freyberqa II Qlobal Açıq Cəmiyyətlər Forumunun artıq gözəl ənənəyə çevrildiyini xatırladaraq bildirdi:*

– Bəzi hallarda görürük ki, bir çox xalqlar, millətlər bir çox qurbanlar verirlər. Çünki qətlə yetirilən bu insanlar öz ölkələrinin layiqli vətəndaşlarıdırlar və onlar yaşamaq hüququndan məhrum olurlar. Baxın, belə hadisələr XXI əsrdə baş verir. Əslində biz böyük ümid bəsləyirdik ki, 2000-ci ildə Minilliyin İnkişaf Məqsədləri qəbul olunandan sonra belə hadisələr baş verməyəcəkdir. Lakin stereotiplər, ədalətsizlik, yoxsulluq, ayrı-seçkilik qalmaqdadır və bu hallar baş verir. Bu cür hallara biz diqqətli olmalıyıq. Biz öz töhfəmizi verməliyik ki, bu cür hallar aradan qalxsın. Təbii ki, saysız-hesabsız konfranslar keçirilir. Mən prezident Əliyevə xüsusi təşəkkürümü bildirirəm ki, Cənubi Qafqazda dayanıqlı inkişafla bağlı ikinci Regional Forumun keçirilməsinə öz dəstəyini verib və hazır olduğunu bildirib ki, təşkilati işlər aparıla bilər. Bu əslində BMT-nin rəhbərliyi ilə həyata keçirilə biləcək bir tədbir ola bilər. Biz həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzi çərçivəsində bilməliyik ki, məqsədlərimiz hansı şəkildə və nədən ibarət ola bilər? Biz öz aramızda razılaşmaları məhz dialoq vasitəsilə tapmalıyıq. Biz bilməliyik ki, açıq cəmiyyətlərin qurulması nə deməkdir? Bu, dünya üçün hansı məna kəsb edir? Son 7 ildə məhz Madrid Klubu sosial layihələr üzərində işləyibdir və bu irəliləyişin müxtəlif

formalarını özü üçün müəyyən edibdir. Biz bununla bağlı səhiyyə sahəsində baş verən dəyişiklikləri də nəzərdən keçirmişik. Araşdırmışıq ki, görək nə qədər insan xəstəlikdən əziyyət çəkir.

Cənab prezident İlham Əliyev Azərbaycanda sosial sahəyə yüksək dərəcədə diqqət yetirildiyini qeyd etdi. Biz Şimal ilə Cənub arasındakı münasibətləri təhlil etməliyik ki, görək bu sahədə fərqlər var, yoxsa yox? Şərq ilə Qərb arasında münasibətlər necədir? Necə etməliyik ki, bu dialoqdan istifadə edərək, hər 2 tərəf arasında əlaqələri daha da gücləndirək? Hesab edirəm bu Forumun məqsədlərindən biri də o olmalıdır ki, biz yalnız konkret tövsiyələr irəli sürməklə kifayətlənməyək, çünki Madrid Klubu çərçivəsində bu iş görülür. Biz bilirik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi də bu işdə fəal iştirak edir. Biz hamımız özümüz üçün müəyyən etməliyik ki, bu bir neçə gün ərzində bu tövsiyələrin həyata keçirilməsi üçün hansı üsulları təklif edə bilərik? Biz bunu BMT-yə də təqdim edə bilərik. Biz özümüz üçün müəyyən etməliyik ki, vətəndaş cəmiyyətlərimizi narahat edən məsələlər nədən ibarətdir? Biz bu işi davam etdirməliyik. Bu çox vacibdir. Biz bütün dünyanı həvəsləndirməliyik ki, yaxşıya doğru dəyişsin. Belə olan halda, biz həmçinin bilməliyik ki, hansı istiqamətlər üzrə gedirik. Ona görə də 2015-ci ildən sonra müəyyən ediləcək məqsədlərə gəldikdə biz anlamalıyıq ki, keçmişdə hansı vəziyyətdə idik, hansı nailiyyətləri əldə etmişik və indi hansı yeni sahələri müəyyən edə bilərik? Bu halda bilməliyik ki, yaxşı nəticələr əldə etmək üçün biz hansı sahələrdə əməkdaşlıq apara bilərik?

Xanımlar və cənablar, mən sizə çox məhsuldar fikir mübadiləsi arzulayıram. Əminəm ki, sizin hər birinizin iştirakı bizim üçün dəyərlidir. Biz çox gözəl bilirik ki, sizin zəngin həyat təcrübəniz, müdrik fikirləriniz vardır. Mən sizin təmsil etdiyiniz təşkilatlara hörmətimi bildirirəm. Biz elə bir ölkədə toplaşmışıq ki, burada rəy bildirilməlidir. Bu rəyə hörmətlə yanaşırıq. Bu Forumun məhz bu səpkidə keçəcəyinə əminəm. Mən sizin hamınıza təşəkkürümü bildirirəm.

Prezident İlham Əliyevə olduqca minnətdaram. Qonaqpərvərliyinə və bizim bu ideyalarımıza dəstək verdiyinə görə Prezidentə «Çox sağ olun!» – deyirəm. Minnətdaram.

**İsmail Serageldin:** Çox sağ olun, xanım Vayra Vike-Freyberqa! İndi isə biz artıq diskussiyalarımıza başlamaq üzrəyik. Mən xüsusilə Vayra Vike-Freyberqaya öz minnətdarlığımı bildirirəm ki, bu müzakirələr məhz Nizaminin Vətənində keçirilir, onun doğulduğu torpaqda baş tutur. Onun qoyub getdiyi irs bizi dəyişikliklərə sövq edir, bizi insan cəmiyyətinin bütün üzvlərinə xidmətə dəvət edir. Mən çox minnətdaram ki, biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubu ilə birgə bu Forumu təşkil etmişik.

Xanımlar və cənablar, Forumumuzun müxtəlif sessiyaları olacaqdır. Bu sessiyalar sizi gözləyir. Biz bütün imkanları araşdırmalıyıq. Özümüz üçün müəyyən etməliyik ki, məhz həqiqət bizim hamımızın öz daxilindədir. Bu bizi açıq cəmiyyətlərin inkişaf etdirilməsinə, qurulmasına həvəsləndirir. Biz bu imkanları nəzərdən keçirməliyik. Belə olan halda, biz əmin ola bilərik ki, mütləq istədiyimiz mənzilə yetişəcəyik.

Hörmətli cənab prezident İlham Əliyev, hörmətli xanım sabiq prezident Vayra Vike-Freyberqa, hörmətli xanım sabiq prezident Tarya Halonen, bir daha çox sağ olun!

Bütün iştirakçılara «Çox sağ olun!» – deyirik. Biz sizə bu iştirakınıza, töhfənizə görə minnətdarıq.

## UKRAYNA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VİKTOR YUŞENKO İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Ukraynanın sabiq prezidenti Viktor Yuşenkonu qəbul etmişdir.*

*Görüşdə Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunun önəmi qeyd olundu, Forumun regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Gürcüstan Respublikasının sabiq prezidenti Mixeil Saakaşvilini qəbul etmişdir.*

*Görüşdə Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunda müzakirə edilən məsələlərin əhəmiyyətindən danışıldı, Forumun ölkələrarası əməkdaşlığın inkişafındakı rolu vurğulandı.*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ, MİSİRİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU İSMAİL SERAGELDİN İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir.*

*Dövlətimizin başçısı II Qlobal Açıq Cəmiyyətlər Forumunun təşkilinə verdiyi dəstəyə görə İsmail Serageldinə təşəkkürünü bildirdi. Forumun artıq beynəlxalq təsisata çevrilməkdə olduğunu vurğulayan prezident İlham Əliyev tədbirin bundan sonra da uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu dedi.*

*Öz növbəsində II Qlobal Açıq Cəmiyyətlər Forumunun yüksək səviyyədə təşkilinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin Forumun qısa vaxt ərzində dünyada tanınmasının önəmini qeyd etdi.*

## BELÇİKA KRALLIĞININ SABİQ BAŞ NAZİRİ İV LETERM İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Belçika Krallığının sabiq Baş naziri İv Letermi qəbul etmişdir.*

*Sabiq Baş nazir İv Leterm II Qlobal Açıq Cəmiyyətlər Forumunun yüksək səviyyədə təşkil olunduğunu və səmərəli müzakirələr aparıldığını məmnunluqla qeyd etdi. O, sürətli iqtisadi inkişafa görə Azərbaycanın nümunəvi bir ölkə olduğunu vurğuladı.*

*Azərbaycanda son illər bir sıra mühüm beynəlxalq tədbirlərin davamlı olaraq keçirildiyini bildirən prezident İlham Əliyev II Qlobal Açıq Cəmiyyətlər Forumunun da ənənəvi xarakter alacağına ümidvar olduğunu qeyd etdi.*

## FORUMDA İŞTİRAK EDƏN SABİQ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI, O CÜMLƏDƏN DİGƏR RƏSMİ ŞƏXSLƏR ÜÇÜN NAHARDA İŞTİRAK

*28 aprel 2014-cü il*

*Aprelin 28-də Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunda iştirak edən sabiq dövlət və hökumət başçıları, o cümlədən digər rəsmi şəxslər üçün nahar verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak etdi.*

## YAPONİYA OLİMPİYA AGENTLİYİNİN RƏHBƏRİ, BAŞ NAZİRİN XÜSUSİ MÜŞAVİRİ TAKEO HİRATA İLƏ GÖRÜŞ

*29 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Yaponiya Nazirlər Kabineti nəzdində Olimpiya Agentliyinin rəhbəri, Baş nazirin səhiyyə və idman məsələləri üzrə xüsusi müşaviri Takeo Hiratanı qəbul etmişdir.*

*Yaponiya Olimpiya Agentliyinin rəhbəri, Baş nazirin səhiyyə və idman məsələləri üzrə xüsusi müşaviri Takeo Hirata Azərbaycana ötən səfərlərini və xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşünü böyük ehtiramla xatırlatdı. O, ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı ölkəmizdə bütün sahələrin inkişafı ilə bağlı ardıcıl tədbirlərin həyata keçirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Yaponiya arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Polşa münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Polşa xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2014-cü il*

## İSRAİL DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞ

*30 aprel 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da İsrail Dövlətinin Xarici İşlər naziri Aviqdor Libermanı qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə olundu, yüksək texnologiyalar, kənd təsərrüfatı sahələrində əməkdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İsrail arasında dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edərək, xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 may 2014-cü il*

## AĞDAŞ RAYONUNA SƏFƏR

*1 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ağdaş rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Ağdaş şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin yeni ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov prezident İlham Əliyevə ulu öndərin abidəsi ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ağdaşda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında, ölkədə bütün sahələrin canlandırılmasında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün mühüm tədbirlər görülür. Dünya şöhrətli siyasi xadimin anadan olmasının 91-ci ildönümü münasibətilə hazırda vacib layihələr reallaşdırılır. Bu layihələr sırasında paytaxt Bakıda və bölgələrdə yaradılan Heydər Əliyev mərkəzlərinin dahi şəxsiyyətin siyasi irsinin öyrənilməsində mühüm rolu vardır.*

*Belə mərkəzlərdən biri də Ağdaş şəhərində tikilib. Bu Mərkəzin yaradılması ilk növbədə, ağdaşlıların dünya şöhrətli siyasi xadimin xatirəsinə ehtiramını nümayiş etdirir. Bu həm də*

ulu öndərin zəngin və çoxşaxəli irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayır. Mərkəzdəki foto və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən yüksəliş mərhələsinə qədəm qoyması və indiki hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır.

Prezident İlham Əliyevə məlumat verildi ki, Mərkəzin inşasına 2012-ci ilin avqustunda başlanılıb. İnşaat işləri ən yüksək standartlar səviyyəsində həyata keçirilib. Ümumi sahəsi 5 min 800 kvadratmetr olan ikimərtəbəli bina zəruri avadanlıqlarla təchiz edilib.

Girişdə Mərkəzin qonaqlarına inzibati binanın maketi təqdim olunur. Birinci mərtəbədə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Buradakı ekspozisiya zalında ulu öndərin həyat və fəaliyyəti ilə bağlı sənədlər böyük maraq doğurur. Dahi şəxsiyyətin müxtəlif dövrlərdə çəkilmiş fotoları 6 guşədə yerləşdirilib. Bu fotolarda ümummilli liderin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən Ağdaşın inkişafına da xüsusi diqqət göstərməsi dolğun əksini tapıb. Ulu öndərin rayondakı müxtəlif obyektlərin açılışında iştirak etməsi, ictimaiyyət nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşləri ağdaşlıların xatirəsində dərin izlər buraxıb. Mərkəzdə xarici dil kursları, foto-video-audio studiya, informasiya texnologiyaları otağı, xalq çalğı alətləri dərnəyi, rəqs studiyası, internet-klub, kafe, 3D kino zalı və s. fəaliyyət göstərəcəkdir.

Prezident İlham Əliyevin müxtəlif illərdə Ağdaşa səfərlərini əks etdirən fotoguşənin də yaradıldığı Mərkəzdə rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək üçün hərtərəfli imkan vardır. Mərkəzin böyük və kiçik konfrans zallarında ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin, o cümlədən ulu öndər Heydər Əliyevin zəngin irsinin geniş təbliği məqsədi ilə açıq dərslərin keçirilməsi də nəzərdə tutulub. Açıq sərgi salonunda maraqlı rəsm nümunələri nümayiş etdirilir.

*Burada rəsm və heykəltəraşlıq studiyası, xalq sənətkarlığı emalatxanası, dizayn və kompüter kursları, elektron kitabxana fəaliyyət göstərəcəkdir.*

*İntellektual oyunlar otağında müxtəlif oyunların təşkili planlaşdırılır.*

*Son illər respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin keçirilməsi nəzərə alınaraq, burada da müvafiq şərait yaradılıb.*

*Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı mərasim iştirakçılarını salamladı.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir olsun!

Sizi ürəkdən salamlayıram. Bu gün biz Ağdaş rayonunda yenidən görüşürük. Mən Ağdaş rayonunda dəfələrlə olmuşam. Bu dəfə də burada görülən işlərlə tanış olacağam. Biz bu gün ilk növbədə, Heydər Əliyev Mərkəzinin açılışını qeyd edirik. Bu, gözəl hadisədir. Möhtəşəm Mərkəzdir. Həm memarlıq, həm də daxili dizayn baxımından göz oxşayır. Bu gözəl Mərkəz bir memarlıq abidəsidir. Mərkəzdə yerləşən studiyalar, dərnəklər, əlbəttə ki, onun funksional əhəmiyyətini də artıracaqdır.

Belə mərkəzlərin bölgələrdə açılması Azərbaycan xalqının ulu öndərə olan ehtiramının təzahürüdür, eyni zamanda, mərkəzlərdə Heydər Əliyevin keçdiyi yolla bağlı ekspozisiyalar quraşdırılır, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün gördüyü işlər, müasir Azərbaycan tarixi öz əksini tapır. Bu mərkəzlərdəki sənədlər, fotomateriallar, ekspozisiyalar bizim yaxın tariximizi əks etdirir.

Mərkəzlərin böyük mənəvi funksiyaları vardır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdə, bildiyiniz kimi, çox ağır vəziyyətdə idi. Demək olar ki, müstəqilliyimiz əldən gedirdi, xaos, anarxiya hökm sürürdü.

Azərbaycan xalqının tələbi ilə ulu öndərin hakimiyyətə gəlməsi nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu və Azərbaycan inkişaf yoluna qədəm qoydu. Beləliklə, 1993-cü ildən bu günə qədər ölkəmiz inkişaf və sabitlik dövrü yaşayır.

Hər bir ölkənin inkişafı üçün sabitlik başlıca şərtdir. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz əldə edilmiş sabitliyin nəticəsidir.

Biz ulu öndərin siyasətinə sadiqik. Azərbaycan onun qoyduğu yolla gedir və uğurla gedir. Son 20 ilin inkişafı onu göstərir ki, bu, düzgün yoldur. Başqa yol ola bilməz. Azərbaycan bu gün dünya miqyasında çox etibarlı ölkə, tərəfdaş kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Xarici siyasətimizin təməlini də Heydər Əliyev qoymuşdur. Bu siyasət müstəqillik əsasında qurulur. Bu gün bizim iqtisadi imkanlarımız artdıqca, əlbəttə ki, dünyada, beynəlxalq arenada istənilən məsələ ilə bağlı sözümüzü açıq ifadə edirik. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqemiz vardır və bu mövqe ədalətə əsaslanır.

Bu gün Azərbaycan artıq beynəlxalq tədbirlərin keçirilməsi üçün də öz rolunu oynayır. Azərbaycan nəinki bölgədə, dünya miqyasında bir mərkəzə çevrilibdir. Demək olar ki, hər həftə beynəlxalq tədbirlər keçirilir. Yüzlərlə, minlərlə yüksək vəzifəli qonaq Azərbaycana gəlir. Hər bir qonaq bilirəm ki, böyük təəssüratlarla öz vətəninə qayıdır. Çünki bizdə olan inkişafa, quruculuğa, abadlığa bu gün dünyada nadir hallarda rast gəlmək olur.

Bütün bunları biz özümüz yaratmışıq, Azərbaycan xalqı yaradıbdır. Biz ulu öndərin qoyduğu yolla gedirik. Biz bütün bu nailiyyətləri Azərbaycan xalqının zəhməti, istedadı hesabına əldə etmişik. Biz bu nailiyyətləri ildən-ilə möhkəmləndiririk.

Əlbəttə ki, iqtisadi sahədə aparılan islahatlar bizim gücümüzü artırmışdır. Əgər bu olmasaydı, biz asılı vəziyyətə düşər, xarici maliyyə qurumlarının kreditlərindən asılı olardıq.

Ancaq bu gün Azərbaycan özü bəzi ölkələrə kreditlər verir. Azərbaycan özü xaricə investisiyalar qoyur. Bu gün dünyada hələ də yaşanan iqtisadi-maliyyə böhranı Azərbaycan kimi ölkələrin əhəmiyyətini böyük dərəcədə artırır. Çünki bizim iqtisadi siyasətimiz milli maraqlar üzərində qurulub, düşünülmüş siyasətdir. Həm islahatlar aparılır, həm də insanların rifah halının yaxşılaşması üçün işlər görülür. Bir sözlə, Azərbaycan bu gün öz

iqtisadi gücünü artırır. Təsadüfi deyildir ki, Azərbaycan son 10 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkə kimi artıq qəbul edilib. İqtisadi inkişaf hər bir sahəyə müsbət təsir göstərir.

Bu il üçüncü regional inkişaf proqramı da qəbul edilmişdir. 2004-cü ildə birinci, 2009-cu ildə ikinci və bu il üçüncü proqram qəbul edilib. Bu proqram çox dəqiqdir, müfəssəldir. Hər bir məsələ orada öz əksini tapıb. Hər bir rayonun inkişafı da o proqramda nəzərə alınıbdır. Hər bir rayonun, hər bir kəndin problemi həll olunandan sonra ölkəmizdə heç bir problem qalmayacaqdır.

Əvvəlki dövrlərdə də 2 proqramın icrası nəticəsində Ağdaş rayonunda böyük işlər görülmüşdür. Bax, burada yerləşən Olimpiya İdman Mərkəzini, böyük xəstəxananı, bütün bu sosial obyektləri biz bir yerdə açmışıq və onlar insanlara xidmət göstərir. Rayonda sosial infrastrukturun yaradılması, məktəblərin tikintisi davam edir. Bilirəm, hələ də qəzalı, yararsız vəziyyətdə məktəblər vardır, ancaq tədricən onlar da təmir olunacaqdır. Beləliklə, üçüncü proqramın icrası nəticəsində 2018-ci ilə qədər sosial infrastrukturla, ümumiyyətlə, infrastruktur layihələri ilə bağlı heç bir problem qalmamalıdır.

Ağdaşda infrastruktur layihələri icra edilir, qazlaşdırma aparılır. Kəndlərin əksəriyyəti qazlaşdırılıbdır. Növbəti illərdə Ağdaşda qazlaşdırma 100 faizə çatmalıdır. Hər bir yaşayış məntəqəsində təbii qaz olmalıdır. Şəhərdə də köhnə borular dəyişdiriləcək və beləliklə, qaz təsərrüfatı ən yüksək səviyyədə olacaqdır. İçməli su layihələri icra edilir. Əminəm ki, bu məsələ də yaxın gələcəkdə tam şəkildə öz həllini tapacaqdır. Kənd yolları tikilir. Biz bu gün bir neçə kəndi birləşdirən kənd yolunun açılışını qeyd edəcəyik.

Yəni insanların normal yaşaması üçün bütün şərait yaradılır və şəhər də gözəlləşir, abadlaşır. Bax, bu yer şəhərin yeni sahəsidir, yeni inkişaf zonasıdır. Yadımdadır, burada birinci tikilən Olimpiya Mərkəzi olmuşdur. Ondan sonra xəstəxana tikildi, daha sonra meydan yaradıldı. İndi isə Heydər Əliyev Mərkəzi, icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyasının inzibati binaları açılır. Yəni bura bir mərkəz olubdur. Ağdaşın ənənəvi mərkəzi

vardır. Orada da abadlıq işləri aparılır. Ancaq bu, yeni mərkəzdir. Görün bütün işlər nə qədər böyük səliqə ilə, zövqlə görülübdür, ağaclar əkilib, qazonlar salınıb. Bu binalar da memarlıq nümunəsidir.

Bu gün Azərbaycan elə bir səviyyədədir ki, hər bir rayon mərkəzi, hər bir şəhər dünyanın aparıcı şəhərlərindən geri qalmamalıdır. Çünki Azərbaycan vətəndaşları daha da yaxşı həyata layiqdirlər. Biz hakimiyyət olaraq bu şəraiti yaradırıq və yaratmalıyıq.

Bu gün eyni zamanda, burada sənaye müəssisələrinin açılışı nəzərdə tutulur. Bu il bilirsiniz ki, Azərbaycanda «Sənaye ili»dir. Bizim gələcək iqtisadi inkişafımız sənaye ilə bağlıdır. Qeyri-neft sənayesi ilə bağlıdır ki, biz bu sahəni daha da inkişaf etdirək. Kənd təsərrüfatı, emal sənayesi – bütün bunlar həm iş yerlərinin açılmasına gətirib çıxarır, həm milli gəlirimizi artırır, ümumiyyətlə, ölkəmizin inkişafı üçün lazım olan məsələlərdir.

Yəni hər bir sahə diqqət mərkəzindədir, elə də olmalıdır, elə də olacaqdır. Əminəm ki, Ağdaşda bundan sonra daha da gözəl işlər görüləcəkdir. Ancaq bu günə qədər görülən işlər hesab edirəm ki, təqdirəlayiqdir. Bu nailiyyətlər münasibətilə sizi ürəkdən təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

**Şəhla Hacıbalayeva** *(Maqsud Şeyxzadə adına texniki, təbiət və humanitar təmayüllü gimnaziyanın direktoru):* Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi ağdaşlılar adından ürəkdən salamlayım. Ağdaşa xoş gəlmisiniz! Bu gün Ağdaşın müasir, gözəl bir guşəsinə toplaşmışıq. Sizin bizə bəxş etdiyiniz bu abad məkan rayonumuzun simasını daha da gözəlləşdirib. Bu gün burada Azərbaycan xalqının ümummilli lideri, tarixi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə açılışına toplaşdığımız Mərkəz hər birimizdə qürur hissi yaradır.

Möhtərəm cənab Prezident, əminliklə deyə bilərik ki, Azərbaycanın inkişaf etmiş ölkələr sırasına qoşulmasından qürur duyan gənclərimiz bu gün açılışında iştirak etdiyimiz

Mərkəzdə Heydər Əliyevin azərbaycançılıq məfkurəsini daha dərindən mənimsəyəcək və burada öz maraqlarına uyğun məşğuliyyət tapacaqlar. Bu gün bizim qarşımızda duran əsas məsələ müasir müstəqil Azərbaycanda doğulub zəngin Azərbaycanda yetkinlik yaşına çatmış gənclərimizə ölkəmizi sevdirmək, ulu öndərimizin Vətən uğrunda gördüyü böyük işləri onlara aşılamaq, onlarda vətənpərvərlik ruhunun daha da yüksəlməsinə nail olmaqdan ibarətdir.

Biz hər bir gəncimizə dərk etdirməliyik ki, əgər ulu öndərimiz olmasaydı, müstəqil Azərbaycanımız da olmazdı. Çünki ulu öndər Vətənimizi parçalanmaqdan qorudu, qardaş qırğınının qarşısını aldı, böyük, möhtəşəm bir Azərbaycan dövlətini yaratdı ki, bu gün onu bütün dünya tanıyır. Bu gün ulu öndərimizin Vətən səmasından müstəqil Azərbaycanımızı seyr edən müqəddəs ruhu rahatdır. Çünki Siz ulu öndərimizin yolu ilə gedirsiniz, ölkəmizi inkişaf etdirirsiniz, onu ən yüksək zirvələrə ucaldırsınız. Son 10 ildə ölkəmiz Sizin rəhbərliyinizlə ağlagəlməz inkişaf yolu keçmişdir. Həyata keçirdiyiniz bütün tədbirlərin mahiyyətində insan amili, insanlarımızın, vətəndaşlarımızın sosial rifahı durur. Bax, elə dünən müharibə əlillərinin, müharibə iştirakçılarının və onların ailələrinin sosial təminatlarını gücləndirmək məqsədilə sərəncamlar imzalamısınız.

Möhtərəm cənab Prezident, bu gün müstəqil Azərbaycanımız böyük inkişaf yolu ilə uğurla irəliləyir. Artıq Azərbaycanımızın haqq səsini bütün dünya eşidir. Sizin bu yaxınlarda Praqada etdiyiniz çıxış hər birimizin qəlbini qürur hissi ilə doldurdu. Böyük fəxr hissi ilə, qürur hissi ilə Sizin çıxışınızı oxuduq. Siz bütün dünyaya sübut etdiniz ki, Azərbaycan müstəqil, möhkəm, qürurlu bir dövlətdir. O heç bir zaman əyilməyəcək, o heç bir zaman heç kimin qarşısından geri çəkilməyəcəkdir.

Cənab Prezident, Siz ölkəmizin hansı guşəsində olursunuzsa, ora az bir müddət ərzində gülüstana çevrilir, insanların qəlbinə sevinc, rahatlıq hissi hakim kəsilir. Bunu abad kəndlər, şəhərlər,

ucalan binalar, salınan yollar, körpülər, yeniləşən parklar, bağlar, xiyabanlar, minlərlə-milyonlarla insanların Sizə ünvanlanan alqışları təsdiq edir. Bu inkişaf yolu Ağdaşımızdan da yan keçməmişdir. Bu gün ölkəmizdə yeni-yeni layihələr həyata keçirilir, infrastruktur obyektləri istifadəyə verilir. Bu gün gördüklərimdən duyduğum qürur, sevinc, iftixar hissini sözlə ifadə etməkdə çətinlik çəkirəm. Ona görə də fikrimi rayonumuza əvvəlki səfəriniz zamanı dediyiniz sözlərlə bildirirəm: «Ağdaş indi müasir, gözəl bir rayona çevrilmişdir. Burada istirahət etmək, yaşamaq, işləmək üçün bütün şərait vardır». Bütün bunları bizim üçün Siz yaratmısınız, möhtərəm cənab Prezident. Buna görə də ağdaşlılar adından bir daha Sizə dərin minnətdarlığımızı bildirir, bu işlərin görülməsində Sizinlə çiyin-çiyinə çalışan xalqımızın sevimlisi Mehriban xanıma, bütün ailə üzvlərinizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycanımızın müstəqilliyi naminə apardığınız böyük işlərdə uğurlar arzu edirik.

Cənab Prezident, biz Sizinlə fəxr edirik, biz Sizinlə qürur duyuruq, Sizə inanır, Sizə arxalanırıq. Tanrı Sizi qorusun!

**R a f i q  N ə b i y e v** *(Rayon Ağsaqqallar Şurasının sədri):* Cənab Prezident, Ağdaş rayon ağsaqqalları adından Sizi salamlayır və minnətdarlığımızı bildirirəm. Var olun, üzünüzdən bu təbəssüm əskik olmasın. Biz həqiqətən, Sizinlə fəxr edirik. Allah Sizə yar olsun! İşlərinizdə uğurlar arzulayırıq.

## Ağdaş Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ağdaş Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Son illər Azərbaycanın bütün bölgələri sürətli inkişaf dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənir, əhalinin yaşayış səviyyəsi yaxşılaşır. Həmçinin bölgələrdə geniş*

abadlıq-quruculuq işləri aparılır. Prezident İlham Əliyevin sərəncam və göstərişləri ilə regionlarda həyata keçirilən quruculuq işləri ilk növbədə, həmin bölgələrin inkişaf strategiyasına uyğun aparılır. Tikilən binalar bölgələrin simasına xüsusi yaraşıq verir. İndi bütün rayonlarda davam edən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir. Bu sırada son illərdə Ağdaş rayonunda görülən işlər də diqqəti cəlb edir. Rayonun sosial-iqtisadi inkişafı çərçivəsində görülən tədbirlər sırasında icra hakimiyyəti üçün yeni tikilən binada yaradılan şərait bir məqamı təsdiqləyir ki, ölkədə dövlət idarəçiliyi sistemi işinin stimullaşdırılması diqqət mərkəzində saxlanılır. 4 mərtəbədən ibarət bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Binadakı otaqların hamısı müasir tələblər səviyyəsində qurulub.

Dövlətimizin başçısına məlumat verildi ki, binanın inşasına 2012-ci ilin avqustunda başlanılıb və bu ilin aprelində başa çatdırılıb. Tikinti işləri ən yüksək səviyyədə aparılıb. Binanın interyeri zövqlə tərtib olunub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin tərəqqisində fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Fotoguşələrdə ümummilli liderin və prezident İlham Əliyevin Ağdaş rayonunda müxtəlif illərdə keçirilən tədbirlərdə iştiraklarını əks etdirən şəkillər vardır.

Azərbaycan Prezidenti otaqlarda yaradılan şəraitlə tanış oldu. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub. Burada, həmçinin müasir idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki şərait yaradılıb. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına kömək edəcəkdir. İnzibati binada sakinlərlə və yerli icra nümayəndələri ilə videokonfrans təşkil etmək üçün zal vardır. Bütün bunlar icra hakimiyyətinin əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi və sakinlərin rahatlığının təmin olunması məqsədi ilə yaradılıb.

Konfrans zalı da ən son texnologiyalar əsasında qurulub. Müasir standartlara cavab verən texnologiyalar əsasında qurulmuş 100 yerlik akt zalında rayon və respublika əhəmiyyətli

*tədbirlər keçiriləcək. Yeni binada, həmçinin operativ idarəetmə mərkəzi də yaradılıb. Sakinlər binaya gəlmədən kənd və qəsəbə icra nümayəndəliklərinə müraciət edərək, onları narahat edən problemlərlə əlaqədar rayon icra hakimiyyətinin başçısı və digər məsul şəxslərlə birbaşa videoəlaqə yarada biləcəklər. Artıq rayonun bəzi icra nümayəndəlikləri şəbəkəyə qoşulub.*

*Binanın yerləşdiyi ərazidə geniş yaşıllaşdırma işləri görülüb, müasir işıqlandırma sistemi qurulub.*

*Prezident İlham Əliyev əhaliyə yüksək xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni Azərbaycan Partiyası ölkəmizin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında, bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rol oynayır. Azərbaycanın əsas və aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bütün bu məsələlərdə yaxından iştirak etməklə, xalqın partiyası olmasını aydın nümayiş etdirir. Ümummilli lider, partiyanın yaradıcısı Heydər Əliyev demişdir: «Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır». Bu gün bu fikrin nə qədər doğru olması özünü daha aydın büruzə verir. Yeni Azərbaycan Partiyası ölkənin tərəqqisinə, dövlətçiliyin möhkəm təməllər üzərində qurulmasına çox mühüm töhfələr verir. Bu gün partiyanın sıralarının genişlənməsi və fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, şübhəsiz ki, cəmiyyətdə bu siyasi quruma olan ehtiram və hörmətdən, onun nüfuzundan qaynaqlanır.*

*Yeni Azərbaycan Partiyasının ümumi məqsədlər və amallar naminə uğurlu fəaliyyətində partiyanın rayon təşkilatlarının da rolu danılmazdır. Respublikanın bütün bölgələrində inşa olunan YAP rayon təşkilatlarının inzibati binaları müasirliyi ilə seçilməklə yanaşı, həm də inşa olunduğu şəhərin gözəlliyini artırır. Bu binalarda ən yüksək səviyyədə işləmək üçün hər cür şərait yaradılır.*

*Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının yeni inzibati binası da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bina orijinal layihə, maraqlı memarlıq quruluşu ilə Ağdaş şəhərinin gözəlliyini daha da artırır.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, ikimərtəbəli, 17 otaqlı binanın inşasına 2012-ci ilin avqust ayında başlanılıb. İşlərin yüksək keyfiyyətlə və qısa müddətdə görülməsi üçün bütün qüvvələr səfərbər olunub. Bina müasir inventar və avadanlıqlarla təchiz edilib.*

*Binanın foyesində ulu öndər, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası ilə bağlı fəaliyyətlərini əks etdirən maraqlı fotolardan ibarət guşələr vardır. Müxtəlif tədbirlərin keçirilməsi üçün akt zalı da yaradılıb. İnzibati otaqlar binanın ikinci mərtəbəsində yerləşir.*

*Hazırda YAP Ağdaş rayon təşkilatının 16 min nəfər üzvü vardır.*

## Meyvə emalı zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Ağdaşda yeni tikilmiş Meyvə emalı zavodunun istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindəndir. Bu siyasətə uyğun olaraq,*

ölkəmizdə qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişafına xüsusi diqqət yetirilir.

Təsadüfi deyil ki, son 10 ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsullarının istehsalı 2,7 dəfə artmışdır. Diqqət çəkən ən vacib amillərdən biri də bu dövrdə ölkə sənayesinə 40 milyard manatdan çox investisiyanın yatırılmasıdır. Hazırkı mərhələdə isə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla, sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilir. Bundan əlavə, mövcud təbii və iqtisadi ehtiyatların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni istehsal və emal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılması da diqqət mərkəzində saxlanılır.

Qeyri-neft sektorunun inkişafını sahibkarlığa geniş imkanların yaradılmasında görən dövlətimizin başçısı özəl sektora xüsusi qayğı ilə yanaşır. Sahibkarlara öz imkanlarından və regionların potensialından istifadənin təkmilləşdirilməsi üçün sərəncamlar imzalayır, tapşırıqlar verir. Onların maliyyə təminatının yaxşılaşdırılması qayğısına qalır. Təsadüfi deyil ki, İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən indiyədək ölkə üzrə 20 minədək sahibkarın investisiya layihələrinin maliyyələşdirilməsinə 1 milyard 200 milyon manat güzəştli kredit verilib. Bu layihələr hesabına 116 mindən çox yeni iş yeri yaradılıb.

Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq ayrılan vəsaitlər sənayenin prioritet istiqamətləri üzrə müəssisələrin yaradılmasını və inkişaf etdirilməsini nəzərdə tutan layihələrin maliyyələşdirilməsinə yönəldilir. İndi həmin layihələr təkcə böyük şəhərləri deyil, regionları da əhatə edir. Məqsəd əhalinin məşğulluğunu və bölgələrdəki resurslardan səmərəli istifadə yolu ilə bazarı rəqabətqabliyyətli məhsullarla daha dolğun təmin

*etməkdir. Ağdaşda yeni tikilmiş Meyvə emalı zavodu da bu baxımdan mühüm əhəmiyyət kəsb edəcəkdir.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Ağdaş rayonuna səfərləri zamanı əhali ilə keçirdikləri görüşlərə və müxtəlif obyektlərin açılışlarında iştiraklarına həsr olunmuş fotostendə baxdı.*

*Sonra prezident İlham Əliyev zavodu işə saldı.*

*Məlumat verildi ki, ümumi dəyəri 4,2 milyon manat olan müəssisənin tikintisində İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan 1,9 milyon manat güzəştli dövlət kreditindən istifadə olunub. Ümumi sahəsi 2 min kvadratmetr olan zavod quru meyvə, bəhməz istehsalı və köməkçi sahələrdən ibarətdir. Zavodun quru meyvə istehsalı sahəsi dünyanın məşhur şirkətlərinin texnologiyası və avadanlıqları əsasında qurulub. Burada xammalın qəbulu, yuma maşını, su süzgəci, beşmərtəbəli bişirmə sobası və qablaşdırma avadanlıqları quraşdırılıb. Qurutma prosesi meyvələrin xüsusiyyətindən asılı olaraq bir neçə mərhələ üzrə həyata keçirilir. Tələbata uyğun olaraq əsasən xurma, üzüm, gavalı, ərik və almadan meyvə quruları istehsal olunur. Bu məqsədlə mövsüm ərzində 1,2 min tonadək müxtəlif meyvələrin tədarükü və emalı nəzərdə tutulur. Zavodda meyvə quruları sənaye üsulu ilə istehsal olunduğu üçün həm dadına, həm yaxşı əmtəə görünüşünə, həm də yüksək səviyyədə qablaşdırılmasına görə fərqlənir. Hazır məhsullar daxili bazara yönəldilməklə yanaşı, xarici ölkələrə də ixrac olunacaqdır.*

*Bəhməz istehsalı sahəsi Türkiyənin «STK» şirkətinin bişirmə sobaları, soyutma, süzmə və qablaşdırma avadanlıqları əsasında qurulub. Müxtəlif xəstəliklərin müalicəsi üçün təbabətdə geniş istifadə olunan bu məhsulun Azərbaycanda ilk dəfə sənaye üsulu ilə istehsalı məhz bu zavodda həyata keçiriləcəkdir. Tələbata uyğun olaraq əsasən tut, xurma, üzüm və zoğal kimi meyvələrdən il ərzində 20 ton bəhməz istehsal olunması planlaşdırılır.*

*Zavodun bu istehsal sahəsində qatılaşdırılmış süd də hazırlanacaq ki, bundan un məmulatı və dondurma istehsal edən müəssisələrdə xammal kimi geniş istifadə olunacaqdır.*

*Burada prezident İlham Əliyevə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev Aran iqtisadi rayonu üzrə sahibkarlara verilən güzəştli kreditlər və onların xərclənmə təyinatları barədə məlumat verdi. Bildirildi ki, indiyədək 7612 sahibkara 326,3 milyon manat dövlətin güzəştli krediti verilib. Bu kreditlər hesabına 29 mindən çox yeni iş yeri yaradılıb. O cümlədən müasir texnologiyalara əsaslanan, ümumi dəyəri 418,1 milyon manat olan 77 investisiya layihəsinin – 10 logistik mərkəz, 9 taxıl anbarı və 8 heyvandarlıq kompleksi, 12 quşçuluq təsərrüfatı, 4 süd, 2 ət və 4 meyvə-tərəvəz emalı zavodu, 5 çörək zavodu, 4 istixana kompleksi, 3 intensiv bağçılıq, 3 üzümçülük və 2 iri taxılçılıq təsərrüfatı, 2 quru meyvə, 1 qənd, 4 tikinti materialları və 4 digər istehsal və emal müəssisəsinin maliyyələşdirilməsinə 195,2 milyon manat güzəştli kredit verilib. Həmin iqtisadi zonaya daxil olan Ağdaş rayonunda indiyədək 233 sahibkar 12,4 milyon manat dövlətin güzəştli kreditindən bəhrələnib. Bu kreditlər hesabına 1000-dən çox yeni iş yeri yaradılıb.*

*Hazır məhsullarla tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, zavodun xammala olan tələbatı həm rayonun daxili istehsalı, həm də ətraf rayonlardan tədarük hesabına ödəniləcək. Bu da öz növbəsində, kiçik ailə təsərrüfatlarının inkişafına müsbət təsir göstərəcək və gələcəkdə zavodun emal imkanlarını daha da artıracaqdır.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, zavod İSO-2005 beynəlxalq təhlükəsizliyin idarə edilməsi sertifikatı alıb. Layihənin icrası nəticəsində 30 yeni iş yeri yaradılıb.*

## Ləki dəmir yolu vağzalının yeni binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Ağdaş rayonuna səfəri çərçivəsində Ləki dəmir yolu vağzalının yeni binasının açılışında iştirak etmişdir.*

*Son illərdə ölkənin nəqliyyat sisteminin, o cümlədən dəmir yolunun təkmilləşdirilməsi, sərnişindaşımalarının beynəlxalq*

*səviyyədə qurulması istiqamətində mühüm layihələr icra olunur. Bu siyasətin tərkib hissəsi olaraq nəinki paytaxt Bakıda, eyni zamanda, regionlarda da müasir standartlara cavab verən dəmir yolu vağzallarının tikintisinə və əsaslı təmirinə başlanılıb.*

*Yeni inşa olunan vağzallardan biri də «Azərbaycan Dəmir Yolları» QSC-nin Ləki stansiyasındakı binadır. Ləki dəmir yolu vağzalının binası müasir memarlıq üslubunda inşa olunub. Ərazidə yaşıllıq zolağı salınıb. Yeni binada sərnişinlərin istirahəti üçün hər cür şərait yaradılıb.*

*Dövlətimizin başçısı vağzal binasının əvvəlki görüntülərini əks etdirən fotostendə baxdı. Burada Azərbaycan Prezidentinə Ağdaş–Qəbələ avtomobil yolunun yenidən qurulması layihəsinin sxemi təqdim edildi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 28 kilometr uzunluğunda yol yenidən qurulacaq və dördzolaqlı olacaqdır.*

**İ l h a m Ə l i y e v:** Dördzolaqlı olsa, onda gərək ağaclar qırılsın. 4 zolağa ehtiyac yoxdur, ağaclar heyifdir. Qətiyyən olmaz. Yaxşı ki, mən gəldim və bu sxemi gördüm.

*Bildirildi ki, «Azərbaycan Dəmir Yolları» QSC-nin balansında olan Ləki dəmir yolu vağzalının əvvəlki binası 1897-ci ildə inşa olunmuşdu. Uzun müddət əsaslı təmir işləri aparılmadığından vağzal binasının sökülərək yenisinin inşası zərurəti yaranmışdı. Yeni vağzal binasının tikintisinə 2013-cü ilin yanvarında başlanılıb. «Azərbaycan Dəmir Yolları» QSC-nin Dəmir Yollarının və Texniki Qurğularının Təmir-Tikinti Departamenti tərəfindən inşa olunan vağzal binasında müasir standartlara uyğun xidmət göstərilməsi üçün hər cür şərait vardır. Gözləmə salonunda sərnişinlər üçün bütün rahatlıq yaradılıb. Burada ümummilli lider Heydər Əliyevin büstü qoyulub, ulu öndərin və prezident İlham Əliyevin Ağdaşa səfərlərini əks etdirən fotoguşə quraşdırılıb.*

*Dəmir yolunun Ləki stansiyasının vağzal binası sərnişinlərə xidmətin səviyyəsinin ən müasir standartlara uyğun həyata keçirilməsinin daha bir konkret nümunəsidir. Binanın mühən-*

dis-kommunikasiya sistemləri də müasir standartlara cavab verir. Burada sərnişinlər informasiya monitorundan yararlana biləcəklər.

Stansiyada yeni platforma da tikilib. Ləki stansiyası xarakterinə görə yük stansiyasıdır. Burada qatarların qəbul edilib yola salınması üçün 4 yol, yükləmə-boşaltma əməliyyatları üçün 6 yol, dartı yarımstansiyasının yolu, qoruyucu dalan, dartı yolu və eyni zamanda, stansiyaya birləşən təşkilatlara məxsus 2 dalan yolu vardır. İl ərzində Ləki dəmir yolu stansiyasında orta hesabla 150 vaqon – 19 min 600 ton yükləmə, 2500 vaqon – 150 min ton boşaltma işləri həyata keçirilir, 7 mindən çox sərnişinə xidmət göstərilir. Stansiyadan orta hesabla gün ərzində 40 qatar yola salınır.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, stansiyanın yeni vağzal binası dəmir yolu nəqliyyatı infrastrukturunun inkişafına mühüm töhfədir və əhalinin paytaxt Bakı və digər regionlarla rahat əlaqəsinin təmin olunması baxımından vacib əhəmiyyət kəsb edir.

## Gilan yem emalı zavodunun açılışı mərasimi

Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Ağdaş rayonuna səfəri çərçivəsində Gilan yem emalı zavodunun açılışında iştirak etmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan sosial-iqtisadi islahatlar strategiyasını prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində ölkəmiz dinamik inkişaf edir. İqtisadiyyatın neft sektoru ilə bərabər, qeyri-neft sahələrinin də davamlı inkişafına nail olunub. Təsadüfi deyil ki, bu gün Azərbaycanda ümumi daxili məhsulun böyük hissəsini qeyri-neft sektoru təmin edir. Bu, ölkədə aparılan iqtisadi şaxələndirmə siyasətinin nəticəsidir.

Qeyri-neft sektorunun inkişafında heç şübhəsiz ki, son illərdə Azərbaycanda həyata keçirilən aqrar islahatlar mühüm rol oynayır. Bu da prezident İlham Əliyevin kənd təsərrüfatının

*inkişafına, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına verdiyi önəmi bir daha təsdiqləyir. Dövlətimizin başçısı ölkədə kənd təsərrüfatında artım tempinin təmin olunmasını və bu istiqamətdə səmərəli tədbirlərin həyata keçirilməsini hər zaman diqqət mərkəzində saxlayır. Bu ilin əvvəlində dövlətimizin başçısının imzaladığı «Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncam da bu sahədə mühüm rol oynayır. Bu sənəd «2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın icrası sahəsində əlavə tədbirlərin görülməsini, kənd təsərrüfatı məhsulları ixracının artırılmasını, aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunmasını, ərzaq bazarının səmərəli fəaliyyətini ehtiva edir. Bu həm də ölkədə aqrar siyasətin əsas prinsiplərini, kənd təsərrüfatının inkişafında strateji hədəfləri və prioritet istiqamətləri özündə əks etdirən «Azərbaycan aqrar-sənaye kompleksinin inkişafı strategiyası»nın müəyyən olunması baxımından mühüm sərəncamdır.*

*Hazırda yüksək məhsuldarlığın təmin edilməsi, yerli məhsulların rəqabətqabliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinə nail olunması aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətlərini təşkil edir. Bu çərçivədə heyvandarlıq kompleksinin inkişaf etdirilməsi, zəruri infrastrukturun və bazanın təmin olunması, o cümlədən sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması, yeni müəssisələrin fəaliyyətə başlaması diqqətdə saxlanılır. Bu baxımdan Ağdaşda Gilan yem emalı zavodunun inşası da mühüm əhəmiyyəti ilə seçilir. Regionda iri layihələrdən olan bu müəssisə Ağdaş rayonunun Binələr kəndi ərazisində 8 hektar ərazidə tikilib. Zavod quşçuluq və maldarlıq təsərrüfatları üçün yem istehsalı və digər köməkçi sahələrdən ibarətdir.*

*Prezident İlham Əliyev müəssisədə yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, zavod özündə 2 fabriki birləşdirir.*

*Dövlətimizin başçısı müəssisəni işə saldı.*

*Bildirildi ki, quşçuluq və maldarlıq təsərrüfatları üçün yem istehsalı sahəsi tanınmış xarici şirkətlərin texnologiyası və avadanlıqları əsasında qurulub.*

*Azərbaycan Prezidenti istehsal prosesini izlədi, müəssisənin hazır məhsullarına baxdı.*

*Məlumat verildi ki, birinci fabrikin istehsal gücü saatda 15 ton preslənmiş yem və 20 ton açıq yemdir. İkinci fabrikdə isə saatda 45 ton preslənmiş yem, açıq halda da 55 ton məhsul istehsal etmək mümkündür. Birnövbəli iş rejimində zavodda, ümumilikdə 210 min ton yem istehsal olunacaqdır.*

*Qeyd edildi ki, MDB məkanında və Avropa ölkələrinin əksəriyyətində bu gücə malik belə zavod fəaliyyət göstərmir. Burada xammal kimi əsasən yerli məhsullardan istifadə olunur. Bunun üçün isə Samux, Beyləqan, Biləsuvar və Qəbələdə taxıl, arpa, qarğıdalı və günəbaxan sahələri yaradılıb. Zavodun əhəmiyyətini artıran mühüm amillərdən biri də ondan ibarətdir ki, respublika üzrə un istehsal edən fabriklərdən qida üçün yaramayan xammal alınaraq, burada toyuq və mal yemi kimi hazırlanacaqdır. Layihənin icrası nəticəsində 105 yeni iş yeri yaradılıb.*

*Bütün bunlar son illərdə Azərbaycan iqtisadiyyatının sürətli inkişafı sayəsində mümkün olub. Ölkədə aqrar sahənin, xüsusilə də heyvandarlığın inkişafına göstərilən diqqət artıq yem bazalarının yaradılmasını da gündəmə gətirib və bu istiqamətdə mühüm addımlar atılır. Heyvandarlığın yem bazasının möhkəmləndirilməsi üçün yem bitkilərinin əkin sahələri və onun məhsuldarlığı nəzərə alınaraq, dövlət büdcəsindən müvafiq vəsait ayrılır, sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditləri ilə təmin olunması həyata keçirilir.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Ləki–Pirəzə–Xınaxlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ağdaşda Ləki–Pirəzə–Xınaxlı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Son 10 ildə ölkəmizin yol-nəqliyyat infrastrukturunda baş verən əsaslı dəyişikliklər regionlarda da özünü büruzə verməkdədir. Ölkə ərazisində beynəlxalq əhəmiyyətli magistral yollar müasir standartlar səviyyəsində tamamilə yenidən qurulur. Paytaxt Bakının və rayon mərkəzlərinin küçə və yolları əsaslı surətdə abadlaşdırılır.*

*Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi diqqət regionlarda kənd və qəsəbələri, həmçinin yaşayış məntəqələrini birləşdirən daxili yolların təmirinə yönəldilib. Bu tədbirlər iqtisadiyyatımızın getdikcə güclənməsinin göstəricisi olmaqla yanaşı, dövlətimizin ölkənin istənilən nöqtəsində yaşayan vətəndaşlara göstərdiyi qayğı və diqqəti əks etdirir. Bu proses Ağdaş rayonunda da geniş vüsət alıb. Rayondakı Ləki–Pirəzə–Xınaxlı avtomobil yolu tamamilə yenidən qurulub.*

*Dövlətimizin başçısı yolun texniki göstəricilərini əks etdirən stendə baxdı.*

*Məlumat verildi ki, uzunluğu 34 kilometr olan avtomobil yolunun əsaslı yenidən qurulmasına ötən ilin iyununda başlanılıb. Ləki–Pirəzə–Xınaxlı avtomobil yolu 11 yaşayış məntəqəsini birləşdirir və ümumilikdə 20 mindən çox əhaliyə xidmət göstərəcəkdir.*

*Azərbaycan Prezidenti yolun rəmzi açılışını bildirən lenti kəsdi, yeni yolda avtomobili idarə etdi.*

*Sonra prezident İlham Əliyev sakinlərlə görüşdü.*

**S a k i n l ə r:** Xoş gəlmisiniz! Həmişə Siz gələsiniz!

**İ l h a m Ə l i y e v:** Təzə yoldan istifadə edirsiniz?

**S a k i n l ə r:** Bəli, çox rahatdır, gözəldir. Sizin sayənizdə bu problemimiz də həll olundu. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Təbrik edirəm.

**S a k i n l ə r:** Sağ olun. Böyük problem idi. Böyük iş görülüb.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, böyük işdir. Burada göstərilən şəkillərdə gördüm ki, əvvəlki yol hansı vəziyyətdə idi. O yolu necə getdiyinizi təsəvvür etmək çətindir.

**S a k i n:** Hörmətli Prezident, mən Zərdab rayonundanam. Bu yol ilə Veys baba ziyarətgahına 3 saata gedib gəlirdim. Çox sağ olun. Sizə çox minnətdarıq. İndi yollarımız çox gözəl çəkilibdir.

**S a k i n:** Cənab Prezident, Allah Sizi qorusun. Biz Sizdən çox razıyıq.

**İ l h a m Ə l i y e v:** İndi bu yol Zərdaba qədər gedir.

**S a k i n l ə r:** Bəli, Zərdaba qədər gedir. Neçə kənd varsa hamısının sakinləri Sizə duaçıdır.

**İ l h a m Ə l i y e v:** Mənə dedilər ki, 11 kəndin 20 min əhalisi uzunluğu 34 kilometr olan bu yoldan istifadə edir.

**S a k i n:** Cənab Prezident, bu yoldan Zərdab camaatı da istifadə edir. Çox təşəkkür edirik. Sizə minnətdarıq. Mehriban xanıma minnətdarıq. Sizə möhkəm cansağlığı diləyirik.

**İ l h a m Ə l i y e v:** Yol rahatlıq, müasirlik, mədəniyyət, rahat həyat deməkdir. İndi görün, necə gözəl yol çəkilib. Azərbaycanın bütün kənd yolları, bax, bu səviyyədə olacaqdır. Hər il dövlət büdcəsindən, Prezidentin ehtiyat fondundan böyük vəsait ayrılır, hər bir rayonda, hər bir bölgədə kənd yolları çəkilir. Ağdaşın da bütün kənd yolları belə olmalıdır. Ağdaşda 71 kənd vardır. Biz indi burada 11 kəndi birləşdirdik. Bundan başqa, Ləki–Ağdaş yolu da çəkilib. Gələcəkdə yeni kənd yolları da salınacaqdır. Sizi bir daha təbrik edirəm.

**S a k i n l ə r:** Allah Sizi qorusun. Bütün bu işlərə görə Sizə minnətdarıq. Sizə cansağlığı arzu edirik. Ömrünüz uzun olsun. Təkcə yola görə deyil, yaratdığınız bütün şəraitə görə Sizə təşəkkür edirik.

**S a k i n:** Yol salmaq savab işdir. Siz isə görün nə qədər yol çəkdirmisiniz. Bu xalqın xeyir-duası Sizə bəsdir. Xalq Sizinlədir.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən də xalq üçün çalışıram, işləyirəm. Mənim əsas məqsədim xalqa xidmət etməkdir.

**S a k i n l ə r:** Çox sağ olun. Allah Sizə cansağlığı versin. Sizin yaratdığınız bu əmin-amanlıq, gözəl işlər xalqın rifahı, dolanışığı üçündür. Biz Sizin uğurlu, cəsarətli xarici siyasətinizlə fəxr edirik.

Biz həmişə gözəl yolları şəhərdə görürdük. İndi öz kəndimizdə, öz rayonumuzda görürük. Biz inanırıq ki, Siz Qarabağımızı da qansız-qadasız qaytaracaqsınız. Biz Sizə inanırıq.

**İ l h a m  Ə l i y e v:** İnşallah. Sağ olun.

**S a k i n:** Xalq Sizi ürəkdən sevir. Ağsaqqallar adından, bütün ağdaşlılar adından Allahdan Sizə, ailənizə dualar edirik. Sizin Ağdaşa diqqətiniz çox böyükdür. Allah Sizdən razı olsun. Xalqın duaları Sizi qoruyacaqdır. Siz xalqın prezidentisiniz, hər bir vətəndaşın prezidentisiniz.

**İ l h a m  Ə l i y e v:** Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, xalq üçün işləyirəm, yaşayıram. Mənim başqa amalım yoxdur. Bu bölgələrdə, ucqar rayonlarda belə inkişafı, belə gözəl işləri görəndə ürəyim sevinir. Mənim üçün ən böyük mükafat sizin yaxşı yaşamağınızdır.

**S a k i n l ə r:** Çox sağ olun. Siz çox gözəl sözlərə layiqsiniz. Cənab Prezident, atanızın vəsiyyətlərini Siz 200 faiz yerinə yetirirsiniz. Sizə təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Təşəkkür edirəm.

**S a k i n l ə r:** Sağ olun.

## Bayraq Meydanında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Ağdaşda Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.*

*Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli bayra-*

*ğımız ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırılıb. Odur ki, dövlətin atributlarına hörmət və ehtiram ulu öndərin bizə ən böyük əmanətidir. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərində qürurla dalğalanır. Bu gün hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkənin əksər bölgələrində də üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir. Ağdaşda salınan Bayraq Meydanı və burada ucaldılan Dövlət bayrağı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir.*

*Qeyd olundu ki, Bayraq Meydanının inşasına ötən ilin fevralında başlanılıb və bu ilin aprelində sona çatdırılıbdır. Bayraq dirəyinin hündürlüyü 52 metrdir. Təbii mərmərlə üzlənmiş postamentin üzərində Azərbaycanın xəritəsi, Dövlət himni və gerbi əks olunub. Meydan inşa olunarkən burada Azərbaycan milli memarlıq məktəbinin elementlərindən geniş istifadə edilib.*

*Bayraq Meydanının ərazisində geniş abadlıq işləri görülüb, yaşıllıq zolağı salınıb və müasir işıqlandırma sistemi quraşdırılıb. Ağdaş sakinlərinin istirahəti üçün meydanda hər cür şərait yaradılıb.*

## 220 kilovoltluq «Ağdaş» elektrik yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də 220 kilovoltluq «Ağdaş» elektrik yarımstansiyasının açılışında iştirak etmişdir.*

*Azərbaycanın müstəqil elektrik enerjisi sisteminə malik olması vaxtilə ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasətin nəticəsidir. Bu gün prezident İlham Əliyevin*

*enerji müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkə əhalisinin və iqtisadiyyatının elektrik enerjisinə olan tələbatının tamamilə ödənilməsi, respublikada elektrik enerjisinin ixrac potensialının yaradılması sahəsində energetiklər qarşısında qoyduğu tapşırıqların icrası uğurla davam etdirilir.*

*Bütün bunların nəticəsidir ki, 10 il əvvəl ölkədə mövcud olan enerji problemləri respublikanın müxtəlif bölgələrində yeni elektrik stansiyalarının və yarımstansiyaların inşası nəticəsində tamamilə aradan qaldırılıb. Dövlətimizin başçısının sərəncam və tapşırıqları əsasında, həmçinin birinci və ikinci dövlət proqramları çərçivəsində son 10 ildə Azərbaycanda 17 yeni elektrik stansiyası istismara verilib, 10 min kilometrdən çox elektrik xətləri və 1500-dən çox yarımstansiya inşa edilib və yenidən qurulub. 2006-cı ildən başlayaraq, hər il 2 yeni elektrik stansiyası istifadəyə verilir. Bu, Azərbaycanın elektrik energetikası tarixində rekord göstəricidir. Nəticədə 2300 meqavatdan artıq yeni generasiya gücləri əldə edilib. Regionlarda bir-birinin ardınca istifadəyə verilən yarımstansiyalar əhalinin elektrik enerjisi ilə davamlı təminatında həlledici rol oynayır. Bu mənada tikintisi yenicə başa çatmış 220 kilovoltluq «Ağdaş» elektrik yarımstansiyası da bölgə üçün mühüm əhəmiyyət kəsb edəcəkdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, «Ağdaş» yarımstansiyasının inşası, onun 110 kilovoltluq şəbəkəyə birləşdirilməsi, 220 kilovoltluq ikidövrəli «Abşeron yarımstansiyası – Mingəçevir Su-Elektrik Stansiyası hava xəttinin tikintisi» layihəsi Prezidentin 2009-cu il 14 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində həyata keçirilən ən mühüm layihələrdən biridir. Fiziki və mənəvi cəhətdən köhnəlmiş, istismar resurslarını tamamilə başa vurmuş 220 kilovoltluq 1-ci və 2-ci Mingəçevir hava xətləri bu layihəyə əsasən yeni xətlərlə əvəz olunub və yeni 220 kilovoltluq «Ağdaş» yarımstansiyası inşa edilib. Xəttin inşasında istifadə edilən xüsusi*

*gücləndirilmiş, qalvanizə edilmiş dayaqlar, elektrik naqilləri, yarımstansiyanın metal konstruksiyaları və digər köməkçi avadanlıqlar Sumqayıt Texnologiyalar Parkında istehsal olunub. Yarımstansiyada ən müasir elektrik avadanlığı quraşdırılıb. Bu, respublikada sayca 13-cü 220 kilovoltluq yarımstansiyadır. Yarımstansiyanın şəbəkəyə birləşdirilməsi üçün 60 kilometrdən artıq 110 kilovoltluq hava xətti çəkilib. Bu da ətraf rayonları elektrik enerjisi ilə etibarlı təmin etmək imkanlarını artıracaqdır.*

*İnzibati bina ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, yarımstansiya 2 avtotransformatordan, 2 açıq paylayıcı quruluşdan, idarəetmə mərkəzindən, xüsusi sərfiyyat üçün 2 transformatordan, ehtiyat xüsusi sərfiyyat mənbəyi olan dizel-generatorundan, qəza yağ qəbuledici tutumundan, yanğından mühafizə sistemindən və digər komponentlərdən ibarətdir.*

*Bildirildi ki, tikinti zamanı yarımstansiya və xətlərdə 250-dən artıq işçi çalışıb. İstismara verildikdən sonra yarımstansiyada 25-ə yaxın işçi daimi işlə təmin olunacaqdır. Bütövlükdə bu layihənin icrasının başa çatması nəticəsində 500 kilovoltluq «Abşeron» yarımstansiyası ilə Mingəçevir Su-Elektrik Stansiyası arasında əlaqələr güclənəcək, texniki itkilər xeyli azalacaq və ümumilikdə aran bölgəsinin, o cümlədən Ağdaş, Göyçay, Ucar və Qəbələ rayonlarının keyfiyyətli elektrik enerjisi ilə təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşacaqdır.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

## Heydər parkında aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Ağdaşa səfəri çərçivəsində Heydər parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Son illərdə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların*

*simasına yeni elementlərin daxil olması ilə müşayiət edilir. Ölkəmizin şəhər və rayonlarında aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, yenidən qurulması da diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Ağdaş şəhərindəki Heydər parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir.*

*Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən Ağdaşda da yenilənən Heydər parkı ilk növbədə, rayon sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan və Ağdaşın mərkəzi hissəsinə xüsusi yaraşıq verən bu park Azərbaycanın tərəqqisi, ölkəmizin və onun bölgələrinin inkişafını bir daha sübut edir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, rayon sakinlərinin mənalı istirahəti, ağsaqqalların, gənclərin və uşaqların asudə vaxtının səmərəli təşkili üçün 7 hektar ərazidə yerləşən Heydər parkında ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Ötən dövrdə bu parkda aparılan yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb. Yenidənqurma işlərindən sonra Heydər parkı özünəməxsus elementlər və formalarla zənginləşdirilib. Ərazidə yeni yollar və cığırlar salınıb.*

*Parkda yaradılan 2 süni göl və 11 fəvvarə bu istirahət məkanının gözəlliyini daha da artırıb. Burada müasir işıqlandırma sistemi, müxtəlif attraksionlar, Ana və uşaq istirahət mərkəzi, gənclər kafesi, mini avtodrom yaradılıb. Görülən işlər çərçivəsində açıq fitnes, 5D kino zalı, tir atıcılıq mərkəzi də qurulub, müasir dizaynda oturacaqlar qoyulub. Parkın ərazisinin yaşıllaşdırılması məqsədilə ağac və dekorativ gül kolları əkilib, geniş ərazidə çəmənlik salınıb.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin şimal-şərqində baş vermiş irimiqyaslı təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 may 2014-cü il*

## MİLLİ ELMLƏR AKADEMİYASI MƏRKƏZİ KİTABXANASININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*5 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Kitabxanasının yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı kitabxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzi Kitabxananın yeni binası prezident İlham Əliyevin 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən tikilib. Həmin ilin noyabrında dövlətimizin başçısı kitabxananın yeni binasının təməlini qoyub. Yeni binanın tikintisi üçün ilkin olaraq Prezidentin ehtiyat fondundan 2 milyon manat vəsait ayrılıb. İnşaat işlərinin başa çatdırılması üçün 2011–2013-cü illərdə Nazirlər Kabinetinin sərəncamları əsasında ümumilikdə 34 milyon manatdan çox vəsait xərclənib.*

*AMEA-nın prezidenti, akademik Akif Əlizadə dövlətimizin başçısına məlumat verdi ki, «Akademiya şəhərciyi»ndə tikilmiş yeni binanın ümumi sahəsi 28 min kvadratmetrdən çoxdur. Bu kitabxana respublikamızda milli və dünya əhəmiyyətli elmi nəşrlərin zəngin fondlarına malik olan ən iri, universal təmayüllü, aparıcı elmi kitabxanadır. Akademiyanın struktur bölməsi kimi fəaliyyət göstərən Mərkəzi Kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitab tarixi və informasiyalaşdırma sahəsində fəaliyyət göstərir. Bu zəngin tarixə malik elm və mədəniyyət ocağı AMEA sistemində aparılan bütün kompleks və sahəvi problemlər üzrə ixtisaslaşdırılmış məlumat-informasiya mərkəzi və ölkə miqyasında baş elmi-texniki informasiya müəssisəsidir. Mərkəzi Kitabxananın yaradılması istiqamətində ilkin tədbirlər 1923–1924-cü illərdə həyata keçirilmişdi. 1945-ci ildən özünün yeni*

inkişaf mərhələsinə qədəm qoyan bu kitabxana xüsusilə ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə əsaslı inkişaf yolu keçib. 2003-cü ilin yanvarında isə Azərbaycan Prezidentinin müvafiq fərmanı əsasında Mərkəzi Kitabxana elmi status alıb. Ötən illərdə əsaslı struktur dəyişiklikləri baş verən və bilavasitə elmi tədqiqatla məşğul olan yeni şöbələrin yaradıldığı Mərkəzi Kitabxananın binasında beynəlxalq standartlara uyğun səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb.

Qeyd edildi ki, altımərtəbəli yeni bina orijinal layihəsi və müasirliyi ilə diqqəti cəlb edir. İnşaat işlərində yerli və beynəlxalq memarlığın ən qabaqcıl təcrübəsindən istifadə olunub. Ətrafda əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulub.

Dövlətimizin başçısının tapşırığına uyğun olaraq Mərkəzi Kitabxanada ən son elmi-texniki yeniliklərə əsaslanan informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xüsusi diqqətdə saxlanılıb.

Prezident İlham Əliyevə AMEA-nın Mərkəzi Kitabxanasının ilk oxucu kartı təqdim edildi.

Məlumat verildi ki, kitabxanaya üzv olmaq istəyənlərə oxucu bileti avtomatik qaydada təqdim edilir. Ölkəmizin kitabxanaçılıq tarixində ən müasir avadanlıq və sistemlər ilk dəfə məhz bu kitabxanada tətbiq olunub. Girişdəki elektron köşklərdə kitabxananın strukturu, hər bir mərtəbənin sxemi, müxtəlif bölmələrin yerləşdiyi mərtəbələr, kitablar, o cümlədən fonda yeni daxil olan nəşrlər barədə müfəssəl məlumat almaq mümkündür. Hərəkət qabiliyyəti məhdud insanların informasiya almaları üçün burada xüsusi köşk quraşdırılıb. Kitabxananın bütün mərtəbələrində quraşdırılan monitorlarda fonda daxil olan ən son yeniliklər barədə dolğun məlumatlar əksini tapır. Burada kitabların sifarişi də elektron qaydada aparılır.

Diqqətə çatdırıldı ki, kitabxanada 300 kompüter quraşdırılıb. Server vasitəsilə sistemə qoşulan kompüterlər vahid şəbəkə təşkil edir və müvafiq tələblərə uyğun müasir proqramlarla təchiz edilir.

Bu da abunə haqqını ödəmək şərti ilə dünyanın aparıcı kitabxana resurslarına qoşulmaq imkanı yaradır.

Kitabxanada 1945-ci il martın 27-də təsis olunmuş Azərbaycan Elmlər Akademiyasının 15 nəfərdən ibarət ilk tərkibinə həsr edilən xüsusi guşə də yaradılıb. Bu elm ocağının akademikləri üçün zal da hərtərəfli təminatı ilə diqqəti cəlb edir. Həmin zalda eyni vaxtda 50 akademik elmi araşdırmaları ilə bağlı səmərəli iş apara bilər. Mərkəzi Kitabxananın yeni binasındakı 14 oxu zalında 1000-dən çox oxucunun eyni vaxtda elektron və çap məhsullarından istifadə etmək imkanı olacaqdır. Bilavasitə Akademiya işçiləri üçün nəzərdə tutulan abunə xidmətlərindən 80 oxucu eyni zamanda yararlana biləcək. Ölkəmizin müxtəlif guşələrində yaşayan virtual abunəçilərin sorğularının cavablandırılması üçün də burada hər cür şərait yaradılıb.

Qeyd edildi ki, kitabxanada dissertasiya zalı da fəaliyyət göstərir. Burada səmərəli fəaliyyət üçün bütün imkanlar vardır. Müzakirə otağı və müasir texnika ilə təchiz edilən digər otaqlar da oxucuların istifadəsindədir.

Məlumat verildi ki, yeni binada kitab fondunun ənənəvi qaydada zənginləşdirilməsi ilə yanaşı, Azərbaycanda fəaliyyət göstərən kitabxana, fond, muzey, orta məktəblər, ali təhsil ocaqları, elmi-tədqiqat institutları, media qurumları, arxivlər, şəxsi kolleksiyalar, yaradıcılıq ittifaqlarının fondları, dövlət foto arxivi, həmçinin dünya muzeyləri, sərgi salonları və elmi-tədqiqat mərkəzlərində Azərbaycana aid müxtəlif məlumatlar, incəsənət nümunələri, əlyazmalar, eksponat və sənədlərin elektron kataloqu yaradılacaq və sistemləşdirilərək «Milli rəqəmsal yaddaş» bazasına daxil ediləcəkdir. Bu isə istər həmyerlilərimiz, istərsə də xaricilər üçün Azərbaycan haqqında dolğun və obyektiv məlumatlardan istifadə imkanı yaradacaqdır.

Kitabxanada Akademiyanın bölmələrinə uyğun ixtisaslaşmış zallar fəaliyyət göstərir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün böyük konfrans zalı da yaradılıb.

Bildirildi ki, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı əsasında yeni binada Mərkəzi Kitabxana ilə

yanaşı, İnformasiya Resursları Mərkəzi də fəaliyyət göstərəcəkdir. Hər 2 qurumun başlıca məqsədi yüksək səviyyəli elmi araşdırmaların aparılması üçün müasir informasiya bazasını təmin etməkdən ibarətdir. Yeni binada 3,5 milyon kitabı əhatə edən əsas fond, eləcə də böyük miqdarda çertyoj, xəritə, film və digər informasiya daşıyıcıları saxlanacaqdır. Ümumilikdə Akademiyanın istifadəsinə verilən Mərkəzi Kitabxananın yeni binası həm alimlərə dünya kitabxanalarının zəngin fondlarından faydalanmaq imkanı yaradacaq, həm də burada bütün struktur vahidlərinin məqsədyönlü fəaliyyəti nəticəsində informasiya idarə olunan və əlaqələndirilə bilən strateji resursa çevriləcəkdir.

Qeyd olundu ki, buradakı sistemləşdirmə şöbəsində də ən son elmi-texniki yeniliklər tətbiq edilib. Həmin şöbədə sürətli skaner vasitəsilə bütün növ kitabların qısa müddətdə nüsxələrinin hazırlanması və digər əməliyyatlar üçün müasir avadanlıq quraşdırılıb.

Dövlətimizin başçısına müasir rəqəmsal mətbəənin yaradılması, elektron arxiv idarəetmə kompleksinin sxemi və digər texnologiyalar barədə də ətraflı məlumat verildi. Kitabxanada, həmçinin yeni nəşrlərin mütəmadi sərgisi keçiriləcəkdir.

Diqqətə çatdırıldı ki, kitabxananın 4 milyona yaxın kitabın saxlanılmasına imkan verən qapalı və xüsusi şəraitli fondu vardır. Kitabxananın imkanlarından görmə qabiliyyəti zəif olan insanların da hərtərəfli yararlanmaları üçün müvafiq şərait yaradılıb.

Prezident İlham Əliyevə AMEA-nın Rəyasət Heyətinin, yeni layihələndirilən Riyaziyyat və Mexanika İnstitutunun, Respublika Seysmoloji Xidmət Mərkəzinin, həmçinin Akademiyanın əməkdaşlarının Mərdəkan qəsəbəsindəki istirahət zonasının memarlıq eskizləri təqdim olundu.

AMEA-nın Mərkəzi Kitabxanasının yeni binası ilə tanış olan prezident İlham Əliyev kollektivi bu əlamətdar hadisə münasibətilə təbrik etdi, tapşırıq və tövsiyələrini verdi.

## «AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI» ELMİ MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*5 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Azərbaycan Milli Elmlər Akademiyasının «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin yeni binasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gedən sürətli inkişaf prosesləri bir çox sahələrlə yanaşı, elmin tərəqqisi və milli-mənəvi dəyərlərin qorunması sahəsində də sürətli yüksəlişə geniş imkanlar açıb. Bu sırada «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin inkişafı ilə bağlı tədbirlərin görülməsi də diqqət mərkəzində saxlanılır. Çünki Azərbaycanda ensiklopediya mədəniyyətinin öz tarixi vardır.*

*Bu mühüm və dəyərli fəaliyyətin ən böyük yüksəliş çağları ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin fəal dəstəyi ilə 1976–1987-ci illərdə çap edilən «Azərbaycan Sovet Ensiklopediyası» ölkə tarixinə bilik və məlumatların bütün sahələrini əhatə edən ilk fundamental əsər kimi daxil olub. O vaxt böyük elmi potensialın cəlb edilməsi ilə hazırlanan bu oncildlik ensiklopediyanın nəşri Azərbaycanın elmi və mədəni həyatında tarixi hadisəyə çevrilmişdi.*

*Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra universal milli ensiklopediyanın nəşri məsələsi yenidən aktuallaşdı. Azərbaycan Milli Ensiklopediyası xalqımızın tarixi inkişaf mərhələlərini, milli-mənəvi sərvətlərini, habelə dünyanın elm və mədəniyyət nailiyyətlərini özündə əks etdirən elmi nəşr olmalı idi. Prezident İlham Əliyev dövlət əhəmiyyətli bu mühüm işin həyata keçirilməsini, ensiklopediyanın yüksək elmi səviyyədə hazırlanıb nəşri üçün tələb olunan maddi-texniki bazanın yaradılmasını təmin etmək məqsədilə müxtəlif illərdə «Azər-*

*baycan Milli Ensiklopediyasının nəşri haqqında», həmçinin «Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin yaradılması haqqında» sərəncamlar imzalamışdır.*

*Yeni milli ensiklopediyanın hazırlanmasında azərbaycançılıq ideologiyası təməl prinsip kimi önə çəkilib, onun respublikamızın yeni dövrdəki tələblərinə cavab verməsi, xalqımızın həyatındakı mühüm tarixi, ictimai-siyasi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirməsi kimi mühüm vəzifələr müəyyənləşdirilib. Redaksiya heyətinin sədri prezident İlham Əliyev olan «Azərbaycan Milli Ensiklopediyası»nın artıq ilk cildləri oxucuların istifadəsinə verilib. Dövlətimizin başçısı elmi araşdırmaların səmərəliliyini artırmaq, tədqiqat işlərinin müasir texnologiyalar əsasında aparılmasına, məlumatların daha ətraflı və geniş formatda hazırlanmasına nail olmaq məqsədilə 2012-ci il iyulun 25-də daha bir mühüm sənədi imzalayıb. Azərbaycan Milli Elmlər Akademiyasının «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin yeni binasının tikintisi ilə bağlı tədbirlər haqqında prezident İlham Əliyevin imzaladığı sərəncam elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Sərəncamda binanın tikintisi üçün dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına ilkin olaraq 5 milyon manat vəsait ayrılması qərara alındı. Tikintisi yüksək standartlara uyğun aparılan «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin yeni binası artıq istifadəyə hazırdır.*

*Prezident İlham Əliyev «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Qeyd edildi ki, Akademiya şəhərciyinin həyatında ən müasir texnologiyalar əsasında tikintisi başa çatdırılan yeni mərkəzdə ölkə həyatının bütün sahələrini dəqiq və hərtərəfli əhatə edən elmi məqalələrin hazırlanıb Milli Ensiklopediyada toplanması üçün ən müasir şərait yaradılıb. Binanın*

*foyesində Azərbaycanın ilk ensiklopediyasının yaradılması təşəbbüsünü irəli sürən ümummilli lider Heydər Əliyevin büstü qoyulub.*

*Prezident İlham Əliyev mərkəzin kitabxanası ilə tanış oldu.*

*«Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin direktoru, redaksiya heyətinin məsul katibi, akademik Tofiq Nağıyev bildirdi ki, burada Azərbaycan Milli Ensiklopediyasının «Azərbaycan» xüsusi cildi nümayiş olunur. Bütövlükdə Azərbaycan Respublikasına həsr olunmuş cilddə ölkəmizin dünəni və bu günü: qədim tarixi və müasir həyatı, təbii sərvətləri və geosiyasi mövqeyi, elm, təhsil və mədəniyyət sahələrində qazandığı nailiyyətlər əksini tapıb. Bununla da Azərbaycan haqqında indiyə qədər bənzəri olmayan yeni və müfəssəl məlumat toplusu hazırlanıb. Nəşr 2007-ci ildə Azərbaycan, 2012-ci ildə isə rus dillərində işıq üzü görüb. Hazırda «Azərbaycan» cildinin ingilis dili versiyası üzərində iş görülür. Kitabxanada 1847-ci ildə nəşr olunan dünyanın ilk ensiklopediyasının surəti də nümayiş etdirilir. 2012-ci ildə nəşr olunan «Azərbaycan Muğam Ensiklopediyası»nın redaksiya heyətinin sədri Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevadır.*

*Mərkəzin kitabxanasında Azərbaycan Milli Ensiklopediyasının digər yeni nəşrləri və onlar barədə biblioqrafik məlumatlardan ibarət bukletlər sərgilənir.*

*Prezident İlham Əliyev mərkəzin akt və konfrans zalları ilə tanış oldu. Zallarda beynəlxalq və respublika əhəmiyyətli tədbirlərin keçirilməsi üçün bütün tələblər nəzərə alınıb. Kitab anbarı, mini mətbəə, müasir informasiya texnologiyalarının tətbiqinə imkan verən rabitə sistemi ölkə həyatının keçmişinin və bu gününün Milli Ensiklopediyada daha dolğun əksini tapması imkanlarını genişləndirəcəkdir. Ümumi tikinti sahəsi 7500 kvadratmetr olan mərkəzin ərazisində əsaslı abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## HEYDƏR ƏLİYEV PROSPEKTİNDƏ AVTOMOBİLLƏR VƏ PİYADALAR ÜÇÜN YENİ TİKİLMİŞ YERALTI KEÇİDİN AÇILIŞI MƏRASİMİ

*5 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Bakının Heydər Əliyev prospektində – «Şəfa» stadionunun qarşısında avtomobillər və piyadalar üçün yeni tikilmiş yeraltı keçidin açılışında iştirak etmişdir.*

*Paytaxtda və regionlarda çoxsaylı yolötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yenilənməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq görülür. Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə işlərin icrası davam etdirilir.*

*Həmin layihələrdən biri də Heydər Əliyev prospektində – «Şəfa» stadionunun qarşısında avtomobillər və piyadalar üçün keçidin tikintisidir. Nəqliyyatın hərəkətinin intensiv olduğu bu ərazidə inşa olunan və nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz hərəkətinin nizamlanmasını, tıxacların aradan qaldırılmasını təmin etmək üçün nəzərdə tutulan layihə artıq yekunlaşıb.*

*Prezident İlham Əliyev əvvəlcə «Şəfa» stadionu qarşısında piyadalar və avtomobillər üçün yeraltı keçidin mövcud vəziyyətini əks etdirən sxemə baxdı.*

*Yeni qurğunun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verildi. Sonra prezident İlham Əliyev piyada keçidinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Piyada keçidi ilə yaxından tanış olan dövlətimizin başçısına məlumat verildi ki, ümumi uzunluğu 214 metr, eni 16,5 metr, hündürlüyü 3 metr olan qurğu Heydər Əliyev prospektinin bu hissəsində piyadalar üçün indiyədək mövcud olmuş keçid probleminin tamamilə həllinə hesablanıb. Bu keçid təhlükəsiz hərəkəti təmin etməklə yanaşı, daxili dizaynı və dövrün tələblərinə cavab verən infrastrukturu ilə də diqqəti cəlb edir. Müasir işıqlandırma sistemi, açıq havada qurulmuş eskalator piyadaların rahatlığını təmin etməyə yönəldilib.*

*Sonra prezident İlham Əliyev «Şəfa» stadionunun qarşısındakı yeni avtomobil keçidinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına bu qurğunun da texniki göstəriciləri barədə məlumat verildi. Qeyd edildi ki, keçidin ümumi uzunluğu 224 metr, eni 16,5 metr, hündürlüyü isə 5,5 metrdir. Bu göstəricilər nəqliyyatın intensiv hərəkətinə əlavə imkanlar yaradacaqdır. İcra olunmuş layihəyə əsasən keçidin açıq hissəsinin uzunluğu 441 metrdir. Layihənin icrası zamanı 1480 metr uzunluğunda yeni yan yollar salınıbdır.*

*Yeni qurğu ilə tanışlıqdan sonra prezident İlham Əliyevə Heydər Əliyev prospektində tikilmiş mövcud yeraltı avtomobil tunelindən keçərək, Babək və Ziya Bünyadov prospektlərini birləşdirən avtomobil yolunun sxemi təqdim olundu. Dövlətimizin başçısı yol tikinti layihələrinin icrası ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## GÜRCÜSTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Tbilisi*

*6 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin üçtərəfli Sammitində iştirak etmək üçün mayın 6-da Gürcüstana işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqlarının dalğalandığı Tbilisi Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Gürcüstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TBİLİSİDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*Tbilisi*

*6 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Tbilisidə Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı abidənin önünə əklil* qoydu.

*Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn prezident İlham Əliyevə parkda görülmüş işlər barədə məlumat verdi.*

*Ulu öndər Heydər Əliyevin adını daşıyan park 2004-cü il iyunun 14-də Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə açılıb.*

*Ümumi sahəsi 1 hektar olan parkda Tbilisi şəhərinin sakinləri və qonaqlarının istirahəti üçün hər cür şərait yaradılıb.*

## MİRZƏ FƏTƏLİ AXUNDZADƏ ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MUZEYİ İLƏ TANIŞLIQ

*Tbilisi*

*6 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Gürcüstana işgüzar səfəri çərçivəsində Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bina vaxtilə Tbilisidə yaşayıb işləyən M.F.Axundzadənin öz vəsaiti ilə inşa edilib. Gürcüstanın azərbaycanlı ziyalılarının müraciətinə əsasən 1982-ci ildə binada M.F.Axundzadənin ev-muzeyi yaradılıb. 1996-cı ildə ulu öndər Heydər Əliyevin Gürcüstana rəsmi səfərindən sonra bu mədəniyyət ocağı əsaslı təmir olunub və həmin vaxtdan Azərbaycan Mədəniyyəti Mərkəzi kimi fəaliyyət göstərir.*

*2007-ci ildə Gürcüstan Prezidentinin sərəncamına əsasən mərkəzə Azərbaycan Mədəniyyəti Muzeyi statusu verilib.*

*Bildirildi ki, 2013-cü ildə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə muzeydə əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Həmin il mayın 8-də muzeyin açılışı olub.*

*Hazırda muzeyin nəzdində Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə xalçaçılıq, musiqi, muğam, rəsm və dil kursları vardır. Muzeyin əsas fəaliyyət istiqamətləri Azərbaycan mədəniyyətini, xalqımızın mədəni irsini Gürcüstanda qoruyub saxlamaq, təmsil və təbliğ etməkdir.*

*Muzey Gürcüstanda fəaliyyət göstərən müxtəlif muzeylərin fondlarından Azərbaycanın mədəni irsinə aid milli dəyər-*

lərimizi aşkarlayaraq tədqiq edir, onların sərgilərini keçirir. Muzeydə mədəni tədbirlər, konfranslar da təşkil olunur. Burada Mirzə Şəfi Vazehin 1820–1830-cu illərdə Gəncədə qurduğu «Divani-Hikmət» ədəbi məclisinin fəaliyyətini davam etdirən «Müdriklər Məclisi» yaradılıb.

Muzeyin 6 ekspozisiya zalı var. Bu zallarda Azərbaycanın milli musiqi alətləri, geyimlər, xalq sənətinin müxtəlif sahələrinə aid nümunələr, M.F.Axundzadənin həyat və fəaliyyətini əks etdirən eksponatlar, onun şəxsi əşyaları, görkəmli Azərbaycan dramaturqu ilə sıx təmasda olmuş şair və yazıçıların fotoşəkilləri, ədibin müxtəlif dillərdə nəşr olunmuş əsərlərinin üz qabıqlarının və o dövrdəki konsert afişalarının surətləri nümayiş etdirilir.

Zallardan biri Azərbaycan–Gürcüstan dostluğuna həsr olunub. Burada Azərbaycan və Gürcüstan heykəltəraşlarının xalqlarımızın dostluq münasibətlərini əks etdirən əsərləri, Tbilisi şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkının, M.F.Axundzadə adına məktəbin və kitabxananın, Bakı şəhərindəki Tbilisi prospektinin və «Dostluq abidəsi»nin fotoşəkilləri yer alıb.

Muzeydə Tbilisi şəhərində yeganə olan azərbaycandilli kitabxana fəaliyyət göstərir. Həmçinin binada incəsənət qalereyası və «Müsyö Jordan» kafe-kitabxanası yerləşir.

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRLİYİNİN BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*Tbilisi*

*6 may 2014-cü il*

*Prezident İlham Əliyev mayın 6-da Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn dövlətimizin başçısına məlumat verdi ki, səfirliyin binası Gürcüstan Prezidentinin 2008-ci il 29 may tarixli Əmri ilə ayrılmış torpaq sahəsində inşa edilib. Binada bütün iş otaqları zəruri avadanlıqlarla təchiz olunub, səfirliyin əməkdaşlarının səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb.*

*Səfirlik kompleksinin inzibati binasında Heydər Əliyev zalı, qonaq qəbulu otaqları, konfrans zalı, iclas otağı və iş otaqları yerləşir. Heydər Əliyev zalında ulu öndərin şərəfli həyat və fəaliyyətindən bəhs edən şəkillər və kitablar toplanılıb. Burada Azərbaycan Respublikasının dövlət bayramları və əlamətdar günlər ilə bağlı müxtəlif tədbirlər keçirilir. Səfirliyin inzibati binasının foyesində ulu öndər Heydər Əliyevin büstü ucaldılıb.*

## ARDNŞ-in GÜRCÜSTANDAKI YENİ İNZİBATİ BİNASI İLƏ TANIŞLIQ

*Tbilisi*

*6 may 2014-cü il*

*Prezident İlham Əliyev mayın 6-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Tbilisidəki yeni inzibati binası ilə tanış olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məlumat verildi ki, ARDNŞ-in Gürcüstandakı yeni inzibati binasının tikintisinə 2009-cu ildə başlanılıb, 2012-ci ildə istifadəyə verilib. Bu kompleks ARDNŞ-in Azərbaycandan kənarda yerləşən ən böyük inzibati binasıdır. Binada şirkətin Gürcüstan nümayəndəliyi, «SOCAR Energy Georgia» MMC və digər törəmə şirkətlər yerləşir.*

*Ümumi sahəsi 17600 kvadratmetr olan inzibati bina Bakıdakı Qız qalasını xatırladır və 5 blokdan ibarətdir. Bloklardan üçündə ofis sahələri yerləşir.*

*ARDNŞ-in Gürcüstan nümayəndəliyinin binası ən yüksək beynəlxalq standartlara cavab verən avadanlıqlarla təchiz olunub və müasirliyi ilə diqqəti cəlb edir. Bina Tbilisi şəhər meriyası tərəfindən keçirilmiş «Memarlıq Mükafatı–2011» beynəlxalq müsabiqəsində «İctimai tikinti» nominasiyasının qalibi olub.*

# AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ SAMMİTİ

*Tbilisi*

*6 may 2014-cü il*

*Mayın 6-da Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyə Respublikaları prezidentlərinin üçtərəfli Sammiti keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Georgi Marqvelaşvili və Türkiyə prezidenti Abdullah Gül əvvəlcə rəsmi foto çəkdirdilər.*

**Georgi Marqvelaşvili:** Mən istəyirəm həmkarlarımı, yüksək səviyyəli qonaqları, Azərbaycan və Türkiyə prezidentlərini, gələn qonaqlarımızı, onların nümayəndə heyətlərini salamlayım.

Artıq bizim görüşlərimiz və əməkdaşlığımız intensiv xarakter daşıyır. Mənim ilk səfərim Türkiyəyə olub. Vurğulamaq istəyirəm ki, səfər zamanı mənə çox isti və mehriban münasibət göstərildi.

Biz 1 həftə öncə cənab İlham Əliyevlə Praqada görüşdük, ondan əvvəl isə Bakıda bizim çox yaxşı görüşümüz oldu. Artıq çox illərdir ki, əməkdaşlıq edirik. Əməkdaşlığımız çox müsbətdir, ölkələrimiz və region üçün əlverişli və səmərəlidir.

Biz bugünkü görüşümüzlə birgə başladığımız işlərin əhəmiyyətini daha da artırırıq. Bu təşəbbüsə görə Abdullah Gülə xüsusi təşəkkürümü çatdırıram. Sammitə verdiyi məna və əhəmiyyətə görə İlham Əliyevə də xüsusi təşəkkürümü bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Hörmətli Gürcüstan Prezidenti, hörmətli Türkiyə Prezidenti!

İlk növbədə, cənab Prezident, bu təşəbbüs üçün Sizə minnətdaram. Qardaş Gürcüstan torpağında yenidən olmağımdan çox məmnunam. Əminəm ki, bu təşəbbüsün çox gözəl nəticələri olacaqdır. İlk dəfədir ki, hər 3 ölkənin prezidenti rəsmi qaydada Sammitdə toplaşıb. Əminəm ki, Sammitin çox gözəl nəticələri olacaqdır.

Ölkələrimiz arasındakı əlaqələr böyük tarixə malikdir. Həm ikitərəfli əlaqələr çox yüksək səviyyədədir, həm də biz üçtərəfli formatda birgə səylər göstəririk, birgə təşəbbüslər irəli sürürük. Bu gün Gürcüstan–Türkiyə–Azərbaycan üçtərəfli əməkdaşlığı nəinki ölkələrimiz, eyni zamanda, bölgə və dünya üçün böyük əhəmiyyət kəsb edir. Çünki bizim əməkdaşlığımızın təməlində ortaq maraqlar dayanır. Eyni zamanda, bizim birgə həyata keçirdiyimiz layihələr regional çərçivələrdən çıxıb qlobal məna daşımaqdadır.

Ona görə Sammitin keçirilməsi özlüyündə çox əlamətdar bir hadisədir, beynəlxalq hadisədir. Əlbəttə ki, bu gün müzakirə olunacaq məsələlər mahiyyət etibarı ilə də çox böyük məna daşıyır. Əminəm ki, biz bu gün həm beynəlxalq məsələlər, həm regional təhlükəsizlik və enerji təhlükəsizliyi məsələləri, eyni zamanda, nəqliyyat, humanitar sahələrdə əməkdaşlıq ilə əlaqədar fikir mübadiləsi aparacağıq və növbəti dövr üçün birgə fəaliyyət planı haqqında da danışacağıq. Bir daha Sizə bu təşəbbüsə və göstərdiyiniz qonaqpərvərliyə görə minnətdaram.

**A b d u l l a h  G ü l:** Hörmətli Gürcüstan prezidenti Georgi Marqvelaşvili!

Hörmətli Azərbaycan prezidenti, dəyərli qardaşım İlham Əliyev!

Dəyərli media nümayəndələri!

Gürcüstanda üçtərəfli Sammitdə – Tbilisidə görüşməkdən məmnunluq hissi keçirirəm. Əsasən bu 3 ölkə arasında genişmiqyaslı sıx əməkdaşlıq əlaqələri mövcuddur. O vaxt – 2007-ci ildə prezidentlər səviyyəsində də Bakı–Tbilisi–Qars dəmir

yolunun Gürcüstan hissəsinin təməlqoyma mərasimində görüşmüşdük. İndi də yenə hamımız burada birlikdəyik. Əvvəlcə xarici işlər və digər nazirlərimiz müxtəlif səviyyələrdə görüşüblər. Bir az sonra geniş şəkildə müzakirələr aparacağıq. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars, Trans–Anadolu kimi regional və qlobal miqyasda mühüm layihələri bu 3 ölkə həyata keçirmişdir. Bu 3 ölkənin Cənubi Qafqazda sabitlik və rifaha töhfəsi artıq hamı tərəfindən təqdir edilməyə başlandı. Biz Qafqazın hündür dağlarını bir divar olmaqdan çıxartdıq, bir qapı, bir əməkdaşlıq sahəsi vəziyyətinə gətirdik. Təbii ki, bundan böyük məmnunluq duyuruq. Həm siyasi sahədə xalqlarımız bir-birinin qardaşıdır, qonşularıdır, həm də aralarında yaxın dostluğa söykənən əməkdaşlıq əlaqələri iqtisadi sahədə də özünü büruzə verməkdədir.

Bunları prezidentlər olaraq ən yüksək səviyyədə yenidən nəzərdən keçirəcəyimizə və bu cür sammitlərin bundan sonra da davamlı olaraq baş tutacağına ümid edirəm. Bundan böyük məmnunluq hissi duyuram. Ev sahibliyinə görə bir daha Sizə təşəkkür edirəm.

* * *

*Sammitdə dövlət başçıları son illərdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat, energetika, həmçinin turizm sahələrində əməkdaşlığın yekunlarını nəzərdən keçirdilər.*

*Tədbirdə Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin əhəmiyyəti qeyd edildi, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin uğurla həyata keçirilməsindən məmnunluq ifadə olundu.*

*Azərbaycan, Gürcüstan və Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi perspektivləri müzakirə edildi. Prezidentlər bu formatda qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi əzmində olduqlarını bildirərək, belə görüşlərin müntəzəm keçirilməsinin vacibliyini vurğuladılar.*

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*Tbilisi*

*6 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvilinin mayın 6-da Tbilisidə üçtərəfli görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edildi, Tbilisi Sammitinin münasibətlərimizin daha da genişlənməsinə töhfə verəcəyi diqqətə çatdırıldı. Azərbaycan, Türkiyə və Gürcüstan arasında həyata keçirilən qlobal layihələrin əlaqələrimizin inkişafı baxımından əhəmiyyəti vurğulandı.*

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI PREZİDENTLƏRİNİN MƏTBUATA BİRGƏ BƏYANATLARLA ÇIXIŞLARI

*Tbilisi*

*6 may 2014-cü il*

*Tbilisidə üçtərəfli görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvili və Türkiyə Respublikasının Prezidenti Abdullah Gül mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin bəyanatı

Mən sizi salamlamaq istəyirəm. Bir daha öz dostlarıma – Azərbaycan və Türkiyə prezidentlərinə, nümayəndə heyətlərinin üzvlərinə xüsusi minnətdarlığımı bildirirəm. Mən təkcə bizim ölkələrimiz üçün deyil, digər ölkələr üçün də əhəmiyyətli olacaq bugünkü Sammitin işində iştirak etmiş hər kəsi salamlayıram. Həm regionda, həm də region hüdudlarından kənarda 10 milyonlarla insan bu Sammitin bəhrəsini görəcəkdir.

Mən belə bir Sammitin əsasını qoyduğu üçün Türkiyə prezidenti cənab Gülə minnətdarlığımı bildirmək istərdim. O belə bir Sammitin təşəbbüskarı olub və mən bu ideyanı dəstəkləyən Azərbaycan prezidenti cənab İlham Əliyevə təşəkkürümü bildirirəm.

Sammitin gedişində biz ölkələrimiz arasında artıq qurulmuş əməkdaşlıq barədə danışdıq. Bu əsl tarixi əməkdaşlıq

ölkələrimizin iqtisadiyyatı və rifahına, bütün regionun sabitliyi və çiçəklənməsinə çox müsbət təsir göstərir. Mən deyərdim ki, ölkələrimiz arasında bu nümunəvi əməkdaşlığın nəticəsi Asiya və Avropada 10 milyonlarla insana müsbət təsir göstərir. Biz Xəzər, Qara və Aralıq dənizlərini birləşdirən olduqca mühüm layihələr, o cümlədən bu əməkdaşlığın genişləndirilməsi barədə danışdıq. Bütün bunlar regionun sabitliyinin qarantıdır. Biz vurğuladıq ki, region daha sabitdir və ölkələrimiz daha çox sabitliyə nail olmaqda maraqlıdır. Ölkələrimizin rəhbərləri bu prosesə öz töhfələrini verməyə hazır olduqlarını bildirdilər. Bizim siyasətimiz, bizim ambisiyamız məhz budur.

Mən həqiqi əməkdaşlıq və dəstəyə görə bir daha azərbaycanlı və türkiyəli həmkarlarıma öz minnətdarlığımı bildirmək istərdim. Mən ölkəmizdə həyata keçiriləcək layihələrə görə onlara təşəkkürümü bildirirəm.

## Türkiyə prezidenti Abdullah Gülün bəyanatı

Hörmətli prezidentlər, nazirlər, media nümayəndələri!

Bu gün burada Cənubi Qafqaz bölgəsi ilə bağlı ortaq bir görüşü paylaşan 3 ölkənin prezidentləri olaraq bir yerə toplaşmışıq. Əməkdaşlığımızın bütün tərəflərini ətraflı şəkildə nəzərdən keçirdik.

Türkiyə olaraq, bizim istər Gürcüstan, istərsə də Azərbaycan ilə ikitərəfli əlaqələrimiz çox yüksək səviyyədədir. Gürcüstan ilə 1,5 milyard dollarlıq ticarət dövriyyəmiz vardır. Gürcüstandakı türk sərmayələri 1 milyard dollara yaxındır. Bir çox türk iş adamı Gürcüstana sərmayə yatırmaq arzusundadır. Əlaqələrimiz elədir ki, vətəndaşlarımız şəxsiyyət vəsiqəsi ilə, pasportsuz və vizasız səyahət edə bilirlər.

Türkiyə olaraq, eyni şəkildə Azərbaycan ilə də əlaqələrimizin şübhəsiz ki, çox özəl səviyyəsi vardır. İqtisadi əlaqələrimizə gəldikdə, ticarət dövriyyəmiz 4,7 milyard dollar, sərmayələrimiz isə 5,5 milyard dollar səviyyəsindədir. Türkiyə, Azərbaycan, Gürcüstan arasındakı bu coğrafi bərabərlik Cənubi

Qafqaz bölgəsində çox böyük bir cazibə mərkəzi yaratmaqdadır.

Şübhəsiz ki, əhalini nəzərə alsaq, dediyim bu rəqəmlər çox mühüm rəqəmlərdir. Amma bunu daha da yüksəltməyimiz mümkündür. Bu baxımdan bu 3 ölkənin səmimi, yaxın əlaqələri və əməkdaşlığı bölgəni bir cazibə mərkəzinə çevirməkdədir və bu cazibənin də gücü getdikcə artmaqdadır. Belə ki, çox böyük infrastruktur layihələrini reallaşdırdığımızı hamı bilir. Xüsusilə Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəməri və Bakı–Tbilisi–Qars dəmir yolu layihələrini hər kəs, bütün dünya çox təqdirlə izləməkdədir. Bu layihələr vaxtilə reallaşması çətin, hətta bəzilərinin əfsanə adlandırdığı layihələrdir. Bunların ilk ikisi həyata keçirilmiş, üçüncüsü – dəmir yolu layihəsi də tamamlanmaq üzrədir. Bu gün nəqliyyat nazirləri də görüşdə iştirak etdilər və təqdimatlarında bizə ətraflı məlumat verdilər. Hətta tikinti ilə bağlı videoçarxlar da nümayiş etdirdilər. Biz böyük məmnunluqla gördük ki, minlərlə metr uzunluğunda – 4-5 kilometrlik tunellər, böyük körpülər, bütün bunlar həyata keçirilmiş və işlərin böyük hissəsi başa çatmışdır. İnşallah, qalan işlər də qısa zamanda bitəcəkdir.

Təbii ki, TANAP da ayrı bir enerji layihəsi kimi, regionun əhəmiyyətini ortaya çıxarmaqdadır. Bu əlaqələndirmə bir çox praktiki faydalar da ortaya qoymaqdadır. Buna sadə bir misal çəkmək istəyirəm: qatarlarımız, relslər bir-birinə çox da uyğun gəlmirdi. Görülən bu işlər və əlaqələndirmə nəticəsində artıq bütün qatarlar Türkiyədən Gürcüstana, oradan Azərbaycana, Azərbaycandan Gürcüstana və Türkiyəyə heç bir problem olmadan hərəkət edə biləcəkdir. Bizim istəyimiz bütün bu layihələrlə regionda rifahı və iqtisadi inkişafı artırmaqdır.

Təbii ki, Sammitdə regional və beynəlxalq məsələlər də müzakirə edilmişdir. Sülh və sabitliyin qorunmasını əsas tutan və ortaq ümumbəşəri dəyərlərə söykənən fikirlərimiz də üst-üstə düşməkdədir. Gürcüstanın və Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə olan güclü dəstəyimizi bir daha vurğuladıq.

Bölgəmizdəki münaqişələrin ərazi bütövlüyü prinsipləri əsasında sülh yolu ilə həll olunmasının əhəmiyyətini bir daha qeyd etdik. Görüşümüzdə Ukraynadakı böhranı da müzakirə etdik. Bu böhranın bölgəmizdəki təhlükəsizliyə və sabitliyə təsiretmə məsələsində həmfikirik. Böhranın Ukraynanın ərazi bütövlüyü və beynəlxalq hüquq çərçivəsində siyasi həlli yolunun tapılması zəruridir. Ukraynada konstitusiya islahatı ölkənin şərqi ilə qərbini – bütün cəmiyyəti əhatə etməlidir. Türkiyə olaraq Krım-tatar türklərinin də vəziyyətini diqqətlə izlədiyimizi burada ifadə etmək istəyirəm.

Sammitin istər ölkələrimiz, istərsə də regionumuz üçün xeyirli olmasını arzu edirəm. Bu səmimi əməkdaşlığın bir çox ölkələr üçün nümunə olacağına inanıram.

Sammitə gözəl ev sahibliyi edən Gürcüstan tərəfinə, xüsusilə də dəyərli dostumuz, hörmətli dövlət başçısına bu ilk toplantını təşkil etdiyi üçün bir daha dərin təşəkkürümü bildirirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab prezident Marqvelaşvili!

Hörmətli cənab prezident Gül!

Hörmətli mətbuat nümayəndələri, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətimizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Qardaş Gürcüstan torpağında yenidən olmağımdan çox məmnunam. Əminəm ki, bugünkü zirvə görüşü üçtərəfli əməkdaşlığımızın gələcək inkişafı üçün çox mühüm olacaqdır. Azərbaycanı Gürcüstan və Türkiyə ilə tarix bağlayır, tarixi əlaqələr, mədəniyyət, xalqlarımız arasındakı dostluq, qardaşlıq bağlayır. Bizim ikitərəfli münasibətlərimiz də bu möhkəm zəmin üzərində qurulmuşdur. Artıq sınaqdan da keçmişdir. Həm Gürcüstan, həm Türkiyə ilə Azərbaycanın çox yaxın dostluq, qardaşlıq üzərində qurulmuş münasibətləri vardır.

Mən çox şadam ki, artıq üçtərəfli format da öz əhəmiyyətini göstərir. Əvvəlki dövrlərdə də üçtərəfli görüşlər keçirilmişdir.

Çünki təbii ki, beynəlxalq layihələrin icrası ilə əlaqədar zirvə görüşləri olmuşdur. Bugünkü zirvə görüşü həm əvvəlki illərdə görülən işlərə bir təhlil aparmaq üçün də əhəmiyyətli idi, eyni zamanda və ən önəmlisi hesab edirəm ki, gələcək əməkdaşlıq haqqında bu gün çox geniş və səmimi fikir mübadiləsi aparılmışdır.

Bu gün nazirlər müxtəlif layihələri bizə təqdim etdilər. Biz görüləcək işlər haqqında bir daha fikir mübadiləsi apardıq. Ancaq mən hesab edirəm, bu zirvə görüşünün əsas nəticəsi ondan ibarətdir ki, bu gün Gürcüstan, Türkiyə və Azərbaycan üçtərəfli formatı və bizim dostluq, tərəfdaşlıq münasibətlərimizi bir daha təsdiqlədi. Bu çox önəmlidir. Çünki bizi birləşdirən layihələr həm ölkələrimiz, xalqlarımız, qonşularımız və həm də qitə üçün əhəmiyyətlidir.

Vaxtilə uğurla icra edilmiş neft-qaz, nəqliyyat layihələri, investisiyalarla bağlı olan layihələr ölkələrimizi daha da sıx birləşdirir. Deyə bilərəm ki, hazırda bu üçtərəfli format nəinki regionda, dünya miqyasında böyük maraq doğurur. Bu əslində nadir bir formatdır. Çünki burada 3 müstəqil dövlət bərabərhüquqlu münasibətləri – qarşılıqlı maraq və bir-birinə hörmət əsasında müasir, mədəni, xalqlarımızın maraqlarına cavab verən münasibətləri qurmuşdur. Hesab edirəm ki, bu təcrübə başqa ölkələr üçün də cəlbedici ola bilər. Bizim münasibətlərimiz əməkdaşlıq üzərində qurulub. Ən önəmli məsələ bundan ibarətdir. Bu əməkdaşlıq nəticəsində hər bir ölkə böyük fayda, xeyir götürür. Bizim birgə layihələrimiz 3 ölkənin maraqlarına xidmət göstərir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars layihələri artıq regional çərçivədən çıxıb, beynəlxalq əhəmiyyət daşıyan layihələrdir. Xüsusilə enerji təhlükəsizliyi ilə bağlı məsələlər bu gün dünya miqyasında ən önəmli məsələlər kimi tanınır. Dünya gündəliyinin, demək olar ki, birinci yerindədir. 3 ölkə öz enerji təhlükəsizliyini tam şəkildə təmin edibdir. Bu, əməkdaşlığımızın gözəl nəticəsidir. Gələcəkdə bizim 3 ölkəmiz Avropanın enerji təhlükəsizliyini təmin edəcəkdir.

Bu gün burada aparılan danışıqlar və müzakirələr dünya və Avropa üçün böyük əhəmiyyət daşıyır. Keçən ilin sonunda Bakıda «Şahdəniz-2» layihəsinə start verdik. «Şahdəniz-2», Trans–Anadolu və Trans–Adriatik qaz kəmərlərinin inşası Avropanın bir nömrəli, ən böyük infrastruktur layihələridir. Bu layihələrə qoyulacaq vəsaitin həcmi ən azı 45 milyard dollar səviyyəsində olacaqdır. Bu vəsaiti biz qoyacağıq ki, öz maraqlarımızı təmin edək və Avropanın enerji təhlükəsizliyinə də öz töhfəmizi verək. Bu layihələrin icrası nəticəsində 10 minlərlə yeni iş yeri açılacaq, biznes imkanları yaranacaqdır.

Bu gün bu barədə fikir mübadiləsi apardıq ki, bizim biznes strukturlarımız da bu layihələrdə fəal iştirak etsin və buna hazır olsunlar. İnvestisiya imkanlarımız daha da genişlənəcəkdir. Yəni bizim ölkələr xarici sərmayə qoyuluşu üçün daha da böyük məna daşıyacaqdır. Bu da hər bir ölkənin marağındadır. Hətta inkişaf etmiş ölkələr xaricdən investisiyaları cəlb etmək istəyirlər. Azərbaycan öz növbəsində, ən böyük investisiyaları Türkiyə və Gürcüstana yatırır. Bu da bizim birliyimizin təzahürüdür.

Bizim bütün təşəbbüslərimizin təməlində xalqlarımızın iradəsi və güclü siyasi iradə dayanır. Budur əsas şərt. Münasibətləri bu təməl üzərində qururuq. Bu münasibətləri konkret layihələrlə zənginləşdiririk. Bu gün burada – Tbilisidə sərgilənən birlik dünya miqyasında nadir xarakter daşıyır. Mən bu dostluğa, əməkdaşlığa görə həmkarlarıma minnətdarlığımı bildirmək istəyirəm. Biz bu gün fikir mübadiləsi əsnasında qərara gəldik ki, belə zirvə görüşləri müntəzəm keçirilsin. Əgər etiraz olmasa, növbəti zirvə görüşü Azərbaycanda keçirilsin. Biz bu xoşniyyətli əməkdaşlığı bundan sonra da uğurla davam etdirək.

Sağ olun.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Tbilisi*

*6 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Tbilisidə Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə görüşmüşdür.*

*Görüşdə 2 ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimiz arasında həyata keçirilən qlobal layihələrin böyük önəm daşıdığı qeyd edildi. Tbilisi Sammitinin ölkələrimiz və xalqlarımız arasında münasibətlərin daha da genişlənməsinə xidmət etdiyi diqqətə çatdırıldı, ikitərəfli əlaqələrimizin regional əməkdaşlıq baxımından əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran, eləcə də regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*Tbilisi*

*6 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Tbilisidə Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvili ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, münasibətlərimizin regional əməkdaşlıq baxımından əhəmiyyəti qeyd olundu. Ölkələrimizin birgə səyləri ilə həyata keçirilən irimiqyaslı layihələrin bölgə və dünya üçün önəmi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Tbilisidə keçirilən üçtərəfli Sammitinin əhəmiyyəti qeyd edildi, ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyindən əminlik ifadə olundu.*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*Tbilisi*

*6 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri mayın 6-da başa çatmışdır.*

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqlarının dalğalandığı Tbilisi Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Gürcüstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN BAKI ŞƏHƏR 4 SAYLI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*7 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakı şəhər 4 saylı «ASAN xidmət» Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan «ASAN xidmət» mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir.*

*2012-ci il dekabrın 29-da pilot layihə olaraq Bakıda 1 saylı «ASAN xidmət» Mərkəzi fəaliyyətə başladı. 2013-cü ilin*

*mayında Sumqayıtda «ASAN xidmət» sakinlərin istifadəsinə verildi. Daha sonra 2 və 3 saylı Bakı «ASAN xidmət» mərkəzləri, o cümlədən Gəncədə «ASAN xidmət» Mərkəzi açıldı. Hər 5 mərkəzə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edirdi. Əgər əvvəllər «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 30 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzlərdə 28 növ funksional yardımçı xidmətlər təşkil edilib. Bütün bunlar dövlət qulluqçusu – vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.*

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu ilin fevralında Avropa Parlamentində «İnnovasiya və Mobil İmza–Avropa ilə yeni rəqəmsal inteqrasiya vasitəsi kimi» mövzusunda keçirilən konfransda «ASAN xidmət»in fəaliyyəti ilə bağlı təqdimat oldu. Bu faktın özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan «ASAN xidmət»ə dünyada böyük maraq vardır və o öz ətrafında kifayət qədər diqqət toplaya bilib. Təsadüfi deyildir ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək, «ASAN xidmət»lərin fəaliyyəti ilə yaxından tanış olurlar.*

*Artıq Sabunçu rayonunun Bakıxanov qəsəbəsində, Sülh küçəsi 8a ünvanında yerləşən Bakı şəhər 4 saylı «ASAN xidmət» Mərkəzi də fəaliyyətə başlayır. Bu mərkəz Sabunçu, Xəzər və Pirallahı rayonlarının ərazisində qeydiyyatda olan 408 min vətəndaşa xidmət göstərəcəkdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, beşmərtəbəli binanın tikintisi ən yüksək standartlara uyğun həyata keçirilib.*

*Mərkəzdə müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoguşə yaradılıb.*

*Bildirildi ki, «ASAN xidmət» mərkəzlərində yaşayış yerindən asılı olmayaraq, Bakı şəhərində qeydiyyatda olan bütün vətən-*

*daşlara xidmət göstərilməsi nəzərdə* tutulur. *Mərkəzdə ilk dəfə* olaraq *YUNİCEF ilə birgə Uşaq Hüquq Mərkəzi yaradılıb.* Burada *təşkilatla birlikdə tədbirlərin və uşaq hüquqları sahəsində maarifləndirmə kurslarının keçirilməsi nəzərdə* tutulub.

*Mərkəzdə, həmçinin Heydər Əliyev* Fondunun vitse-prezidenti Leyla *Əliyevanın təşəbbüsü ilə yaradılan* IDEA (*Ətraf mühitin mühafizəsi naminə beynəlxalq* dialoq) *İctimai* Birliyinin stendi *də qurulub.*

*«ASAN xidmət» Mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi,* korrupsiya *hallarının* tam aradan *qaldırılması, müasir texnologiyaların, «bir qapı»* prinsipinin *tətbiq olunması, dövlət qulluqçusu–vətəndaş münasibətlərində* yeni *düşüncə tərzinin – «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasıdır. «ASAN xidmət» Mərkəzinin əsas prinsipləri* operativlik, *şəffaflıq, nəzakətlilik, məsuliyyət,* etik *davranış* qaydalarına *nəzarət və rahatlıqdır.* Bununla *yanaşı, Vətəndaşlara Xidmət və* Sosial *İnnovasiyalar üzrə Dövlət* Agentliyi *və* onun *tabeliyində* olan *«ASAN xidmət» Mərkəzləri öz fəaliyyətini yüksək* standartlara *uyğun* quran *və inkişaf etdirən dövlət orqanı qismində* «vahid *məkan» prinsipinə əsaslanan qurumlardandır.*

*Mərkəzin fəaliyyətini əks etdirən* elektron *guşələrə* baxan *prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, artıq «ASAN xidmət» təcrübəsinin özünəməxsus hüquqi* strukturu *bir çox beynəlxalq tərəfdaşlar və* ekspertlər *tərəfindən yüksək qiymətləndirilir və* bu *təcrübə Azərbaycan* modeli *kimi, xüsusi təqdim* olunur. *Odur ki, «ASAN xidmət»in təkcə Azərbaycanda deyil,* uğurlu model olaraq *digər ölkələrdə də tətbiqi təşviq edilməkdədir. Bu istiqamət müxtəlif beynəlxalq tərəfdaşlarla, o cümlədən* Avropa *İttifaqı ilə aparılan əməkdaşlığın əsas prinsiplərindən birini təşkil* edir. *Geniş marağın nəticəsidir ki, «ASAN xidmət» İSO 9001:2008 standartı üzrə keyfiyyətin idarə olunması ilə bağlı beynəlxalq dərəcəli* sertifikata *layiq görülüb.*

Dövlətimizin başçısı Masallı, Bərdə və Sabirabad rayonlarında inşa olunan «ASAN xidmət» mərkəzlərinin maketlərinə baxdı. Qeyd edildi ki, bu mərkəzlərdə ən yüksək standartlar tətbiq olunacaqdır. Bildirildi ki, «ASAN xidmət»in Azərbaycan dilində çap olunan jurnalının hazırda ingilisdilli versiyası üzərində iş gedir.

Azərbaycan Prezidentinə «ASAN-2» konsepsiyası barədə də məlumat verildi. Bildirildi ki, dövlət xidmətlərinin göstərilməsi zamanı «ASAN-2» konsepsiyasının tətbiqi ilə yeni mərhələyə başlanılacaqdır. Xidmətlər elektronlaşdırılacaq və daha əlçatan olacaqdır. Məmur və vətəndaş arasında təmas və dialoqun minimallaşdırılması məqsədilə «ASAN xidmət» mərkəzlərindəki özünəxidmət köşkləri mühüm rol oynayacaqdır. Bunun üçün köşklər biometrik məlumatların götürülməsi, nağd və plastik kartlar vasitəsilə ödənişlərin aparılması imkanı ilə təmin ediləcəkdir. Bu konsepsiyada daha bir yenilik «ASAN xidmət» binalarının müasir texnologiyaların tətbiqi sayəsində özünü enerji ilə təmin edən funksiyalara malik olmasıdır. Quraşdırılan günəş panelləri binanı elektrik enerjisi ilə təmin edəcəkdir.

Sonra prezident İlham Əliyev İnnovasiyalar otağında gələcəkdə tətbiq ediləcək innovativ avadanlıqla tanış oldu. Bu il fevralın 11-də dövlətimizin başçısının imzaladığı fərmana əsasən «ASAN ödəniş» sisteminin hazırlanması üzrə planlı işlər görülüb. «ASAN ödəniş» sistemi vətəndaş ilə dövlət orqanı əməkdaşı arasında birbaşa təması istisna edir, şəffaflığı və operativliyi təmin edir, korrupsiya və digər mənfi halların qarşısını alır. İlkin olaraq «ASAN ödəniş» portalı yaradılıb. Bu, vətəndaşların inzibati cərimələri və məhkəmə qərarlarının icrası ilə əlaqədar vəsaitlərin elektron qaydada ödənilməsini təmin edən çoxfunksiyalı ödəniş portalıdır. Bundan başqa, «ASAN ödəniş» terminalının ilkin nümunəsi də artıq hazırdır. Bu terminal vasitəsilə vətəndaşların həm nağd, həm də nağdsız ödəmə etmək imkanı olacaqdır. Sentyabrda istehsalına başlanacaq terminal Azərbaycan məhsuludur və çoxfunksiyalı olması baxımından alternativi

yoxdur. Onun əsas özəlliklərindən biri ödənişin qalıq məbləğini həm əskinaz, həm də qəpik olaraq qaytarmaq imkanıdır.

Dövlətimizin başçısına «ASAN Mobil Proqramı»nın tətbiqi barədə də məlumat verildi. Diqqətə çatdırıldı ki, vətəndaşların rahatlığı məqsədi ilə «ASAN xidmət» mobil proqram təminatı yaradılıb. İnsanlar mobil telefon vasitəsilə müvafiq xidmətlə bağlı ərizələri elektron formada doldura bilərlər. Həmçinin daha öncə doldurulmuş ərizələri yenidən çap etmək imkanı da vardır.

Prezident İlham Əliyev Azərbaycan vətəndaşının biometrik «Miqrasiya kartı» ilə də tanış oldu. Bildirildi ki, şəxsi və biometrik məlumatların qeydiyyatı üçün mobil stansiya və kartın çap olunması üçün avadanlıq ən son texnologiyalara uyğun hazırlanıb. Layihənin məqsədi Azərbaycandan emiqrantların qeydiyyatı və nəzarəti prosesinin sistemləşdirilməsidir.

«HELP POİNT» avadanlığı da geniş funksiyalara malikdir. Vətəndaşların və ölkəmizə gələn qonaqların məlumat əldə etmələri üçün hazırlanan «HELP POİNT»də istirahət zonaları, gəzməli yerlər, restoranlar, dövlət qurumları, «ASAN xidmət» mərkəzləri haqqında informasiyalar və digər zəruri məlumatlar toplanılıb. Bundan əlavə, ASAN könüllüləri üzrə məlumat bazası da yaradılıb. Bu bazada 1500 nəfər könüllü haqqında müxtəlif məlumat saxlanılır. Ölkəmizdə keçiriləcək bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən 2015-ci ildə təşkil ediləcək ilk Avropa oyunlarında bu könüllülərin bacarıqlarından və xidmətlərindən geniş istifadə olunması nəzərdə tutulur.

Daha sonra dövlətimizin başçısına GPS Elektron Nəzarət Sisteminin layihəsi barədə məlumat verildi. Bu sistem məhkumlar üzərində nəzarət tədbirlərinin asanlaşdırılmasına xidmət edir.

Prezident İlham Əliyevə gələcəkdə tətbiqi nəzərdə tutulan «co-working», «carsharing», «Asan müraciət-konseptual layihə», «ASAN Mobil hökumət – Azərbaycan həlli» və digər yeniliklər barədə də ətraflı məlumat verildi.

Dövlətimizin başçısı mərkəzin digər mərtəbələrində də yaradılan şəraitlə tanış oldu. Digər mərkəzlərdə olduğu kimi, bu mərkəz də internetə açıq olan kompüterlərlə təchiz edilib və

*vətəndaşların burada bütün növ elektron xidmətlərdən yararlanmaları üçün şərait yaradılıb.*

*Bildirildi ki, «ASAN xidmət» Mərkəzində vətəndaşların gözləmələri və vaxtlarını səmərəli keçirmələri üçün funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Buradakı xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin haqlarının, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olacaqdır. Bu mərkəzdə də xidmət proseduru fasiləsiz videokamera vasitəsilə qeydiyyata alınır. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilir. Xidmətlərin tənzimlənməsi məqsədilə elektron monitor və elektron elan tabloları qurulub. Mərkəzdə videomüşahidə kameraları və rüsumların məbləğlərini əks etdirən rüsum tablosu quraşdırılıb.*

*Qeyd olundu ki, mərkəzin işçilərinin ümumi sayı 209 nəfərdir. Onlardan 60 nəfəri könüllüdür.*

*«ASAN xidmət» yaradıcılığa dəstəklə bağlı müxtəlif sosial aksiyalar keçirməsi ilə də tanınır. Mərkəzdə «YARAT» Müasir İncəsənət məkanının guşələri də qurulub.*

*Binada «ASAN parkinq» avtomobil dayanacağı yaradılıb. «ASAN xidmət»in bu mərkəzində də digərlərində olduğu kimi, uşaqlar üçün ayrıca oyun guşəsi qurulub.*

*4 saylı «ASAN xidmət» Mərkəzinin həyatində «Uşaq avtoşəhərciyi» vardır.*

*Prezident İlham Əliyev şəhərciyə baxdı.*

*Bildirildi ki, avtoşəhərcikdə uşaqların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün hər bir şərait yaradılıb. Burada balacalar üçün mütəmadi kurslar təşkil olunacaqdır.*

*Dövlət başçısı mərkəzin əməkdaşları ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** «ASAN xidmət»in yeni mərkəzi açılır. Çox gözəl hadisədir. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox şadam ki, «ASAN xidmət» mərkəzlərində bizim

gənclərimiz çalışırlar, işləyirlər – həm könüllülər, həm burada xidmət göstərən vətəndaşlar. Bu yenilikdir, müasirlikdir, inkişafdır.

Sabunçu rayonundakı «ASAN xidmət»in fəaliyyətə başlaması, demək olar ki, Bakı şəhərində artıq bu məsələni tamamilə həll etmiş olur. Artıq Gəncə, Sumqayıt şəhərlərində də «ASAN xidmət» mərkəzləri vardır. Bu gün mənə göstərilən layihələr də çox gözəl layihələrdir. Sabirabadda, Masallıda, Bərdədə, gələcəkdə isə hər bir yerdə «ASAN xidmət»lər olacaqdır. Çünki Azərbaycan vətəndaşları müasir xidmətlər almalıdırlar.

«ASAN xidmət» Azərbaycan məhsuludur, Azərbaycan brendidir. Qısa müddət ərzində bu mərkəzlərə 1 milyon 500 min müraciət olunub. Bu özlüyündə bir göstəricidir. Müraciət edənlərin 97 faizi «ASAN xidmət»in fəaliyyətindən razıdır. «ASAN»ın birinci ilinin tamam olmasını nəzərə alsaq, inanıram ki, gələcəkdə bu rəqəm 100 faizə çatacaqdır. Azərbaycan vətəndaşları belə xidmətlərə layiqdirlər. Əminəm ki, bu təşəbbüs nəinki Azərbaycanda, başqa ölkələrdə də tətbiq ediləcəkdir.

Azərbaycan vətəndaşlarına xidmət, qayğı, diqqət ən yüksək səviyyədə olmalıdır. Mən bunu dəfələrlə demişəm ki, hər bir dövlət məmuru öz xalqına ləyaqətlə, şərəflə xidmət etməlidir. «ASAN xidmət»in yaradılması, bax, bu siyasətin nəticəsidir, onun əlamətidir.

Burada göstərilən xidmət, şəffaflıq, mədəniyyət ölkəmizin hər bir yerində özünü göstərməlidir. Biz ölkəmizi müasirləşdiririk, ölkəmiz uğurla inkişaf edir. Hər bir sahədə gözəl nəticələr vardır və olacaqdır.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Əminəm ki, bu «ASAN xidmət»də işləmək sizin üçün də xoşdur. İnsanlara xidmət göstərmək hər bir dövlət məmuru üçün əsas prinsip olmalıdır. Sizi ürəkdən təbrik edirəm, uğurlar arzulayıram.

## HONDURAS RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ MİREYA AQUERO DE KORRALESİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Honduras Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri xanım Mireya Aquero de Korralesin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Honduras Respublikası arasında qısa vaxt ərzində yaxşı tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Honduras Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə xanım Mireya Aquero de Korralesin Azərbaycanın «Dostluq» ordeni ilə təltif edildiyini dedi və ordeni qonağa təqdim etdi.*

*Nazir xanım Mireya Aquero de Korrales Honduras Respublikasının Prezidenti Xuan Orlando Ernandes Alvaradonun salamlarını və prezident İlham Əliyevi Hondurasa səfərə dəvətini dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanın yüksək mükafatlarından olan «Dostluq» ordeninə layiq görüldüyünə görə minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı Honduras Respublikasının Prezidenti Xuan Orlando Ernandes Alvaradonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Honduras dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI PREZİDENTİ YANINDA UŞAQ HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL PAVEL ASTAXOV İLƏ GÖRÜŞ

*8 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Rusiya Federasiyası Prezidenti yanında uşaq hüquqları üzrə müvəkkil Pavel Astaxovu qəbul etmişdir.*

*Uşaq hüquqları üzrə müvəkkil Pavel Astaxov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən humanitar, mədəniyyət və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## 9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*9 may 2014-cü il*

*İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 69-cu ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Müharibə veteranları ilə görüşən prezident İlham Əliyev onları Qələbə bayramı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.*

*Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.*

*Azərbaycan faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər.*

*Partizan hərəkatında iştirak edən soydaşlarımız da saysız-hesabsız qəhrəmanlıq nümunələri göstəriblər. İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının*

qəhrəmanlıq və şücaəti heç vaxt yaddaşlardan silinmir, gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərib. İkinci dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941–1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında cövlan edən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynayıb.

Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər etmişdi.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib və onlara hərtərəfli qayğı ilə yanaşıbdır. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda Qələbə Günü qeyd olunur. Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən prezident İlham Əliyev İkinci dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. Qələbə bayramı ərəfəsində 1941–1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi, 1941–1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyadan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması, 1941–1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara

*bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi barədə prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti bariz nümunəsidir.*

*İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyan prezident, Ali Baş Komandan İlham Əliyev İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin, xalqımızın igid oğul və qızlarının, tarixi Qələbənin qazanılmasında payı olan milyonlarla insanın əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Dövlətimizin başçısı İkinci dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.*

*Azərbaycan Prezidenti 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə görüşdü, onları Qələbə bayramı münasibətilə təbrik etdi.*

*Prezident İlham Əliyev veteranları bir daha Qələbə bayramı münasibətilə təbrik etdi, ən xoş arzularını bildirdi.*

*Veteranlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq edərək dedilər: «Allah Sizi qorusun. Ölkəmizdə bolluqdur, əmin-amanlıqdır. Siz respublikamızı Heydər Əliyev yolu ilə aparırsınız».*

**İlham Əliyev:** Sağ olun. Əlbəttə, belə də olmalıdır. Sizə bir daha cansağlığı, uzun ömür arzulayıram. Bu, böyük bayramdır. Sizi bayram münasibətilə ürəkdən təbrik edirəm. Veteranlara böyük diqqət, qayğı göstərilir. Siz qəhrəmanlıq göstərmisiniz.

**Veteranlar:** Çox sağ olun. Hamımız Sizə dua edirik. Dalbadal 3 sərəncam imzaladınız. Heç bir respublikada veteranlara belə diqqət və qayğı göstərilmir. Bunu hamı yaxşı bilir. Səhər də, axşam da Sizə dua edirik. Allah Sizə cansağlığı versin. Dünyada bizim prezidentimizdən yoxdur. Mehriban xanıma salamlarımızı çatdırın.

**İlham Əliyev:** Sağ olun. Çatdıraram.

* * *

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2014-cü il*

*Mayın 10-u müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər 11-ci ildir bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

*Hər il ümummilli liderimizin ad günü ərəfəsində olduğu kimi, bu il də mayın 10-da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.*

*Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin ruhu qarşısında baş əydi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Prezident İlham Əliyevin xanımı Mehriban Əliyeva və ailə üzvləri ümummilli liderin abidəsi önünə gül dəstələri qoydular.*

*Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət etdilər və önünə gül dəstələri qoydular.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 91-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ PAYTAXTDA TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2014-cü il*

*Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Heydər Əliyev sarayının qarşısındakı parkda və sarayın arxasındakı Şəhər Mərkəzi Parkında Gül bayramı keçirilmişdir.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında iştirak etmişlər.*

*Heydər Əliyev sarayının qarşısındakı park və sarayın arxasında yerləşən Şəhər Mərkəzi Parkı öz görkəmini tam dəyişmiş, paytaxt sakinləri və qonaqların sevimli istirahət yeri olan bu ərazi bu gün möcüzəli gül bağına çevrilmişdi. Hər il məhz Heydər Əliyev sarayının qarşısındakı parkda təşkil olunan gül bayramı bu il də ənənəvi təntənəsini yaşadı və öz ərazisini daha da genişləndirdi.*

*Mayın 10-da Gül bayramına Heydər Əliyev sarayının arxasında yerləşən Şəhər Mərkəzi Parkı da qoşuldu, ərazi güllərdən ibarət olan maraqlı kompozisiyalarla bəzədildi. Paytaxt sakinlərinin, şəhərimizin qonaqlarının sevimli bayramlarından olan Gül bayramı ənənə üzrə ən sevimli istirahət məkanlarından birində baş tutur. Parkda müxtəlif çiçəklərdən gül xalıları, maraqlı kompozisiyalar yığılıb. Bakı Şəhər İcra Hakimiyyətinin təşkil etdiyi bu bayramda çiçək və bitkilərdən, yarpaqlardan hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır.*

*Burada diqqəti parkın mərkəzində müstəqil dövlətimizin qurucusu, xalqımızın* dahi *oğlu, anadan olmasının* 91-ci *ildönümünü* qeyd etdiyimiz *ulu öndər Heydər Əliyevin* ucalan *əzəmətli abidəsi cəlb* edir. *Abidənin* postamenti *güllərlə bəzədilib. Xalqımızın ümummilli* liderinin *abidəsinin* ucaldığı *parkda Gül bayramının təşkil olunması* dahi *Heydər Əliyevin xatirəsinə* ehtiram *əlaməti* olmaqla *yanaşı, həm də* paytaxt *sakinlərinin xoş istirahətinin təşkili baxımından* da *gözəl addımdır.*

*Parkda rəngbərəng güllərdən hörülən, yazın gəlişinə həsr* olunan kompozisiyalar *nümayiş* etdirilir. *Gül bayramında hər yan göz oxşayır, hər tərəf* al-*əlvan rəngə bürünüb. Rənglər* o *qədər əlvandır ki, istər-istəməz* insanda *xoş* ovqat *yaradır. Fəvvarələr də güllərlə əhatə* olunub. *Minlərlə çiçəyin, gülün bir* arada toplandığı *bu məkanda heç nə* bir-birini *təkrarlamır. Elə* buraya *toplaşan uşaqlar* da *güllər kimi* saf *və ətirlidir. Onların gülləri xatırladan müxtəlif* libaslarda bayrama *təşrif* buyurması *bu gözəl gündə insanların ovqatını* daha da *artırır.*

*Əzəmətli* kompozisiyalardan *biri də Heydər Əliyev sarayı qarşısında* qurulub. *Bu kompozisiyanı ulu öndərin portreti bəzəyir.*

*Dövlətimizin başçısı, xanımı və ailə üzvləri* parka toplaşan *uşaqlarla səmimi söhbət etdilər, xatirə şəkli çəkdirdilər.*

*Bu il Gül bayramının* daha bir maraqlı *məqamı* ondan *ibarət* oldu *ki, yüzlərlə uşaq bu ərazidə yürüş etdilər.*

*Prezident İlham Əliyev Bakının müxtəlif ərazilərində yaradılacaq müvəqqəti* avtomobil *duracaqlarının* sxemi *ilə tanış* oldu. Bildirildi ki, *Dövlət Yol* Polisi *və Bakı Şəhər İcra Hakimiyyətinin Xüsusi Təyinatlı Avtonəqliyyat İdarəsinin birgə işi nəticəsində müəyyən olunmuş küçələrin sağ və* sol *hissələrində avtomobillər üçün bircərgəli* dayanacaqlar *yaradılacaqdır. Ödəniş etmək üçün* dayanacaqlarda *xüsusi* bankomatlar *quraşdırılacaqdır.* Bu sistem *şəhərdə tıxacların qarşısının alınmasına xidmət edəcəkdir.*

*Ümummilli lider Heydər Əliyevin xatirəsinin bahar çiçəkləri ilə anılması, əlbəttə ki, ulu öndərə xalqımızın dərin hörmət və ehtiramını nümayiş etdirir. Parkda müxtəlif dibçək və kəsilmə güllərindən, qurudulmuş gül və bitki kollarından, göz oxşayan eksponatlardan ibarət sadə və eyni zamanda, orijinal üslublu kompozisiyalar qurulub. Hər tərəf baharın xoş ovqatına bürünüb.*

*Artıq Bakıda ənənə halı alan Gül bayramı dünyanın ən nadir gözəlliklərini bir arada toplamaqla, ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, ümummilli liderin doğum gününün bu cür möhtəşəm formada qeyd olunması ilə yadda qalır, özü də ən xoş hisslərlə.*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 91-ci İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*10 may 2014-cü il*

*Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 10 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etmişlər.*

*Əvvəlcə Heydər Əliyev Fondunun 10 illik fəaliyyətinə həsr olunmuş film nümayiş etdirildi.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün biz ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünü qeyd edirik. Keçən il biz ulu öndərin adını daşıyan bu möhtəşəm Mərkəzdə Heydər Əliyevin 90 illik yubileyini qeyd etmişdik. 2012-ci il mayın 10-da isə biz bu Mərkəzin açılışını qeyd etmişdik. Bu il ulu öndərin adını daşıyan Fondun 10 illiyidir. Bir qədər bundan əvvəl Fondun fəaliyyətinə həsr edilmiş film göstərildi. Filmdə Fondun çoxşaxəli fəaliyyəti haqqında qısa bir məlumat verildi. Çünki Fondun 10 il ərzində gördüyü işlər o qədər böyükdür ki, əlbəttə, bir filmdə o işlərin hamısını göstərmək mümkün deyildir.

Fonda 10 il ərzində Mehriban Əliyeva rəhbərlik edir. Onun rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilibdir.

Mehriban xanımın rəhbərliyi ilə bir neçə istiqamət üzrə konkret proqramlar icra edilib. Bir çox hallarda Fondun təşəbbüsləri bir qədər sonra həm ictimai təşkilatlar, eyni zamanda, dövlət qurumları tərəfindən dəstəklənib və bir növ Dövlət Proqramına çevrilibdir. Xüsusilə Fondun təşəbbüsü ilə başlanmış «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi bu gün geniş vüsət alıb və dövlət bu proqrama qoşularaq son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikdirə bilib. «Xocalıya ədalət!» kampaniyası da məhz Fondun təşəbbüsü ilə başlanmışdır. Ondan sonra dövlət qurumları, ictimai qurumlar bu təşəbbüsə qoşulmuşlar və nəticə etibarilə qısa müddət ərzində 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi qəbul etmişdir.

Səhiyyə ilə bağlı təşəbbüslər geniş vüsət alıbdır. Azərbaycan mədəniyyətinin, mədəni irsimizin qorunması, dünyada təbliği işində Fond əvəzsiz rol oynayıb. Bizim milli sərvətimiz olan muğam sənəti YUNESKO-nun dünya qeyri maddi-mədəni irs siyahısına daxil edilmişdir. Əlbəttə ki, bütün bunlar filmdə öz əksini tapıbdır. Sadəcə olaraq, mən bu gün Fondun fəaliyyətinə öz münasibətimi bildirmək istəyirəm. Deyə bilərəm ki, bu, 10 il ərzində bu məsələ ilə bağlı mənim ilk çıxışımdır. Ona görə Azərbaycan dövləti adından Fonda, Fondun bütün işçilərinə minnətdarlığımı bildirmək istəyirəm. Onu da qeyd etmək istəyirəm ki, Fondun işçilərinin sayı o qədər də çox deyildir. Fondun işçilərinin tərkibi çox məhdud saydadır. Ancaq buna baxmayaraq peşəkardırlar, enerjilidirlər, biliklidirlər və işçilərin mütləq əksəriyyəti gənclərdir.

Bu gün Heydər Əliyev Fondu ulu öndərin adını şərəflə daşıyır, ulu öndərin xatirəsinə layiq fəaliyyət göstərir. Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycan dövlətinin qurucusudur, bizim xilaskarımızdır. Bir-biri ilə tamamilə ziddiyyət təşkil edən 2 dövlət quruluşunda Azərbaycana rəhbərlik etmişdir. 1969–1982-ci və 1993–2003-cü illər Azərbaycan tarixində Heydər Əliyevin rəhbərliyi ilə inkişaf illəri kimi qalacaqdır. İki tamamilə fərqli bir ictimai-siyasi mühitdə Azərbaycan ən yüksək zirvələrə qalxa bilmişdir.

Birinci mərhələdə Azərbaycan müstəqil deyildi, başqa ölkənin tərkibində idi. Eyni zamanda, sistem də tam başqa idi. Demokratik sistem deyildi.

İkinci dövr isə müstəqillik, demokratiyanın inkişafı və sürətli inkişaf dövrü idi. 1969-cu ildə Azərbaycan müttəfiq respublikalar arasında deyə bilərəm ki, ən axırıncı yerdə idi. Bunu statistik göstəricilər də təsdiq edir. Bu illəri xatırlayan insanlar da deyə bilərlər ki, o vaxt sovet məkanında Azərbaycan ən geridə qalmış bir respublika idi.

Heydər Əliyevin rəhbərliyi ilə aparılan böyük quruculuq işləri nəticəsində Azərbaycan 12 il ərzində SSRİ-də ən qabaqcıl yerlərə çıxa bilmişdi. Sovet İttifaqı dağılanda məlum olmuşdur ki, bu İttifaqda cəmi 2 respublika özünü tam şəkildə təmin edirdi və donor kimi fəaliyyət göstərirdi. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda o vaxta uyğun olaraq müasir sənaye kompleksi yaradılmışdı. Azərbaycan aqrar respublikadan sənaye respublikasına çevrilmişdi. Xüsusilə neft-qaz sənayesi üçün çox vacib olan məsələlər məhz o illərdə öz həllini tapmışdı. O layihələr bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Sənaye potensialının, kənd təsərrüfatının inkişafı o vaxt Azərbaycan üçün böyük imkanlar açmışdı. İnsanların rifah halı yaxşılaşmışdı. Bir daha demək istəyirəm ki, Azərbaycan o illərdə imkanlardan maksimum istifadə edib, öz inkişaf dövrünü yaşayıb.

Respublikamızın çox zəngin mədəni həyatı vardı. Bütün bunlar ulu öndərin şəxsiyyəti ilə bağlı olan məsələlər idi. Məhz o illərdə deyə bilərəm ki, sovet məkanında ilk dəfə olaraq korrupsiya və rüşvətxorluğa qarşı mübarizə başlamışdı və bu, sovet məkanında bir yenilik idi. Bu yeniliyin müəllifi Heydər Əliyev olmuşdur. 1982-ci ildə Moskva dövrü başlamışdır. O dövr də çox əhəmiyyətli idi. Çünki Heydər Əliyev böyük, super dövlətin rəhbərliyində təmsil olunurdu. Baş nazirin birinci müavini idi. Azərbaycana da, əlbəttə ki, öz qayğısını göstərirdi.

Ancaq Azərbaycanda artıq 1982-ci ildən başlayaraq işlər yavaş-yavaş tənəzzülə uğramağa başladı. İlk illərdə hələ inersiya gücü var idi. Ondan sonra isə durğunluq dövrü

başlandı. Təsadüfi deyil ki, Heydər Əliyev 1987-ci ildə bütün vəzifələrdən gedəndən sonra Azərbaycan çox böyük problemlərlə, fəlakətlərlə üzləşdi. O, siyasi hakimiyyətdən gedəndən sonra heç 2 həftə keçməmiş erməni separatçıları Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirməklə bağlı məsələ qaldırmışlar. Məhz Heydər Əliyevin siyasi hakimiyyətdə olmaması erməniləri ruhlandırırdı. Çünki Heydər Əliyev amili imkan vermirdi ki, onlar bu çirkin iddiaları irəli sürsünlər. Ondan sonra Azərbaycana qarşı elan olunmamış müharibə başlandı, Qanlı Yanvar faciəsi törədildi. O ağır, faciəvi anlarda yenə də Heydər Əliyev öz haqq səsini ucaltdı. Moskvada Azərbaycanın daimi nümayəndəliyində sovet hakimiyyətinin hərəkətlərini pislədi, Sovet İttifaqının başında duran şəxsi pislədi. Bütün dünyaya bu faciə haqqında öz sözlərini bəyan etdi. Bu, böyük cəsarət tələb edən bir addım idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa Sovet İttifaqı dağıla bilər.

Heydər Əliyev sadəcə olaraq, susa bilmirdi. O ağır anlarda öz xalqına mənəvi dəstək verdi. Ondan sonra təbii ki, totalitar maşın, totalitar dövlət ona qarşı hərəkətə keçdi. Onun həbs edilməsi ilə bağlı hazırlıq işləri aparılırdı. Moskvadan Bakıya gəlməyə məcbur olmuşdu. Burada da yaşamağa imkan vermədilər. Öz doğulduğu yerə – Naxçıvana üz tutdu. Beləliklə, onun həyatında Naxçıvan dövrü başladı. Bu dövr də həm Naxçıvan üçün, həm müstəqilliyimiz üçün həlledici dövrdür. Çünki Azərbaycanın dövlət müstəqilliyinin əsasları məhz Naxçıvanda qoyulmuş, məhz Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı elan edilmişdir. Sovet İttifaqının saxlanması ilə bağlı referendum Naxçıvanda keçirilməmişdi. Naxçıvanı blokadadan çıxarmaq üçün böyük səylər göstərildi. Erməni işğalçılara böyük zərbə vuruldu. Naxçıvan qorundu, Naxçıvanın ərazi bütövlüyü qorundu və saxlanıldı.

Təsadüfi deyil ki, Azərbaycanda vətəndaş müharibəsi başlayanda və torpaqlarımızın bir hissəsi işğal altına düşəndə

xalq öz ümidini Heydər Əliyevin adı ilə bağlamışdı. 1993-cü ildə qardaş qırğını başlamışdı. O vaxt antimilli, xəyanətkar AXC–Müsavat hakimiyyəti qardaş qanını axıtdı. Bir tərəfdən, torpaqlarımız işğal altına düşürdü, digər tərəfdən isə vətəndaş müharibəsi baş alıb gedirdi. Belə ağır vəziyyətdə xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanı böyük bəlalardan xilas etdi.

O dövrü təhlil edərkən daim bir məsələ diqqət çəkir: əgər Heydər Əliyev Azərbaycanda olsaydı, əgər müstəqilliyin lap əvvəlindən, Sovet İttifaqı dağılan zaman Azərbaycanda rəhbərlikdə olsaydı, heç vaxt Dağlıq Qarabağ və ətraf bölgələr işğal altına düşməzdi. Ancaq tarix tarixdir. 1993-cü ildə xalqın dəstəyi, etimadı və tələbi ilə Heydər Əliyev Azərbaycanın prezidenti seçildi. Bundan sonra ölkəmiz üçün yeni bir dövr başlandı – sabitlik, təhlükəsizlik və inkişaf dövrü. Köklü islahatlar başlanmışdır, dövlətçiliyin əsasları qurulmuşdur, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, cəmiyyətimizin ideoloji əsasları formalaşdırılmışdır, azərbaycançılıq məfkurəsi dövlət ideologiyası kimi qəbul edilmişdir, demokratik inkişaf, insan hüquqları ilə bağlı çox ciddi islahatlar başlanmışdır. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmuşdur, Azərbaycana qarşı aparılan təbliğat kampaniyasına tutarlı cavablar verilməyə başlanmışdır. Biz informasiya blokadasını yara bilmişdik. Məhz o illərdə xarici siyasətimizin əsas prinsipləri müəyyən edilmişdir və biz bu gün də bu prinsiplərə sadiqik.

Bir sözlə, ölkəmiz üçün ən ağır, faciəvi bir dövrdə Heydər Əliyevin şəxsi keyfiyyətləri, biliyi, cəsarəti, uzaqgörənliyi və xalqa olan məhəbbəti öz həlledici sözünü demişdir. Azərbaycan bu ağır sınaqdan şərəflə çıxa bilmişdir.

1993–2003-cü illərdə ölkəmizin hərtərəfli inkişafı ilə bağlı müxtəlif proqramlar qəbul edilmişdir, islahatlar aparılmışdır. Heydər Əliyev neft strategiyası müəyyən edilmişdir və bu gün hər bir Azərbaycan vətəndaşı öz gündəlik həyatında bu siyasətin

əlamətlərini görür. Çünki bizim uğurlu iqtisadi inkişafımızın təməli məhz o illərdə qoyulmuşdur.

Bu gün Azərbaycan inamla, uğurla inkişaf edir. Biz, Heydər Əliyevin davamçıları onun siyasi xəttinə sadiqik. Son 10 il ərzində Azərbaycan bu yolla gedir, Heydər Əliyevin siyasi vəsiyyətinə sadiqdir və ölkəmizin bugünkü reallıqları, bugünkü vəziyyəti bu yolun nə qədər düzgün olmasını əyani şəkildə sübut edir.

2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir. Mən isə söz vermişdim ki, bu siyasətə sadiq qalacağam. Bizim verdiyimiz bütün vədlər həyatda öz əksini tapmış və 2008-ci ildə yenidən Azərbaycan xalqı öz etimadını göstərmişdir. Ölkəmizin son 10 il ərzindəki dünya miqyasında iqtisadi sahədə analoqu olmayan inkişafı, əlbəttə ki, 2013-cü ildə xalqın seçiminə təsir göstərmişdir.

Bu gün isə yeni dövr başlayır – yeni onillik dövr. Bu dövrdə biz əvvəlki illərdə əldə edilmiş möhkəm təməl üzərində möhkəm Azərbaycan dövlətini gücləndirəcəyik. Son 10 il ərzində biz bütün istiqamətlər üzrə böyük uğurlara imza atdıq. Biz beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi özümüzü təsdiq etdik. Beynəlxalq ictimaiyyət bizim mövqemizi dəstəkləyir. Beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti öz səsini Azərbaycana vermişdir. BMT Təhlükəsizlik Şurasına seçildikdə 155 ölkə bizə inandı, bizi dəstəklədi. Əminəm ki, öz seçimində haqlı olduğunu gözəl anlayır və bizim namizədliyimizə öz səsini verdiyinə görə peşman deyillər.

İqtisadi sahədə son 10 ildə dünya miqyasında Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Bu da bizim böyük nailiyyətimizdir, aparılan siyasətin nəticəsidir. Müstəqil siyasətin nəticəsidir. Azərbaycanda şaxələndirmə ilə bağlı işlər aparılır. Enerji təhlükəsizliyi məsələləri Azərbaycanda həll olunur və burada biz liderlik mövqelərimizi daha da möhkəmləndiririk. Nəzərdə tutulmuş bütün layihələr uğurla icra edilmişdir. Çox ağır şəraitdə həm iqtisadi, həm geosiyasi

vəziyyəti nəzərə alaraq bu layihələrin icra edilməsi tarixi nailiyyətdir.

Azərbaycanda regionların inkişafı ilə bağlı qəbul edilmiş proqramlar artıqlaması ilə icra edilib. 10 il ərzində bu proqramların icrası nəticəsində işsizlik, yoxsulluq kimi bəla, demək olar ki, aradan götürülübdür. Əldə edilmiş bu uğurlar və daha da artan gücümüz imkan verəcək ki, biz növbəti illərdə də nəzərdə tutulan bütün məsələləri həll edək.

Yeni dövr başlayıb. Bu, 10 illik dövrdür. 2023-cü ilə qədər nəzərdə tutulan bütün işlər görüləcəkdir. Əminəm ki, o vaxta qədər Azərbaycan indikindən bir neçə dəfə güclü olacaqdır. Bunu deməyə əsas verən bizim 20 illik tariximizdir, ardıcıl inkişafdır, strateji baxışlarımızdır və konkret addımlarımızdır.

Azərbaycan müstəqil dövlət kimi, müstəqil siyasət aparır. Bu gün bizim iqtisadi gücümüz müstəqilliyimizin əsasını təşkil edir. Bu günə qədər görülən işlər və indi başlanan layihələr bizim gücümüzü bir neçə dəfə artıracaqdır. Bu faktdır. Yəni bu bizim gördüyümüz və görüləcək işlərin nəticəsində olacaqdır.

Azərbaycan bölgədə möhkəm mövqelərə malikdir. Bu mövqelər ildən-ilə ancaq və ancaq möhkəmlənəcəkdir. Çünki artıq bizim iştirakımız olmadan bölgədə heç bir məsələ öz həllini tapa bilməyəcəkdir. Bir sözlə, biz ölkəmizin inkişafı ilə bağlı uzunmüddətli strategiyamızı müəyyən etmişik.

Ölkəmizin inkişafı ilə bağlı fundamental istiqamətlər ulu öndər tərəfindən müəyyən edilmişdir. Ancaq təbii ki, həyat yerində durmur, dünya dəyişir, prinsiplər dəyişir, beynəlxalq vəziyyət dəyişir. Biz görürük ki, öz yerimizi möhkəmləndirmək üçün daha da güclü olmalıyıq, daha da güclü iqtisadiyyata, sənaye potensialına, orduya malik olmalıyıq. Daha da güclü beynəlxalq mövqelərimiz olmalıdır. Bizim sözümüz bütün mötəbər tribunalardan səslənir. Biz sözümüzü deyirik. Bizim sözümüz ədalətdir və həqiqətdir. Ədalət və həqiqət bizim tərəfimizdədir. Ona görə strateji xəttimizi nəzərə alaraq biz öz ardıcıl addımlarımızı atırıq və atacağıq. Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı bu gün cəmiyyətdə mövcud

olan həmrəylik, vətənpərvərlik duyğuları ilə fəxr edir. Fəxr edir ki, Azərbaycan bu zirvələrə çata bilmişdir.

Cəmiyyətdə səfərbərlik, həmrəylik də çox önəmlidir. Elə cəmiyyətlər vardır ki, onlar ideoloji məsələlər ətrafında bir-biri ilə mübahisə aparırlar. Elə cəmiyyətlər vardır ki, orada bölgü coğrafi xarakter daşıyır. Azərbaycan cəmiyyəti monolitdir. Bizi bir-birimizə bağlayan əsas amil həmrəylikdir və düzgün seçilmiş hədəfdir. Hədəf isə çox aydındır. Biz müasir dövlət qururuq, azad cəmiyyət yaradırıq, demokratiyanın inkişafı əsas şərtdir, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bundan sonra daha da ciddi aparılacaqdır. Biz ancaq və ancaq öz gücümüzə güvənirik. Bu siyasət öz səmərəsini vermişdir. İqtisadi gücümüz artdıqca müstəqillik də möhkəmlənəcəkdir. Müstəqillik isə bizim ən böyük sərvətimizdir, ən böyük nailiyyətimizdir. Tarixə baxsaq, Azərbaycanda müxtəlif dövrlərdə dövlətçilik ənənələri olmuşdur. Amma Azərbaycan heç vaxt bugünkü qədər güclü və müstəqil olmamışdır.

Bu gün – ulu öndərin doğum günündə bir daha yaxın tarixə nəzər salırıq. Heydər Əliyevin Azərbaycan xalqı üçün nə qədər böyük və tarixi işlər gördüyünü bir daha görürük. Ona görə Azərbaycan xalqı Heydər Əliyevin xatirəsini öz qəlbində saxlayır, yaşadır. Biz – onun davamçıları isə bundan sonra da ulu öndərin siyasi xəttinə sadiq qalaraq doğma Vətənimizi irəliyə aparacağıq.

Sağ olun!

## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bu yubiley gecəsində sizin hamınızı səmimi-qəlbdən salamlayıram!

Bu gün biz Heydər Əliyev Fondunun yubileyinə toplaşmışıq və hər şeydən öncə, cənab Prezident, Heydər Əliyev Fondunun bütün əməkdaşları adından bizim fəaliyyətimizə verdiyiniz yüksək qiymətə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

10 il bundan əvvəl – 2004-cü il mayın 10-da Heydər Əliyev Fondu öz fəaliyyətinə başladı. Fond müasir Azərbaycan dövlətçiliyinin əsaslarını qoymuş, müstəqil Azərbaycanın siyasi, iqtisadi və mənəvi dirçəlişini təmin etmiş şəxsin adını daşıyır. Biz fəaliyyətimizin ilk günündən atdığımız addımlarla, gördüyümüz işlərlə bu yüksək ada layiq olmağa çalışmışıq. 10 il ərzində biz xeyli nailiyyətlər əldə etmişik. Bizim ən böyük nailiyyətimiz və uğurumuz Azərbaycan xalqının inamını və etimadını qazanmağımızdır. Bu, əvəzsiz bir mükafatdır.

Biz diqqətimizi ölkəmizdə həllini tapmayan problemlərin aradan qaldırılmasına yönəltdik. Biz Azərbaycanda çoxəsrlik köklərə malik olan xeyriyyəçilik və mərhəmət ənənələrinə arxalanaraq, köməyə ehtiyacı olan hər kəsin yanında olmağa çalışdıq. Biz valideyn himayəsindən məhrum olan uşaqlara, qocalara, qaçqın və məcburi köçkünlərə, müxtəlif xəstəliklərdən əzab çəkən insanlara qayğı göstərməyi, onlara mənəvi dayaq olmağı prioritet məsələ kimi, daim diqqət mərkəzində saxladıq. Ölkəmizdə mövcud olan uşaq evləri və internat məktəblərini tamamilə yenidən qurub onlarda ailə mühitinin formalaşdırılması, fiziki qüsurlu insanların cəmiyyətə qovuşmaları üçün normal şəraitin yaradılması, uşaq evlərini tərk edən gənclər üçün yaşayış binaları, qaçqın və məcburi köçkün ailələri üçün yaşayış massivlərinin inşa olunması sübut etdi ki,

belə insanlara qayğı, belə insanlara kömək bizim fəaliyyətimizin əsas amillərindən biridir.

Əziz qonaqlar, bir az əvvəl siz Fondun fəaliyyəti haqqında filmə baxdınız. Doğrudan da filmi hazırlayarkən biz müəyyən çətinliklərlə üzləşdik. Çünki bu 10 il ərzində Fond tərəfindən icra olunan layihələr, proqramlar ölkəmizin həyatının bir çox sahələrini əhatə edir və əldə olunan nəticələr o qədər genişdir ki, qısa bir filmdə görülən bütün işləri əks etdirmək o qədər də asan deyildi.

Fond tərəfindən icra olunan irimiqyaslı layihələr – «Yeniləşən Azərbaycana yeni məktəb», «Uşaq evləri və internat məktəblərinin inkişafı», «Təhsilə dəstək», «Diabetli uşaqlara ən yüksək qayğı», «Talassemiyasız həyat naminə», «Xocalıya ədalət!», «Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması», «Tolerantlığın ünvanı – Azərbaycan» və s. – bütün bu layihələrin nəticələrini biz bu gün görürük və əslində görülən bütün bu işlər Azərbaycanın ümumi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib.

Siz, cənab Prezident, tamamilə düz qeyd etdiniz və bu bizi şad edir ki, çox hallarda Fond tərəfindən start verilən layihələr, Fondun təşəbbüsləri sonradan dövlət tərəfindən dəstəklənir və ölkədə daha geniş bir şəkildə icra olunur. 2005-ci ildə Fond «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsini başladı və bu layihə çərçivəsində Fondun dəstəyi ilə ölkəmizdə 412 yeni məktəb inşa olundu. Sonradan bu proqramı dövlət dəstəklədi və ölkəmizdə 3 mindən artıq məktəb təmir olundu və yaxud yenidən quruldu.

Bir neçə il bundan əvvəl ölkəmizdə genetik xəstəliklərin yayılmasının qarşısını almaq üçün Fond tərəfindən «Talassemiyasız həyat naminə» proqramına başladıq və bu proqram çərçivəsində paytaxtımızda regionun ən böyük Talassemiya Mərkəzini inşa etdik. Bu gün bu xəstəliklərlə mübarizə üçün dövlət tərəfindən xüsusi proqram hazırlanır.

Bizim fəaliyyətimizin digər çox vacib istiqaməti Azərbaycanın zəngin tarixi və mədəni irsinin qorunub saxlanılması,

təbliğ edilməsi və dünya ictimaiyyətinə tanıdılmasıdır. Fondun dəstəyi ilə Azərbaycanın müxtəlif regionlarında onlarla tarixi-memarlıq, dini abidələr bərpa olunub. Bakıda məscidlər, kilsələr, sinaqoqlar təmir və bərpa olunub. Məhz Fondun təşəbbüsü ilə paytaxtımızda Beynəlxalq Muğam Mərkəzi inşa olunub və hər il muğam müsabiqəsi keçirilir. Qəbələ Beynəlxalq musiqi festivalı, Rostropoviç və Şostakoviç festivalları artıq ənənəvi şəkildə keçirilir və öz auditoriyasını qazanıb. Azərbaycanın qədim xalçaçılıq sənəti artıq YUNESKO-nun Ümumbəşəri Mədəni İrs Siyahısına daxil edilib və bizim xalçalar dünyanın ən məşhur muzeylərində nümayiş olunur.

Biz dünyanın müxtəlif ölkələrində «Azərbaycan günləri və Azərbaycan gecələri» keçirməklə, Azərbaycanın keçmişini, Azərbaycanın tarixini, mədəniyyətini, bu gününü, müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlıq və dözümlülük abhavasını bütün dünyaya göstərmək, bütün dünyaya tanıtmaq istəyirik. Belə görüşlərdə insanlar Azərbaycanı özləri üçün yenidən kəşf edirlər. Dünyanın ən möhtəşəm zallarında qədim Azərbaycan muğamı səslənir və sərgilərdə müasir Azərbaycanın müasir incəsənət xadimlərinin əsərləri ilə tarixi artefaktlar birgə nümayiş olunur.

Eyni zamanda, biz hər bir xalqın mədəni irsini ümumbəşəri dəyər kimi qəbul edirik. Bu irsin qorunmasına Azərbaycandan kənarda da öz töhfəmizi veririk. Heydər Əliyev Fondunun dəstəyi ilə Strasburq Kafedral kilsəsinin vitrajları, Versal sarayındakı abidələr, Fransanın müxtəlif regionlarında yerləşən kilsələr, Berlin qəsri, Roma katakombaları, Vatikan kitabxanasında saxlanılan dəyərli foliantlar bərpa olunur.

Bu 10 il ərzində biz fəaliyyətimizi genişləndirərək bir sıra çox nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmuşuq, birgə layihələr icra etmişik. Bizim tərəfdaşlarımız arasında YUNESKO, İSESKO, YUNİCEF, BMT İnkişaf Fondu kimi nüfuzlu beynəlxalq qurumlar vardır. Fondun Rusiya, Türkiyə, Rumıniya, Amerika Birləşmiş Ştatlarındakı nümayəndəlikləri çox uğurla fəaliyyət göstərir.

Çox sevindirici haldır ki, son zamanlar Azərbaycan gəncləri Fondun təşəbbüslərinə çox geniş şəkildə qatılır. Ətraf mühitin qorunması sahəsində Fond tərəfindən hazırlanan proqramlar, təşəbbüslər artıq ölkəmizdə yeni bir gənclər hərəkatına çevrilib və IDEA kampaniyası çərçivəsində Azərbaycanda 3 milyondan çox ağac əkilib.

Eyni zamanda, biz ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünya ictimaiyyətinə çatdırırıq. Hər il Fond müxtəlif dillərdə yüzlərlə nəşrlər hazırlayır, onu bütün dünyaya yayır. Biz bu gün «Xocalıya ədalət!» kampaniyasının müsbət nəticələrini görürük.

Bir sözlə, əziz qonaqlar, 10 il ərzində görülən işlərin sayı çoxdur. Əldə edilən nəticələr də çox gözəldir. Bizim Fondun əməkdaşlarını birləşdirən amillər çox sadədir. Bu, vətənpərvərlik, mərhəmət, insansevərlik, doğma xalqımıza və ölkəmizə xidmət etməkdir. Bu gün mən fürsətdən istifadə edərək, Fondun bütün əməkdaşlarına, bizim komandamıza bu 10 il ərzində göstərdikləri işgüzarlıq, peşəkarlıq, insansevərlik, vətənpərvərlik keyfiyyətlərinə görə dərin minnətdarlığımı bildirirəm. Bizimlə əməkdaşlıq quran, bizi dəstəkləyən, bizə kömək edən hər bir quruma, hər bir təşkilata, hər bir insana bu gün mən öz dərin minnətdarlığımı bildirirəm.

Qarşıda bizi yeni çağırışlar, yeni hədəflər, yeni qələbələr gözləyir və mən əminəm ki, biz bütün çətinliklərin öhdəsindən birgə gələrək, yeni nailiyyətlərə imza atacağıq.

Bir daha bu axşam bizimlə olduğunuza görə sizə öz dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun. Sizə xoş axşam arzulayıram.

* * *

*Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş «Qızıl çinar» beynəlxalq mükafatının 2014-cü il qalibləri elan olundu.*

*Azərbaycanın musiqi mədəniyyətinin təbliğində fəal iştirakına görə dirijor, Qara Qarayev adına Dövlət Kamera Or-*

*kestrinin bədii rəhbəri, Xalq artisti Teymur Göyçayevə «Qızıl çinar» beynəlxalq mükafatı təqdim edildi.*

*Xalq artisti minnətdarlığını bildirdi.*

**T e y m u r  G ö y ç a y e v:** Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli xanımlar və cənablar!

Əvvəla, mən istərdim öz adımdan Fondun rəhbərliyini və bütün işçilərini yubiley münasibətilə təbrik edim. Bilirsiniz, bu «Çinar»a baxıb mən 2006-cı ili yadıma salıram. O ildə məhz Mehriban xanımın təşəbbüsü ilə Uşaq və Gənclər Simfonik Orkestri yaradılmışdır və bu orkestr çoxlu uğurlu konsertlərlə çıxış etmişdir. Ən gözəl nəticə odur ki, bu illər ərzində 50 nəfərə yaxın peşəkar musiqiçi yetişmişdir və onlar böyük orkestrlərə daxil olmuşlar. Bu orkestr indi də fəaliyyət göstərir.

Mən bu «Çinar»a baxanda Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagird və müəllimlərinin beynəlxalq müsabiqələrdə çoxsaylı qələbələrini görürəm. Mən bu «Çinar»a baxanda bizim bu il 50 illiyini qeyd edən Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin uğurlarını görürəm.

Sizin icazənizlə, mən istərdim adıçəkilən bütün bu kollektivlərin adından və öz adımdan bu mükafata görə Sizə dərin minnətdarlığımı bildirim. Sizə uğurlar, cansağlığı arzulayıram. Diqqətinizə görə çox sağ olun.

* * *

*«Qızıl çinar» beynəlxalq mükafatı Azərbaycan və Macarıstan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və xalqlararası mədəni mübadilənin inkişafına verdiyi töhfələrə görə Macarıstanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Jolt Çutoraya təqdim edildi.*

**J o l t  Ç u t o r a:** Cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Baxıram ki, burada yalnız dostlarımız əyləşib. Deməli, hər şey normaldır, açıq danışmaq olar. Bilirsinizmi, deməyə söz

tapmıram. Mən bilirəm ki, «fond» sözü «əsas» deməkdir. Bu mənim üçün nə deməkdir? Mən Fond ilə 15 il bundan əvvəl görüşmüşəm. Deyə bilərsiniz ki, Fondun yaranmasının 10-cu ildönümü bu gün tamam olur. Lakin mən 15 il bundan əvvəl ilk dəfə Azərbaycanda olmuşam və mərhum ümummilli lider Heydər Əliyevlə görüşmüşəm. Onda mən Fondu – əsası gördüm. Bir sözlə, macar dilində «əsas» və «fond» eyni sözlərdir. Mən Sizi təbrik edirəm.

Mən buraya bu gün səhər təyyarə ilə gəlmişəm. Dünən mən Budapeştdə məhz gözdən əlil uşaqlar üçün məktəbdə olmuşam. Bu məktəb Sizin sayənizdə, Fondun sayəsində çox yaxşı vəziyyətdədir. Çox sağ olun.

Bilirsinizmi, səfirlər 3 növ olur. Bəzi səfirlər öz ranqına görə evdə – Xarici İşlər Nazirliyində işləyirlər. Səfirlərin ikinci növü adi səfirlərdir – bir dövlətin başqa dövlətdə işləyən səfirləri. Səfirlərin üçüncü növü qeyri-adidir. Bu mənəm. Macarıstanın Azərbaycanda işləyən, lakin öz evində olan səfiri. Mən burada özümü evimdə olduğu kimi hiss edirəm. Azərbaycanı da öz vətənim kimi hiss edirəm. Çox sağ olun. Bu, Fondun sayəsində belədir. Sağ olun, Mehriban xanım!

Ölkələrimiz arasında münasibətlərdə hər şey normaldır. Münasibətlərimiz yaxşıdır. Bilirsinizmi, əgər mən Fond ilə birlikdə neçə layihə üzərində işlədiyimizi, neçə layihə barədə düşündüyümüzü və neçəsini artıq tamamladığımızı sadalamaq istəsəm, bu siyahını səhərə qədər davam etdirmək olardı. Mən yalnız çox vacib olan bir layihə barədə danışmaq istərdim. Bizim bu ay keçirəcəyimiz mədəni tədbirlər barədə. Mən adi diplomat deyiləm, sirlərimi həmişə sizə söyləyə bilərəm. Dostlar arasında bunu demək olar. Amma xahiş edirəm, hələlik heç kəsə deməyin. Biz Fond ilə birlikdə ilk Azərbaycan–Macarıstan aşpazlıq kitabı üzərində uğurla işləyirik. Orada yeməkləri mən və dostlarım hazırlayacağıq. Bilirsinizmi, bir söz var, onu xatırladım və yalnız sizin üçün sitat gətirmək istəyirəm: dövlət nə qədər çox xalqı birləşdirirsə, bir o qədər zəngindir.

Çox sağ olun. Bu mənim üçün çox böyük şərəfdir.

*Beynəlxalq arenada Azərbaycan muğamını, qədim musiqi sənətimizi özünəməxsus ifası ilə milyonlara sevdirən Xalq artisti Alim Qasımova Heydər Əliyev Fondunun «Qızıl çinar» beynəlxalq mükafatı təqdim* olundu.

**A l i m   Q a s ı m o v:** Salam, axşamınız xeyir, cənab Prezidentimiz, hörmətli Mehriban xanım!

Bu mükafat bizim bütün xalq musiqisinə verilən mükafatdır. Biz də özümüzü bu Fondun işçilərindən hesab edirik. İcazə versəniz, bir ağız da muğamdan deyərdim.

*Xanəndə Alim Qasımov muğam parçası ifa etdi.*

*Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi layihələrə fəal dəstəyinə görə Fransa senatoru xanım Natali Quleyə də Heydər Əliyev Fondunun «Qızıl çinar» mükafatı təqdim edildi.*

**N a t a l i   Q u l e:** Çox sağ olun. Mən Azərbaycanın dostuyam və Azərbaycanı yaxşı tanıyıram. Aramızda olan dostluğun uzun tarixi vardır. Mən bu münasibətlə, əlbəttə ki, birinci xanıma təşəkkürümü bildirirəm. Mən bildirmək istəyirəm ki, Sizin fəaliyyətiniz bir çox insanlar üçün, ehtiyac duyan insanlar üçün, o cümlədən qaçqın və məcburi köçkün ailələri üçün çox vacib olub. Sizinlə bir çox nailiyyətlər əldə etmişik. Mən sadəcə, bildirmək istəyirəm ki, Sizin ölkənizin taleyini özüm üçün çox vacib hesab edirəm və ürəyimə çox yaxın tuturam.

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 10 illiyinə həsr olunmuş təntənəli mərasimin bədii hissəsini Azərbaycan Respublikasının Xalq artisti Teymur Göyçayevin rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və Gülarə Əliyeva adına «Dan ulduzu» instrumental ansamblı davam etdirdi.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLANDIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və mayın 11-də ölkəmizdə rəsmi səfərdə olan Fransa Respublikasının Prezidenti Fransua Olland Bakı Fransız liseyində aparılan tikinti işləri ilə tanış olmuşlar.*

*Azərbaycan prezidenti İlham Əliyev Fransa dövlətinin başçısı Fransua Ollandı qarşıladı.*

*Dövlət başçılarına liseydə görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, liseyin 320 yerlik binasının tikintisi üzrə işlərin mühüm hissəsi artıq başa çatıb və qalan işlərin də bu ilin sentyabrına qədər yekunlaşdırılması nəzərdə tutulub. Liseyin təməli 2011-ci ilin oktyabrında Fransanın sabiq prezidenti Nikola Sarkozinin Bakıya səfəri çərçivəsində «Azərbaycan və Fransa hökumətləri arasında Bakı Fransız liseyinin yaradılmasına dair» imzalanan sazişə əsasən qoyulub. Yaradılmasına Heydər Əliyev Fondunun da dəstək verdiyi lisey ölkəmizdə müvəqqəti və daimi yaşayan fransızdilli əcnəbi vətəndaşların və Azərbaycan vətəndaşlarının bu dildə təhsil almalarına geniş imkanlar yaradacaqdır.*

*Qeyd edildi ki, fransız məktəbinin tədris planı uşaq bağçasından başlayaraq 12 illik ümumi təhsil müəssisəsində tətbiq edilən klassik fransız tədris planı olacaqdır. Tədris proqramı Fransa milli təhsil sisteminin tələblərinə uyğun olaraq fransız dilində aparılacaqdır. Şagirdlərə veriləcək attestat Fransa Milli Təhsil Nazirliyinin standartlarına və tələblərinə uyğun olacaq və nazirlik tərəfindən tanınacaqdır. Məktəbin məzunları öz seçimlərinə uyğun olaraq təhsillərini Fransanın istənilən ali təhsil müəssisəsində davam etdirmək imkanı qazanacaqlar.*

*Fransa Prezidentinin diqqətinə çatdırıldı ki, bu təhsil ocağı Bakının «Ağ şəhər» adlanan ərazisində inşa olunur. Dünyada şəhərsalma sahəsində həyata keçirilən ən iri və nadir layihələrdən olan «Bakı Ağ şəhər» layihəsinin maraqlı tərəflərindən biri də burada Paris məhəlləsinin salınmasıdır.*

*Sonra dövlət başçıları mərasim iştirakçıları ilə görüşdülər.*

*Azərbaycan prezidenti İlham Əliyev və Fransa prezidenti Fransua Olland mərasimdə çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Bu Sizin Azərbaycana ilk səfərinizdir. Əminəm ki, Sizin rəsmi səfəriniz Fransa–Azərbaycan dostluq əlaqələrinin inkişafında mühüm addım olacaqdır, əlaqələrimizə yeni təkan verəcəkdir. 20 ildən artıqdır ki, ölkələrimiz bir-biri ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çoxşaxəlidir, müxtəlif sahələri əhatə edir və gündən-günə möhkəmlənir.

Bizim çox sıx siyasi əlaqələrimiz vardır. Sizin rəsmi səfəriniz bunu təsdiqləyir. Daim siyasi dialoq, müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılır. Biz beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq edirik. Bir sözlə, siyasi əlaqələrimizin yüksək səviyyədə olması bütün başqa sahələrə də müsbət təsir göstərir.

İqtisadi sahədə görüləcək işlərə yeni təkan vermək üçün sabah biznes-forum keçiriləcək. Mən çox şadam ki, Azərbaycana Fransadan Sizinlə bərabər çoxsaylı iş adamları gəlmişdir. Əminəm ki, biznes-forumun nəticələri də çox yaxşı olacaqdır. Çünki bizim aramızda olan ticarət əlaqələri də güclənir, möhkəmlənir.

Bildiyiniz kimi, Azərbaycanda 50-dən çox Fransa şirkəti fəaliyyət göstərir. Humanitar sahədə, o cümlədən təhsil sahəsində

də əməkdaşlıq inkişafdadır. Yüzlərlə Azərbaycan gənci hazırda Fransanın ali məktəblərində təhsil alır və bu proses davam edir. Azərbaycan təhsilin inkişafına çox böyük əhəmiyyət verir. Minlərlə Azərbaycan gənci dövlət xətti ilə dünyanın aparıcı ali məktəblərində dövlət hesabına təhsil alır.

Səfərinizin bu məktəbdən başlaması Sizin də bu sahəyə böyük diqqət verdiyinizi əyani şəkildə sübut edir. Yəni burada bizim məqsədlərimiz üst-üstə düşür. Əminəm ki, bu liseydə təhsil alacaq uşaqlar gələcəkdə Fransa–Azərbaycan əlaqələrini daha da sıx möhkəmləndirəcəklər. Burada fransalı uşaqlar öz ana dilində təhsil alacaqlar, öz Vətəninə bağlı olacaqlar. Azərbaycanlı uşaqlar isə fransız dilini mükəmməl, öz ana dili kimi biləcəklər. Bu liseydə Fransanın qədim tarixi, zəngin mədəniyyəti ilə tanış olacaqlar.

Fransa dünya mədəniyyətinə, elminə, incəsənətinə, memarlıq sənətinə əvəzolunmaz töhfələr vermişdir. Dünya mədəniyyətini Fransasız təsəvvür etmək mümkün deyildir. Bizim burada təhsil alacaq uşaqlarımız bir-biri ilə sıx bağlı olacaqlar, dost olacaqlar. Əminəm ki, gələcəkdə onlar böyüyəndə bu dostluq əlaqələrini saxlayacaqlar. Beləliklə, bir-birinə hörmətlə, məhəbbətlə yanaşan gənc nəsil yetişəcək və bu da bizim dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Bir sözlə, bu lisey sadəcə olaraq, yeni bir təhsil ocağı deyil, həm də Fransa–Azərbaycan dostluğunun mərkəzi olacaqdır. Əminəm ki, burada uşaqlara veriləcək təhsil ən yüksək səviyyədə olacaqdır.

Biz humanitar sahədə müxtəlif layihələr üzrə işləyirik. Biz çox şadıq ki, Parisdə, Versalda, Strasburqda icra olunan layihələrdə Azərbaycan tərəfi də iştirak edir. O cümlədən Luvrda aparılan işlərdə Azərbaycan tərəfi iştirak etmişdir. Bu bizim əlaqələrimizi daha da sıx birləşdirir. Eyni zamanda, son illərdə Fransanın müxtəlif şəhərlərində çoxsaylı Azərbaycan tədbirləri – mədəniyyət günləri, sərgilər, konsertlər keçirilmişdir.

Şəhərlərarası əlaqələr də çox zəngindir və çox səmərəlidir. Deyə bilərəm ki, Parisin mərkəzində, Eyfel qülləsinin lap

yaxınlığında 2 il bundan əvvəl Azərbaycan Mədəniyyət Mərkəzi açılmışdır. Bu da Azərbaycanın Fransadakı kiçik bir parçasıdır. Necə ki, bu məktəb səfirlikdən sonra Fransanın ikinci məkanıdır, ikinci ərazisidir. Bu məktəbin yaradılması da bizim dostluğumuzu ifadə edir. Çünki bu, birgə səylər, hər iki tərəfdən gələn səmimi təşəbbüs nəticəsində mümkün olmuşdur. Bu yerin seçilməsi də çox böyük məna daşıyır. Çünki bu ərazidə vaxtı ilə, sovet dövründə sənaye zonası yerləşirdi. Bakının son illərdə abadlaşması və sənaye zonalarının şəhərin kənarına çıxarılması layihələri məhz bu zonada da icra edilir. Burada yeni məktəbin, Fransız liseyinin yaradılması da rəmzi məna daşıyır. Çünki arxa tərəfdə «Ağ şəhər» layihəsi çərçivəsində Paris kvartalı yaradılır. «Ağ şəhər» əslində şəhər içində bir şəhərdir, müasir şəhərsalma metodları ilə yaradılır. Paris evləri, Paris kvartalı, Fransız liseyi, Xəzər dənizi, Bakı bulvarı, bax, bu zona şəhərin gözəl mərkəzinə çevrilir. Əminəm ki, burada mövcud olan gözəl ab-hava, dostluq, mehribanlıq ab-havası xalqlarımızı daha da sıx birləşdirəcəkdir.

Hörmətli cənab Prezident, hörmətli qonaqlar, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bizim dəvətimizi qəbul edib Azərbaycana səfər etdiyiniz üçün Sizə minnətdaram. Əminəm ki, səfər çox uğurlu olacaq və səfərin çox gözəl nəticələri olacaqdır. Sağ olun.

**Fransa prezidenti Fransua Ollandın çıxışı**

Cənab Prezident!

Hörmətli xanım!

Hörmətli cənab və xanım nazirlər, xanımlar və cənablar!

Siz məni burada Fransanın Azərbaycandakı bir guşəsində qəbul edirsiniz. Cənab Prezident, bir halda qeyd etdiniz ki, biz fransız məhəlləsindəyik, bundan çox fərəh hissi duyuruq. Çünki buralar gözəldir, müasirdir. Ümumiyyətlə, burada şirkətlər çox sürətlə inkişaf edir. Mən Sizinlə burada gələcəkdə lisey olacaq bir təsisatdayam. Bu liseydə Azərbaycana gəlmiş, inkişafınıza

töhfə verən şirkətlər üçün çalışan ailələrdən olan gənc fransızlar təhsil alacaqlar. Lakin iqtisadi inkişafınıza, həmçinin böyük töhfə verən digər ailələrdən də uşaqlar buraya gələcəklər və nəhayət, öz təhsilini daha da təkmilləşdirməyi arzulayan və artıq fransız dilində danışan azərbaycanlılar da onların sırasına qoşulacaqlar.

Mən buraya qoyulan sərmayəni mümkün etdiyinizə, eləcə də göstərdiyiniz səylərə görə şəxsən Sizə və xanımınıza təşəkkür edirəm. Buraya 350-dən çox şagird qəbul olunacaqdır. Onların təhsil həyatı burada birləşəcəkdir.

Mən etdiyiniz dəvətə cavab olaraq buraya – Azərbaycana səfər etmək istəyirdim. Bu dəvəti Siz hələ 2012-ci ilin sentyabrında mənə etdiniz. Həmin vaxt Siz Luvr Muzeyinin İslam incəsənətinə həsr edilmiş bir hissəsinin açılışında mənimlə birgə iştirak etmək üçün ölkəmizə gəlmişdiniz. Azərbaycan muzeyin həmin hissəsinin maliyyələşdirilməsində iştirak etdi, biz bundan fərəhlənirik. Luvr Muzeyi dünyanın ən gözəl muzeylərindən biridir. Mən hətta elə düşünürəm ki, Luvr dünyanın ən gözəl muzeyidir və biz orada saxlanılan eksponatların müəyyən hissəsini bütün dünyada nümayiş etdirməliyik. Sizin də qeyd etdiyiniz kimi, dünyanın ən nüfuzlu incəsənət, mədəniyyət nümunələrini də muzeyimizdə sərgiləməliyik.

Mən əməkdaşlığımıza qayıtmaq istərdim. Əslində səfərimin bu 2 günü ərzində mən bu məsələləri xüsusi olaraq nəzərdən keçirəcəyəm. Bu gün Azərbaycanda çoxlu fransız şirkətləri fəaliyyət göstərir. Bir çox digər şirkətlərin rəhbərləri bu səfər çərçivəsində məni müşayiət etmək arzusunu bildirmişdilər. Biz iqtisadiyyatınızın inkişafına töhfə vermək üçün ölkənizdə çalışan fransız şirkətlərinin sayını artırmaq istəyirik. Bu, əlbəttə ki, enerji sahəsinə də aiddir. Həmçinin təklif edəcəyiniz digər yeni sahələrdə də işləməyi arzulayırıq. Elə onlardan birini xatırlatmaq yerinə düşərdi. Bu, şəhərsalma sahəsidir. Sizin şəhəriniz Cənubi Qafqazda ən böyük əhalisi olan şəhərdir. Bu şəhərdə böyük inkişaf müşahidə olunur. Şəhər dəyişib, bu şəhər

böyük liman şəhəridir, böyük sənaye şəhəridir. Bu şəhər böyüyür və dünyanın ən nüfuzlu şəhərlərindən birinə çevriləcəkdir. Fransa bu gözəl layihədə sizinlə işləmək istəyir, ən yaxşı xidmətləri, şəhər xidmətlərini, nəqliyyat xidmətlərini, içməli su və çirkab suların təmizlənməsi xidmətlərini göstərmək, tullantıların idarə edilməsində yardımçı olmaq istəyir. Bir sözlə, biz istəyirik sizə yardım edək ki, Bakı şəhəri və digər şəhərləriniz davamlı inkişaf baxımından nümunəvi olsun.

Biz sərmayə qoymaq, mübadilə etmək, ticarət aparmaq istəyirik. Biz bu işləri görmək istəyirik və bu, ölkələrimiz arasında olan münasibətlərin əsas vəzifəsidir. Biz təhsil, texnoloji biliklərin mənimsənilməsində iştirak etmək istəyirik. Ölkənizin universitetləri ilə də işləmək istəyirik.

Cənab Prezident, Siz təhsil almaq üçün Fransaya gələn tələbələrinizi qeyd etdiniz. Biz onları ən yaxşı səviyyədə qəbul etmək istərdik. Biz hətta Parisdə universitet korpuslarından birində Azərbaycan tələbələri üçün şərait yaratmağa hazırıq ki, biliklərin birgə əldə edilməsində və hətta elmi tədqiqatlarda iştirak edən azərbaycanlıların sayı çox olsun.

Siz burada təqaüdlər haqqında danışdınız. Əlbəttə, biz də müəyyən maliyyə imkanlarımız hesabına təqaüdlər ayıra bilərik ki, ölkənizin tələbələri Fransaya gələ bilsinlər. Bu mənim Azərbaycana səfərim başlayan andan atılan rəmzi addımdır. Siz əlinizdən gələni etdiniz, burada mənim yanımda Eyfel qülləsini görürsünüz. Amma bu işi bilməyənlər səhv salmasınlar. Görün burada, həmçinin Bakının tarixi abidəsi – Qız qalası da vardır. Siz bunu nümayiş etdirmək istədiniz. Bu o deməkdir ki, ölkələrimiz arasında münasibətlərimizin çox qədim tarixi vardır. Onilliklər ərzində bu əlaqələr güclənib. Bu xüsusən də müstəqilliyinizi bərpa etdikdən sonra baş verdi. Biz bu inkişafda iştirak etmək istəyirik.

Mən bir neçə günlüyə Qafqaza gəlmişəm. Çünki gördüyünüz işlərə inanıram. Dünyanın bu guşəsində, xüsusən də Azərbaycanda böyük inkişaf gedir. Biz də istərdik ki, sizin bütün dünyada,

Avropada işlədiyiniz kimi, yəni inkişafı birgə təmin edək, onu dayanıqlı edək və bu inkişaf xalqlarımıza rifah gətirsin.

Ölkənizə səfər etmək üçün dəvətinizə görə minnətdaram. Ölkənizi özüm üçün kəşf etdim. İlk dəfədir ki, buraya səfər edirəm. Lakin Sizi əmin edirəm ki, bu səfər sonuncu səfər deyildir.

Sizlərə «Sağ ol!» – deyirəm. Lisey şagirdlərinə bu gələcək təhsil ocağında uğurlar arzulayıram. Biz burada onun yalnız bir hissəsini gördük. Qalan hissəsi də başa çatdırılacaqdır. Burada müddət çox qısadır. Bakıda lisey tikmək Parisdən fərqli olaraq, 2 dəfə tez başa çatdırılır. Beləliklə, sentyabr ayında burada lisey 350 şagird üçün artıq açıq olacaqdır. Onların fotolarını isə bizə göndərəcəksiniz.

Sağ olun, cənab Prezident!

* * *

*Sonda Azərbaycan prezidenti İlham Əliyev və Fransa prezidenti Fransua Olland Bakı Fransız liseyinin qarşısında ağac əkdilər.*

## İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İLƏ TANIŞLIQ

*11 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Fransua Olland mayın 11-də İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmişlər.*

*Fransa Prezidentinə Azərbaycan tarixinin və mədəniyyətinin incisi olan İçərişəhər barədə məlumat verildi. Bildirildi ki, tariximizin canlı əfsanəsi olan İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Qız qalası və Şirvanşahlar Saray Kompleksi YUNESKO-nun dünya mədəni irs siyahısına daxil edilib.*

*Prezident Fransua Ollandın diqqətinə çatdırıldı ki, İçərişəhər ərazisində alimlərimizin apardığı arxeoloji qazıntılar zamanı Azərbaycan tarixinə dair bir çox qiymətli maddi mədəniyyət nümunələri aşkar edilib. İndi Azərbaycan muzeylərinin ən qiymətli eksponatları olan bu tapıntılar tariximizin qədim dövrlərinin öyrənilməsi üçün geniş imkanlar açır. Vaxtaşırı Bakıda olan qonaqlar hər zaman İçərişəhərə böyük həvəslə gəlir, buradakı nadir ab-hava bu mədəniyyət ocağına turistlərin marağını azalmağa qoymur.*

*Sonra dövlət başçıları Muğam klubuna gəldilər.*

*Fransa Prezidentinə klubun tarixi barədə məlumat verildi.*

*İçərişəhərlə tanışlıqdan sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Fransa prezidenti Fransua Olland birgə nahar etdilər.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 may 2014-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Fransa Respublikasının Prezidenti Fransua Ollandın mayın 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının Prezidenti Fransua Ollandı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Fransa Prezidentinə raport verdi.*

*Fransanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Fransa Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Fransa prezidenti Fransua Ollanda, Fransa nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 may 2014-cü il*

*Rəsmi qarşılanma mərasimindən* sonra *mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin* siyasi, iqtisadi, energetika, *nəqliyyat və digər sahələrdə uğurla inkişaf* etdiyi bildirildi. *Fransa prezidenti Fransua Ollandın ölkəmizə rəsmi səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından önəmi vurğulandı. Əlaqələrimizin* bundan sonra da *inkişaf edəcəyinə əminlik ifadə* olundu.

*Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı* maraq doğuran *digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 may 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, bir daha Sizi səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Dünən və bu gün biz artıq geniş fikir mübadiləsi, Fransa–Azərbaycan dostluq əlaqələrinin inkişafı ilə bağlı danışıqlar apardıq.

Bu gün biz nümayəndə heyətlərinin iştirakı ilə bu danışıqları davam etdiririk. İkitərəfli gündəliyimiz çox genişdir, bir çox məsələləri əhatə edir. Hər bir istiqamət üzrə qarşılıqlı anlaşma vardır və qarşılıqlı dəstək göstərilir.

Bir daha Sizi ürəkdən salamlayıram. Mən əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır.

**F r a n s u a O l l a n d:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Artıq neçə illərdir ki, Azərbaycan Fransaya etimad göstərir. Fransa Azərbaycandakı böyük inkişafdan məlumatlıdır. Dünən biz bunun bütün sahələrdə müşahidə olunduğunu gördük. Bu səbəbdən bu səfər sadəcə, dostluq, nəzakət səfəri deyil və bu, yalnız yüksək səviyyəli şəxslər, iki prezident arasında mövcud olan əlaqələrlə bağlı deyildir. Bu səfər nəticələr verməlidir, iqtisadi baxımdan mübadilələrimizi, sərmayələrimizi daha da artırmalıdır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Fransa sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Prezidenti və Fransa Respublikası Prezidentinin Birgə Bəyanatı»nı dövlət başçıları İlham Əliyev və Fransua Olland imzaladılar.*

*«Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Fransa Respublikasının Milli Elmi Araşdırmalar Mərkəzi arasında elmi əməkdaşlıq Sazişi»ni Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev və Fransa Respublikası Milli Elmi Araşdırmalar Mərkəzinin Moskva bürosunun direktoru Mişel Tararan imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Fransanın Azərbaycandakı səfiri Paskal Mönye imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Fransa Respublikasının Ekologiya, Davamlı İnkişaf və Enerji Nazirliyi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və Fransanın Azərbaycandakı səfiri Paskal Mönye imzaladılar.*

*«Azərbaycan Respublikasının Energetika Nazirliyi və Fransa Respublikasının Ekologiya, Davamlı İnkişaf və Enerji Nazirliyi arasında enerji sahəsində əməkdaşlığa dair Anlaşma Memorandu-*

*mu»nu Azərbaycanın* Energetika *naziri Natiq Əliyev və Fransanın Azərbaycandakı səfiri* Paskal *Mönye imzaladılar.*

*«Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq* Problemləri *üzrə Dövlət Komitəsi və Fransa Respublikasının Qadın Hüquqları, Şəhər, Gənclər və İdman* Nazirliyi *arasında ikitərəfli əməkdaşlıq haqqında İnzibati Anlaşma»nı Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri* Hicran *Hüseynova və Fransanın Qadın Hüquqları, Şəhər, Gənclər və İdman* naziri Najat Vallo-Belkasem *imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil* Nazirliyi *və* Fransa *Respublikasının Milli Təhsil, Ali Təhsil və Tədqiqat* Nazirliyi *arasında* universitet *əməkdaşlığı sahəsində Niyyət Məktubu»nu Azərbaycanın Təhsil* naziri *Mikayıl* Cabbarov *və Fransanın* Ali *Təhsil və Tədqiqat üzrə Dövlət* katibi *Jönöviev* Fioraso *imzaladılar.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*12 may 2014-cü il*

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə mətbuata bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Hörmətli cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər Fransa–Azərbaycan dostluq əlaqələrinin inkişafında müsbət rolunu oynayacaqdır və bizim dostluğumuz davam edəcəkdir.

Bu gün imzalanan sənədlər bizim bir çox sahələr üzrə gələcək əməkdaşlığımızı müəyyən edir. Bu sənədlərin arasında, əlbəttə ki, Birgə Bəyanat xüsusi yer tutur. Çünki bu sənəddə bizim gələcək siyasi əlaqələrimizin əsas konturları əks olunur.

Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Fransa Prezidentinin Azərbaycana rəsmi səfəri bunu bir daha təsdiqləyir. Mən dəfələrlə Fransada olmuşam və mütəmadi olaraq məsləhətləşmələr aparılır. Bir çox beynəlxalq məsələlər üzrə

danışıqlar, məsləhətləşmələr, əlbəttə ki, bizim siyasi əlaqələrimizi daha da gücləndirir.

Son 2 il ərzində biz Fransa ilə bərabər BMT Təhlükəsizlik Şurasında iştirak etmişik və dünyanın ən mötəbər qurumunda çox uğurlu əməkdaşlıq qurmuşuq. Yəni beynəlxalq məsələlərlə əlaqədar bizim mövqemiz bir çox hallarda üst-üstə düşür. Əlbəttə, Fransa Minsk qrupunun həmsədri kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz səylərini göstərir. Bu gün təbii ki, bu məsələ ilə bağlı çox geniş fikir mübadiləsi aparılmışdır. Biz ümid edirik ki, bu münaqişə vasitəçilərin köməyi ilə tezliklə öz həllini tapacaq və bölgəyə sülh gələcəkdir.

Bildiyiniz kimi, uzun illərdir Azərbaycan torpaqları işğal altındadır. Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon erməni işğalı altındadır və bu işğaldan 20 ildən çox vaxt keçir. Bütün mötəbər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz mövqelərini bildirmişlər. O cümlədən BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, o qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ATƏT və digər beynəlxalq təşkilatlar bu məsələni diqqət mərkəzində saxlayır və müvafiq qərar və qətnamələr qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, bu məsələ öz həllini tapmır. İşğal davam edir. ATƏT-in faktaraşdırıcı missiyaları işğal edilmiş torpaqlara 2 dəfə ezam edilmişdir və onların məruzələrində göstərilir ki, hər şey dağıdılıb. Bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən yerlə yeksan edilibdir. Bu münaqişəyə tezliklə son qoyulmalıdır. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. O ki qaldı xalqların öz müqəddəratının təyinedilmə prinsipinə, bu prinsipə hörmətlə yanaşırıq, ancaq bu hüquq ölkələrin beynəlxalq birlik tərəfindən tanınan sərhədlərini pozmamalıdır. Erməni xalqı isə artıq bir dəfə öz müqəddəratını təyin edib – müstəqil Ermənistan dövləti vardır. Azərbaycan

heç vaxt öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir.

Bu münaqişənin həlli bölgənin hər bir ölkəsi üçün faydalı ola bilər. Ümid edirəm ki, Fransa və digər həmsədrlər bu məsələ ilə bağlı öz səylərini davam etdirəcəklər və biz işğal edilmiş torpaqlara tezliklə öz vətəndaşlarımızı yerləşdirə biləcəyik.

Bizim aramızda iqtisadi sahədə çox uğurlu əməkdaşlıq aparılır. Bu gün keçiriləcək biznes-forumda sənədlər imzalanacaqdır. Ticarət dövriyyəsi 2 milyard dollara yaxınlaşır. Azərbaycanda 50-dən artıq Fransa şirkəti fəaliyyət göstərir. İmzalanacaq kontraktların həcmi də təxminən 2–2,5 milyard dollar səviyyəsindədir. Əminəm ki, səfərdən sonra bu istiqamətdə yeni layihələr icra ediləcəkdir. Nəqliyyat, telekommunikasiya, informasiya texnologiyaları, turizm, inşaat və digər sahələrdə gözəl perspektivlər, imkanlar vardır.

Dünən Fransız liseyinin açılışı özlüyündə böyük bir hadisə idi. Bu onu göstərir ki, hər 2 ölkə təhsil məsələlərinə böyük qayğı ilə yanaşır. İlin sonuna qədər Bakıda Fransız liseyi yeni, gözəl binada öz fəaliyyətini davam etdirəcəkdir.

Əlbəttə ki, bu gün eyni zamanda, biz enerji təhlükəsizliyi barədə də fikir mübadiləsi apardıq. Biz bu sahədə də Fransa ilə sıx əməkdaşlıq edirik. Azərbaycan Avropanın enerji təhlükəsizliyi üçün öz səylərini göstərir. Keçən ilin sonlarında imzalanan sənədlər Azərbaycan qazını Avropa məkanına çatdıracaq və əminəm ki, bu layihənin icrasından sonra Avropa ilə əlaqələrimiz daha da sıx olacaqdır. «Şahdəniz», Trans–Anadolu və Trans–Adriatik layihələri Avropanın ən böyük infrastruktur layihələridir. Nəzərdə tutulan investisiyaların həcmi təxminən 45 milyard dollar səviyyəsindədir. Bu layihənin icrası nəticəsində bütün tərəflər – həm Azərbaycan, həm tranzit ölkələri və həm də Avropa istehlakçıları ancaq fayda görəcəklər. Çünki bu, hər bir tərəfin marağına xidmət göstərən layihədir.

Azərbaycan Xəzər hövzəsində enerji resurslarının dünya bazarlarına, o cümlədən Avropaya çıxarılmasında öz liderlik

funksiyasını davam etdirir. Əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri hər bir ölkənin milli təhlükəsizlik məsələlərinə çevrilmişdir və Azərbaycanın zəngin neft-qaz resursları, mövcud və yaranmaqda olan nəqliyyat infrastrukturu Avropanın enerji xəritəsini böyük dərəcədə dəyişdirmişdir.

Bizim gündəliyimiz çox genişdir. Sadəcə olaraq, bir mətbuat konfransı zamanı bütün məsələləri əhatə etmək mümkün deyildir. Ancaq hesab edirəm, əsas məsələ ondan ibarətdir ki, qarşılıqlı əlaqələri davam etdirmək üçün hər iki tərəfdə çox güclü siyasi iradə, qarşılıqlı maraq vardır. Xalqlararası əlaqələr də inkişafdadır, yüksək səviyyədədir. Əminəm ki, bu səfər münasibətlərimizə yeni güclü təkan verəcəkdir.

Bir daha, cənab Prezident, Azərbaycana xoş gəlmisiniz!

## Fransa prezidenti  Fransua Ollandın bəyanatı

Cənab Prezident!

Mən ölkənizə – Azərbaycana səfər etməyi arzulayırdım. Səfəri bu anda olduğu kimi, belə bir xüsusi kontekst çərçivəsində arzulayırdım. Siz ölkəmizə 2012-ci ilin sentyabr ayında gəlmişdiniz. Bu bizim üçün böyük fürsət oldu. Çünki Parisdə Siz Luvr Muzeyində İslam incəsənəti bölməsinin açılışında iştirak etdiniz. Bununla həm iqtisadi, həm mədəni sahələrdə bizimlə əməkdaşlıq etmək iradənizi ifadə etdiniz.

Mən xüsusi bir çərçivədə bu səfəri həyata keçirirəm. Həmin mövzuya Siz elə indicə toxundunuz. İlk öncə Ukraynadakı vəziyyəti nəzərdə tuturam. Biz bu haqda söhbət apardıq ki, Siz də Fransanın, Avropanın bu məsələ ilə bağlı mövqeyinə əmin olasınız, ölkələrin ərazi bütövlüyünə sadiq olduğumuzu görəsiniz. Beləliklə, uzun müddət çəkən münaqişələrin həllinə nail olmaq üçün dialoqa açıqlığın vacibliyini qeyd edirik. Mənim Qafqaza, bu gün Azərbaycana səfərimin də məqsədi məhz bundan ibarətdir.

Əslində səfərimi dünən başlamışam, bu axşam isə Ermənistanda olacağam. Niyə? Çünki atəşkəsdən artıq 20 ildir

keçir. Bu gün atəşkəsin ildönümüdür. Elə münaqişənin özü də 20 ildən artıqdır ki, davam edir. Biz hələ də onun həll variantlarını tapmamışıq. Minsk qrupunda həmsədr olan Fransa məsuliyyət daşıyır. Bu məsuliyyət gərginliyin aradan qaldırılması, etimadın yaradılmasını nəzərdə tutur. Bu gün bu məqsədlə biz prezident Əliyevlə dialoq apardıq. Bu gün günün ikinci yarısında həmin dialoq Ermənistanda davam etdiriləcəkdir.

Fransa münaqişənin mərhələli şəkildə həllinin tapılmasında yardım etməyə hazırdır. Siz burada müəyyən elementləri təsvir etdiniz. Hər iki tərəfdən etimad doğuran tədbirlərin görülməsi vacibdir. Sonra isə uyğun statusun tapılması üçün müvafiq vaxt ayrılmalıdır. Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» adlandırılan konsepsiyası üzərində də Azərbaycan ilə Fransa ümumi mövqedən çıxış edir. Bu tərəfdaşlıq heç kimə qarşı deyil, o daha sürətli inkişafa, mübadilələrə, sərmayələrə və nəhayət, sabitliyə xidmət etməlidir.

Fransa üçün Azərbaycan mühüm tərəfdaşdır. Bu, xüsusən də enerji sahəsinə aiddir. Bu baxımdan mən Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün görəcəyimiz işləri çox yaxşı anlayıram. Mən məsələ ilə əlaqədar öz iradəmi bildirmişəm və Avropadakı əsas tərəfdaşlarımızla açıq söhbət aparmışam ki, gələn illərdə biz enerji mənbələrimizi şaxələndirməliyik. Bununla da Avropanın enerji təhlükəsizliyi təmin ediləcəkdir.

Beləliklə, Azərbaycan ilə həyata keçirdiyimiz bir çox layihələri nəzərdən keçirdik. Çünki Azərbaycan böyük qaz hasilatçısıdır, gələcəkdə isə daha böyük neft və qaz hasilatçısına çevrilə bilər. Fransız şirkətləri böyük layihələrinizdə tam şəkildə iştirak edirlər və onlar növbəti illərdə işlənəcək yataqların kəşf olunmasında da iştirak ediblər.

Lakin münasibətlərimiz enerji məsələləri ilə məhdudlaşmır. Prezident Əliyevlə söhbətimiz zamanı bildirdik ki, fransız şirkətlərinə daha geniş imkanlar yaradılmalıdır. Bu haqda biz bir azdan biznes-forumda danışacağıq. İstərdik ki, fransız

şirkətləri şəhərsalma layihələrində geniş şəkildə iştirak etsin. Bu, Azərbaycan üçün prioritetdir. Tullantıların işlənilməsi, aqroərzaq, nəqliyyat sahələrini qeyd etmək olar. Yeri gəlmişkən, nəqliyyat sahəsində müqavilələr imzalanacaqdır. Onu da qeyd etmək vacibdir ki, Azərbaycan dünyada ən müasir nəqliyyat sistemini tətbiq etmək arzusundadır. O cümlədən rəqəmsal, yüksək texnologiyaları tətbiq etmək istəyir. Bu sahələrdə isə fransız şirkətləri liderdir.

Biz həmçinin mədəniyyət və təhsil sahəsində yüksək səviyyəli əlaqələrə malikik. Bu isə səfərin məhz Bakıdakı Fransız liseyindən başlamasını bir daha izah edir. Həqiqətən, bu, Azərbaycanın iqtisadi inkişafına töhfə verən fransız ailələrindən olan şagirdləri, o cümlədən ayıracağımız təqaüdlər hesabına Fransanın universitetlərinə tələbə kimi qəbul olunacaq Azərbaycan şagirdlərini qəbul edəcək müasir təhsil ocağına çevriləcəkdir. Bundan əlavə, Azərbaycan tədbirləri, məsələn, idman oyunlarını təşkil etmək arzusundadır. 2015-ci ildə Avropa oyunları keçiriləcək, digər tədbirlər də sizi gözləyir. Bakı şəhərində «Formula-1» yarışı keçiriləcəkdir. Biz sizi həmin tədbirlərdə müşayiət etmək üçün ölkənizə gəlməliyik.

Eyni zamanda, regionlarımız arasında da əməkdaşlığımız genişlənməlidir. Bilirəm, burada bölgələrimizin bəzi nümayəndələri əyləşib ki, rayonlarımız və departamentlərimiz arasında əlaqələr qurulsun. Biz elə etməliyik ki, bölgələrimiz də Azərbaycanın inkişafında tam şəkildə iştirak etsin. Səfərin mənası bundan ibarətdir, onun məqsədi uzun perspektivlidir. Çünki hesab edirik ki, biz uzaq gələcəkdə daha böyük nəticələri, sərmayələri əldə edə bilərik. Bütün bunlar regionunuzun – Qafqazın gələcəyi ilə, Avropa və Fransa ilə bağlı olan gələcəklə əlaqəlidir və siz bununla daha yaxşı əlaqələrə nail olacaqsınız.

Cənab Prezident, göstərdiyiniz olduqca səmimi qonaqpərvərliyə görə bir daha minnətdaram. Sağ olun.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**S u a l:** *(Frans-Press Agentliyinin müxbiri Ervi Askin):* **Cənab Prezident, əvvəlcə səfərin ümumi məqsədinə dair sual vermək istərdim. Cənab Olland, indiki vaxtda etdiyiniz səfər Rusiya ilə olan gərginliyi daha da artırmayacaqmı? Digər sualım cənab Əliyevədir: Ukraynadakı böhran Sizin Avropa İttifaqı ilə yaxınlaşmağınıza mane ola bilərmi? İcazə versəniz, ikinci sualımı da verim. Sualım insan hüquqları ilə bağlıdır. Cənab Olland, azərbaycanlı həmkarınızla bu məsələni, xüsusən də Leyla Yunus və jurnalist Rauf Mirqədirovun məsələsini müzakirə etdinizmi? Cənab Əliyev, prezidentin bu səfəri hər iki şəxsə münasibətdə mərhəmət jestinə səbəb ola bilərmi?**

**F r a n s u a O l l a n d:** Fransa mətbuatı hər zaman bir sualla bir neçə sual verir. Bu isə mənə bir neçə cavab vermək imkanı yaradır. Beləliklə, «Şərq Tərəfdaşlığı» və bu gün həyata keçirdiyim səfərlə bağlı suala gəldikdə, deməliyəm ki, bu cür təşəbbüs və addımlar heç kimə qarşı yönəlməyib. Onun məqsədi Avropa, Fransa ilə bu gün müstəqil olan tərəfdaşlar arasında münasibətlərin möhkəmləndirilməsidir. Bu tərəfdaşlar öz inkişafında maraqlıdırlar. Biz ölkəni hər hansı digər əməkdaşlıqdan qoparmaq istəmirik. Biz elə edirik ki, ölkələr öz gələcəyini azad şəkildə təyin etsin və qonşuları ilə də yaxşı münasibətlər saxlasın. Mən bu sözləri həm Azərbaycana, həm Ermənistana, həm də Gürcüstana aid etmək istəyirəm. Çünki mən hər 3 ölkəyə səfər edirəm. Biz həmçinin elə etməliyik ki, bəzən çox qıcıqlandırıcı olan problemlər belə, öz həllini tapsın. Burada isə bu, Dağlıq Qarabağ problemidir. Bunu mütləq qeyd etmək lazımdır. Bu haqda biz elə indicə prezident Əliyevlə danışdıq, bir azdan sonra prezident Sarkisyanla söhbət aparılacaqdır. Çünki bu münaqişənin çözülməsində Fransanın da məsuliyyəti vardır. Eyni məsələni mən Gürcüstanda da

qaldıracağam. Bu, ərazi ilə bağlı olan məsələlərdir və uzun illərdir ki, davam edir.

İnsan hüquqları ilə bağlı verdiyiniz ikinci suala gəldikdə, mən etdiyim səfərlər çərçivəsində Fransanı maraqlandıran məsələləri təbii ki, qaldırıram. Bu onunla bağlı deyil ki, biz daxili işlərə müdaxilə edirik, onlar sadəcə olaraq, dəyərlər və prinsiplərlə bağlı olan məsələlərdir. Yaxşı münasibətlərə nail olmaq üçün biz gərək bütün məsələləri birgə müzakirə edək.

**İ l h a m  Ə l i y e v:** Bizim Avropa İttifaqı ilə əlaqələrimizin gözəl tarixi vardır və bu əlaqələr gündən-günə möhkəmlənir. Gündəliyimiz də çox genişdir, bütün məsələləri əhatə edir. Siyasi dialoq, Azərbaycanda aparılan siyasi islahatlar danışıqlar mövzusudur. Avropa ilə iqtisadi əlaqələr də diqqət mərkəzindədir. Çünki Avropa ölkələri bizim birinci ticarət tərəfdaşlarımızdır.

Əlbəttə ki, Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı irəli sürdüyü təşəbbüslər Avropa qurumları tərəfindən dəstəklənir. Biz çox səmərəli və gözəl əməkdaşlıq yaratmışıq. Yəni sizin sualınıza cavab olaraq qeyd etmək istəyirəm ki, bizim, ümumiyyətlə, xarici, yaxud da ki, daxili siyasətlə bağlı olan addımlarımıza heç bir kənar tərəf təsir edə bilməz. Azərbaycan müstəqil dövlətdir, müstəqilliyi hər şeydən üstün tutur və müstəqillik imkanlarından çox səmərəli şəkildə istifadə edir. Biz iqtisadi və siyasi sahələrdə islahatlar aparırıq. Siyasi islahatlar bizim üçün iqtisadi islahatlar qədər önəmlidir.

Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyət müsbətdir. Bütün fundamental azadlıqlar təmin edilir – söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, sərbəst toplaşmaq azadlığı. Azərbaycanda heç kim siyasi baxışlara görə təqib edilmir. Azərbaycanda internet azaddır, heç bir məhdudiyyət yoxdur. Əhalimizin 70 faizi internetdən istifadə edir. Yəni bizim üçün siyasi islahatlar çox vacibdir. Çünki biz ölkəmizi müasirləşdiririk. Müasir güclü Azərbaycan qururuq və demokratiyanın böyük ənənələri olan Fransa kimi ölkə ilə bu məsələlərdə biz daim bir yerdəyik, müzakirələr aparılır. Fransa–

Azərbaycan əlaqələri çoxşaxəlidir, bütün sahələri əhatə edir. Əminəm ki, gələcəkdə bu belə də olacaqdır.

**S u a l:** *(«Azad Azərbaycan» televiziyasının müxbiri Ceyhun Səfərov):* **Mənim sualım Fransa prezidenti cənab Fransua Ollandadır. Cənab Prezident, belə bir sual səsləndirəcəyəm. Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul edib. O vaxtdan 20 ildən artıq vaxt keçir. Siz özünüz də bunu qeyd etdiniz ki, bu münaqişə regional əməkdaşlığa və beynəlxalq təhlükəsizliyə ciddi təhlükə yaradır. Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Sizcə, qəbul olunmuş bu qətnamələrin Ermənistan tərəfindən yerinə yetirilməsi üçün nə etmək lazımdır? Təşəkkür edirəm.**

**F r a n s u a  O l l a n d:** Siz Fransanın xüsusi mövqeyini, məsuliyyətini xatırlatdınız. Bir sözlə, haqlısınız. Fransa Təhlükəsizlik Şurasının daimi üzvüdür, Fransa Minsk qrupunun həmsədridir. Fransa Dağlıq Qarabağ münaqişəsinin davamlı, birmənalı həlli üçün uzun müddətdir ki, səylər göstərir. Mən atəşkəsin 20-ci ildönümünü qeyd etdim. Xatırladıram ki, bu müharibədə minlərlə insan həlak olub. İnsidentlər bu gün də davam edir. Beləliklə, biz bu məsələ ilə əlaqədar səfərbər olmuşuq. Bir halda ki, mən bu səfəri Azərbaycana və Ermənistana həyata keçirirəm, bu o deməkdir ki, həll variantının tapılmasında mövcud olan prinsipləri xatırlatmağa çalışıram. Əvvəlcə söhbət etimad tədbirlərindən gedir. Onlar hər iki tərəfdən görülməlidir. Məsələ burasındadır ki, Fransanın həm Azərbaycan, həm də Ermənistan ilə yaxşı münasibətləri, dostluq əlaqələri vardır və biz onları bir-birinə qarşı qoymaq fikrində deyilik. İradəmiz ondan ibarətdir ki, biz faydalı olmalıyıq. Əgər bu mümkündürsə, mən bu haqda prezident Əliyevə dedim, bunu, həmçinin prezident Sarkisyana da deyəcəyəm, biz iki prezidentin görüşünü təşkil etmək istərdik və birinci etimad tədbirinin bir yerdə tapılmasına çalışa bilərik.

Beləliklə, ilk etimad tədbiri məsələnin həllinə zəmin yarada bilər. Bu münaqişə regionun inkişafı, insanların hərəkət etməsi üçün əsl maneədir. Bu bizim borcumuzdur. Fransa hər zaman fəaldır, məsələnin həll yolunun tapılmasına çalışır. Fransa təşəbbüslərlə çıxış edir. Mən burada Qafqazdakı vəziyyəti nəzərdə tuturam. Digər məsələlərə baxaq: götürün Ukraynadakı vəziyyəti. Təşəbbüsümüz ondan ibarətdir ki, bir tərəfdən, prinsiplərə gəldikdə çox qətiyyətli olmalıyıq, digər tərəfdən isə dialoq amilini yaratmalıyıq. Dialoqu xüsusilə xatırlatmaq lazımdır. Mən Ukraynanı nəzərdə tuturam. Gələn günlər ərzində bu meyar həlledici olacaqdır. Qeyd etmək istəyirəm ki, xeyir-xahlıq naminə məsləhətləşmələr aparılmalıdır. Bu məsləhət-ləşmələr dünən aparıldı, əsas olmadan, seçicilər siyahısı olmadan nəticələr mümkün deyildir. İndi isə dialoq aparılır, çünki Ukraynada azlıqlara da hörmətlə yanaşmaq lazımdır. Mən bu sözləri, həmçinin Avropanın şərqinə də aid etmək istərdim. Mən həmçinin bəyan etdim ki, Fransa Afrika üçün də bir sıra təşəbbüsləri irəli sürməyə hazırdır. 220-yə yaxın nigeriyalı gənc qızın oğurlanması ilə bağlı baş verən faciə. Onların aparıldığı yer bilinmir. Onlar quldarlıq məqsədi üçün oğurlanıblar. Bu halda mən Nigeriya prezidenti Qudlak Conatana bəyan etdim ki, biz öz təşəbbüsümüzlə çıxış edəcəyik və şənbə günü Nigeriyanın qonşu ölkələri ilə birgə görüş keçirəcəyik.

Bir sözlə, hər zaman Fransa fəaldır, buna görə də etdiyim üçgünlük səfər faydalı ola bilər. Bu, sırf yaxşı iqtisadi münasibətlər mövzusu, müqavilələrin imzalanması ilə bağlı deyildir. Baxmayaraq ki, bu da vacibdir. Bu həmçinin onunla bağlıdır ki, Fransa Təhlükəsizlik Şurasının daimi üzvü kimi, bütün dünya üçün faydalı ola bilər.

## AZƏRBAYCAN–FRANSA BİZNES- FORUMUNDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*12 may 2014-cü il*

*Mayın 12-də Heydər Əliyev Mərkəzində Azərbaycan–Fransa biznes-forumu keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Fransa Respublikasının Prezidenti Fransua Olland biznes-forumda iştirak etmişlər.*

*Dövlət başçıları forumda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi və Sizinlə bərabər Azərbaycana gəlmiş nümayəndə heyətinin bütün üzvlərini bir daha səmimiyyətlə salamlayıram. Biznes-forum iştirakçılarını xüsusilə salamlayıram. Bilirəm ki, bu gün səhərdən Fransa və Azərbaycan iş adamları biznes-forumda bir-biri ilə görüşürlər, danışırlar, fikir mübadiləsi aparırlar. Əlbəttə ki, biznes qurumlarının birgə fəaliyyəti və ticarət əlaqələrinin inkişafı bizim ümumi inkişafımıza gözəl dəstək olacaqdır.

Sizin səfəriniz dünən Fransız liseyindən başlamışdır, bu gün isə biznes-forumda başa çatır. Bu arada Sizinlə apardığım danışıqlar, fikir mübadiləsi və səmimi söhbətlər bir daha bizi əmin edir ki, Fransa–Azərbaycan əlaqələri bundan sonra da yüksələn xətlə inkişaf edəcək və bizim siyasi, iqtisadi əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

Şübhə yoxdur ki, Fransa Prezidentinin Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərdə çox əlamətdar hadisədir. Bu səfər əlaqələrimizin inkişafına çox güclü təkan verəcəkdir. Biz dünən və bu gün müxtəlif mövzular ətrafında geniş fikir mübadiləsi, məsləhətləşmələr apardıq. Bizim gələcək əlaqələrimizin inkişafı ilə bağlı konkret tapşırıqlar da verilmişdir. Bu gün imzalanan və imzalanacaq sənədlər əməkdaşlığımızın müxtəlif aspektlərinin inkişafına xidmət göstərir.

Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Əlbəttə ki, biznes dairələri də bunu yaxşı bilir. Çünki təbii ki, biznes dairələri özlərini siyasi əlaqələrin yüksək səviyyədə olduğu ölkələrdə rahat hiss edirlər. Siyasi əlaqələrimizin inkişafı üçün bundan sonra da müvafiq addımlar atılacaqdır.

Bir sözlə, əlaqələrimiz çoxşaxəlidir və bir çox sahələri əhatə edir. Hər bir sahə üzrə konkret proqramlar vardır, sənədlər imzalanıbdır. Bu bizə imkan verəcəkdir ki, Fransa–Azərbaycan əlaqələri çoxşaxəli formada inkişaf etsin. Bu həm ikitərəfli əlaqələrimiz üçün yeni imkanlar yaradır, regional əməkdaşlıq üçün yeni üfüqlər açır, eyni zamanda, Avropa–Azərbaycan əlaqələrinin inkişafı üçün də Fransa–Azərbaycan əlaqələri çox mühüm rol oynayır. Çünki Fransa Avropanın aparıcı dövlətidir və Azərbaycan–Avropa İttifaqı əlaqələrinin inkişafında, əlbəttə ki, Fransanın xüsusi yeri və rolu vardır.

İqtisadi sahəyə gəldikdə, mən çox şadam ki, Azərbaycan Fransanın Cənubi Qafqazdakı birinci ticarət tərəfdaşıdır. Bizim ticarət dövriyyəmiz 2 milyard dollara yaxınlaşır. Əldə edilmiş razılaşmalar və imzalanacaq müqavilələr nəticəsində bu rəqəm daha da artacaqdır. Təbii ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Hesab edirəm ki, indiki ticarət dövriyyəsinin həcmi yaxşı bir başlanğıcdır. Bunu artırmaq üçün konkret imkanlar və müştərək siyasi iradə vardır.

Azərbaycanda 50-dən çox Fransa şirkəti fəaliyyət göstərir – həm investorlar, həm podratçı-kontraktorlar kimi. Hesab edirəm ki, növbəti illərdə biz bu istiqamət üzrə inkişaf edəcəyik. Biz

Fransa şirkətlərini Azərbaycanda investisiya qoymaq və bizim layihələrdə podratçı-kontraktor kimi iştirak etmək üçün dəvət edirik.

Bu günə qədər ölkəmiz üçün çox vacib olan bir neçə layihədə Fransa şirkətləri çox fəal iştirak etmişlər, yüksək peşəkarlıq göstərmişlər. Onların çox gözəl reputasiyası vardır. Onlar tərəfindən icra edilmiş layihələr Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə xidmət göstərir.

Ümid edirəm ki, biznes-forumun nəticəsi olaraq, bizim iş adamları arasındakı əlaqələr daha da yüksək pilləyə qalxacaqdır. Azərbaycanda görüləsi işlər çoxdur, infrastruktur layihələri bizim üçün prioritet təşkil edir. Eyni zamanda, ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Postsovet məkanında birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan birinci yerdədir. Son 10 il ərzində ölkə iqtisadiyyatına 150 milyard dollar sərmayə qoyulmuşdur. Təkcə keçən il 25 milyard dollardan çox sərmayə yatırılmışdır. Onlardan 30 faizi xarici sərmayədir.

Çox sevindirici hal ondan ibarətdir ki, xarici şirkətlər təkcə neft-qaz sektoruna deyil, qeyri-neft sektoruna da öz investisiyalarını qoyurlar. Yəni Azərbaycanın uzunmüddətli uğurlu inkişafına böyük inam vardır. Bu inam əsassız deyildir. Çünki son illər ərzində iqtisadi sahədə, ümumiyyətlə, ölkəmizin inkişafı ilə bağlı atılan addımlar konkret nəticələrə gətirib çıxarmışdır. Azərbaycan vətəndaşları, Azərbaycan əhalisi müstəqilliyin üstünlüklərini gündəlik həyatda görürlər.

Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir. Deyə bilərəm ki, son 10 il ərzində dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyat Azərbaycan iqtisadiyyatı olmuşdur. Ümumi daxili məhsul 3 dəfədən çox artmışdır. Bununla bərabər, sosial məsələlər öz həllini tapmışdır, işsizlik aradan qaldırılıb, cəmi 5 faiz təşkil edir. Xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulun 8 faizini təşkil edir. Bu bizə imkan verir ki, xarici maliyyə bazarlarında ölkə iqtisadiyyatına istədiyimiz qədər maliyyə resursları cəlb edək. Ancaq biz bu sahəyə çox böyük

ehtiyatla yanaşırıq. Çünki öz maliyyə imkanlarımız da vardır. Biz ilk növbədə, onlardan istifadə edirik.

Azərbaycan iqtisadiyyatının rəqabətqabliyyətliliyi artır. Dünya Davos İqtisadi Forumunun son hesablamalarına görə, ölkə iqtisadiyyatı dünya miqyasında rəqabətqabliyyətliliyinə görə 39-cu yerdədir. Cəmi 20 ildən bir qədər çox bazar iqtisadiyyatı prinsipləri ilə çalışan iqtisadiyyat üçün bu çox böyük göstəricidir. Onu da qeyd etməliyəm ki, biz müstəqilliyi qazananda ümumi daxili məhsulumuzda özəl sektorun payı sıfıra bərabər idi. Hazırda bu, 80 faizdən çoxdur. Yəni özəl sektorun inkişafı, xarici sərmayələrin cəlb edilməsi, eyni zamanda, dövlət investisiyalarının ölkə üçün prioritet təşkil edən sahələrə yönəldilməsi bu gözəl şəraiti yaratmışdır.

Növbəti illərdə bizim əsas prioritetimiz qeyri-neft sektorunun inkişafı olacaqdır və bu istiqamətdə konkret addımlar atılır. Fransa şirkətlərinin təcrübəsi, onların töhfəsi bizə çox lazımdır, böyük əhəmiyyət kəsb edir. Əminəm ki, növbəti illərdə biz müxtəlif sahələrdə uğurlu əməkdaşlıq edəcəyik.

Mən prioritetlər arasında nəqliyyat sektorunu qeyd etmək istərdim. Bilirəm ki, nəqliyyat sektorunda yeni kontraktların imzalanması gözlənilir. Burada Fransanın dünya səviyyəli təcrübəsi hər kəs üçün bəllidir. İnformasiya-kommunikasiya sektorunun inkişafı bizim üçün prioritetdir. Biz burada da əməkdaşlıq edirik, edəcəyik.

Azərbaycan hazırda kosmik sənayenin inkişafı ilə məşğuldur. Keçən il birinci Azərbaycan peyki – «Azərspace-1» orbitə buraxılmışdır və «Arianespace» şirkəti bu sevinci bizə bəxş etmişdir. Biz növbəti illərdə də kosmik sənayedə birgə işləyəcəyik. Hesab edirəm ki, Fransa bu sahədə Azərbaycanın bir nömrəli tərəfdaşı olmalıdır.

Fransa şirkətləri inşaat sektorunda müxtəlif layihələrdə iştirak edirlər. Turizm, kənd təsərrüfatı, xüsusilə üzümçülük sektorunun bərpası gündəlikdə duran məsələdir və burada Fransadan daha yaxşı tərəfdaş axtarmaq, əlbəttə ki, düzgün olmazdı. Bir sözlə, biz Fransa şirkətlərini Azərbaycanda daha

da böyük həcmdə iş görməyə dəvət edirik. Yenə də deyirəm, 2 istiqamət üzrə – investor və kontraktor kimi. Beləliklə, növbəti illərdə, əminəm ki, əlaqələrimiz daha da yüksək səviyyəyə qalxacaqdır.

Bir-iki kəlmə enerji sektoru ilə bağlı demək istərdim. Bu sektorun da böyük əhəmiyyəti vardır. Artıq bu sahədə görülən işlər regionumuzun çərçivələrindən çıxıb, daha çox qlobal xarakter daşıyır. Azərbaycan Xəzər dənizindən Qərb istiqamətinə gedən bütün neft-qaz kəmərlərinin inşasının təşəbbüskarıdır və bu layihələrin icrasında liderlik mövqelərinə malikdir.

Keçən il XXI əsrin kontraktı imzalanmışdır. Bu, 3 komponentdən ibarətdir: hasilat, nəqliyyat və satış. Burada Avropa İttifaqı–Azərbaycan əlaqələrinin əhəmiyyəti ön plandadır. Bu layihə Avropanın ən böyük infrastruktur layihəsidir. Oraya qoyulacaq sərmayənin həcmi təqribən 45 milyard dollar olacaqdır. Əlbəttə ki, biz Fransa şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edirik. Əminəm ki, bu sahədə əməkdaşlıq həm bizim müştərək maraqlarımızı təmin edəcək, həm gözəl biznes imkanları yaradacaq və beləliklə, Fransa–Azərbaycan dostluğu bundan sonra da uğurla inkişaf edəcəkdir.

Cənab Prezident, mən Sizi bir daha ürəkdən salamlayıram. Bir daha mənim dəvətimi qəbul edib Azərbaycana səfər etdiyiniz üçün Sizə minnətdaram. Bütün qonaqlarımıza və dost Fransa xalqına inkişaf, tərəqqi, əmin-amanlıq arzulayıram. Sağ olun.

## Fransa prezidenti Fransua Ollandın çıxışı

Cənab Prezident!
Hörmətli xanım!
Xanımlar və cənablar!
Hörmətli Azərbaycan və fransız müəssisələrinin rəhbərləri!

Siz forum məqsədilə buraya toplaşmısınız. Prezident Əliyevin də qeyd etdiyi kimi, tədbir müstəsna xarakter daşıyır. İlk dəfədir ki, biz olduqca möhtəşəm binada toplaşmışıq.

Müəssisə rəhbərləri arasında keçirilən görüşün məqsədi münasibətlərimizi inkişaf etdirməkdən, əməkdaşlığı genişləndirməkdən, sərmayələri artırmaqdan ibarətdir.

Cənab Prezident, mən mühüm siyasi məsələləri müzakirə etmək, təxirəsalınmaz mövzular haqqında danışmaq, o cümlədən tərəfdaşlığımızın yeni istiqamətlərini müəyyən etmək üçün bu səfərə gəlmişəm. Əslində, istər Azərbaycan, istərsə də Fransanın maraqlarına gəldikdə, biz uzun perspektivli planlara malikik. Beləliklə, həmin planları məzmunlu etmək üçün strategiya üzərində, onun təfsilatları haqqında düşünürük.

Bu işləri biz Azərbaycan üçün görürük və ölkədəki dəyişikliklərin şahidiyik. Onların miqyası böyükdür. Enerji sahəsinə sərmayələrin cəlb edilməsi istiqamətində gördüyünüz işlər təqdirəlayiqdir. Eyni zamanda, nəqliyyat, tikinti, infrastruktur, yeyinti məhsulları kimi sahələrdə gördüyünüz işlər, fikrimcə, region və bütövlükdə dünya üçün nümunəvidir. Siz ehtiyatlarınızdan lazımi şəkildə istifadə etməyi bacardınız. Neft və qazdan inkişaf layihələri üçün ən yaxşı şəkildə istifadə etdiniz.

Bizim də Fransada eyni planlarımız vardır. Nə etməliyik? Qarşıdan gələn 10 il ərzində hansı işləri görməliyik? Hansı üstünlüklərə malik olmalıyıq? Gələcək üçün hansı perspektivli sənaye sahələrini müəyyən etməliyik, o sahələrdə ki, Fransa liderə çevrilsin? Biz «Fransa-34» sənayeləşmə planını tərtib etmişik. Onları dost ölkələrlə birgə həyata keçirmək fikrindəyik. Bundan əlavə, Azərbaycan kimi böyük inkişafda olan ölkələrlə də uzunmüddətli tərəfdaşlıq qurmalıyıq. Bu işlə məhz bu gün məşğuluq, yəni uzunmüddətli strategiyanı müəyyən edirik.

Siz Fransa ilə Azərbaycan arasında mübadilələri bu gün xatırlatdınız. Mən bunu sevinc hissi ilə qarşıladım. İxracımız dayanmadan artır. Son 1 il ərzində bazardakı payımız 2 dəfə artıb. Hazırda o, Azərbaycan bazarının 4 faizini təşkil edir. Eyni

zamanda, biz ölkənizin yeddinci təchizatçısıyıq. Onda mənə belə gəlir ki, məqsədə nail olmuşuq. Məramımız daha böyük nəticələrə nail olmaqdır. Əvvəlcə biz ixracımızı artıra bilərik. Həmçinin Azərbaycandan daha çox karbohidrogen məhsulları idxal edə bilərik. Bir sözlə, forum münasibətilə birgə görəcəyimiz iş 2 ölkənin müəssisə rəhbərləri, nazirliklərin məsul nümayəndələri ilə birgə hərtərəfli inkişafı təmin etmək məqsədilə biz fransızların və siz azərbaycanlıların daha yaxından əməkdaşlıq edəcəyimiz sektorları müəyyən etməkdən ibarət ola bilər.

Birinci sahə enerji sahəsidir. Azərbaycan həm iqtisadi, həm siyasi baxımdan strateji rol oynayır. Bu, Avropaya enerji təchizatı, onun enerji təhlükəsizliyi məsələsidir. Bu səbəbdən, mən illər boyu həmin sahələrdə işləyən fransız şirkətlərini sizinlə daha yaxından işləmək üçün buraya dəvət etdim. Mən xüsusən də «Total» və «GDF–Suez» şirkətlərinin iştirak etdiyi yeni «Abşeron» yatağını nəzərdə tuturam. Bilirəm ki, bu 2 böyük fransız şirkəti layihələri gəlirli etmək məqsədilə sərmayə qoyuluşu baxımından daha çox işləri görmək arzusundadır.

Siz həmçinin enerji daşıyıcılarının çatdırılması yollarını şaxələndirmək istəyirsiniz. Sizin 100, 150 il ərzində yetərli olacaq neft və qaz ehtiyatlarınız vardır. Bəli, hələ ki, bilmirik, bu 100, yoxsa 150 il olacaqdır. Lakin bu əminlik bizdə artıq vardır, əgər digər ehtiyatları istifadə etməsək, bu belə də olacaqdır.

Bizim ölkəmizin isə öz ehtiyatları yoxdur. Beləliklə, enerji mənbələrini şaxələndirməliyik. Siz də istiqamətlərinizi şaxələndirməlisiniz. Çünki hər zaman işləri əvvəlcədən planlaşdırmaq lazımdır. Bu halda biz Azərbaycana yardım etməyə və öz texnologiyalarımızla enerji inkişafınızı, hətta nüvə enerjisi, bərpa olunan enerji sahəsində tərəqqinizi təmin etməyə hazırıq.

Bundan əlavə, kosmos sahəsi vardır. «Arianespace»in adını çəkdiniz. Ötən il peykiniz uğurla fəzaya buraxıldı. Digər bu kimi hallar da təmin edilə bilər. Kosmos sahəsində biz çox mühüm razılaşmalara nail olmuşuq. İnanmaq istərdim ki, bu

bizim böyük tərəfdaşlığımızın başlanğıcı ola bilər. Çünki bunun nəticəsində bütöv telekommunikasiya sektoru dəyişəcəkdir. Digər iri müəssisələrimiz – «Thales», «Airbus Defense and Space» vardır. Bilirəm ki, bu müəssisələr artıq sizinlə işləyir.

Üçüncü sahə dayanıqlı şəhər inkişafıdır. Bakıda geniş-miqyaslı yeniləşmə işləri aparılır, böyük dəyişikliklər gedir. Dünən biz fransız məhəlləsini ziyarət etdik. Orada öz gözlərimlə gördüm ki, binalar sıfırdan qaldırılır. Hətta orada söhbət etdiyimiz zaman belə, işlər dayanmırdı, lap liseydəki kimi. Mən şəhərin elə bir hissəsini gördüm ki, orada illər boyu sənaye zonaları, Gəmi təmiri zavodu yerləşirdi. Siz orada «Eurovision» müsabiqəsi üçün saray tikdiniz və hazırda həmin yerdə böyük mədəni tədbirlər keçirilir. Bu, turizm zonasına çevrilib. Beləliklə, siz sübut etdiniz ki, bir neçə il ərzində şəhər nəinki iqtisadi inkişafdan faydalana, o cümlədən şəhərsalma planları əsasında daha da gözəlləşə bilər.

Bir sözlə, bütün imkanlarımızla sizin yanınızdayıq. Məsələn, nəqliyyat məsələlərində yardım edə bilərik. Tullantılar məsələsi həll olunmaq üzrədir. «CNIM» kimi iri fransız şirkətləri buradadır. Beləliklə, çirkab suların təmizlənməsinə gəldikdə, digər şirkətlərimiz də səlahiyyətinizdədir. Eyni zamanda, sizi rəqəmsal məhsullar sahəsində müşayiət etməyə hazırdırlar. Çünki reallıqda sabahın, ümumiyyətlə, gələcəyin şəhəri elə bir məfhumdur ki, biz onu ixtira etməliyik. Yəni yeni yaşayış tərzini formalaşdırmaq üçün bütün bu texnologiyalar bir araya gətirilməli, eyni məqsədə xidmət etməlidir.

Gələn illərdə Bakı və istədiyiniz digər şəhərlər də var ki, onları inkişaf etdirmək istəyirsiniz. Bu sahədə də tələbatınıza cavab vermək üçün biz bütün imkanlarımızdan istifadə etməyə hazırıq.

Digər sahə kənd təsərrüfatı və aqroərzaq sahəsidir. Burada kənd təsərrüfatı ənənələri vardır. Bu məhsullar yüksək keyfiyyəti ilə seçilir. Siz üzümçülük sahəsini qeyd etdiniz. Lakin maldarlıq və süd məhsulları sahəsi də vardır. Bu sahədə, həmçinin şirkətlərimiz və bölgələrimiz mövcuddur. Onlar

xüsusən də maldarlıq sahəsində öz bacarıqlarını, təcrübələrini təqdim edə, sizinlə bilikləri, nou-haunu bölüşə bilərlər.

Nəhayət, turizm sahəsi. Azərbaycanı çox sayda turistləri qəbul edə biləcək böyük turizm ölkəsinə çevirmək arzunuzdan xəbərimiz vardır. 2 gündür buradayam və açıqlığın mövcudluğunu görürəm. Sizin infrastruktur vardır, istəyiniz mövcuddur. Biz isə öz nou-haumuzu ölkənizdə tətbiq edə bilərik. Bilirəm ki, buradakı bir çox şirkətlər öz sahələri üzrə əməkdaşlıqda maraqlıdırlar.

Mən digər sahələri də qeyd edə bilərdim. Lakin eyni zamanda, idman və mədəni tədbirlər də vardır. Fransa hesab edir ki, mədəniyyət və idman sadəcə dəyər, vacib hesab etdiyimiz prinsiplər, təmin etdiyimiz azadlıqlar, ictimaiyyətimizə gətirdiyi səadət deyil, onlar o cümlədən mühüm inkişaf istiqamətləridir. Siz seçiminizi etdiniz. Luvrda İslam mədəniyyət hissəsinin açılışını da mümkün etdiniz. Bu münasibətlə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, xanımınız 2 ölkənin incəsənət sahəsində yaxınlaşması üçün çox işlər görür. Lakin idman sahəsi də vardır. Bu yaxınlarda idman tədbirini keçirəcəksiniz. Bu sahədə də Sizi müşayiət etməyə hazırıq, çünki bu fəaliyyət çox iş yerlərini aça və burada işləmək istəyən digər şirkətləri də cəlb edə bilər. Məsələn, biz də Azərbaycan sərmayələrini istəyirik ki, bizim ölkədə də yeni iş yerləri açılsın. Şirkətləriniz idman, mədəniyyət və sənaye, tikinti sahəsində sərmayə qoya bilər. Bilirəm ki, biz bunun üçün müvafiq şərait yaratmalıyıq.

Cənab Prezident!

Xanımlar və cənablar!

Bir səfər digər səfərlə nəticələnə bilər. Mənim səfərim ölkələrimizin, hökumətlərimizin, iş adamlarımızın səylərinə davam olaraq həyata keçirilir. Bilirəm ki, prezident Əliyev bu görüşün uğurlu keçməsinə nə qədər əhəmiyyət verir. Bu səfər ölkələrimizin müəssisələri üçün bir sıra tərəfdaşlıq nümunələri, müqavilə və razılaşmalarla nəticələnə bilər. Arzu edirəm ki, bu, yaxşı bir fürsət olsun. Mübadilələr daha çox olsun, səfərlərin

sayı artsın və biz uzunmüddətli tərəfdaşlığımızı müəyyən edə bilək. Görülən işlər yalnız birinci mərhələdir və biz Fransa ilə Azərbaycan arasında gələn 10 il üçün ümumi inkişaf strategiyamızı birlikdə həyata keçirə bilərik.

Cənab Prezident, Fransaya etimad göstərdiyinizə görə minnətdaram.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Fransa prezidenti Fransua Olland biznes-forumda iştirak edən iş adamlarının suallarına cavab verdilər.*

**A l a i n D e l e a r d:** *(Fransanın «NFM Technologies» şirkətinin baş icraçı direktoru):* **Cənab Azərbaycan Respublikasının Prezidenti, cənab Fransa Respublikasının Prezidenti, Sizi salamlayıram. Mən «NFM Technologies» şirkətinin baş icraçı direktoruyam. Müəssisəmiz dünya miqyasında artıq 25 ildir ki, tunellərin dizaynı və qazılması ilə məşğul olur, onları istismar edir. Sualım belədir: tunel xidmətlərindən istifadə edəcək hansı metro, dəmir yolu, quru yollarının, eləcə də su kəmərlərinin çəkilməsi layihələri vardır? Bu sahədə gündəlik necədir? Vaxt cədvəli varmı? Bu layihələr üçün maliyyə resursları ayrılıbmı?**

**İ l h a m Ə l i y e v:** Nəqliyyatla bağlı olan layihələr bizim üçün prioritetdir və son illərdə dövlət xərclərinin böyük hissəsi nəqliyyat sektorunun inkişafına yönəldilmişdir. Çünki biz yaxşı başa düşürük ki, müasir nəqliyyat sistemi olmadan ölkəmizi hərtərəfli inkişaf etdirmək mümkün deyildir. O cümlədən şəhər nəqliyyatı ilə bağlı tədbirlər görülür. Metronun inkişafı ilə bağlı Dövlət Proqramı bir neçə il bundan əvvəl qəbul edilmişdir. Hazırda Bakı şəhərində 23 metro stansiyası vardır. Demək olar ki, son illərdə hər il 1 stansiya istifadəyə verilir və Dövlət Proqramına uyğun olaraq, 2030-cu ilə qədər stansiyaların sayı 70-ə çatmalıdır. Yəni Bakı şəhərində 50-yə yaxın metro stansiyası tikiləcək və beləliklə, bütün şəhər metro ilə təmin ediləcəkdir.

Əlbəttə, bu layihələri icra etmək üçün bizim öz imkanlarımız vardır. Maliyyə imkanlarımıza gəldikdə, biz burada heç bir problem görmürük. Çünki biz bu layihələri dövlət büdcəsi hesabına icra edirik. O ki qaldı işin icrası ilə bağlı olan məsələlər, burada həm Azərbaycan, həm də xarici şirkətlər uğurla fəaliyyət göstərə bilər.

Mən bilirəm ki, Fransanın bəzi şirkətləri tərəfindən bu sahəyə böyük maraq göstərilir və bizim aidiyyəti qurumlarla danışıqlar aparılır. Ümid edirəm ki, bu danışıqların yaxşı nəticələri olacaqdır və Fransa şirkətləri Bakıda həm metro tikintisi sahəsində, eyni zamanda, müasir metro vaqonlarının təchizatı işində bizə dəstək olacaqlar. Buna da böyük ehtiyac vardır. Çünki biz bu sahəni müasirləşdiririk, yeniləşdiririk. Bizə bu sahədə ən gözəl təcrübəyə malik olan strateji tərəfdaş lazımdır və siz də yaxşı bilirsiniz ki, Fransa şirkətləri burada çox böyük təcrübəyə malikdir.

Eyni zamanda, dəmir yolunun reabilitasiyası və tikintisi ilə bağlı çox böyük layihələr icra edilir. Mən Bakı–Tbilisi–Qars dəmir yolunu xüsusi qeyd etmək istəyirəm. Bu layihə gələn il artıq istifadəyə veriləcəkdir. Bu layihə Azərbaycan, Türkiyə və Gürcüstanı dəmir yolu xətti ilə birləşdirir və eyni zamanda, Asiyanı Avropa ilə birləşdirir. Biz bir növ dəmir «İpək yolu»nu yaradırıq və qədim İpək yolunu bərpa edirik. Həm Türkiyədə, həm Gürcüstanda, həm də Azərbaycanda dəmir yollarının tikintisi və reabilitasiyası, təmiri layihələri icra edilir. Bu yolların təmirindən sonra qatarların sürəti saatda ən azı 140 kilometr olacaq. Bu məqsədlə, əlbəttə ki, bizə həm yeni vaqonlar, həm də lokomotivlər lazım olacaqdır. Bildiyimə görə, bu sahədə də Fransa–Azərbaycan şirkətləri işləyirlər, çalışırlar. Çox güman ki, bu sahədə də müvafiq müqavilə imzalanacaqdır.

Yəni görüləcək bütün bu işlər haqqında bu gün, əlbəttə ki, geniş məlumat vermək mümkün deyildir. Əsas məsələ ondan ibarətdir ki, bu sahədə əməkdaşlığı dərinləşdirmək üçün hər iki tərəfin çox gözəl niyyəti vardır.

**A d ı g ö z ə l  A ğ a y e v:** *(«Ata Holding» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri):* **Mənim sualım Fransa Prezidentinədir. Cənab Prezident, bildiyiniz kimi, Azərbaycan son illər energetika sahəsində böyük uğurlar qazanıb. Ölkəmizdə enerji ixracı potensialı böyükdür. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə öz töhfəsini verməkdədir. Cənab Prezident, Fransa hökuməti gələcəkdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyətinə necə dəstək verəcəkdir? Təşəkkür edirəm.**

**F r a n s u a  O l l a n d:** Bu sualı bu gün səhər biz prezident Əliyev ilə müzakirə etdik. Çünki Azərbaycan böyük sərmayələr qoymağa hazırlaşır. Öz ehtiyatlarının işlənilməsi, xüsusən də qazın hasilatı və nəhayət, öz enerji daşıyıcılarının istehlakçı ölkələrə çatdırılması üçün çalışır. Bu sahədə də planlarımız vardır. Genişmiqyaslı işləri görmək üçün bu planlar 10,20,30 illəri əhatə etməlidir. Böyük xərclər tələb olunur. Əgər biz müəssisələri cəlb etmək istəyiriksə, şirkətin ölkəsindən asılı olmayaraq və əgər maliyyə imkanlarını səfərbər etmək istəyiriksə, onda biz bu imkanları yaratmalıyıq. Beləliklə, bu, ikitərəfli prosesdir, burada iqtisadi maraqlar vardır. Çünki ola bilsin, digər yataqlarda hasilatın aparılması üçün bu gün bəlkə də böyük sərmayələr tələb oluna bilər. Çünki perspektivdə onların istehlakçı ölkələrə çatdırılmasında bu layihələr iqtisadi səmərə verə bilər. Bu həmçinin strateji maraqlardır ki, gələn illərdə mən bütün Avropanı bu məsələyə səfərbər etməyə çalışacağam. Avropa elə bir qitədir ki, dünyanın aparıcı iqtisadi qüvvəsinə çevrilməkdə iddialıdır. Bunu demək azdır. Avropa dünyanın birinci iqtisadi gücüdür. Baxmayaraq ki, son illərdə biz böhran yaşamışıq, yenə də inkişafımızı artıq bərpa edirik. Bu artım texnologiya baxımından daha intensiv olmalı, yeni istehlak növlərini yaratmalıdır. Bu keçidi biz təmin etməliyik. Avropa öz enerji təhlükəsizliyini təmin etməlidir, öz təchizat mənbələrini şaxələndirməlidir, öz şəbəkələri arasında qarşılıqlı əlaqəni yaratmalıdır. Beləliklə, iqlim istiləşməsinə qarşı

mübarizə kimi vahid məqsəd uğrunda çalışmalıdır. Bir sözlə, Avropanın gələcəyi enerji təhlükəsizliyidir, rəqabətədavamlı qiymətlərdir. Çünki hazırda enerji qiymətləri üzrə böyük rəqabət gedir. Avropa, həmçinin iqlim istiləşməsinə qarşı mübarizə aparmalıdır. Bu baxımdan Avropa mütəşəkkil olmalıdır.

Mən mayın 25-də keçiriləcək seçkiləri qeyd etdim. Söhbət Avropanı gələcəkdə idarə edəcək şəxslərin seçilməsindən gedir. Lakin həmçinin məzmunlu addımlar atmaq, eyni zamanda, lazımi siyasəti yürütməkdən söhbət gedir. Ən azı gələn 5 il ərzində həmin Avropa layihələrinə gəldikdə, fikrimcə, biz enerji təhlükəsizliyi ilə bağlı qərarları qəbul etməliyik. Beləliklə, infrastruktur şəbəkəsini yaratmalı və qaz ehtiyatlarınızı Avropa istehlakçılarına çatdırmalı və bununla, təchizat mənbələrini şaxələndirməli və daha güclü enerji təhlükəsizliyini təmin etməliyik.

Daha böyük müstəqilliyimizi, yəni digər ölkələrə münasibətdə deyil, öz Avropamız üçün müstəqilliyimizi təmin etməliyik. Böhran xatirinə sadəcə oturub sual verməli deyilik: təchizatımız üçün nə edək? Xeyr. Hərəkətə keçmək üçün oturub böhranı gözləmək lazım deyildir. Bunu əvvəlcədən görməliyik. Onun qarşısını almalıyıq. Məqsədimiz bu cür olmalıdır. Müstəqil olmaq üçün daha da mütəşəkkil olmalıyıq. Hesab edirəm ki, müstəqil olan Azərbaycan da bu məqsəddə iştirak edəcəkdir.

**P y e r L a h u t t e:** *(Fransanın «IVECO» şirkətinin baş icraçı direktoru):* **Hörmətli Fransa Respublikasının Prezidenti, hörmətli Azərbaycan Respublikasının Prezidenti, əvvəlcə, olduqca məhsuldar biznes-forumu təşkil etdiyinizə görə minnətdaram. Mən «IVECO» şirkətini təmsil edirəm. Biz bu gün 150 avtobusun təchizat prosesini başa çatdırmışıq. Bu nəqliyyat vasitələri şəhərdə sərnişinlərin rahat daşınması üçün Fransanın bacarıq və təcrübəsini özündə əks etdirir. Onların davamlı inkişafa cavab verdiyini nəzərə alsaq, bu vasitələr çox faydalıdır. Bakı,**

**həmçinin həmin 150 avtobusla artıq Parisdəki imkanlardan istifadə edəcəkdir. Bunu xüsusilə qeyd edirəm. Bilmək istərdim, Bakı və Azərbaycanın digər şəhərləri üçün davamlı inkişafa gəldikdə, həmin nəqliyyat vasitələri hansı rol oynayıbdır?**

**F r a n s u a  O l l a n d:** Paris şəhərinə gəldikdə, lütfən nəzərə alın ki, mən bu suala cavab verməyəcəyəm. Çünki səlahiyyətlərin bölgüsü məsələsi vardır. Lakin mesajı çatdıracağam.

**İ l h a m  Ə l i y e v:** Mən deyə bilərəm ki, hər bir şəhər çalışmalıdır ki, Parisin səviyyəsinə çata bilsin. Çünki Paris şəhərlər arasında ən gözəl şəhərdir, dünyanın ən gözəl şəhəridir. Əminəm ki, həm Fransa, həm Azərbaycan nümayəndələri mənim sözümü dəstəkləyərlər.

Onu qeyd etməliyəm ki, Bakının qədim memarlıq əsərləri də Fransa memarlıq sənətindən nümunə götürüb və ondan ruhlanıb. Çünki əgər Bakının XIX əsrdə, XX əsrin əvvəllərində tikilmiş binalarına nəzər salsanız görərsiniz ki, Avropa memarlıq üsulları özünü büruzə verir. Əlbəttə ki, Avropa memarlığı deyəndə ilk növbədə, biz Fransanı nəzərdə tuturuq.

Bakının sürətli inkişafı bizi sevindirir. Eyni zamanda, deyə bilərəm ki, biz bu inkişafda inkişaf etmiş ölkələrin təcrübəsini öyrənmişik, baxmışıq, nümunə götürmüşük. Fürsətdən istifadə edərək, onu da qeyd etməliyəm ki, Fransanı və fransalıları yüksək zövq fərqləndirir. Dizayn, zövq – bu, tarixdən gələn bir istedaddır. Əlbəttə ki, bu gün Parisdə və Fransanın digər şəhərlərində yaşayan insanlar bu gözəlliyi görərək yeni əsərlər yaradırlar. Bu da təbiidir.

Fürsətdən istifadə edərək, bir daha qeyd etməliyəm ki, Fransa dünya mədəniyyətinə, incəsənətinə, elminə və memarlıq sənətinə əvəzolunmaz töhfələr vermişdir. Bu gün müasir texnikanın istehsalı sahəsində biz yenə də Fransa məhsullarında yüksək zövq, keyfiyyət və xarici gözəllik görürük.

Avtobuslara gəldikdə, siz yaxşı bilirsiniz ki, dünyanın müxtəlif yerlərində avtobuslar istehsal olunur və Bakıda yeni

avtobusların gətirilməsi layihəsi gündəlikdədir. Əlbəttə ki, bizim mütəxəssislər və ictimaiyyət bu məsələ ilə tanış olarkən Fransa avtobuslarına üstünlük verdilər. Çünki onlar ən gözəl, yaraşıqlı, ekoloji cəhətdən təmiz və keyfiyyətlidir.

Bildiyimə görə, 150 müasir avtobusun Azərbaycana gətirilməsi ilə bağlı kontrakt imzalanmağa hazırdır. 150 avtobusun alınması üçün opsion vardır və mən hesab edirəm ki, gələcəkdə Fransadan yüzlərlə avtobus Bakıya gətiriləcəkdir. Çünki bizim ehtiyacımız artır, əhali artır, tələbat artır və bəlkə gələcək illərdə bir neçə min avtobusdan söhbət gedə bilər. Bu da həm ticarət dövriyyəmizi artıracaq, eyni zamanda, Bakı sakinlərinə Fransa səviyyəli nəqliyyat xidmətini göstərəcəkdir.

**R i y a d H ü s e y n o v:** *(«Synergy Group» ASC-nin Müşahidə Şurasının sədri):* **Sualım Fransa Prezidentinədir. Fransa Avropanın aparıcı iqtisadiyyatlarından biridir. O cümlədən Azərbaycanın sürətli iqtisadi inkişafı son illər ölkəmizin investisiya potensialını daha da möhkəmləndirmişdir. Ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşu sahəsində əməkdaşlığın gələcəkdə daha da genişləndirilməsi imkanlarını necə dəyərləndirirsiniz?**

**F r a n s u a O l l a n d:** Mən getdiyim hər bir yerdə Fransaya gəlmək istəyən sərmayədarları gördüyüm zaman eyni müraciətlə çıxış edirəm. Bəli, ölkəmizə gəlmək, iş görmək, iş yerlərini fransız müəssisələri ilə birgə açmaq olar. Müştərək addımlarla, tərəfdaşlıqla etmək olar. Bəzən hətta müştərək fəaliyyətə ehtiyac olmasa, həmin şirkətlər Fransanın iqtisadiyyatında öz yerlərini tuta bilər. Biz bunu arzu edirik. Lakin şərtlərimiz də var, çünki bəzi sənaye sahələrində aparıcı mövqeni qoruyub saxlayırıq. Elə etməliyik ki, sərmayələr bir neçə ili yox, uzun perspektivi nəzərdə tutsun. Lakin burada mən hazır olduğumuzu sizə bəyan edirəm ki, biz Fransanın inkişafında iştirak etmək və müxtəlif sahələrdə işləmək istəyən Azərbaycan sərmayədarlarını müşayiət etməyə hazırıq.

Biz həmçinin ümumi iradə ilə birgə olaraq üçüncü ölkələrə sərmayə qoya bilərik. Azərbaycan və Fransa kapitalı ilə

texnologiyalarımız əsasında nou-haunu üçüncü ölkələrdə tətbiq edə bilərik. Bu barədə biz, həmçinin prezident Əliyev ilə söhbət apardıq. Beləliklə, arzu edirəm ki, bu forum çərçivəsində burada, Azərbaycanda sərmayə qoymaqda, eləcə də Fransada işləməkdə tərəfdaşlıq quraq və sonradan birlikdə yeni bazarlara daxil olaq.

Sözümü Fransa haqqında söylədiyi xoş sözlərə görə prezident Əliyevə minnətdarlığımı bildirməklə bitirmək istərdim. Bilmirəm, indiki bəyanatımı Fransanın ictimai rəyi üçün lentə yazaq, yoxsa yox?! Çünki biz özümüzlə çox öyünən xalqıq. Biz öz haqqımızda danışmağı sevirik. Hər zaman öz haqqımızda danışanda o qədər ürəkaçan sözləri söyləmirik. Lakin digər şəxslər bizim haqqımızda qeyri-məqbul danışanda, biz dərhal reaksiya veririk. Lakin bu çox nadir hallarda baş verir. Demək olar ki, mümkünsüzdür. Əgər mən prezident Əliyevin söylədiyini düzgün başa düşdümsə, onun Paris, Fransa, ölkənin imkanları, texnologiyaları, nou-hausu haqqında danışdıqlarını ən azı təkrarlamaq istərdim.

Əlbəttə ki, Fransada yaşam tərzi, mədəniyyət və Fransanın nüfuzunu formalaşdıran digər meyarlar vardır. Lakin Fransanı sevəndə, onun hər guşəsini sevirik. Çünki o, dəyərləri, prinsipləri, tarixi və həyat tərzini əks etdirir. Lakin burada innovasiyalar, bacarıqlar, texnologiyalar da vardır. Burada ən yaxşı texnologiyalara gəldikdə, hər şey vardır. Biz nəqliyyat, enerji, kosmos, şəhərsalma haqqında danışdıq. Hələ yeni texnologiyaları demirəm. Fransa bir tərəfdən, mədəniyyət və ənənələrdir, dəyər, prinsip və tarixdir, digər tərəfdən isə gələcəkdir. Fransa öz qüvvələrini, üstünlüklərini nəzərə alıb gələcəyi digərləri ilə bölüşməlidir və xüsusən də Fransanı sevənlərlə bölüşməlidir. Azərbaycan Fransanı sevir və onun özü də seviləcəkdir.

* * *

*Daha sonra forumda iqtisadi sahədə əməkdaşlığa dair ikitərəfli sənədlərin imzalanması mərasimi keçirildi.*

*Mərasimdə «Azərbaycan–Fransa Ticarət və Sənaye Palatası» İctimai Birliyinin təsis yığıncağının qərarı, sərnişin avtobuslarının təchizatına dair müqavilə, yük lokomotivlərinin alınmasına dair müqavilə, Azərbaycanın Gəncə şəhəri, Şəmkir, Göygöl və Balakən rayonlarının icra hakimiyyətləri ilə Fransanın Burqundiya regionunun Yon vilayətinin Ali Şurası arasında dostluq və əməkdaşlıq sazişi, Azərbaycanın Tovuz şəhəri və Fransanın Konyak şəhəri arasında qardaşlaşma sazişi, «Airbus Dies» şirkəti ilə «Azərkosmos» ASC arasında Yerin müşahidə xidmətləri sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu, praktiki təlim, nou-hau ötürülməsi və texniki yardıma dair müqavilə, «Air Liquide» şirkəti ilə Sumqayıt Kimya Sənaye Parkı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu, «Bouygues Travaux Publics» şirkəti ilə «Bakı Metropoliteni» QSC arasında «28 May» stansiyasının yenidən qurulması və metropolitenin yaşıl xəttinin «Xətai» – «Həzi Aslanov-2» hissəsinin tikintisinə dair Anlaşma memorandumları, «Thales» şirkəti ilə «Bakı Metropoliteni» QSC arasında ilkin araşdırmaların aparılması və təlim-tədris əməkdaşlığına dair Anlaşma Memorandumları, «Alstom Transport» şirkəti ilə «Bakı Metropoliteni» QSC arasında təchizat müqavilələrinə dair Anlaşma Memorandumu imzalandı.*

## FRANSA PREZİDENTİ FRANSUA OLLAND İLƏ BİRGƏ NAHARDA İŞTİRAK

*12 may 2014-cü il*

*Azərbaycan–Fransa biznes-forumu başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Fransa Respublikasının Prezidenti Fransua Olland birgə nahar etmişlər.*

*Mərasimdə iştirak edən Azərbaycan əsilli məşhur fransız teatr və kino aktyoru, rejissor, Parisin «Marini» Teatrının bədii rəhbəri Rober Osseyn çıxış edərək dedi:*

– Mən bunu iftixar və fərəh hissi ilə bu ölkənin övladı kimi qeyd etmək istəyirəm. Çünki mən hər ikisi Vətənim olan ölkələrimiz arasında böyük dostluğu, əgər belə demək olarsa, təcəssüm etdirirəm. Mən sevdiyim ölkədə – Fransada anadan olmuşam. Mən həmçinin qibtə etdiyim ölkənin – Azərbaycanın oğluyam. Hər 2 ölkə inkişaf edib. Bu ölkələrdə qadınlar, hətta digər ölkələrlə müqayisədə cəmiyyətdə daha mühüm yer tuturlar, kişilərlə bərabər mövqedədirlər. Fransa Respublikasının Prezidenti bilməlidir ki, bu paytaxt Bakı şəhərində həm sinaqoq, həm məscid, həm də kilsələr yan-yana mövcuddur, heç bir problem olmadan fəaliyyət göstərirlər.

*Rober Osseyn babasının Azərbaycanda doğulduğunu, atasının isə Səmərqənddə dünyaya gəldiyini bildirdi. Qeyd etdi ki, onlar Fransada yaşadıqları müddətdə dünya mədəniyyətinə və musiqisinə əvəzsiz töhfələr vermişlər. Onların yaratdıqları əsərlər hazırda müxtəlif səhnələrdə səsləndirilir və bu gün həmin ənənə Rober Osseynin oğlu Pyer tərəfindən davam etdirilir.*

*Mərasimin sonunda dövlət başçıları ilə görüşən Pyer Osseyn Azərbaycan tar alətində ifa etdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Fransa prezidenti Fransua Ollandı yola saldılar.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Manisa vilayətindəki kömür mədənində baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2014-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Manisa vilayətinin Soma rayonundakı kömür mədənində baş vermiş qəza nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbərindən olduqca kədərləndim.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2014-cü il*

**PANAMA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XUAN KARLOS VARELA RODRİGESƏ**

Zati-aliləri!

Panama Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Panama arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Panama xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2014-cü il*

**KOSTA-RİKA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LUİS GİLYERMO SOLİS RİVERAYA**

Zati-aliləri!

Kosta-Rika Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kosta-Rika arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, dost Kosta-Rika xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2014-cü il*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB GEORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Makedoniya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Makedoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsi məqsədilə qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Makedoniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2014-cü il*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Norveç arasındakı dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf edərək, bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2014-cü il*

## ŞAMAXI RAYONUNDA «ŞAMAXI PALACE PLATİNUM BY RİXOS» HOTEL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*14 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Şamaxı rayonunda «Şamaxı Palace Platinum By Rixos» hotel kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Avropa və Asiya arasında körpü rolu oynayan Azərbaycanda iqtisadiyyat, turizm, idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırıb. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası da buna əlverişli zəmin yaradır. Bu baxımdan Azərbaycanda hotel biznesinin daha da inkişafı üçün kompleks tədbirlər həyata keçirilir. Bu hotellərdə müştərilərə yüksək səviyyəli xidmətlər göstərilir.*

*Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkədir. Bundan başqa, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi, turizmin inkişafı da başlıca prioritetlərdəndir. Hazırda ölkəmizdə hotel biznesinin dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlər reallaşdırılır.*

*Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün ölkəmizin bütün bölgələri kimi, Şamaxı da öz qədim və tarixi görkəmini saxlamaqla müasirləşir. Rayonda tikintisinə 2011-ci ildə başlanılmış «Şamaxı Palace Platinum By Rixos» hoteli də həmin istiqamətdə atılan addımlardan biridir. Ölkəmizdə bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də respublikamıza gələn turistlərin sayının artmasına zəmin yaradır.*

«Şamaxı Palace Platinum By Rixos» hoteli təkcə Şamaxı rayonu üçün deyil, bölgə üçün də əhəmiyyətli turizm obyektidir. Mükəmməl infrastruktura malik bu hotel kompleksindəki şərait böyük turizm potensialına malik olan Şamaxıda turistlərin yüksək səviyyədə qəbulu üçün geniş imkanlar açacaqdır.

Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.

«Rixos» hotellər şəbəkəsinin İdarə Heyətinin sədri Fəttah Tamincə prezident İlham Əliyevə hotel kompleksi barədə məlumat verdi. Bildirildi ki, 43 min 370 kvadratmetr ərazidə inşa olunan hoteldə yüksək keyfiyyətli müxtəlif xidmətlər göstəriləcəkdir. Hotel kompleksi maraqlı memarlıq üslubunda inşa edilib. Avanqard və klassik arxitektura elementlərinin sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında orijinal mebel və aksessuarlardan istifadə olunub.

Prezidentin diqqətinə çatdırıldı ki, hoteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Bu əməkdaşlar hotelin istənilən xidmət sahəsində qonaqlara yüksək səviyyəli qulluğun göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunublar.

Hotel kompleksində müxtəlif toplantı və konfransların keçirilməsi üçün geniş imkanları olan 200 nəfərlik konfrans zalı, müasir restoranlar şəbəkəsi də fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaqdır.

Dövlətimizin başçısı hotel nömrələri ilə tanış oldu. Məlumat verildi ki, hoteldə müxtəlif kateqoriyadan olan nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Bütün bunlar sübut edir ki, paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin nəticəsidir. Bu çərçivədə «Şamaxı Palace Platinum By Rixos» hotelində yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir.

*Hoteldə uşaqların da istirahətinin təşkili üçün lazımi şərait yaradılıb. Burada uşaqlar üçün müxtəlif əyləncə və idman sahələri qurulub. Hoteldə qonaqların vaxtlarını səmərəli keçirmələri üçün bilyard və boulinq zalları da vardır.*

*Bu hoteldə qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Təklif olunan bəzi xidmət sahələri pulsuzdur. Burada quraşdırılan müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır.*

*Hotel kompleksi ilə tanışlıqdan sonra dövlətimizin başçısı kollektivlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir olsun!

Mən sizi salamlayıram. Bu gün Şamaxı rayonunda çox əlamətdar bir gündür. Şamaxıda belə gözəl, möhtəşəm hotel açılır, «Şamaxı Palace» hoteli. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu doğrudan da «Palace» hoteldir, yəni saraydır, saraya oxşayır. Həm xarici görünüşü, həm daxili dizaynı, rahatlığı, əlbəttə ki, ən yüksək səviyyədədir. Ən yüksək standartlar tətbiq edilib, otaqlar genişdir, rahatdır, istirahət üçün gözəl imkan vardır. «Rixos» kimi dünya miqyaslı şirkət bu hoteldə xidmət göstərəcəkdir. Bu, Azərbaycanda artıq üçüncü hoteldir ki, «Rixos» şirkəti onu idarə edir. Bundan əvvəl Qubada gözəl hotelin açılışında iştirak etmişəm, Naftalan şəhərində «Rixos» fəaliyyət göstərir və indi də Şamaxıda.

Bu özlüyündə bir göstəricidir. Çünki bu, Azərbaycanın inkişafına inamın əlamətidir. Azərbaycan inkişaf edir. Hər sahə inkişafdadır, o cümlədən turizm sahəsi. Son illərdə Azərbaycana gələn turistlərin sayının artması və yeni hotellərin açılışı ölkəmizin dinamik inkişafını göstərir. Çünki bundan sonra biz qeyri-neft sektorunun inkişafı ilə daha da ciddi məşğul olacağıq və ölkəmizi hərtərəfli – həm iqtisadi cəhətdən, həm regional baxımdan inkişaf etdirəcəyik.

Bildiyiniz kimi, Bakıda son 2-3 il ərzində bir neçə beşulduzlu hotel açılmışdır. Bu hotellər dünyanın ən yüksək hotel

şəbəkələrinin hotelləridir. «Four Seasons», «Fairmont», «Marriott», «Hilton», «Kempinski» «Jumeirah», «Sheraton», «Hyatt», yəni dünyanın 8 aparıcı hotel brendi bir şəhərdədir, özü də Bakı şəhərində. Yəni biz bunu ancaq dünyanın ən inkişaf etmiş şəhərlərində görə bilərik. Yenə də hotellər tikilir. Hazırda Bakıda «İnturist» hoteli tikilir. Bu da çox əlamətdar hadisədir. Çünki Bakının vaxtilə – keçən əsrin 50–60-cı illərində ən məşhur hoteli «İnturist» idi. Sonra «Yeni İnturist» tikildi, bunun adı oldu «Köhnə İnturist». Sonra əfsuslar olsun ki, o söküldü, yerində başqa bina tikildi. Ancaq bakılıların xatirəsində həmişə «İnturist» hoteli yaşayır.

Mən çox şadam ki, hazırda biz bu tarixi ədaləti bərpa edirik. «İnturist» hoteli tikilir. Adı da «İnturist» olacaq. Təxminən əvvəlki «İnturist»in yerinə çox yaxın bir yerdə tikilir. Dənizə mənzərəsi açılır və Yeni Bulvarın arxasında yerləşir. Eyni zamanda, «Ağ şəhər» bulvarında – bulvarın əks istiqamətində yeni böyük hotel tikilir. Beləliklə, Bakıda beşulduzlu hotellərin sayı ən azı 10-a çatacaq. Yəni bir neçə il ərzində beşulduzlu 10 hotelin fəaliyyətə başlaması özlüyündə ölkəmizin nə qədər sürətlə inkişaf etdiyini göstərir.

Turistlərin sayı, qonaqların sayı artır və hər qonaq, hər halda mənimlə görüşən xarici qonaqlar Bakı haqqında, Azərbaycan haqqında çox yüksək fikirdədirlər. Azərbaycanın inkişafı, Bakının gözəlliyi onları heyran edir. Keçən ay Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi istifadəyə verilmişdir. Bu da dünya miqyasında ən gözəl aerovağzal komplekslərindən biridir. Həm xarici görünüş, dizayn, interyer, həm də zövq baxımından ən yüksək səviyyədədir. Ona görə hazırda, bax, bu turizm və nəqliyyat infrastrukturu bizə imkan verir ki, bu sektoru sürətlə inkişaf etdirək.

Məni daha çox sevindirən odur ki, hazırda bölgələrdə ən müasir səviyyədə hotellər tikilir. Şimal-qərb zonasında, bax, Şamaxıda artıq ikinci hoteldir. Biri də tikilir. Qəbələ şəhəri artıq Azərbaycanın turizm mərkəzinə çevrilmişdir. Beynəlxalq aeroport və 4, ya da ki, 5 beşulduzlu hotel artıq fəaliyyət

göstərir. Şəki bizim qədim şəhərimizdir. Orada da hotellər tikilib. Şimal istiqamətində «Rixos» artıq Qubada fəaliyyət göstərir. Böyük qolf meydançası da vardır, burada dünya çempionatları keçirmək mümkündür. «Şahdağ» qış-yay turizm mərkəzi. Orada artıq 3 hotel açılıbdır – «Şahdağ», «Pik Palas», «Zirvə», dördüncüsü də tikilir. Qusar və Qəbələ rayonlarında dağ xizəyi kompleksləri açılıb. Bu, Azərbaycanda heç vaxt olmayıb. Yəni turizm Azərbaycanda hazırda ən sürətlə inkişaf edən sahələrdən biridir. Bunu beynəlxalq qurumlar da qeyd edirlər. Dünya Turizm Təşkilatının rəhbərliyi Azərbaycanda görülən işlərə çox yüksək qiymət verir.

Ölkəmiz çox gözəldir, zəngindir. Təbiətimiz, havamız, iqlimimiz böyük sərvətimizdir. Eyni zamanda, Azərbaycanda tarixən müalicə üçün də yerlər olub. Onların içində mən Naftalanı qeyd etmək istəyirəm. Orada da «Rixos» fəaliyyət göstərir və biz Naftalanın keçmiş şöhrətini bərpa edirik. Sovet vaxtında hər il 50–60 min insan Naftalana müalicə üçün gəlirdi.

Müstəqilliyin ilk illərində Azərbaycan erməni işğalına məruz qalmışdır. Məcburi köçkün soydaşlarımız o hotellərdə, sanatoriyalarda məskunlaşmışdı. Biz onlar üçün yeni evlər tikdik, qəsəbələr yaratdıq. Onlar çox gözəl yerlərə köçürüldülər. İndi Naftalanda Azərbaycanın müalicə mərkəzi tikilir. «Çinar», «Rixos» hotelləri və tikilməkdə olan «Qarabağ» hoteli də artıq Naftalanı bir turizm, istirahət, müalicə mərkəzi kimi, dünyaya təqdim edəcəkdir.

Yəni ərazisi o qədər də böyük olmayan ölkədə görün, artıq nə qədər turizm mərkəzləri vardır. Bakı dəniz sahilində istirahət üçün imkanlar yaradır – Qusar, Qəbələ dağ xizəyi, Şamaxı, Naftalan. Biz Qalaaltını da buraya əlavə etməliyik. Çünki sovet vaxtında Qalaaltı da ümumittifaq kurortu idi. Burada müalicəvi su da çox keyfiyyətlidir. İndi Qalaaltıda çox gözəl, yeni hotel tikilir.

Əlbəttə ki, bu, uzunmüddətli strategiyamıza uyğundur. Çünki bu sahəyə qoyulan sərmayə uzun müddətə, Azərbaycanın gələcəyinə qoyulan sərmayədir. Əgər investorların inamı

olmasaydı, Azərbaycana bir manat da qoymazdılar. Həm yerli, həm xarici investorlar turizm, hotel sektorlarına böyük maraq göstərirlər, investisiyalar qoyurlar və beləliklə, ölkəmiz bu gün dünyada turizm mərkəzi kimi tanınır.

Bizim məqsədimiz məhz bundan ibarət idi. Çünki Azərbaycanı daha çox neftə, qaza görə tanıyırdılar. Amma mən istəyirəm ki, Azərbaycanı gözəlliyə, rahatlığa görə tanısınlar, turizm mərkəzi kimi tanısınlar. Bütün imkanlar var – belə təbiət, gözəl hava, istedadlı insanlar, ölkəmizdə hökm sürən sabitlik, təhlükəsizlik. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bakı da ən təhlükəsiz şəhərdir. Əlbəttə ki, nə qədər çox inkişaf getsə, insanlar nə qədər çox zənginləşsələr, varlı olsalar, ölkəmiz də bir o qədər çox inkişaf edəcək və Azərbaycan daim inkişaf yolu ilə gedəcəkdir. Sabitlik, gələcəyə inam və düzgün siyasət bu gün Azərbaycanın inkişafını şərtləndirir.

Təsadüfi deyil ki, son 10 il ərzində dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkə Azərbaycandır. Belə gözəl, möhtəşəm hotelin Şamaxıda yaradılması, əlbəttə ki, çox əlamətdar hadisədir. Şamaxı inkişaf edir. Mən keçən il Şamaxıda olmuşam. Keçən il tariximiz, milli dəyərlərimizin qorunması üçün çox əlamətdar hadisə baş vermişdir. 743-cü ildə tikilmiş, Azərbaycanda və müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı Cümə məscidi əsaslı bərpadan sonra açılmışdır. Bu bizim tariximizə, dinimizə, adət-ənənələrimizə verdiyimiz töhfədir, mənəvi borcumuzdur.

Ölkədə milli dəyərlər və müasirlik vəhdət təşkil edir. Bizim uğurumuzun əsas səbəbi məhz bundan ibarətdir. Dərin mənəvi köklər üzərində müasir dövlət qururuq və belə gözəl hotellər görülən işlərin kiçik bir parçasıdır.

Siz burada fəaliyyət göstərəcəksiniz. Mənə verilən məlumata görə, indi buraya gəlmək istəyən qonaqların sayı çoxdur. Müraciətlər edilir. Siz, əlbəttə ki, «Rixos» markasını yüksək

tutacaqsınız, gözəl xidmət göstərəcəksiniz və ölkəmiz üçün gözəl işlər görəcəksiniz.

Sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

*Hotelin ərazisində geniş tikinti-quruculuq işləri də həyata keçirilib. Tamaşaların və müxtəlif əyləncə proqramlarının təşkil olunması üçün 200 tamaşaçı yerlik amfiteatr yaradılıb. Bundan əlavə, ərazidəki tennis, futbol, basketbol, voleybol, mini-qolf meydançalarında hər cür şərait vardır.*

*«Şamaxı Palace Platinum By Rixos» hotelinin təqdim etdiyi xidmətlərə təbiət qoynuna gəzintilərin təşkil olunması, idmanın dağ velosipedi növü üzrə xidmətlərin göstərilməsi də daxildir. Beləliklə, qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu hotellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bölgələrdə bununla bağlı genişmiqyaslı tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Təsadüfi deyildir ki, son bir neçə ildə beşulduzlu hotellərin açılması ilə dünyanın ən məşhur hotel brendləri Azərbaycana gəlmişdir və bu proses ardıcıl olaraq davam etdirilir.*

## «THE BUSİNESS YEAR» NƏŞRİNƏ MÜSAHİBƏ

*14 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «The Business Year» nəşrinə müsahibə vermişdir.*

**S u a l: Zati-aliləri, Siz ötən ilin oktyabr ayında keçirilmiş prezident seçkilərində inamlı qələbə qazandınız. Qələbənizi şərtləndirən başlıca amillər barədə nə deyə bilərsiniz və növbəti prezidentlik dövrünün prioritetləri nədən ibarət olacaq?**

**C a v a b:** 2013-cü il prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olmuş və son 10 ildə həyata keçirilən siyasi kursa cəmiyyətimizin münasibətini nümayiş etdirmişdir. Keçən illər ərzində biz ümummilli lider Heydər Əliyevin siyasətini davam etdirməklə dövlətimizin və cəmiyyətimizin qarşısında duran mühüm məsələlərin həllinə nail olduq. Azərbaycan iqtisadi inkişaf göstəricilərinə görə dünyanın lider ölkələrindən birinə çevrildi və daha da gücləndi. Düşünülmüş proqramlar əsasında həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ümumi daxili məhsul 3,4 dəfə, iqtisadiyyatın qeyri-neft sektoru 2,6 dəfə, büdcə gəlirləri 16 dəfə artdı, strateji valyuta ehtiyatlarının həcmi isə 50 milyard dolları keçdi. Ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi isə 170 milyard dolları ötmüşdür.

Sürətli inkişaf həm də vətəndaşların sosial rifahının yüksəlməsinə səbəb olmuşdur. Son 10 ildə əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır. Hesab edirəm ki, yoxsulluğun səviyyəsinin 49 faizdən 5,3 faizə düşməsi, habelə işsizliyin 2 dəfə azalaraq cəmi 5 faiz təşkil etməsi bizim ölkənin mühüm uğuru hesab oluna bilər. 10 ildə respublikada genişmiqyaslı quruculuq işləri həyata keçirilmiş, şəhər, qəsəbə və kəndlərimiz

müasirləşmiş, bütün sahələrdə ən müasir standartlar və qabaqcıl texnologiyalar tətbiq olunmuşdur.

Azərbaycanın uğurları aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013–2014» hesabatına əsasən, dünya ölkələrinin rəqabətqabliyyətliliyi reytinqində Azərbaycan 39-cu yeri tutmuşdur.

Bu illər ərzində dünyada mövqelərimiz möhkəmlənmiş, Azərbaycan beynəlxalq münasibətlər sistemində öz layiqli yeri olan, rəyinə hörmətlə yanaşılan ölkə kimi, böyük nüfuz qazanmışdır. Bizdə keçirilən çoxsaylı beynəlxalq tədbirlər əyani şəkildə təsdiq edir ki, ölkəmiz artıq regionun siyasi, iqtisadi və mədəni mərkəzi kimi qəbul edilir.

Hazırda dünyada sosial gərginliyin, işsizliyin və yoxsulluğun artması fonunda Azərbaycanda tam əks proseslərin müşahidə olunması – sürətli inkişaf, tərəqqi, əhalinin rifahının yüksəlməsi, ictimai-siyasi sabitlik, milli həmrəyliyin möhkəmlənməsi və s. düşünürəm ki, 2013-cü il prezident seçkilərinin taleyini həll edən başlıca amillər olmuşdur. Seçkiləri müşahidə edən AŞPA, Avropa Parlamenti, ATƏT PA, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər mötəbər təşkilatlar seçki prosesini birmənalı olaraq yüksək qiymətləndirmiş, onun azad, ədalətli və şəffaf keçdiyini bəyan etmişlər. Bu da onu göstərir ki, seçki və onun nəticəsi ilə bağlı Azərbaycan xalqının və beynəlxalq birliyin rəyləri üst-üstə düşür. Azərbaycan xalqı öz seçimi ilə həm bu günədək həyata keçirilən siyasətə, həm də gələcək fəaliyyətimizə öz dəstəyini ifadə edir.

Gələcək planlarımız böyükdür, qarşıda həlli vacib olan mühüm məsələlər vardır. Azərbaycanın mövcud potensialının daha da gücləndirilməsi, rəqabətədavamlı iqtisadiyyatın formalaşdırılması, müasir cəmiyyət quruculuğu, əhalinin sosial rifahının yüksəldilməsi, xarici siyasət prioritetlərinə uyğun olaraq beynəlxalq aləmdə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilində korrupsiyaya, rüşvətxorluğa və digər mənfi hallara qarşı sistemli mübarizənin gücləndirilməsi, vətəndaş cəmiyyətinin

inkişafı və digər sahələr üzrə tədbirlər bundan sonra da ardıcıl şəkildə davam etdiriləcəkdir.

**S u a l: 2013-cü il Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilmiş və ölkəniz İKT sektorunun inkişafında böyük nailiyyətlərə imza atmışdır. İrəliyə baxarkən, Azərbaycanın inkişafında müasir texnologiyalar hansı rol oynayacaq?**

**C a v a b:** Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin üstün cəhəti ondan ibarətdir ki, bütün tədbirlər ölkənin real potensialı, dünya iqtisadiyyatının inkişaf meyilləri nəzərə alınmaqla və konkret proqramlar əsasında reallaşdırılır. Təcrübə göstərir ki, rəqabətədavamlı iqtisadiyyatın formalaşdırılması üçün müasir texnologiyaların tətbiqi başlıca şərtlərdən biridir. Buna görə də ölkəmizdə təkcə iqtisadi deyil, bütün digər sahələrdə də innovasiyalardan geniş istifadə olunur.

İnformasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edən və böyük perspektivi olan sahədir. 2003-cü ildə İKT üzrə Milli Strategiyanın, sonrakı illərdə isə «Elektron Azərbaycan Dövlət Proqramı»nın qəbul edilməsi və icrası bu sahənin inkişafına güclü təkan vermişdir. Müstəqillik illərində Azərbaycanda İKT-nin inkişafına bütövlükdə 3 milyard dollardan artıq sərmayə yatırılmışdır. Bunun nəticəsidir ki, son 10 ildə informasiya və rabitə sahəsinin inkişafı 8,2 dəfə artmışdır. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə çıxarılması, kosmik sənayenin əsasının qoyulması ölkəmiz üçün tarixi əhəmiyyət kəsb edən hadisə olmuşdur. Növbəti illərdə daha 2 peykin orbitə çıxarılması üçün müvafiq tədbirlər görülür.

Bununla yanaşı, son illər Azərbaycanda internet sürətlə inkişaf edir. Ümumdünya Telekommunikasiya Təşkilatının hesabatına əsasən, bu gün ölkə əhalisinin 70 faizi internet istifadəçisidir. Artıq respublikanın hər bir şəhərinə genişzolaqlı internetin çəkilişi başlanılmışdır.

Bir faktı da qeyd etməliyəm ki, biz təkcə dünyadakı mövcud innovasiyaları tətbiq etməklə kifayətlənmirik, həm də bir sıra yeniliklərin təşəbbüskarı kimi çıxış edirik. Bu mənada

Azərbaycanın «brendi» hesab oluna biləcək Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və onun tabeliyində yaradılan «ASAN xidmət» mərkəzlərini xüsusi qeyd etmək istəyirəm. «ASAN xidmət»in fəaliyyət sferasına dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. Bu xidmət dövlət–vətəndaş münasibətlərinə yeni yanaşmanın mütərəqqi modelidir və hazırda 25 növ hüquqi xidmət həyata keçirir. Təsadüfi deyil ki, cəmi 1 il ərzində xidmətə 1 milyondan çox müraciət olmuşdur. Ona görə də biz qarşıdakı dövrdə «ASAN xidmət»in funksiyalarını daha da genişləndirməyi nəzərdə tuturuq.

Azərbaycanın gələcək inkişafında yüksək texnologiyaların roluna gəldikdə, qeyd etmək istərdim ki, hazırda iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi və rəqabət- qabliyyətinin artırılması üçün müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan İKT sahələrinin genişləndirilməsi, tətbiqi elmi tədqiqatların aparılması, bu sektora yerli və xarici investisiyaların cəlb edilməsi, müvafiq kadr bazasının yaradılması və digər istiqamətlər üzrə tədbirlər həyata keçirilir. Qarşıda duran vəzifələri səmərəli şəkildə həll etmək məqsədi ilə Yüksək Texnologiyalar Parkı və İnformasiya Texnologiyalarının İnkişafı Fondu təsis edilmişdir. İnnovasiyalara, yüksək texnologiyalara əsaslanan güclü iqtisadiyyatın formalaşdırılması bizim əsas hədəflərimizdən biridir və bu məqsədə doğru ardıcıl şəkildə irəliləyirik.

**S u a l: 2014-cü il Azərbaycanda «Sənaye ili» elan edilmişdir. Qarşıdan gələn dövrdə bu istiqamətdə hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?**

**C a v a b:** Əvvəllər əsasən aqrar respublika hesab olunan Azərbaycanda ötən əsrin 70–80-ci illərində sənayenin inkişaf etdirilməsi məqsədi ilə mühüm addımlar atılmış, ümumittifaq

səviyyəli yüzlərlə yeni sənaye müəssisəsi işə salınmış və müttəfiq respublikalar üçün müxtəlif çeşidli məhsullar istehsal edilmişdir. Lakin SSRİ-nin süqutu ilə keçmiş respublikalar arasındakı iqtisadi əlaqələr pozulmuş və ümumilikdə planlı iqtisadiyyat tənəzzülə uğramışdır. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü, ölkədə hökm sürən hərc-mərclik şəraiti, mövcud müəssisələrin fiziki və mənəvi cəhətdən köhnəlməsi və s. nəticəsində iqtisadiyyat getdikcə aşağı düşmüş, istehsal prosesi pozulmuşdur. Odur ki, yalnız ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində 2000-ci ilin əvvəllərində istehsalın həcmini 1990-cı ilin səviyyəsinə çatdırmaq mümkün olmuşdur.

Son 10 ildə Azərbaycanda neft-qaz istehsalından əldə olunmuş gəlirlərin bir qismi məqsədyönlü şəkildə və xüsusi proqramlar çərçivəsində qeyri-neft sektorunun inkişafına, yüksək texnologiyalı yerli sənaye müəssisələrinin yaradılmasına və milli iqtisadiyyatın şaxələndirilməsinə yönəldilmişdir. Məhz bunun nəticəsidir ki, bəhs etdiyimiz dövrdə qeyri-neft sektorunda orta hesabla 10 faiz illik artım müşahidə olunub. Bundan başqa, milli sahibkarlığın hərtərəfli dəstəklənməsi, nəhəng investisiya proqramlarının icrası, sosial-iqtisadi infrastrukturların bərpası və yenidən qurulması, qabaqcıl texnologiyalara əsaslanan, rəqabətqabliyyətli yeni istehsal müəssisələrinin tikintisi Azərbaycanda sənaye istehsalının həcmini 2,7 dəfə artırıb.

Hazırda qarşımızda duran əsas vəzifələrdən biri mövcud potensiala əsaslanaraq Azərbaycanı güclü sənaye dövlətinə çevirməkdir. Artıq sənayenin şaxələndirilməsi və modernləşdirilməsi istiqamətində müəyyən işlər görülüb. Biz mövcud təbii və iqtisadi resursları istehsalat dövriyyəsinə cəlb edirik, yeni istehsal sahələri və sənaye parkları yaradırıq, innovasiyaların tətbiqini sürətləndiririk. Buna görə də 2014-cü il «Sənaye ili» elan olunub, cari ildə həyata keçiriləcək tədbirlərin ümumi planı hazırlanıb və təsdiq edilib. Eyni zamanda, «Sənayenin

inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı»nın hazırlanması və təsdiq olunması nəzərdə tutulur.

Hesab edirik ki, toplanmış təcrübə və ölkəmizin ümumi iqtisadi potensialı qarşıda duran vəzifələrin uğurla həll edilməsinə imkan verəcək.

**S u a l: Keçən ay «Regionların 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı» təsdiq olundu. Əvvəlki 2 proqramın icrası nəticəsində nəyə nail olunmuşdur və üçüncü proqramın icrasından nə gözlənilir?**

**C a v a b:** 2004-cü ildə birinci Dövlət Proqramını qəbul edərkən əsas məqsədimiz regionların hərtərəfli inkişafını təmin etmək, bölgələrlə paytaxtın inkişaf səviyyəsi arasındakı kəskin fərqi aradan qaldırmaq olmuşdur. Mən hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər etimad göstərilərsə ilk növbədə, Azərbaycanın regionlarının inkişafı ilə məşğul olacağam, bu məqsədlə xüsusi proqram qəbul ediləcəkdir. Belə də oldu.

2004–2008 və 2009–2013-cü illəri əhatə edən 2 Dövlət Proqramının qəbul edilməsi, həmin proqramlara əlavə olaraq 250-yə yaxın sərəncamın imzalanması və icrası bölgələrdə böyük dönüş yaratmış, regionların sosial-iqtisadi mənzərəsini tamamilə dəyişmişdir. Nəticədə bölgələrdə kommunal xidmətlərin və sosial infrastrukturların keyfiyyəti yüksəlmiş, sahibkarlıq mühiti yaxşılaşmış, investisiya qoyuluşu artmış, minlərlə yeni müəssisə fəaliyyətə başlamış, 900 mini daimi olmaqla, 1,2 milyondan çox iş yeri yaradılmışdır. Son 10 il ərzində regionlarda ümumi məhsul buraxılışı 3,2, sənaye istehsalı 3,1 dəfə artmışdır. Azərbaycanın bölgələri, bütün yaşayış məntəqələri abadlaşmış və müasirləşmişdir. Deyə bilərəm ki, regionların inkişafında, ümumiyyətlə, Azərbaycanın iqtisadi potensialının gücləndirilməsində bu proqramların çox böyük rolu olmuşdur.

Bizim qarşımızda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Buna görə müasir dövrün çağırışları da nəzərə alınmaqla, regionlarımızın dinamik inkişafı istiqamətində həyata

keçirilən tədbirlər davam etdiriləcəkdir. Hesab edirəm ki, yeni təsdiq olunmuş «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası qeyri-neft sektorunun davamlı inkişafını, infrastrukturların və sosial xidmətlərin daha da yaxşılaşmasını, dünyada mövcud olan ən yüksək standartlar səviyyəsinə çatdırılmasını təmin edəcəkdir.

**S u a l: Son illər Azərbaycan xarici siyasət sahəsində də mühüm uğurlar əldə etmişdir. Ölkənizin BMT Təhlükəsizlik Şurasında fəaliyyəti, xarici siyasətin yeni prioritetlərinin müəyyənləşdirilməsi, həyata keçirilməsi və s. məsələləri bu sıraya daxil etmək olar. Qarşıdan gələn dövrdə Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri hansılar olacaqdır?**

**C a v a b:** Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən fəal xarici siyasət ölkəmizin nüfuzunun yüksəlməsini, beynəlxalq aləmə daha sıx inteqrasiyasını, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin etmişdir. Bu gün Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərə və beynəlxalq münasibətlər sisteminə öz baxışı olan, mövqeyi nəzərə alınan bir dövlət hesab olunur. 2011-ci ildə sərt rəqabət şəraitində BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimiz xalqımızın tarixi nailiyyəti, xarici siyasətimizin böyük uğuru olmaqla yanaşı, həm də ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuz qazandığını göstərmişdir. Göründüyü kimi, beynəlxalq aləm dövlətimizin mövqeyini dəstəkləyir, addımlarımızı təqdir edir. Çünki Azərbaycan bütün beynəlxalq təşkilatlarda özünü ləyaqətlə aparır, prinsipial mövqeyini və öz milli maraqlarını hər şeydən üstün tutur. BMT Təhlükəsizlik Şurasında ikiillik fəaliyyəti dövründə, xüsusilə quruma sədrliyi müddətində Azərbaycan qlobal təhlükəsizliyə, dünyada sülhün bərqərar olmasına, sivilizasiyalar və mədəniyyətlərarası dialoqun inkişafına öz layiqli töhfəsini verərək, xüsusi fəallığı ilə seçilmişdir.

Azərbaycan həm də qlobal transmilli və çoxsaylı regional layihələrin əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ölkəmizin həyata keçirdiyi enerji siyasəti təkcə bizim üçün deyil, həm də

regionumuz və dünya üçün mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, 2013-cü il dekabrın 17-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin qaz ehtiyatlarının hasilatı və dünya bazarlarına çıxarılması üzrə «Şahdəniz-2» beynəlxalq yekun investisiya layihəsi imzalanmışdır. Hesab edirəm ki, «Şahdəniz-2» dünyanın enerji xəritəsində yeni vəziyyətin yaranmasına səbəb olacaq və tarixə «XXI əsrin kontraktı» kimi düşəcəkdir.

Hazırda Azərbaycan Cənubi Qafqaz regionunun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmişdir. Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını almışdır. 2013-cü ildə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə beynəlxalq konfransın, III Beynəlxalq Humanitar Forumun, II Mədəniyyətlərarası Dialoq Forumunun, Davos Dünya İqtisadi Forumunun və digər yüksək səviyyəli qlobal tədbirlərin keçirilməsi buna sübut ola bilər.

Bizim aparıcı beynəlxalq təşkilatlarla və başqa ölkələrlə çoxtərəfli və ikitərəfli münasibətlərimiz də inkişaf edib. Azərbaycan ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq qurumların çərçivəsində səmərəli fəaliyyətini davam etdirib. Keçən il Avropa İttifaqı ilə vizaların sadələşdirilməsi istiqamətində önəmli saziş imzalanmışdır. Bu bizim Avropa İttifaqı ilə olan münasibətlərimizin göstəricisidir. Əminəm ki, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün Avropa İttifaqı ilə Azərbaycan arasında qarşılıqlı strateji tərəfdaşlığın ən səmərəli formatını yaratmağa nail olacağıq.

Biz region ölkələri, dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı etimada əsaslanan münasibətlərimizi inkişaf etdirməklə yanaşı, xarici siyasətimizin yeni vektorlarına uyğun olaraq, həm də qeyri-ənənəvi istiqamətlər üzrə fəal diplomatiya nümayiş etdirdik. Bu mənada Avropa və Asiya ölkələri ilə ənənəvi tərəfdaşlıq münasibətlərimizi davam etdirməklə yanaşı, həm də üzv olduğumuz «Qoşulmama Hərəkatı» ölkələri, Latın Amerikası və Afrika dövlətləri ilə siyasi, iqtisadi və humanitar

əməkdaşlığın gücləndirilməsini xarici siyasətimizin prioritetləri sırasına daxil etmişik. Təsadüfi deyil ki, son dövrlərdə Latın Amerikasının bir sıra ölkələri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyinə dəstək vermişlər. Artıq dünyanın 10 ölkəsi 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən Xocalıda törədilmiş qətliamı soyqırımı aktı kimi tanımış, həmin dövlətlərin parlamentləri müvafiq qərarlar qəbul etmişlər.

Qarşıdan gələn illərdə ölkəmizin siyasi və iqtisadi potensialının daha da gücləndirilməsi, beynəlxalq nüfuzunun artırılması, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində səylər davam etdiriləcəkdir. Xarici siyasətimizin təməlində Azərbaycanın milli maraqlarının qorunması dayanır ki, bu istiqamətdə bütün lazımi addımlar atılacaqdır.

Təəssüflə qeyd etməliyəm ki, xarici siyasətimizin əsas məsələsi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində bu günə kimi ciddi bir irəliləyiş olmamışdır. Ermənistan tərəfi danışıqlar prosesini müxtəlif bəhanələrlə uzatmaqda davam edir və mövcud status-kvonun saxlanılmasına çalışır. Düzdür, ötən ilin sonunda danışıqlar prosesində nisbi canlanma müşahidə edilmişdi. Buna görə də güman etmək olar ki, 2014-cü ildə bu proses davam etdiriləcəkdir. Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycan heç vaxt öz tarixi torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və ediləcəkdir. Münaqişə davam etdikcə Ermənistan dövləti bölgənin bütün transmilli və regional inkişaf layihələrindən kənarda qalacaq, erməni xalqının vəziyyəti pisləşməkdə davam edəcək və ölkənin olub-qalan sosial-iqtisadi potensialı tükənəcəkdir.

**S u a l: Səbirsizliklə gözlənilən I Avropa oyunlarına hazırlıq işləri necə gedir?**

**C a v a b :** Bu il I Avropa oyunlarına hazırlığın həlledici mərhələsinə qədəm qoyduq. Məlumdur ki, bu səviyyəli tədbirlərə

hazırlıq, adətən, 7-8 il davam edir. Biz isə cəmi 2 il yarım ərzində Avropa Yay oyunları kimi möhtəşəm tədbir keçirmək niyyətindəyik. Əminəm ki, qarşıda duran bütün məsələlərin həllinə vaxtında nail olunacaq. Artıq Təşkilat Komitəsi formalaşmış və olduqca məhsuldar fəaliyyət göstərir. Tədbirin keçirilməsi nəzərdə tutulan idman obyektlərinin böyük əksəriyyətinin tikintisi bu il başa çatmalıdır. Olimpiya stadionunun, Su İdmanı Sarayının, Stend Atıcılığı Mərkəzinin tikintisi davam etdirilir. Artıq Milli Gimnastika Arenası fəaliyyət göstərir. Heydər Əliyev İdman-Konsert Kompleksi, Bakı İdman Sarayı əsaslı təmir olunur, digər idman obyektləri yaradılır. Ancaq bu oyunlara hazırlıq təkcə müvafiq idman obyektlərinin tikintisi ilə məhdudlaşmır. Təhlükəsizlik, nəqliyyat, olimpiya şəhərciyinin yaranması, qonaqların, idmançıların qarşılanması, yerləşdirilməsi, məşqlərin keçirilməsi və digər məsələlər də çox ciddi diqqət tələb edir. Nəzərə alsaq ki, Azərbaycanın artıq güclü potensialı, oturuşmuş idman infrastrukturu mövcuddur və bizim böyük beynəlxalq tədbirləri təşkil etməkdə yaxşı təcrübəmiz vardır, əminəm ki, bu oyunları ən yüksək səviyyədə keçirə biləcəyik. Hesab edirəm ki, Azərbaycanda tətbiq olunan standartlar bundan sonrakı Avropa oyunlarının təməl prinsiplərinə çevriləcəkdir.

## GÜRCÜSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ALEKSANDR ÇİKAİDZE İLƏ GÖRÜŞ

*14 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Gürcüstanın Daxili İşlər naziri Aleksandr Çikaidzeni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyevin bu yaxınlarda Gürcüstana səfəri məmnunluqla xatırlandı, ölkələrimiz arasında strateji əməkdaşlığın bütün sahələrdə möhkəmləndirilməsi ilə bağlı müzakirə olunan məsələlərin önəmi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən daxili işlər orqanları arasında daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# DÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU FRENSİS QARRİ İLƏ GÖRÜŞ

*14 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Dünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Frensis Qarrini qəbul etmişdir.*

*Dünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Frensis Qarri Bakının gözəl bir şəhər olduğunu məmnunluqla qeyd etdi.*

*Dövlətimizin başçısı Bakının gündən-günə inkişaf etdiyini, siyasi, iqtisadi və digər mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir mərkəzə çevrildiyini vurğuladı.*

*Görüşdə Azərbaycanın müvafiq qurumları ilə Dünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB POL BİYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Kamerun münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 may 2014-cü il*

## VYETNAM SOSİALİST RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*18 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Vyetnam Sosialist Respublikasına dövlət səfərinə gəlmişdir.*

*Azərbaycanın və Vyetnamın dövlət bayraqlarının dalğalandığı Hanoyun Noi Bai Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Vyetnamın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Sonra qısa protokol söhbəti oldu.*

## MİLLİ QƏHRƏMAN VƏ ŞƏHİD MONUMENTİNİ ZİYARƏT

*Hanoy*

*19 may 2014-cü il*

*Vyetnam Sosialist Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 19-da Hanoyda Milli Qəhrəman və Şəhid Monumentini ziyarət etmişlər.*

*Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

## SABİQ PREZİDENT HO Şİ MİNİN MAVZOLEYİNİ ZİYARƏT

*Hanoy*

*19 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 19-da Hanoyda Vyetnam Sosialist Respublikasının sabiq prezidenti Ho Şi Minin mavzoleyini ziyarət etmişlər.*

*Dövlətimizin başçısı Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin xatirəsinə dərin ehtiramını bildirdi, mavzoleyin önünə əklil qoydu.*

## QEYDLƏR

**1. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 5–54.

**2. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 $km^2$, əhalisi 82,5 min nəfərdir. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal ediblər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 5–23, 27–54, 79, 117, 120, 124, 131, 269, 270.

**3. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 5–54.

**4. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5, 14, 33, 34, 36, 40, 42, 44, 45, 46, 47, 48, 49, 54, 64, 124, 128, 129, 194, 196, 197, 200, 203, 204, 214, 215, 221, 230, 231, 232, 233, 249, 261, 263–265, 266–281, 340.

**5. Atabəylər dövləti** – Azərbaycanda Eldənizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət (1136–1225). Azərbaycan Atabəylər Dövlətinin əsasını Şəmsəddin Eldəniz qoymuşdur. Azərbaycan Atabəylər Dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Arranı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. – 32.

**6. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 33, 35, 42, 43.

**7. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də

yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 34, 35, 42, 43, 214, 269.

**8. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin ermənilər İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 35, 42.

**9. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 35, 47, 61, 64, 65, 77, 78, 86, 109, 144, 145, 174, 269, 270, 277, 296, 301, 303, 344.

**10. Nəsib bəy Yusifbəyli,** Usubbəyov Nəsib bəy Yusif oğlu (1881–1920) – Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir.

Bakının Qırmızı ordu tərəfindən işğalından və ADR-in süqutundan sonra Nəsib Yusifbəyli faciəli surətdə qətlə yetirilir. – 42.

**11. Behbud ağa Şahtaxtinski** (1881–1924) – diplomat. 1917–18-ci illərdə Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı XKS Fövqəladə komissiyasının üzvü, «Hümmət» təşkilatı Mərkəzi Komitəsinin sədri olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra (1920) Xalq Ədliyyə komissarı, eyni zamanda, Azərbaycan SSR-in RSFSR-də Fövqəladə

nümayəndəsi idi. Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm mərhələ – Moskva və Qars müqavilələrinin (1921) bağlanmasında Şahtaxtinskinin böyük xidməti olmuşdur. – 44.

**12. Qars müqaviləsi** (1921) – Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları ilə Türkiyə arasında RSFSR-in iştirakı ilə 13 oktyabr 1921-ci ildə bağlanmış Sülh müqaviləsi. Qars müqaviləsinin 5-ci maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: «Türkiyə hökuməti, Sovet Ermənistan və Sovet Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin III əlavəsində göstərilən sərhəd daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar». Qars müqaviləsi beynəlxalq müqavilə kimi, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-nin təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla, onun taleyinin qarantı kimi, gündəliyə gəlir. – 44.

**13. Moskva müqaviləsi** (1921) – RSFSR ilə Türkiyə arasında bağlanmış «Dostluq və qardaşlıq haqqında» müqavilə. Moskva müqaviləsinin 3-cü maddəsi bütünlüklə Naxçıvan məsələsinə həsr edilmiş və orada aydın şəkildə göstərilmişdir ki, danışıqlarda iştirak edən hər iki tərəfin razılığı ilə hazırkı müqavilənin I maddəsinin V əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. – 44.

**14. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 52, 93, 144, 256, 276.

**15. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 52, 95, 276, 280, 282–322.

**16. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 52, 109–110, 131, 144, 145, 277.

**17. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 52, 76, 142, 144, 145, 235–245, 315, 323, 324.

**18. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 55–65, 76.

**19. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 56–62, 76.

**20. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 62, 275, 277, 344.

**21. Xamenei,** S e y i d  Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının Ali rəhbəridir. – 64–65.

**22. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 68, 75.

**23. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əli-

yeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 97, 98, 99, 104, 117, 132, 201, 226, 261, 263,266, 267, 274–281, 282, 289, 322, 349, 350, 351.

**24. Kolumbiya,** K o l u m b i y a R e s p u b l i k a s ı – Cənubi Amerikanın şimal-qərbində dövlət. Sahəsi 1,14 milyon km$^2$, əhalisi 48,4 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanun-

verici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqota şəhəridir. – 107.

**25. Qabriel Qarsia Markes** (1928–2014) – məşhur Kolumbiya yazıçısı. Dünyada daha çox roman-epopeyaları oxunur. Nobel mükafatı laureatı. – 107.

**26. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 34,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 109, 219.

**27. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 110, 296, 299.

**28. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 113.

**29. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının

Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 113.

**30. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 116, 135.

**31. «Boeinq»** – Amerika korporasiyası. Dünyanın ən böyük aviasiya, kosmos və hərbi texnika istehsalçılarından biri. Bu korporasiyanın tərkibinə bir sıra nəhəng korporasiyalar daxildir. Əsası 1916-cı ildə mühəndis Corc Konrod Vestervelt tərəfindən qoyulub. Mənzil qərargahı Çikaqodadır (İllinoys ştatı, ABŞ).

Kompaniya genişhəcmli mülki və hərbi aviasiya texnikasının, həmçinin ən böyük airobusların istehsalçısıdır. Bundan əlavə, hərb üçün geniş masştablı aviasiya-kosmos texnikası buraxır və genişhəcmli kosmos proqramları həyata keçirir. Dünyanın 67 ölkəsində zavodları vardır və 100 ölkənin 5200 tədarükçüsü ilə əməkdaşlıq edir. – 120, 124.

**32. «Airbus» (S.A.S.)** – dünyada ən böyük aviasiya kompaniyası. 60-cı illərdə Avropanın bir neçə aviaistehsalçılarının birləşməsi nəticəsində yaradılıb. «Airbus» markası ilə sərnişin və yükdaşıma, hərbi-daşıma təyyarələri istehsal edir. Mənzil-qərargahı Blanyak (Fransa) şəhərindədir. 2001-ci ildə Fransa qanunvericiliyinə uyğun olaraq S.A.S. Səhmdar cəmiyyəti ilə birləşdirildi. Əsasən Avropanın 4 (Fransa, Almaniya, Böyük Britaniya, İspaniya) ölkəsində cəmlənmiş və 50 min nəfər işçisi vardır. Avadanlığın axırıncı montajı kompaniyanın Tuluza (Fransa) və Hamburq (Almaniya) şəhərlərindəki zavodlarında həyata keçirilir. – 120, 124.

**33. Çex,** Ç e x i y a   R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir.

İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 132, 133–145.

**34. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanıb. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 134, 136–145, 299, 306, 343.

**35. Miloş Zeman** (d.1944) – Çexiyanın dövlət və siyasi xadimi. 2013-cü ildən Çex Respublikasının Prezidentidir. – 136–138.

**36. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 137, 141, 186, 229–247, 315,346.

**37. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**38. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**39. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**40. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**41. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**42. Zəngilan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 28,4 min nəfər. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**43. Qubadlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1933-cü ildə təşkil edilmişdir. Sahəsi 802 $km^2$, əhalisi 27,2 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**44. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 144.

**45. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 145, 324.

**46. Finlandiya,** Finlandiya Respublikası – Şimali Avropada dövlət. Sahəsi 338,4 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 158, 177.

**47. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan

şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 198, 203–204.

**48. Həmid Kərzai** (d.1957) – 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri, 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 219.

**49. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 220–23, 224–226.

**50. Akif Əlizadə,** A k i f A ğ a m e h d i o ğ l u (d.1934) – görkəmli geoloq-alim. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədri, Yeni Azərbaycan Partiyası sədrinin müavini. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 220, 225.

**51. Tofiq Nağıyev,** T o f i q M u r t u z a o ğ l u (d.1941) – kimya elmləri doktoru, professor, akademik, 2013-cü ildən AMEA-nın vitse-prezidenti, 2004-cü ildən Azərbaycan Milli

Ensiklopediyası Milli Şurasının məsul katibi və Elmi Mərkəzinin direktorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 226.

**52. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 226, 250, 267, 274–281, 282.

**53. Mirzə Fətəli Axundzadə** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist-filosof. Axundzadə Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdı. 1850–55-ci illərdə yazdığı 6 komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 231–232.

**54. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada

Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 250.

**55. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 256.

**56. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 257–260.

**57. Həzi Aslanov,** Həzi Əhəd oğlu (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüş-

lərdə iştirak edən Həzi Aslanov Stalinqrad vuruşmasında feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. 1945-ci il yanvarın 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 259.

**58. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996–2018-ci illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 260, 262.

**59. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 260, 262.

**60. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə

Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 260, 262.

**61. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 261.

**62. Əziz Əliyev,** Əziz Məmmədkərim oğlu (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan

Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 261.

**63. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 261.

**64. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 282–322.

**65. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi-mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. –334.

## Şəxsi adlar göstəricisi


**Ağayev Adıgözəl** – 315
**Axmetov Serik** – 119
**Axundi Abbas** – 58
**Axundzadə Mirzə Fətəli** – 231–232
**Akıncı Xəlil** – 102
**Aslanov Həzi** – 259
**Astaxov Pavel** – 256
**Azər Hüseyn** – 230, 233
**Babayev Elçin** – 292
**Bağırov Hüseynqulu** – 58
**Barak Ehud** – 152
**Barakauskas Dailis** – 94
**Buteflikay Əbdüləziz** – 146
**Biya Pol** – 347
**Brey Mariano** – 114
**Burns Martin** – 127–128
**Cabbarov Mikayıl** – 293
**Cəfərqulu xan** – 43
**Conatan Qudlak** – 303
**Çikaidze Aleksandr** – 345
**Çitçian Həmid** – 58
**Çutora Jolt** – 278–280
**De Korrales Mireya** – 255
**Deleard Alain** – 313
**Dukaru Sorin** – 68
**Ernandes Xuan** – 255
**Əliyev Əziz** – 261
**Əliyev Hacıağa** – 128–129
**Əliyev Heydər** – 5, 14, 33, 34, 36, 40, 42, 44, 45, 46, 47, 48, 49, 54, 64, 124, 128, 129, 194, 196, 197, 200,

203, 204, 214, 215, 221, 230, 231, 232, 233, 249, 261, 263–265, 266–281, 340
**Əliyev Natiq** – 293
**Əliyev Tamerlan** – 261
**Əliyeva Leyla** – 250
**Əliyeva Mehriban** – 97, 98, 99, 104, 117, 132, 201, 226, 261, 263,266, 267, 274–281, 292, 289, 322, 349, 350, 351
**Əliyeva Zərifə xanım** – 261
**Əlizadə Akif** – 220, 225
**Ərdoğan Rəcəb Tayyib** – 145, 323
**Əs-Səvvat Zumeyyim** – 108
**Əsədov Heydər** – 292
**Əsədov Oqtay** – 260, 262
**Əsgərov Cahangir** – 118, 124–127
**Fəzli Əbdülrza** – 58
**Filipoviç Draqana** – 103
**Fioraso Jönöviev** – 293
**Foq Rasmussen Anders** – 68
**Gəncəvi Nizami** – 154, 170
**Gimatova Dinara** – 98
**Göyçayev Teymur** – 278, 281
**Gül Abdullah** – 235–245, 322
**Hacıbalayeva Şəhla** – 199–201
**Halonen Tarya** – 158, 177–180
**Hamaçek Yan** – 134
**V Harald** – 327
**Hun Sen** – 111–112
**Hirata Takeo** –190
**Hüseynov Fətulla** – 43
**Hüseynov Riyad** – 318
**Hüseynova Hicran** – 293
**Ho Şi Min** – 350

**Xamenei Seyid Əli** – 64–65
**Xuan Karlos** – 114
**İbrahimov Tofiq** – 194
**İvanov George** – 326
**Kalbalı xan** – 43
**Kəblə Muxtar** – 43
**Kəblə Kərim** – 43
**Kərzai Həmid** – 219
**Komorovski Bronislav** – 140, 191
**Konstantinesku Emil** – 155
**Krivokapiç Ranko** – 96
**Qarayeva Aliyə** – 98
**Qaribaşvili İrakli** – 247
**Qarri Frensis** – 346
**Qarsia-Marqalyo Xose** – 114–115
**Qasımov Alim** – 280
**Qribauskayte Dalya** – 94
**Qule Natali** – 280
**Qudərzi Mahmud** – 58
**Lenin Vladimir** – 44
**IV Leterm** – 188
**Leyla Yunus** – 300
**Liberman Aviqdor** – 192
**Luçinski Petru** – 154
**Markes Qabriel** – 107
**Marqvelaşvili Georgi** – 141, 235–244, 246
**II Marqrete** – 92
**Mesiç Stepan** – 151
**Mehdiyev Ramiz** – 260, 262
**Merlo Canni** – 163–165
**Məmmədyarov Elmar** – 58
**Məmmədov Ziya** – 292
**Mirqədirov Rauf** – 300
**Morozov Sergey** – 93
**Mönye Paskal** – 292

**Muqabe Robert** – 67
**Mumbengegvi Simbaraşe** – 67
**Nağıyev Tofiq** – 226
**Nazarbayev Nursultan** – 113
**Nəbiyev Rafiq** – 201
**Nizamülmülk** – 48
**Olland Fransua** – 281–321
**Osseyn Pyer** – 321
**Osseyn Rober** – 321
**Pak Kin He** – 106
**Peres Şimon** – 193
**Putin Vladimir** – 256
**Rasizadə Artur** – 260, 262
**Reyq Oskar** – 149
**Rəhim xan** – 43
**Rəhimov Azad** – 98, 104
**Rivera Luis** – 325
**Rodriges Xuan** – 324
**Rostropoviç** – 276
**Roys Ed** – 109–110
**Ruhani Həsən** – 56–62
**Rütel Arnold** – 157
**Saakaşvili Mixeil** – 186, 230
**Santos Xuan** – 107
**Sarkisyan Serj** – 142, 300
**Sarkozi Nikola** – 281
**Serageldin İsmail** – 168–169, 177, 184, 187
**Səfərov Ceyhun** – 302
**Sihamoni Norodom** – 111,112
**Stoyanov Peter** – 153
**Şaxtaxtinski Behbud ağa** – 44
**Şahverdi oğlu Həsən** – 43
**Şostakoviç Dmitri** – 276
**Tadiç Boris** – 150
**Talıbov Vasif** – 5–54

**Tamincə Fəttah** – 329
**Tararan Mişel** – 292
**Timofti Nikolae** – 139
**Vallo-Belkasem Najat** – 293
**Van der Linden Rene** – 116
**Vaezi Mahmud** – 63
**Vazeh Mirzə Şəfi** – 232
**Vike-Freyberqa Vayra** – 148, 180–184
**Villem-Aleksandr** – 135
**Yusifbəyli Nəsib bəy** – 42
**Yuşenko Viktor** – 185
**Zatlers Valdis** – 156
**Zeman Miloş** – 136–138

## Coğrafi adlar göstəricisi

**Afrika** – 163, 303, 342
**Ağdam** – 144
**Ağdaş** – 194–216
**Almaniya** – 258
**Amerika** *(qitə)* – 163
**Amerika Birləşmiş Ştatları** – 52, 109–110, 131, 144, 145, 277
**Andorra** – 149
**Aralıq dənizi** – 240
**Asiya** – 123, 163, 240, 314, 342
**Avropa** – 104, 123, 143, 145, 163, 211, 240, 287, 297, 298, 299, 300, 301, 303, 310, 316, 317, 342
**Balaxanı** – 88
**Balakən** – 320
**Belarus** – 137
**Belçika** – 188
**Berlin** – 257, 258, 276
**Beyləqan** – 211
**Biləsuvar** – 211
**Binəqədi** – 147
**Bolqarıstan** – 159
**Brüssel** – 68
**Burqindiya** – 320
**Cəbrayıl** – 144
**Cənubi Qafqaz** – 83, 237, 286, 305, 342
**Çex Respublikası** – 132, 133–145
**Dağlıq Qarabağ** – 35, 47, 61, 64, 65, 77, 78, 86,

109, 144, 145, 174, 269, 270, 277, 295, 302, 343
**Danimarka** – 92
**Davos** – 57, 59, 61, 75
**Estoniya** – 157
**Əfqanıstan** – 109
**Əlcəzair** – 146, 219
**Finlandiya** – 158, 177
**Fransa** – 52, 95, 276, 280, 282, 283, 284, 286–297,298–309,312–321
**Füzuli** – 144
**Gəncə** – 83, 120, 124, 131, 320
**Gilan** – 209
**Göygöl** – 320
**Gürcüstan** – 137, 141, 144,186, 247, 315, 346
**Honduras** – 255
**Xəzər dənizi** – 60, 84, 240, 285, 297, 308, 341
**Xocalı** – 62, 275, 277, 334
**Xorvatiya** – 151
**İngiltərə** – 52
**İran** – 55–65, 76
**İrəvan** – 35, 42
**İsgəndəriyyə** – 168, 187
**İspaniya** – 114–115
**İsrail** – 152, 192, 193
**İsveç** – 137
**Kamboca** – 111–112
**Kamerun** – 347
**Kəlbəcər** – 144
**Kəngərli** – 24–26
**Kiyev** – 257
**Kolumbiya** – 107

**Koreya Respublikası** – 52, 104, 106
**Kosta-Rika** – 325
**Qafqaz** – 237, 257, 288, 297, 289, 303
**Qara dəniz** – 240
**Qazaxıstan** – 113
**Qəbələ** – 117, 120, 124, 131, 211, 276, 331, 332
**Quba** – 333
**Qubadlı** – 144
**Qusar** – 332
**Laçın** – 144
**Latın Amerikası** – 342, 343, 344
**Latviya** – 148, 156, 180
**Leninqrad** – 257
**Ləki** – 207–209
**Lənkəran** – 117, 120, 131
**Litva** – 94
**Macarıstan** – 278, 279
**Madrid** – 168
**Makedoniya** – 326
**Manisa** – 322, 323
**Masallı** – 250
**Misir** – 168, 187
**Moldova** – 137, 139, 154
**Monteneqro** – 96
**Moskva** – 47, 257, 269
**Naftalan** – 332
**Naxçıvan** – 5–23, 27–54, 79,117, 120, 124, 131, 269, 270
**Naxçıvan Muxtar Respublikası** – 5–54
**Niderland** – 116, 135
**Nigeriya** – 303
**Norveç** – 327
**Odessa** – 257
**Okeaniya** – 163

**Ordubad** – 29
**Panama** – 324
**Paris** – 284, 287, 297, 317, 319
**Pirallahı** – 249
**Polşa** – 137, 140, 257
**Praqa** – 132, 133–145, 200
**Roma** – 168, 276
**Rumıniya** – 155, 277
**Rusiya** – 52, 93, 144, 256, 276
**Sabunçu** – 249
**Sabirabad** – 250
**Samux** – 211
**Serbiya** – 150
**Səmərqənd** – 321
**Səudiyyə Ərəbistanı** – 108
**Simferopol** – 257
**Stalinqrad** – 257
**Strasburq** – 276, 283
**Sumqayıt** – 83
**Şamaxı** – 328–334
**Şəmkir** – 320
**Şuşa** – 144
**Tbilisi** – 229–247
**Tehran** – 56–65
**Türkiyə** – 52, 76, 142, 144, 145, 235–245, 314, 322, 323
**Ukrayna** – 52, 137, 185, 242, 297, 303
**Ulyanovsk** *(RF-də vilayət)* – 93
**Varşava** – 137
**Versal** – 276, 284
**Vilnüs** – 137
**Vyetnam** – 348–350
**Yaponiya** – 190
**Yevlax** – 117, 120
**Yuqoslaviya** – 257

**Zaqatala** – 117, 120, 124, 131
**Zəngəzur** – 33, 35, 42, 43
**Zəngilan** – 144
**Zərdab** – 213
**Zimbabve** – 67
**Zığ** – 84

## MÜNDƏRİCAT

NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*7 aprel 2014-cü il* ........................................................................... *5*

KƏNGƏRLİ RAYON MƏRKƏZİ XƏSTƏXANASININ
AÇILIŞI MƏRASİMİ

*7 aprel 2014-cü il* ........................................................................... *24*

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 İLLİK
YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ
MƏRASİMDƏ İŞTİRAK

*8 aprel 2014-cü il* ........................................................................... *32*

İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*9 aprel 2014-cü il* ........................................................................... *55*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*9 aprel 2014-cü il* ........................................................................... *56*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*9 aprel 2014-cü il* ........................................................................... *57*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*9 aprel 2014-cü il* ........................................................................ 58

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*9 aprel 2014-cü il* ........................................................................ 59

İRANIN RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ, HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ MAHMUD VAEZİ İLƏ GÖRÜŞ

*9 aprel 2014-cü il* ........................................................................ 63

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*9 aprel 2014-cü il* ........................................................................ 64

XƏZƏR BEYNƏLXALQ SU TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*10 aprel 2014-cü il* ........................................................................ 66

ZİMBABVE RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SİMBARAŞE MUMBENGEGVİ İLƏ GÖRÜŞ

*10 aprel 2014-cü il* ........................................................................ 67

NATO BAŞ KATİBİNİN YENİ TƏYİN OLUNMUŞ MÜAVİNİ SORİN DUKARU İLƏ GÖRÜŞ

*10 aprel 2014-cü il* ........................................................................ 68

NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*13 aprel 2014-cü il* ......................................................................... *69*

YEKUN NİTQİ

*13 aprel 2014-cü il* ......................................................................... *79*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT
II MARQRETEYƏ

*14 aprel 2014-cü il* ......................................................................... *92*

RUSİYA FEDERASİYASININ ULYANOVSK VİLAYƏ-
TİNİN QUBERNATORU SERGEY MOROZOVUN BAŞ-
ÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2014-cü il* ......................................................................... *93*

LİTVA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ
DAİLİS ALFONSAS BARAKAUSKASIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2014-cü il* ......................................................................... *94*

FRANSA RESPUBLİKASININ SABİQ XARİCİ İŞLƏR
NAZİRİ HUBERT VEDRİN İLƏ GÖRÜŞ

*14 aprel 2014-cü il* ......................................................................... *95*

MONTENEQRO PARLAMENTİNİN SƏDRİ, ATƏT-in
PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ
RANKO KRİVOKAPİÇİN BAŞÇILIQ ETDİYİ NÜMA-
YƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 aprel 2014-cü il* ......................................................................... *96*

MİLLİ GİMNASTİKA ARENASININ AÇILIŞI MƏRASİMİ

*16 aprel 2014-cü il* ......................................................................... *97*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*17 aprel 2014-cü il* ........................................................................... *101*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ
BAŞ KATİBİ XƏLİL AKINCI
İLƏ GÖRÜŞ

*17 aprel 2014-cü il* ........................................................................... *102*

AVROPA ŞURASININ BAKIDAKI OFİSİNİN YENİ
RƏHBƏRİ DRAQANA FİLİPOVİÇ İLƏ GÖRÜŞ

*17 aprel 2014-cü il* ........................................................................... *103*

BAKIDA TİKİLƏN SU İDMANI SARAYINDA İNŞAAT
İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*17 aprel 2014-cü il* ........................................................................... *104*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM PAK KİN HEYƏ

*18 aprel 2014-cü il* ........................................................................... *106*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB XUAN MANUEL SANTOSA

*18 aprel 2014-cü il* ........................................................................... *107*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI SƏRHƏD
XİDMƏTİNİN BAŞ DİREKTORU ZUMEYYİM BİN
CUVEYBİR ƏS-SƏVVATIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 aprel 2014-cü il* ........................................................................... *108*

ABŞ NÜMAYƏNDƏLƏR PALATASININ XARİCİ ƏLA-
QƏLƏR KOMİTƏSİNİN SƏDRİ ED ROYS VƏ ONU
MÜŞAYİƏT EDƏN KONQRESMENLƏRLƏ GÖRÜŞ

*19 aprel 2014-cü il* ........................................................................... *109*

KAMBOCA KRALLIĞININ BAŞ NAZİRİ HUN SENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 aprel 2014-cü il* ........................................................................ *111*

QAZAXISTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ SERİK AXMETOV İLƏ GÖRÜŞ

*21 aprel 2014-cü il* ........................................................................ *113*

İSPANİYA KRALLIĞININ XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ XOSE MANUEL QARSİA-MARQALYONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 aprel 2014-cü il* ........................................................................ *114*

NİDERLAND KRALLIĞI SENATININ ÜZVÜ RENE VAN DER LİNDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 aprel 2014-cü il* ........................................................................ *116*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNUN YENİ AEROVAĞZAL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*23 aprel 2014-cü il* ........................................................................ *117*

ÇEX RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*23 aprel 2014-cü il* ........................................................................ *133*

ÇEX RESPUBLİKASININ DEPUTATLAR PALATASININ SƏDRİ, ÇEXİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ YAN HAMAÇEK İLƏ GÖRÜŞ

*23 aprel 2014-cü il* ........................................................................ *134*

NİDERLAND KRALI ƏLAHƏZRƏT
VİLLEM-ALEKSANDRA

*24 aprel 2014-cü il* ........................................................................ *135*

AVROPA İTTİFAQININ «ŞƏRQ TƏRƏFDAŞLIĞI»
PROQRAMININ NÖVBƏTİ SAMMİTİNDƏ İŞTİRAK

*24 aprel 2014-cü il* ........................................................................ *136*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ
MİLOŞ ZEMAN İLƏ GÖRÜŞ

*24 aprel 2014-cü il* ........................................................................ *138*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
NİKOLAE TİMOFTİ İLƏ GÖRÜŞ

*24 aprel 2014-cü il* ........................................................................ *139*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*24 aprel 2014-cü il* ........................................................................ *140*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ
MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*24 aprel 2014-cü il* ........................................................................ *141*

AVROPA İTTİFAQININ «ŞƏRQ TƏRƏFDAŞLIĞI»
PROQRAMININ 5 İLLİYİNƏ HƏSR OLUNMUŞ
SAMMİTDƏ ÇIXIŞ

*24 aprel 2014-cü il* ........................................................................ *142*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*25 aprel 2014-cü il ............................................................................ 146*

BİNƏQƏDİ RAYONU ƏRAZİSİNDƏ TİKİLƏN YENİ MƏSCİD KOMPLEKSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 aprel 2014-cü il ........................................................................... 147*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*26 aprel 2014-cü il ........................................................................... 148*

ANDORRA KNYAZLIĞININ SABİQ BAŞ NAZİRİ OSKAR RİBAS REYQ İLƏ GÖRÜŞ

*26 aprel 2014-cü il ........................................................................... 149*

SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ........................................................................... 150*

XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ........................................................................... 151*

İSRAİL DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ EHUD BARAK İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ........................................................................... 152*

BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ PETER STOYANOV İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ........................................................................... 153*

MOLDOVA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
PETRU LUÇİNSKİ İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ............................................................................ 154*

RUMINİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
EMİL KONSTANTİNESKU İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ............................................................................ 155*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ............................................................................ 156*

ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
ARNOLD RÜTEL İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ............................................................................ 157*

FİNLANDİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
TARYA HALONEN İLƏ GÖRÜŞ

*27 aprel 2014-cü il ............................................................................ 158*

BAKIDA BEYNƏLXALQ İDMAN MƏTBUATI ASSOSİA-
SİYASININ 77-ci KONQRESİNİN İŞTİRAKÇILARININ
ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*27 aprel 2014-cü il ............................................................................ 159*

BEYNƏLXALQ İDMAN MƏTBUATI ASSOSİASİYA-
SININ 77-ci KONQRESİNİN İŞTİRAKÇILARINA

*28 aprel 2014-cü il ............................................................................166*

II QLOBAL AÇIQ CƏMİYYƏTLƏR FORUMUNUN
RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 aprel 2014-cü il ............................................................................ 167*

UKRAYNA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VİKTOR YUŞENKO İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il* ........................................................................ *185*

GÜRCÜSTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il* ........................................................................ *186*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ, MİSİRİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU İSMAİL SERAGELDİN İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il* ........................................................................ *187*

BELÇİKA KRALLIĞININ SABİQ BAŞ NAZİRİ IV LETERM İLƏ GÖRÜŞ

*28 aprel 2014-cü il* ........................................................................ *188*

FORUMDA İŞTİRAK EDƏN SABİQ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI, O CÜMLƏDƏN DİGƏR RƏSMİ ŞƏXSLƏR ÜÇÜN NAHARDA İŞTİRAK

*28 aprel 2014-cü il* ........................................................................ *189*

YAPONİYA OLİMPİYA AGENTLİYİNİN RƏHBƏRİ, BAŞ NAZİRİN XÜSUSİ MÜŞAVİRİ TAKEO HİRATA İLƏ GÖRÜŞ

*29 aprel 2014-cü il* ........................................................................ *190*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ

*30 aprel 2014-cü il* ........................................................................ *191*

İSRAİL DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞ

*30 aprel 2014-cü il* ........................................................................ *192*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*1 may 2014-cü il* ........................................................................ *193*

AĞDAŞ RAYONUNA SƏFƏR

*1 may 2014-cü il* ........................................................................ *194*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*5 may 2014-cü il* ........................................................................ *219*

MİLLİ ELMLƏR AKADEMİYASI MƏRKƏZİ KİTAB-XANASININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*5 may 2014-cü il* ........................................................................ *220*

«AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI» ELMİ MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*5 may 2014-cü il* ........................................................................ *224*

HEYDƏR ƏLİYEV PROSPEKTİNDƏ AVTOMOBİLLƏR VƏ PİYADALAR ÜÇÜN YENİ TİKİLMİŞ YERALTI KEÇİDİN AÇILIŞI MƏRASİMİ

*5 may 2014-cü il* ........................................................................ *227*

GÜRCÜSTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*6 may 2014-cü il* ........................................................................ *229*

TBİLİSİDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*6 may 2014-cü il* ........................................................................ *230*

MİRZƏ FƏTƏLİ AXUNDZADƏ ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MUZEYİ İLƏ TANIŞLIQ

*6 may 2014-cü il* ............................................................................ *231*

AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRLİYİNİN BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*6 may 2014-cü il* ............................................................................ *233*

ARDNŞ-in GÜRCÜSTANDAKI YENİ İNZİBATİ BİNASI İLƏ TANIŞLIQ

*6 may 2014-cü il* ............................................................................ *234*

AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ SAMMİTİ

*6 may 2014-cü il* ............................................................................ *235*

AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*6 may 2014-cü il* ............................................................................ *238*

AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI PREZİDENTLƏRİNİN MƏTBUATA BİRGƏ BƏYANATLARLA ÇIXIŞLARI

*6 may 2014-cü il* ............................................................................ *239*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*6 may 2014-cü il* ............................................................................ *245*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*6 may 2014-cü il* ............................................................................ *246*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*6 may 2014-cü il ........................................................................ 247*

VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN BAKI ŞƏHƏR 4 SAYLI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*7 may 2014-cü il ........................................................................ 248*

HONDURAS RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ MİREYA AQUERO DE KORRALESİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 may 2014-cü il ........................................................................ 255*

RUSİYA FEDERASİYASI PREZİDENTİ YANINDA UŞAQ HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL PAVEL ASTAXOV İLƏ GÖRÜŞ

*8 may 2014-cü il ........................................................................ 256*

9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*9 may 2014-cü il ........................................................................ 257*

FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2014-cü il ...................................................................... 261*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 91-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ PAYTAXTDA TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2014-cü il ...................................................................... 263*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 91-ci İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV

FONDUNUN YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*10 may 2014-cü il* ........................................................................ *266*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLANDIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 may 2014-cü il* ........................................................................ *281*

İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İLƏ TANIŞLIQ

*11 may 2014-cü il* ........................................................................ *288*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 may 2014-cü il* ........................................................................ *289*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 may 2014-cü il* ........................................................................ *290*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 may 2014-cü il* ........................................................................ *291*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 may 2014-cü il* ........................................................................ *292*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*12 may 2014-cü il* ........................................................................ *294*

AZƏRBAYCAN–FRANSA BİZNES- FORUMUNDA İŞTİRAK

*12 may 2014-cü il* ........................................................................ *304*
FRANSA PREZİDENTİ FRANSUA OLLAND
İLƏ BİRGƏ NAHAR

*12 may 2014-cü il* ........................................................................ *321*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*14 may 2014-cü il* ........................................................................ *322*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*14 may 2014-cü il* ........................................................................ *323*

PANAMA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XUAN KARLOS VARELA RODRİGESƏ

*14 may 2014-cü il* ........................................................................ *324*

KOSTA-RİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS GİLYERMO SOLİS RİVERAYA

*14 may 2014-cü il* ........................................................................ *325*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA

*14 may 2014-cü il* ........................................................................ *327*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*14 may 2014-cü il* ........................................................................ *328*

ŞAMAXI RAYONUNDA «ŞAMAXI PALACE PLATİNUM BY RİXOS» HOTEL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*14 may 2014-cü il* ........................................................................ *328*

«THE BUSİNESS YEAR» NƏŞRİNƏ MÜSAHİBƏ

*14 may 2014-cü il* ........................................................................ *335*

GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ
ALEKSANDR ÇİKAİDZE İLƏ GÖRÜŞ

*14 may 2014-cü il* ........................................................................ *345*

DÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ BAŞ
DİREKTORU FRENSİS QARRİ İLƏ GÖRÜŞ

*14 may 2014-cü il* ........................................................................ *346*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA

*15 may 2014-cü il* ........................................................................ *347*

VYETNAM SOSİALİST RESPUBLİKASINA DÖVLƏT
SƏFƏRİ

*18 may 2014-cü il* ........................................................................ *348*

MİLLİ QƏHRƏMAN VƏ ŞƏHİD MONUMENTİNİ
ZİYARƏT

*19 may 2014-cü il* ........................................................................ *349*

SABİQ PREZİDENT HO Şİ MİNİN XATİRƏSİNƏ
EHTİRAM

*19 may 2014-cü il* ........................................................................ *350*

QEYDLƏR ........................................................................ *351*

Şəxsi adlar göstəricisi ........................................................................ *372*

Coğrafi adlar göstəricisi ........................................................................ *377*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.